**MİRZƏ ƏHMƏD**

**MİRZƏ XUDAVERDİ OĞLU**

# ƏXBARNAMƏ

**(Talış Xanlığının tarixindən)**

**BAKI - 2009**

**Çapa hazırlayan: İshaq Axundov**

**Redaktor: Seyidağa Onullahi.**

**Fars dilindən tərcümə edən**
**Əli Hüseynzadə**

Azərbaycanın XVIII əsrin sonu-XIX əsrin əvvəllərinin sosial-iqtisadi və siyasi tarixinin hələ çox qaranlıq məqamları var. Həmin dövrdə İran və Rusiya Qafqazın, o cümlədən Azərbaycanın üzərində hökmranlıq uğrunda qanlı muharibələr aparırdılar. Azərbaycan bu muharibələrdə gah İran, gah da Rusiyaya meyl göstərməklə öz nisbi müstəqilliyini qorumağa can atan ayrı-ayrı xanlıqlar şəklində iştirak edirdi. Belə xanlıqlardan biri də Talış xanlığı olmuşdur. Oxuculara təqdim edilən "Əxbarnamə" əsəri həmin dövr Talış xanlığında cərəyan etmiş hadisələrinin bir çoxunda bilavasitə iştirak etmiş Mirzə Əhməd Mirzə Xudaverdi oğlu tərəfindən qələmə alınmışdır. Müəllif şəxsən şahidi olduğu, yaxud bilavasitə onlarda iştirak etmiş şəxslərdən eşitdiyi hadisələri çox canlı təsvir etmiş, hadisələrdə iştirak edən insanların və hadisələr cərəyan edən ərazilərin külli miqdarda toponimlərinin adını əsərdə göstərmişdir.

Əsər Azərbaycan tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün maraqlı olmaqla yanaşı Azərbaycanın tarixini və toponimiyasını tədqiq edən mütəxəsislər üçün də zəngin mənbədir.

# GİRİŞ

## Əxbarnamə və onun müəllifi.

Azərbaycanın ən səfalı guşələrindən olan Lənkəran - Astara bölgəsi barədə orta əsrlər dövründə xüsusi tarixi əsərlərin yazılmasına təsadüf etmirik. Bu mahal haqqında az-çox məlumatlara müxtəlif qaynaqlarda, o cümlədən Avropa səyyahlarının əsərlərində rast gəlirik. Həmin əsərlərdə Iran, Azərbaycan və Şirvan tarixi ilə əlaqədar Lənkəran-Astara bölgəsindən də bəzi adlar çəkilmiş, burada baş vermiş hadisələrə toxunmuşlar.

Maraqlıdır ki, XIX əsrin ikinci yarısında bilavasitə Lənkəran-Astara bölgəsi tarixinə aid iki əsər yazılmışdır. Onlardan biri Səidəli Kazım bəy oğlu Lənkəraninin 1869-cu ildə fars dilində yazdığı «Cəvahirnamə-yi Lənkəran» əsəridir. Bölgənin ictimai-iqtisadi tarixindən bəhs edən bu əsər hələlik çap edilməmişdir. Ikinci əsər isə Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun 1882-1883-cü illərdə yazmış olduğu «Əxbarnamə» əsəridir. Kitabda Lənkəran-Astara bölgəsinin ictimai-siyasi, iqtisadi və mədəni həyatı, eləcə də adət-ənənələri barədə məlumat verilməklə yanaşı bir çox mahal və kənd adları çəkilir ki, onların əksəriyyətinin adları indi dəyişdirilmiş, yaxud təhrif edilmişdir. «Əxbərnamə» əsərinin əksər hissəsi müəllifin atasından eşitdikləri və bir qismi isə özünün başına gələn əhvalat və müşahidələri əsasında yazılmışdır.

Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun əcdadı Qarabağda yaşayan Zərgərli tayfasına mənsub olmuşdur. Müəllifin babası Kərbəlayi Qurban Nadir şahın hakimiyyəti dövründə Qarabağdan Talış mahalının Qızılabad kəndinə köçüb gəlmiş, burada ev saldırmış, bir neçə il həmin yerdə yaşamışdır. Babası Kərbəlayi Qurbandanın iki qardaşı da olmuşdur. Baxşıbəy Zuvand məntəqəsinin Limar kəndində, digər qardaşı isə Muğanın Ərkivan (hazırda Masallı rayonunda yerləşir) kəndində sakin olmuşdur. Kərbəlayi Qurban bir müddət Qızılabadda yaşayıb Lisan tayfasından qız aldıqdan sonra Ağa Məhəmməd şah Qacar Mir Mustafa xan üzərinə hücum etdiyi zaman məcburiyyət qarşısında qalaraq Astaranın Kurab mahalının Butəsər kəndinə (Indi Pensar adlanır) köçüb, məşhur Ağa Kərim məhəlləsində sakin olmuşdur. Pensər kəndi Kərbəlayi Qurban, oğlu Mirzə Xudaverdi və əsrin müəllifi Mirzə Əhmədin daimi sakin olduğu yerə çevrilmişdir. Bu zaman Mirzə Əhmədin atası Mirzə Xudaverdi Rəşt mahalının Kəskər kəndinə gedib, 4 il mədrəsədə təhsil alır. Təhsil aldığı vaxt həm də müəllimlik edir. Sonra Butəsərə, yəni evlərinə qayıdır. Üç aydan

sonra təhsilin davam etdirmək üçün Isfahana gedir. Orada 7 il təhsil alır. Böyük şöhrət qazanır. Lənkəran hakimi Mir Mustafa xanın (1787-1814) dəvətilə bir müddət onun divanında katib (mirzə) işləyir. Sonralar Mir Mustafa xanın baş vəziri vəzifəsinə təyin edilir. Ümumiyyətlə, Mirzə Xudaverdi 30 il Mir Mustafa xana, onun oğlanları Mir Həsən xana 20 il, Mir Abbasa isə 15 il qulluq etmişdir. Onun Mirzə Əhməddən başqa Ibrahim və Molla Cəfərqulu adlı iki oğlu da olmuşdur.

«Əxbərnamə»nin müəllifi Mirzə Əhməd isə 1786-cı ildə anadan olmuş, 1883-cü ildə 97 yaşında ikən eynəksiz həmin əsəri tamamlamışdır.

Mirzə Əhmədi uşaq ikən yay fəslində atası onu təhsil almaq üçün Rəştə göndərir. Qardaşı Molla Cəfərqulu həmin zaman Rəştdə yaşayırdı. Ənzəliyə çatacaq göz xəstəliyinə tutulduğundan Pensərə, öz evlərinə qayıdır. Gözü sağaldıqdan sonra Mirzə Əhməd yenidən Rəştə gəlir və orada məşhur xəttat Məsihidən gözəl yazmağı öyrənir.

Onu qəbul edərkən Məsihi ona bir sətir xət yazdırıb «Bu mənim birinci xəlifəmdir» deyir. Tələbələr arasında da Mirzə Əhmədə «Birinci xəlifə» deyirdilər. Mirzə Əhməd iki ay Hacı Məhəmmədin mədrəsəsində təhsil aldıqdan sonra atası Pensərə qayıtmaq istəyir. Oğlunu da özü ilə aparmaq istədikdə müəllim Mirzə Xudaverdiyə deyir: «Qoy, mənim yanımda qalsın. Əgər bir il mənim yanımda məşq etsə, bir ildən sonra Iranda buna bənzər gözəl yazı yazan olmaz»[1] (səh. 69[b]). Nəhayət, Mirzə Əhməd atası ilə birlikdə Pensərə qayıdır. Bir müddət Iran Astarasına köçüb orada üç il qalırlar. Mirzə Xudaverdi, oğlu Mirzə Əhmədi Ərdəbilə aparıb, Molla Ibrahim mədrəsəsinə qoyur. Orada səyaq elmini öyrənmək üçün şah dəftərxanasında da təhsil alır. Gündüzlər şah dəftərxanasında, gecələr isə yatmaq üçün mədrəsəyə qayıdırdı. Onunla birlikdə təhsil alan Butasərli Molla Musa ilə bir hicridə olurdu. Divandan Mirzə Əhmədə ildə 20 tümən pul və 3 xarvar buğda məvacib təyin edilmişdi. Üç il bu qayda ilə Ərdəbildə keçib.

Mirzə Əhməd artıq gözəl xəttat idi. Mir Abbas bəy Sefiddəştə hakim təyin edildikdən sonra Mirzə Xudaverdini yanına dəvət edib deyir: «Siz Butəsərə gəlib öz pulunuz ilə alınmış mülkünüzdə yerləşib, bizim mirzəlik işlərini də aparın. Keçmişdə sizin əlinizdə olan əkin yerlərini də sizə bağışlayacağam. Mirzə Əhmədin Butəsərdəki bütün qohumları bu təklifi bəyənir. Nəhayət, onlar yenə Astaranın Butəsər kəndinə, öz evlərinə köçürlər. O vaxt Irandan Rusiya torpağı hesab olunan Rus Astarasına gəlmək o qədər də asan iş deyildi. Burada təbəəlik məsələsi də var idi. Mirzə Xudaverdi Təbrizdəki konsuldan rəsmi icazənamə alıb, Lənkəran hakiminə göstərdikdən sonra onları «Rusiya dövlət bayrağı altına qəbul edib» Butəsərdə sakin olmalarına icazə verilir. Bu vaxt Mir Abbas bəyin xanımı Xanım Ağa Astara hakimi idi. Talış bəylərbəyi rus zabiti mayor Kandratov Butəsərə gəlib, Mirzə

Əhmədi özünə katib təyin etmək istəyir. Mirzə Əhməd bu vəzifədən imtina edir.

Mirzə Xudaverdinin vəfat ili məlum deyildir. Lakin digər oğlu Molla Cəfərqulu Mir Abbas bəyin evində Mir Tağıya dərs deyirdi. Mirzə Xudaverdi vəfat etdikdən sonra şəxsi ədavətə görə Astara hakimi Xanım Ağanın göstərişilə Mirzə Əhməd ailəsilə Butəsərdən Şiləvar kəndinə köçürülür. Mir Abbas bəy 4 il Rusiyada həbsdə qaldıqdan sonra qayıdır və Mirzə Əhmədə ailəsilə birlikdə yenidən Butəsərdə sakin olmağa icazə verir. Ona görə ki, Mirzə Əhməd ailəsinin Butəsərdə mülkləri, bicar yerləri və xeyli tut ağacları var idi. Onlar həm də Rus padişahı silkindən hesab olunurdu.

Mirzə Əhməd 12 il ruslara xidmət etmiş, bir neçə ilə Lənkəran və Astara mahallarında sərhədbəyi vəzifəsində işləmiş, 80 ailə onun ixtiyarında olmuşdur.

Mir Abbas bəy və arvadı Xanım Ağanın bu ailəyə hörmətsizlik etməsinə baxmayaraq Mirzə Xudaverdi vəfat edərkən vəsiyyət etmişdi ki, «Mir Mustafa xan evladlarından bir kor qız qalsa da, onu yolda görsəniz, ona salam verib hörmət ediniz» .

Mirzə Əhməd məvaciblə ruslara qulluq etdiyi üçün Xanım Ağanın xoşuna gəlmirdi. O, Mirzə Əhmədə üzünü tutaraq deyirdi: «Siz müsəlmanların ağasına yox, ruslara xidmət edirsiniz». 1883-cü ildə «Əxbarnamə» əsərinin yazarkən Mirzə Əhməd qeyd edir ki, «12 ildir ki, mən ruslara xidmət edirəm. Astara mahalındakı bütün işləri mənim boynuma atmışlar. Lakin 1883-cü ildən sonra o ruslara o qədər də meyl göstərmədiyini bildirir».

Ümumiyyətlə, Mirzə Əhməd hər iki tərəfdən təzyiq altında idi. Çünki savadlı və yeganə yerli şəxsiyyət olduğu üçün mayor Mir Abbas bəy də və Lənkəran müvəkkili Çar hökumətinin nümayəndəsi Tulayev də onun savadından, qələmindən istifadə etməyə cəhd göstərirdilər. Lakin Mirzə Əhməd tərəddüd edirdi. Belə ki, Mir Abbas bəyin arvadı Xanımağa ona dedikdə ki, nə üçün ruslara xidmət edirsən, cavabında o demişdi: «Əlacım yoxdur». Çar Rusiyasının Lənkəran müvəkkili də onu çağırıb deyir: «Kimə qulluq edirsən?» O, cavabında: Mayor Mir Abbas bəyə» Müvəkkil soruşur: «Nökərlik yaxşıdır ya bəylik?» Mirzə Əhməd cavabında: «Nökər üçün nökərlik, bəy üçün bəylik yaxşıdır!»

Mirzə Əhməd Butəsərin Nəbirli məhəlləsində yaşayırdı. Onun qaynatası Gərmətüklü Şahverən kəndxuda idi. Şahverənin oğlu, yəni Mirzə Əhmədin qaynı Paşa da kəndxuda idi. Mirzə Əhməd 12 il ruslara xidmət etdikdən sonra Tulayevin əmrilə özünün ata-baba yurdu Pensər kəndindən zorla Şiləvara köçürülür. Əlbətə, bu barədə Mir Abbas bəyin Tulayevə təzyiqini də nəzərdən qaçırmaq olmaz. Hər iki tərəfin, yəni Mir Abbas bəy və Tulayevin təzyiqi nəticəsində onun Butasərdəki əmlakı, biçar yerləri əlindən

alınır. Çox yoxsul və ağır həyat keçirən Mirzə Əhməd general Vasilyevə şikayət etmək üçün ağır və təhlükəli yollar keçərək özünü Şamaxıya yetirir. Şiləvardan Butəsərə qayıdıb ata-baba mülkünə sahib olmaq üçün general Vasilyevdən yazılı əmr alıb, Lənkəran nahiyəsinin rəisi Tulayevə gətirib verir. Butəsərdəki evinə qayıdan Mirzə Əhməd yazır: «Ailə və uşaqlarımızı götürüb Butəsərə (Pensərə) gəlib öz evimizdə sakin olduq».

Mirzə Əhməd sonralar atası Mirzə Xudaverdinin vəsiyyətinə əməl edərək yenə min bir vasitəçilik ilə Mir Abbas bəyin ürəyini ələ alıb ona xidmət edir. Hətta Bakı general qubernatorunun əmrilə Mir Abbas bəy Lənkəran qalasında həbsə alınarkən öz xahişi ilə həbsxanaya gedib Mir Abbas bəyin yanında qalır. Mirzə Əhməd yazır: «Bilin və agah olun ki, bütün təqsirlər kiçikdə olur. Böyüklərin heç təqsiri olmaz! O cümlədən, bütün təqsirlər məndədir. Çünki, ağa dediyin nədir, ona etina etməmək nədir! » (səh.101[a]).

Mirzə Əhməd fikrini bu cümlələrlə bitirir: «Nə qədər fikirləşirəm, bu dünyada baş verən işlər qurtarmır. Ömrüm də bir o qədər vəfa etmir ki, bütün (hadisələri) qələmə alıb yazım. Belə qərara gəldim ki, bundan sonra dünya işlərindən yazmayım…» (səh.101[b]).

«Əxbərnamə» müəllifi bir çox hadisələrin müşahidəçisi və iştirakçısı olduğu üçün Talış xanlığının ictimai-siyasi həyatına aid dəyərli məlumatlar vermişdir. Onda müsəlman ruhu, öz yurduna sevgi hissi yüksək idi. Talış xanlığını ələ keçirmək uğrunda Iran-Rusiya rəqabəti müəllifi çaşdırmır. O, axıra qədər (müəyyən müddət ruslara xidmət etsə də) Mir Mustafa xana, Mir Həsən xana, Mir Abbas bəyə sədaqətli qalır. Bu da bir növ həm də Mirzə Xudaverdinin Mir Mustafa xan və Mir Həsən xanın vəziri işləməsi təsiri altında idi. Məhz buna görə də yazır: «...mənim məqsədim Mir Mustafa və Mir Həsən xanın əslini-nəcabətini yazmaqdır» .

Mir Mustafa xanın və Mir Həsən xanın Ağa Məhəmməd şah Qacar (1779-1797) və Fətəli şaha (1797-1834) qarşı mübarizə aparması və yeri gəldikdə Çar Rusiyasının Talış xanlığını ələ keçirməsinə qarşı vuruşmalarında məqsəd bu xanlığın müstəqilliyini qoruyub saxlamaq idi. «Əxbarnamə»də də əsas etibarilə 1780-1840-cı illər arasında Talış xanlığı ərazisi uğrunda gedən Iran-Rus mübarizələri öz əksini tapmışdır. Əsərdə hadisələrin müəyyən xronoloжi ardıcıllıqla təsvir edilməməsinə baxmayaraq, XVIII əsrin sonu, XIX əsrin 30-cu illərinin sonuna qədər, baş vermiş hadisələr dəqiq təsvir edilir.

«Əxbarnamə»də təsvir olunan hadisələr barədə oxucuda konkret təsəvvür yaratmaq üçün bu dövrdəki Talış-Iran, Talış-Rusiya münasibətlərinin gedişi və inkişafını nəzərdən keçirib, hadisələrin səbəblərini müəyyənləşdirmək lazım gəlir. Həmin dövrdə Talış xanlığı öz müstəqilliyini

qoruyub saxlamaq üçün Iran ilə Rusiya arasındakı ziddiyyətlərdən istifadə etməyə çalışır, gah Irana, gah da Rusiyaya meyl edirdi.

1790/91-ci ildə Ağa Məhəmməd şah Qacar Süleyman xanı altı min nəfər qoşunla Talış mahalına göndərir ki, oranın əhalisinin əmlakı və mallarını qarət etsin. Süleyman xan Talış mahalını qarət etdikdən sonra mahalın yüksək rütbəli və nüfuzlu şəxsiyyətlərini arvad-uşaqları ilə birgə Zəncana sürgün etdirir. Sonra Can Məhəmməd xanın sərkərdəliyi ilə Mir Mustafa xanı məğlub etmək üçün Talış mahalına xeyli qoşun göndərir. Lakin Can Məhəmməd xan Mir Mustafa xan qarşısında məğlub olub geri qayıdır.

1794/95-ci ildə Ağa Məhəmməd şah Qacar Talış mahalını ələ keçirmək üçün Mustafa xan Qacarın başçılığı ilə oraya xeyli qoşun qüvvəsi göndərir. Bundan əlavə, Mir Mustafa xanı ələ keçirmək üçün Süleyman xanı və Məhəmməd Hüseyn xanı altı min nəfər qoşunla Mustafa xana kömək etmək üçün göndərir. Mustafa xan Qacar, Süleyman xan və Məhəmməd Hüseyn xan öz birgə qoşunları ilə Lənkərana doğru hücum etdikdə Talış mahalının yüksək rütbəliləri öz arvad-uşaqları ilə bir qismi dağlara, digərləri gəmi vasitəsilə Səlyana doğru gedir. Səlyan camaatı Ağa Məhəmməd şah Qacarın qorxusundan onlara yol vermir. Şah qoşunu dənizin ortasında lövbər atmış gəmiyə hücum edib, onların mallarını qarət edir. Dağlara pənah aparmışları isə ələ keçirib, çoxların əsir aparırlar. Şahın əmrilə onlardan bir neçə nəfər öldürülür, arvad-uşaqlarının bir hissəsi Mazandaran, bir hissəsini isə Ərdəbilə sürgün edilir.

Ağa Məhəmməd şah Qacarın xanlıq ərazisində törətdiyi bu cinayətləri görən Mir Mustafa xan və onun əmsalı Fətəli şah Qacara artıq nifrət edirdi. Lakin buna baxmayaraq, bu bölgə meşələrinin sıxlığı, güclü istehkam qalaları, əhalisinin qəhrəmanlıqlarının şahidi olan Fətəlişah Mir Mustafa xanın Rusiyaya meyl etmə imkanını nəzərə alaraq onunla qohumluq münasibətləri yaratmaq vasitəsilə Mir Mustafa xanı ələ almağa cəhd göstərir. Abbas Mirzənin vəziri Mirzə Əbülqasım Büzürgü Mir Mustafa xanın yanına elçi göndərib onun 7 yaşlı Bəyimağa adlı qızını özünün böyük oğlu Məmmədəliyə nişanladır. Bir az keçdikdən sonra şahdan təklif gəlir ki, Mir Mustafa xan qızı Tehrana göndərsin və həddi-büluğa çatana qədər Tehranda qalsın. Mir Mustafa xan öz yaxın adamları ilə məşvərət etdikdən sonra bu ağır təklifə razı olmayıb, etiraz edir. O deyir: «Mən öz namusumu girov verməkdənsə, Qacara yox, Rus dövlətinə pənah apararam». Mir Mustafa xan Fətəli şaha yazısında deyir: «Sizin adınız şah olsa da, mən özümü sizdən əskik saymıram».

Mir Mustafa xan, belə bir şəraitdə Iran əlehinə ruslarla birləşib öz namusunu, xanlığının müstəqilliyini saxlamağa cəhd göstərir.

Məhz bu hadisədən sonra Fətəli şah Mir Mustafa xanı aradan götürməyə səy göstərir. 1809-cu ildən Mir Mustafa xan öz qohumu Ərdəbil

hakimi şahsevən Nəzəri xanla birlikdə Qacarlar əlehinə Rusiyaya meyl göstərir. Həmin ildə vəliəhd Abbas Mirzə Mir Mustafa xanın üzərinə qoşun göndərir. Vuruşmada müqavimət göstərə bilməyəcəyini hiss edən Mir Mustafa xan bütün əmvalını və ailə üzvlərini götürüb Xəzər dənizi kənarında yerləşən Gamışavana köçür. Gamışavan üç tərəfdən dənizlə əhatələnmiş, yalnız bir quru yoldan Lənkərana birləşirdi.

Rusiya qoşununa arxalanaraq oğlu Mir Həsən xanı xeyli qoşun ilə Ucarudda yerləşən bakılı Hüseynəli xan, şirvanlı Haşım xan, rudbarlı Əli xan və bəydili Məhəmməd xan ilə vuruşmağa göndərir. Onların dördü də ələ keçir.

Fərəculla xan Əfşar isə xeyli qoşunla Lənkərana gəlib Mir Mustafa xanın binalarını dağıtdırır. O isə, Gamışavanda rus əsgərləri və bir neçə top, eləcə də öz qoşunları ilə müdafiə olunurdu. Həm də oğlu Mir Hədayətulla xanı Şirvan hakiminin yanına göndərib ondan qoşun tələb edir. Şirvanlı Mir Mustafa xan Səlyan tüfəngçilərindən bir dəstəsini Gamışavana, Mir Mustafa xanın köməyinə göndərir. Lakin bu vaxt artıq Fətəli şahın əmrilə min nəfərin sərkərdəsi olan Mirzə Məhəmməd xan Əfşar Fərəculla xanın köməyinə çatır. Onlar Gamışavanı mühasirəyə alırlar.

Bu dəfə Abbas Mirzə öz vəziri Mirzə Büzürgü Gamışavana, Mir Mustafa xanın yanına göndərir və onun Iran dövləti himayəsində olacağını bildirir. Sonra Mir Mustafa xanın vədinə inanmayaraq, onun əmisi uşaqlarından Seyid Kazımı onun yanına göndərib bildirir ki, əgər Iran tərəfdə olsa, bağışlanacaq, yoxsa xeyli əzab və əziyyətə düşəcəkdir. Mir Mustafa xan yenə onun elçisin rədd cavabı ilə qaytarır. Özü isə keçid yollarınında kəsilmiş qalın ağaclarla səngərlər düzəltdirir, körpüləri dağıtdırır, öz oğlu Mir Həsən xanı Gamışavan əhalisi ilə birlikdə yollarda gözətçi qoyur. Dörd ay Gamışavan mühasirədə qalır.

Fətəli şahın fərmanı ilə Lənkəranda, Ərkivanda və Astarada möhkəm istehkam qalaları tikilir. Iranlılar həmin qalalarda bir illik ərzaq, sursat qoyub, Qaragözlü Hacı Məhəmməd xanı həmin qalalara gözətçi təyin edirlər.

Artıq 1813-cü il Iran-Rus Gülüstan sülh müqaviləsi imzalanır. Mir Mustafa xan 1814-cü ildə xəstələnib ölür. Oğlanları Mir Həsən xan, Mir Hüseyn bəy və Mir Abbas bəy xanlıq üstündə bir-birilə mübarizə aparırdılar. «Əxbərnamə»də Mir Mustafa xanın övladları arasında gedən çəkişmələrdən də bəhs edilir. Bundan istifadə edən çar məmurları xanın oğlanları arasındakı düşmənçiliyi daha da dərinləşdirib, onları hakimiyyətdən uzaqlaşdırmağa çalışırdılar.

1826-cı ildə qaçıb Iran himayəsinə keçmiş Mir Həsən xan Talış mahalının Iran tərəfindən müdafiə ediləcəyinə hələ də inanırdı. Lakin, 1828-ci il Türkmənçay müqaviləsi əsasında Vilkic dağlarından başlayaraq Astara

çayının Xəzər dənizinə axarı boyu Iran ilə Rusiya arasında sərhəd təyin edilir. Astaradan şimala Rusiyanın ixtiyarına keçir.

Bu xəbəri eşidən Mir Həsən xan, vəziri Mirzə Xudaverdini Təbrizə, Abbas Mirzənin yanına göndərir. Mirzə Xudaverdi ilə ikinci görüşündə Abbas Mirzə başını aşağı salaraq ona deyir: «Siz gələni iki gündür». Mən xəcalətimdən bu məsələni sizə aça bilmirəm. Mən Mir Həsən xanı böyük oğlum hesab edirəm. O, mənim silahdaşım və mücahidlərimin qabaqcılı idi. Şəriksiz allaha and olsun, Talışı Rusiya dövlətinə verməmək uğrunda mən çox çalışdım. Mümkün olmadı. Axırda Rusiya Sərdarı dedi: «Yeddi kürur puldan bəlkə əl çəkim, lakin Talışdan əl çəkməyəcəyəm!» Mən çarəsiz qalıb razı olmuşam. Mən yenə Mir Həsən xana təklif edirəm. Bacarırsa Rusiya dövləti ilə sazişə girsin. Mən əsla ondan incimərəm».

Göründüyü kimi, hər iki dövləti Talış mahalının Iran və Rusiyanın tərkibinə qatılması və onların təhtül-himayəsində olması maraqlandırırdı. Mir Mustafa xan və oğlu Mir Həsən xan, sonralar Mir Abbas bəy də məhz bu mahalın onların nəsilbənəsil hakimiyyəti altında qalmasına görə gah Iran, gah da Rusiyaya meyl edirdilər.

Belə ki, Mirzə Xudaverdi Abbas Mirzənin yanından ümidsiz qayıtdıqdan sonra Mir Həsən xan öz məşvərətçilərinə deyir: «Yadınızda varmı, qızılbaşların əlindən bir iş gəlməyəcəyini işin əvvəlində sizə demişdim. Lakin çarəmiz yox idi. Qızılbaşlara müraciət etməsəydik, müsəlmanların tənəsindən qurtara bilməzdik. Qızılbaşlar evimizi yaman yıxdı. Köhnə ədavətlərinin intiqamını aldılar!». Mir Həsən xan sonra Talış xanlarını və öz yaxın məsləhətçilərini yanına çağıtdırıb, Talış vilayətini tərk etmək, ya da Rusiya dövləti ilə bir təhər yola gedib ona tabe olmaq məsələsini müzakirə edir. Müzakirə bir ay davam edir. Bir dəstə Talışdan çıxmağı təklif edirsə, digər dəstə öz ana torpağında qalmağı üstün tutur. Kərbəlayi Şahverdi bəy Mir Həsən xana deyir: «… Keçmişdə ata-babalarımızı bizə vəsiyyət etmiş ki, belə hallarda Talışdan kənara çıxmayın. Buna görə mən öz babalarımın vəsiyyətinə əməl edəcəyəm!».

Mir Həsən xan Astara çayından şimala tərəf Talış mahalının Türkmənçay müqaviləsi əsasında Rusiya dövlətinə verilməsilə razılaşmır. Hər iki dövlətin imzaladığı sülh müqaviləsi ilə razı olmadığı üçün ona «xain» kimi baxırdılar. Rusiya tərəfinə keçirsə, yenə «fitnə-fəsad» və «iğtişaş» yaradacağını zənn edərək Rusiya dövlət məmurları onu Lənkəranda həbsə alır və bir müddətdən sonra Iran dövlətinə təhvil verirlər. Mir Həsən xan iki-üç nökərilə üç ay Xalxal qalasında həbsdə saxlanılır. Bahara bir ay qalmış həbsxanadan qaçır. Astara mahalına gəlib yenə rus qoşunu ilə vuruşur. Nəhayət, Miyanku meşələrinə çəkilir, başında olan adamları buraxır. Bir müddət orada daldalandıqdan sonra Iran dövlətinə təslim olur. Fətəli şahın göstərişi ilə Tehranda onu zəhərləyib öldürürlər.

Xırda nəstəliq xəttilə yazılmış «Əxbarnamə»nin sonunda, üz qabığının iç tərəfində müəllifin farsca belə bir qeydi vardır: «Mən Mirzə Əhməd Xudaverdi oğlu bu «Əxbərnamə»ni özümdən yadigar olaraq yazdım ki, övladlarım mənim zamanımda olan hadisələri və başıma gələnləri oxuyub bilsinlər. 97 yaşımda olduğum zaman gözlüksüz yazdım. Rəbi-ül-əvvəl ayında hicri 1307-ci ildə yazıldı (1889, noyabr ayı).

Əsərin 1882-1883-cü illər arasında yazıldığını və son 10 səhifəsində Mirzə Əhmədin müxtəlif zamanlarda qələmə aldığı şeirlərin yazılmasını nəzərə alaraq həmin əlyazmanın şeirlər hissəsinin 1889-cu ilin noyabrında yazıldığı qənaətinə gəlmək olar. Bu zaman onun 103 yaşı var idi.

«Əxbarnamə»nin mətnində Mirzə Əhmədin istifadə etdiyi həcviyyələr və mərsiyələr onun həm də gözəl şair olmasını göstərir. O, əsərdə məşhur «Kəlilə və Dimnə» əsərinin adını çəkir, Ruminin şeirindən nümunə, atalar sözlərindən misallar gətirir. Bunlar Mirzə Əhmədin hərtərəfli biliyə malik bir şəxsiyyət olduğunu göstərir.

«Əxbarnamə» əsəri ilk dəfə Azərbaycan dilinə Azərbaycan MEA (o zaman Azərbaycan SSR EA) Tarix Institutunun elmi işçisi, Musa Əsgərli tərəfindən 1955-ci ildə tərcümə edilmiş, lakin nəşr olunmamışdır. Yenidən həmin İnstitutun elmi işçisi Əli Hüseynzadə tərəfindən tərcümə edilərək müqəddimə və izahlarla 1975-ci ildə, dövrün qanunları ilə əlaqədar olaraq geniş tiraжla deyil, institutun daxili xidməti üçün 120 nüsxədə çap edilmişdir. Əsərin giriş hissəsi həmin dövr tələblərinə uyğun yazıldığı üçün, biz girişin yenidən yazılmasını məqsədəuyğun hesab etdik. Artıq demokratiya və aşkarlıq dövründə «Əxbarnamə» əsərinin işıq üzü görməsi və geniş xalq kütləsinin həmin tarixi qaynaq ilə tanış olması üçün onun kütləvi tiraжla yenidən çap edilməsi əsərin tarixi əhəmiyyəti və müəllifin xidmətini geniş oxucu kütləsinə çatdırmaqda kömək edə bilər.

İshaq Axundov

# ƏXBARNAMƏ

## MEHRIBAN VƏ BAĞIŞLAYAN ALLAHIN ADI ILƏ

Bu [əsəri] * yazmaqda məqsədimiz budur. Məni bir şey çox düşündürür: [görəsən] elə bir şəxs tapılar ki, onun üç arxadan olan [əcdadının] adı, sanı və sifətləri xalq arasında tanınmış ola? Vallah yox! Yalnız [onun] hansı tayfadan olduğu bəllidir. Məlum olmur ki, filankəs necə adam olub və bu dünyada necə yaşamışdır? Onun başına nələr gəlmiş? Dünyanın yaxşı və yaman şərbətlərini necə dadmışdır?

Mən Mirzə Əhməd Mirzə Xudaverdi oğlu 70 yaşına [çatanda] əcdadımın əhvalatını yazmağı lazım bildim ki, məndən sonra övladlarım oxuyub bilsinlər. Əvvələn, mənim babalarım Qarabağ elatının Zərgər tayfasından üç qardaş olub Nadir şah dövründəki qarışıqlıq zamanı, bilmirəm onlara nə hadisə üz vermişdi ki, Qarabağ vilayətini tərk edib Talış vilayətinə gəlmişdilər. Onların adını bilmirəm. Lakin atamdan eşitdiyimə görə o üç qardaşdan biri ki, Baxış bəy və Şücaəddin bəylərin ata-babalarıdır. – Səfidəşt, yəni Ucarud[1] mahalına gəlib Moran[2] mahalının Limar[3] kəndində sakin olmuşdur. Biri də ki, məşhur Mahmud Kələntərin babalarındandır, - Dəştvənd[4] mahalında, yəni Muğanın Ərkivan[5] kəndndə yerləşmişdir. [Onlardan] biri də mənim babam Kərbəlayı Qurbandır ki, Qızılabad[6] kəndində sakin olub Lisan[7] tayfasından evlənmiş, (2,a) bir neçə il Qızılabadda yaşamışdır. Ağa Məhəmməd şah Qacar[8] Mir Mustafa xanın[9] üzərinə qoşun göndərdiyi zaman, mərhum Kərbəlayı Qurban aclıq və qəhətlik nəticəsində, öz ailəsi ilə oradan köçüb Astaranın Kürab mahalında[10] Butəsər kəndinin[11] məşhur Ağa Kərim məhəlləsində sakin olmuşdur. O zaman Vilgic mahalı Talışın sərhəd hissəsi idi. Vilgicdə[12] Ağa Əbdül adlı [bir şəhxs] vardı. [O] qardaşlaraı ilə cənnətlik Mir Mustafa xandan üz döndərib, təvəkkül əlini Qacar dövləti ətəyinə uzadıb, Qacar padşahına qulluq edirdi. Çünki keçmişdə Talış vilayətini qarət edərkən onun böyük qardaşı Ağa Qənini əsir aparıb axtalamışdılar. [O] Ağa Məhəmməd şahın hüzurunda böyük hörmətə və nüfuza malik idi. Buna görə Ağa Əbdülün işi-peşəsi fürsət tapdıqca qardaşları ilə bir dəstə gönbərib Butəsər kəndini və Astara mahalındakı kəndləri qarət etməkdən ibarət idi. [Onların] əllərinə heyvan, at, mal-qara və qoyundan nə keçirdisə aparır, bir çox evlərə od vurub yandırırdılar. Onlar qarəti bir sutkanın ərzində başa vururdular.

Cənnətlik Mir Mustafa xan xəbər tutunca onlar uzaqlaşırdılar. Mir Mustafa xanın [köməyə] gəlməsindən heç bir fayda olmurdu. Ancaq cənnətlik xanın ürəyində [onlara qarşı] kin və ədavət artırdı.

(2,b) Ağa Məhəmməd şah Qacar qoşun çəkib Şirvan, Tiflis və sair Dağıstan vilayətlərini aldı. Çünki Qızlardan[13] bu tərəfə [olan yerlər] Iran [torpağı] hesab edilib, həmişə Iran padşahının ixtiyarında olmuşdur. Qış olduğundan [şah] geri dönmək iqtidarında olmadığından Qarabağ mahalında Cavad[14] adlı yerdə qışlaq saldı ki, yazda yenə də öz istədiyini davam etdirsin. Şahın belə xasiyyəti var idi. Ağzından çıxan söz icra edilməli idi. [O, gecə] sərkərdələrindən 12 nəfərinə demişdi: «Sabah (əmr) verəcəyəm sizin başınızı vursunlar». Xanlar onun əmrinin dəyişməyəcəyini yəqin bilirdilər. Buna görə həmin gecə 12 xan birləşib Qurana and içdilər ki, bu gecə gedib Ağa Məhəmməd şahı öldürməliyik. Hamısı qeyrət kəmərini belinə bağlayıb şahın sərapərdəsinə tərəf getdilər. Yolda baxıb gördülər ki, on iki nəfərdən ancaq yeddisi gəlir, beş nəfəri yoxdur. Xülasə, sərapərdənin yanına gəlincə, padşahın qaynı Məhəmmədqulu xan arxaya baxıb görmüşdü ki, özündən başqa kimsə yoxdur. O da canından əl çəkib sərapərdənin içinə girmiş və Ağa Məhəmməd şahın yatmış olduğunu görmüşdü. Xəbərsiz onu həyatdan məhrum etmişdi.[15] Bu şad xəbəri eşidən Mir Mustafa xan allaha şükür etdi. On iki min nəfər piyada və süvaridən ibarət Talış qoşununu səfərbər edib Ağa Əbdülün gördüyü işlərin cəzasını vermək üçün Vilgic mahalına tərəf getdi. Əmr vermişdi ki, Vilgic əhalisindən hər kimin bir iddiası varsa qoy gəlib əvəzini birə yüz alsın.

Atam Mirzə Xudaverdinin dediyinə görə, (3,a) o zaman Ağa Əbdül Butəsər kəndinə və Astara mahalının bütün kəndlərinə tam hakim olmuşdu. O vilayətin adamları cənnətlik Mir Mustafa xanın rəiyyəti [hesab] olunurdusa da, Ağa Əbdülün şər və zülmündən qorxub gizlində ona itaət edirdilər.

Mən, Mirzə Xudaverdi Kərbəlayı Qurban oğlu on dörd yaşında ikən öz həmkəndlim məşhur dəllək Səfər ilə birlikdə Nəmin[16] kəndinə Ağa Əbdülün yanına getməyi qərara aldıq. Çünki o zaman Butəsər kədxudası[17] cənnətlik Tahirbəylə onların qohumluğu vardı. Kədxuda Tahirbəyin bacısı Mehrənnisa xanım Ağa Əbdülün atası Mehrəlibəyin arvadı idi. Biz onların zülmünə məruz qalmamaq üçün Nəminə getmişdik. Həm də müharibələr və vilayətdəki pərakəndəlik nəticəsində ərzaq ehtiyatı az idi. Oralarda bir neçə batman buğda, arpa tapıb öz ailəmiz üçün gətirmək fikrində idik. Bir neçə gün Ağa Əbdülün evində qaldıq. Qarnımızı doyuracaq qədər (bizə) çörək vermədilər. Ağa Əbdüldən bizə bir fayda olmadığını görüb avara və kor-peşiman öz evimizə qayıtdıq. Qayıdarkən Qələbəyi-çəməni[18] və Dürşəhunu yolu[19] ilə Ələşikərə çatdıq.[20] Eşitdik ki, Təngərud dərəsindən[21] ki, o yoldan çarvadarlar Vilgic, Ərdəbil və başqa [yerlərə] gedirlər – şiddətli hay-küy səsi

gəlir. Əsas yol isə birləşən Ələşikər yolunun axırına çatıb gördük ki, Butəsər, Təngərud və Xolmli kəndi[22] əhalisindən iki yüzə yaxın [adam] şadlıqla əl çala-çala Vilgic və Nəmin tərəfə gedirlər. Atam Kərbəlayı Qurban da onların arasında idi. Görüş zamanı atam və onun dostları, tanışları (3,b) Ağa Məhəmməd Şahın Qarabağ vilayətinə öldürüldüyünü və Mir Mustafa xanın çoxlu qoşunla Apur[23] yolu ilə Nəminə tərəf Ağa Əbdülün üstünə getdiyini bizə bildirdilər. Əlavə edib [dedilər]: «Biz də bu yoldan gedirik!» Ondan əvvəl bir dəfə Ağa Əbdülün qoşunu gecə basqını edib Butəsərə od vurmuş, onların malını qarət etmişdi. O zaman bizim də evimizi yandırıb bir baş yaxşı inəyimizi, yorğan-döşəyimizi və sair ev avadanlığımızı soyub aparmışdılar. O zaman biz atamla Lənkəran tərəfə cənnətlik xanın yanına qaçdıq. Gördük ki, cənnətlik xan qoşunu ilə Ağa Əbdül qoşununu cəzalandırmağa gəlir. Yolda, yəni Şahağacında ona rast gəldik. Öz ərzi-halımızı ədalətli [xanın] hüzuruna yetirdik. Cənnətməkan xan atama buyurdu: ‹‹Qoca [sən] qayıt. Əgər allah sizin ağanıza fürsət verərsə, onlardan birə yüz intiqam alacağam. Vaxt çatmışdır!››.

Biz də atam Kərbəlayı Qurban ilə Nəminə getdik. Gördük ki, Vilgicin fitnəkar camaatı birləşib Nəmin qalasının istehkamını gücləndirib cənnətlik xanla müharibə edir. Cənnətlik xan onların qarşısında, yəni Köhnə Xanəgah kəndi[25] tərəfində öz qoşunu ilə düşərgə salıb yavaş-yavaş hərbə başlayır. Xan qalanı bir anda ala bilərdi. Lakin (o zaman) hər iki tərəfdən çox adam qırılardı. Xanın fikri bir nəfər də tələfat vermədən qalanı hiylə ilə almaq idi (4,a). Qaladan mükəmməl silahlanmış bir suvari bayıra çıxdı. At çapır, qoşuna tərəf güllə atırdı, meydan sulayırdı. Gülləsəsindən bir kimsəyə zərər dəyməsə də onun bu hərəkəti rəhmətlik xanı hövsələdən çıxartdı. Tüfəngcisindən «Iranı xaraba qoyan» adlı[26] tüfəngini alıb buyurdu: «Ey it, mən istəmirdim ki, belə adamın qanını öz boynuma götürəm. Sən elə düşünürsən ki, bu camaat arasında sənin qarşına çıxa biləcək bir adam yoxdur? Sənin günahın öz boynuna olsun!». Təxminən yarım ağac[27] məsafədən xan ona güllə atdı. O haman saat cəhənnəmə vasil oldu. Atı da oynaya-oynaya bu tərəfə gəldi. Əsgərlər onu tutub sahib oldular. Hər iki tərəf iki gün bu vəziyyətdə qaldı. Çünki Ağa Əbdül özü Ağa Məhəmməd şah ilə Qarabağa getmişdi. Qardaşlarından Nəsrulla bəyi, Mehdiqulu bəyi və sairələrini Vilgicdə sərkərdə qoymuşdu. [Onlar] Nəmin qalasında dəstəbaşı və sərkərdə idilər. Qala camaatı Ağa Məhəmməd şahın öldürüldüyünü eşitdikdə bu gündən sonra daha ondan bir mənfəət gəlməyəcəyini bildilər. Buna görə də cənnətlik xanın hüzuruna gizli bir elçi casus göndərdilər ki, xan onların təqsirindən keçsin. Onlar da Ağa Əbdülün qardaşlarını tutub qolu bağlı xanın xidmətinə gətirər. Özləri də [xana] tabe olarlar. Cənnətlik xan onların təqsirindən keçdi. Lakin Astara mahalı kəndlərini qarət edənləri üzə çıxardıb cəzalandırmağı və [aparılmış] malları sahiblərinə qaytarmağı şərt

qoydu. Onlar da buna razı oldular. [Qala] camaatı arasında iki nəfər kədxudabaşı vardı ki, hamı onların sözünə qulaq asırdı. Qalada zarafat və (hiylə) yolu ilə (4,b) «Turna döydü»[28] oynamağa başladılar. Oyun arası hər iki [kədxuda] Ağa Əbdülün qardaşlarından yapışdılar. [Ağa Əbdülün qardaşları] dedilər: «Siz nə edirsiz?». Onlar dedilər. «Ağalar, bu oyundur. Heç ayrı fikrə duşməyin!». Xülasə, tam arxayınlıqla onları tutub ayağı bağlı [Mir Mustafa] xanın hüzuruna gətirdilər. Xan onların həbsinə əmr verdi. Öz qoşunu ilə qalaya daxil oldu. Hökumət işləri ilə məşğul olmağa başladı.

Mən atamla birlikdə Ənbəran[29] kəndinə dostlarımdan Hacətxan kəndxudanın evinə getdim ki, bəlkə qarət olunmuş şeylərimizdən bir iz tapa bilim. Hacətxan kədxudanın evində gecə bizim üçün yorğan [-döşək] gətirdilər, yatdıq. Səhər gördüm ki, bu yorğanlar bizimdir. Atama dedim: «bu yorğan-döşək – bizim qarət olunmuş mallarımızdır» [Atam] fağır və utancaq adam [olduğundan] xəcalətlə mənə dedi: «Səs salma, bunlar utanarlar!». Mən dedim: «Ey yazıq ata, bunlar bizim evlərimizi qarət edərkən heç utanmadılar, mən öz malım üçün nə səbəbə utanmalıyam. Sizin bu təklifiniz yersizdir!».

Müxtəsər, Nəminə [gəlib] xanın hüzuruna ərz etdim: «Qurbanın olum, Şahağacda «allah qoysa Sizin [qarət olunmuş] mallarınızın əvəzini onlardan birə-yüz alaram» [deyə] söz verdiyiniz qoca kişinin oğluyam. Qurbanın olum, indi mən ənbəranlı Hacətxan kədxudanın evində öz malımı tapmışam». Bu işdə Hacətxan kədxuda ilə Səlman əlbir olsalar da, xan onların xidmətini nəzərə almayıb bizim malların tamamilə alınıb özümüzə verilməsi haqqında əmr verdi. Bu əmrin icrasında azca səhlənkarlıq göstərilərsə, Hacətxan kədxudanın evi qarət olunsun [dedi].

Fərmanı mənə verəndə Mirzə Seyidağa oğlu Mirzə Şərif məndən iki riyal[30] təliqə[31] pulu istədi. O vaxt dövlət adamlarında [belə] iki riyal pul tapılmırdı. Mən ona çox yalvardım, qəbul etmədi. Bir gün təliqəmizi verməyib saxladı. Axırı min zəhmətdən sonra aldıq. Çünki əvvəllərdə, yəni yeddi yaşında mən də əlifba oxumuşdum. Dünya işlərindən əl çəkmişdim (5,a). Qeyrətim coşdu, qarət olunmuş mallarımı aldıqdan sonra atamla birlikdə evimizə qayıtdıq. Evlərimizi yandırmışdılar. Zəmanə sakit və Talış vilayəti asudə olduqdan sonra hər kəs öz evini yenidən tikib, təmir etməyə başladı. O cümlədən böyük qardaşım Kərbəlayı Fətəli və o birisi Lütfəli öz evlərini təmir etməyə başladılar. Uzaqda olan bir məşhur suyun [kənarına] getdilər. Tikinti materialı kəsdilər. Onları [kəndə] daşımaq üçün bizi də özlərilə apardılar. Özümüzlə bir cüt camış götürüb getdik. Camışların boynundan dörd dirək asıb çəkirdilər. Mənə də camışların ardınca gedib səsləməyi tapşırdılar. Mən də camışlara hay vurub səsləyirdim. Dirəklərdən biri mənim ayağıma dəyib ayağımı yaraladı. [Ayağım] çox ağrıyırdı. Xülasə, bir təhərlə özümü evə yetirdim. Nahar etdik. Qardaşlarım yenidən ağac gətirmək istədilər. Məni çağırdılar. Mən boyun qaçırdım. Nə qədər

çağırdılarsa da mən cavab vermədim. Böyük qardaşım mənə tərəf bir balta atdı. Balta mənə dəymədi. Allah eləməmiş başıma dəysəydi, sağ qalmazdım. Mən qaçdım. Dedilər: «hansı cəhənnəmə istəsən rəd dol, bu evdə qalma!». Mən gizlicə anamın zənbilindən iki panabadi,[32] Tərəssül[33] və Came-i Abbasi[34] [kimi] 2-3 cild kitab götürüb tək başına Gilana[35] tərəf getməyi qərara aldım. Bir neçə gün yol getdim. Allah mənə həmyerlilərimdən bir yoldaş yetirdi. Onunla birlikdə Rəşt[36] mahalının Kəsgər[37] kəndinə getdik.

Keçmişdə Kəsgər mahalından bir neçə ailə köçüb Talış vilayətinə gəlmişdi. Onların adlı-sanlı adamlarından iki qardaş da Butəsər kəndinə gəlib bizim qonşuluğumuzda yaşayırdı. Onlar doğrudan da nəcib və etibarlı adamlar idi. Atam, anam bacardıqları qədər onlara hörmət etmişdilər. Onlar yenə Kəsgərə qayıtmışdılar (5,b) Mən də onların dostluğuna güvənib, Kəsgərə getdim. Dörd gün piyada yol gedib onların evinə çatdıq. Oradan-buradan xəbər alıb onların evini tapdıq. Onların evinə getdik. Bir yüksək imarət gördük. Qapını döydük. Bir xidmətçi bayıra çıxdı. «Nə qulluğunuz var?» deyə soruşdu. Dedim: «Lənkəran vilayətindən gəlirəm, ağa ilə işim var». Xidmətçi getdi. Bir dəqiqədən sonra qayıdıb dedi: «Ağa deyirlər ki, namaz qılıram, bu saat gələrəm, zəhmət çəkib bir qədər qapının ağzında oturun, namazını qurtarsın». Müxtəsər biz bir qədər qapı ağzında oturduq. Gördüm ki, günbatan tərəfdən gözü kor və axsaq bir adam [bizə] yaxınlaşıb dedi: «Şoma [-Siz] haradan gəlir?». Mən cavab verdim: «Lənkəran tərəfdən gəlirəm!». Dedi: «Siz nökər qalarsınızmı?». Mən dedim: «Niyə qalmıram?». Mənim fikrim onda idi. O mənimlə səmimi danışırdı. Mən [ondan] soruşdum: «Işiniz nədən ibarətdir?» O dedi: «Gündə iki şələ odun gətirməlisən. Gecə yarısından sabaha qədər bir yük [çəltik] dərzini toxmaq ilə çəltik edib [sonra] dingdə döyməlisən. Bundan hasil olan 12 batman[38] düyünü Kəsgər bazarına aparıb satmalısan. [Əldə edilən] pulun iki şahısı sənin xərcin olacaq. [Bunlardan başqa] dörd min bicarımız vardır. Onu da beləyib əkməli, hər gecə mal-qara üçün üç şələ yarpaq gətirməli, səhər-axşam gündə iki dəfə həyəti sulayıb təmizləməli, çaydan lazım olan qədər evə su daşımalısan. Bir baş atım var çöldə otlayır. Ona göz yetirməli və gecə yarısı onu evə gətirməlisən və ondan muğayat olmalısan. Bir neçə baş camışımız var ki, onları hər gün [buradan] çox uzaq olmayan 3-4 ağaclıq məsafədəki Kəsgər qamışlığına aparıb otardıqdan sonra evə gətirməlisən. Allah eləməmiş onlardan biri itsə və ya tələf olsa, 20 tümən[39] verməlisən ki, dörd min beş şahıdan ibarət olan illik maaşını sənə verim (6,a). Paltarın da öz boynuna olmaq şərtilə!».

Müxtəsər [o kişi] mənimlə bu söhbətdə idi. Gördüm ki, qapı açıldı. Ev sahibi gəldi. Bizi görən kimi məni öz bağrına basdı. Mənə ata kimi lazımi qonaqpərvərlik göstərdi. Bu vəziyyəti görən kor kişi heyrətlənib dedi: «Mən bu uşağı nökər tutmaq istəyirdim. Siz onunla bu qədər dostluq və mehribanlıq

edirsiz». Ev sahibi ona acıqlanıb dedi: «Rəd dol, bu nökər qalmaz. Bu mənim oğlumdur. Bunun ata-anası Talış vilayətində mənə o qədər hörmət və məhəbbət göstəriblər ki, on ildə onların övladına qulluq etsəm, onların [mənə etdikləri] bir günlük xidmətin əvəzini verməz». Əlimdən tutub məni həyətə apardı. Mənə ayrıca, bir kiçik otaqdan ibarət mənzil verdi. Evin yaxınlığında bir mədrəsə vardı. Səhər məni mədrəsə rəisinin yanına apardı. O tələbələrə dərs verirdi. [Məni] ona tapşırdı. Altı aya kimi həmin mollanın yanında dərs oxudum. Bu qayda ilə gündüzləri mədrəsədə dərs və [elmi] mübahisə ilə məşğul olur, axşamlar mənzilimə gəlirdim. Yemək və paltar kimi [mənə] lazım olan şeyləri ev sahibi verirdi. Onun mənə qarşı mehribanlığı gündən-günə artırdı. [Az zamanda] mən Kəskər vilayətində təhsil və bilik almaqda böyük şöhrət qazandım. Bir gün oldu, mən özüm gündə iyirmi tələbəyə dərs verdim. Orada mənim şöhrəti çox yayıldı. O vilayətin hər yerindən mənə hədiyyələr və xərclik göndərilirdi. Mənim üçün o qədər düyü göndərmişdilər ki, mənzilim düyü ilə dolmuşdu. Bir xarvar[40] yarım olardı. Tətil günlərindən birində bazarda gəzirdim, təsadüfən (6,b) öz yerlilərimdən birini gördüm. O, məni görcək ağlayıb dedi: «Məgər siz dirisiz? Talışda Sizin ölümünüz haqqında şayiə yayılmışdır. Hansı yol üstə və hansı ölkədə olduğunuz bəlli deyildir. Ata-ananız Sizin üçün ehsan da vermişdir. Sizdən əl üzmüşlər. Allaha şükür ki, Siz sağ-salamatsınız».

Onu öz mənzilimə gətirdim. Iki gün ona lazımi qonaqsevərlik göstərdim. Ondan soruşdum: «Siz nə üçün bu vilayətə gəlmişsiniz?» Dedi: «Aclıqdan. Iki ildir müharibə üzündən vilayətimizdə əkin olmamışdır. Buna görə aclıqdan camaat [qonşu] vilayətlərə qaçıb getmişdir». Mən ona on iki batman – yəni aparmağa gücü çatan qədər düyü və dörd-beş min də pul verdim. Bundan başqa qardaşlarım üçün də öz evimizə iki tümən pul göndərdim. Evimizə bir kağız da yazdım. Iki həftə keçməmişdi ki, haman şəxs qardaşım Lütfəli ilə yanıma gəldi. Çox sevindik. Bir həftəyə kimi qardaşım mənim yanımda qaldı. Sonra gücü çatdığı qədər [atına] düyü yükləyib, beş tümən pul və bəzi sovqatlar ilə evə qayıtdı. Ondan sonra mən dörd ilə qədər Gilan vilayətində dərs oxumaqla məşğul oldum. Dörd ildən sonra ata-anam məni öz yanına çağırdı. [Talış] vilayətinə qayıdıb atam və anamla görüşdüm. Bir neçə gün Butəsər kəndində qaldım. Bir gün səyahət məqsədilə (7,a) Lənkəran şəhərinə getdim. Lənkəran məscidində oturmuşdum. Bir nəfər gəlib məndən soruşdu: «Molla Xudaverdi Sizsiz?» Dedim: «Bəli». Dedi: «Zəhmət çəkib qalxın, xan Sizi hüzuruna çağırır». Bu xəbəri eşidən kimi qorxdum, bədənim titrədi. Öz-özümə fikirləşdim ki, görəsən nə olmuşdur. Kim məndən şikayət edibdir. Çox nigaran qaldım. Çarəsiz əbamı[41] geyib ucarütbəli Mir Mustafa xanın hüzuruna getdim. O zaman Mir Mustafa xan Denyaçaldan[42] Salyana qədər [sahəsi olan] Talış vilayətinin müstəqil hakimi idi. Iran və başqa [hökumətlərə] bac vermirdi.

Əksinə, Iran şahının təsdiqi ilə daimi olaraq hər il ona Rəşt vilayətin [in gəlirindən] iki min əşrəfi verilirdi.[43] Müxtəsər Mir Mustafa xanın hüzuruna gedib gördüm ki, bütün xanlar sıra ilə onun hüzurunda durmuşlar. Salam verdim. Dedi: «Molla, gəl otur». Mən oturdum. Xanın məclisində iki-üç nəfər mənim kimi mola və tələbələrin oturduğunu gördüm. Bir qədər ordan-burdan söhbət etdilər. Sonra mollalar mübahisəyə başladılar. Mübahisə əvvəl şəriət qanunlarından gedirdi. Sonra hikmət [məsələlərinə] keçildi. Mən hikmət [elmini] yaxşı bilirdim. [Ona görə də] heç kimi öz meydanımın hərifi hesab etmirdim. Məclisdəki mollaları bir anda büküb dizim altında qoydum… [Bu sahədə] özünə görə müəyyən məlumata malik olan bütün əyanlar mənə əhsən dedilər. Xan da mənə çox iltifat göstərdi. Cibindən on tümən Fətəli şah[44] riyalı çıxarıb mənə verib dedi: «Inşaallah mənim də karmıma gələcəksiniz».

[Xandan] icazə alıb Butəsər kəndinə (7,b) evimizə gəldim. Iki-üç ay evdə qaldından sonra Isfahana[45] getdim. Isfahanda 7 il təhsillə məşğul oldum. Böyük şöhrət qazandım. Bir gecə yuxuda gördüm ki, dərin bir quyuya düşmüşəm. O quyuda ilan və əqrəblər məni əhatə edib cibimdə və qucağımda yuva salmışlar. Lakin mənə heç əziyyət vermirlər. Mən qorxulu yuxudan oyandım. Dedim: «La Ilahə illallah[46], bu nə qorxulu yuxudur ki, mən gördüm?». Müxtəsər sübhə kimi daha yata bilmədim. Səhər kitablarımı götürüb ustadımın yanına getdim. O, əsrin müctəhidi idi.[47] Məni görən kimi gülümsədi və dedi: «Molla Xudaverdi, yəqin bu gecə öz gələcək günlərinizi yuxuda görmüsüz. [Sifətinizin] rəngi bir təhər görünür?» Mən ərz elədim: «Qurbanım olum. Bu gecə bir yuxu görmüşəm ki, indi də qorxudan ürəyim öz yerində deyil». Yuxumu müfəssəl surətdə ona ərz etdim. O dedi: «Molla Xudaverdi heyf sizdən və Isfahanda çəkdiyiniz yeddi illik zəhmətdən. Oğul, Siz vilayətinizə gedirsiniz və orada divan işçisi olacaqsınız. O ilanlar Sizə aid haram pullardır!» Bu sözləri eşidincə çox qəmgin və pərişan oldum. Hətta ustadımdan ürəyim bir qədər incidi ki, bu nə yuxu yozmaqdır. Iki həftə onun yanına dərsə getmədim. Bir daha Talış vilayətinə qayıtmacağıma özümə söz verdim. Aradan bir neçə il də keçdi. Ata-anamdan bir neçə məktub aldım. Məni öz yanlarına çağırırdılar. [Yazırdılar ki] «biz qocalmışıq, Sizin ayrılığınızdan gözlərimizin işığı getmişdir. Mütləq (8,a) gəlin, bir dəfə [də olsa] Sizi görək». Fikirləşdim, nə eybi var, bir dəfə gedib atam və anam ilə görüşərəm. Bir az da özüm üçün xərclik tədarük edərəm. Öz vilayətimə [tərəf] yollandım. Talışa çatdım. Evimizə gəlib valideynim ilə görüşdüm.

Bu «Əxbarnamə»ni oxuyanlar bilməlidir ki, mən Mirzə Əhməd bu əhvalatı atam Mirzə Xudaverdinin dilindən yazıram. Atam dedi: bir neçə gün evdə qalıb qohum-əqraba ilə görüşdük. Mən nüfuzlu və əmmaməli bir molla idim. O zaman Mir Mustafa xanın hörmətli nökərlərindən Ağa Kərimbəy adlı bir şəxs vardı. O hərdən bir xəbər vermədən mənim yanıma söhbətə gəlirdi. O, məndən xəbərsiz, gizlicə haqqımda xana məlumat vermişdi. Bir gün

haman Ağa Kərim bəy mənim yanıma gəlib dedi: «nə vaxta kimi Butəsərdə oturacaqsan. Gəl gedək Lənkəran şəhərinə, bir neçə gün oralarda gəzək». Mən də onun təklifini qəbul etdim. Onunla Lənkərana getdik. O, xanın hüzuruna, mən isə məscidə getdim. Bir-iki saat məsciddə mollalarla söhbət etdim. Gördüm bir nəfər farraş[48] [yanıma] gəlib [mənə] dedi: «Qalx, xan səni istəyir». Mən çox qorxuya düşdüm ki, xanın mənimlə nə işi var. Xanın hüzuruna getdim. Gördüm böyük izdiham var. Mir Mustafa xan da oturubdur. Əvvəllər mən xanın yanına gedərkən xan [məni görüncə] buyurdu: «Molla, buyur otur!». Bu dəfə isə mənə heç etina etmirdi. Mən ayaq üstə qalıb onun bu rəftarından çox qorxurdum. [Düşünürdüm] görəsən, mən nə etmişəm ki, xan mənə heç iltifat (8,b) göstərmir.

Bir saatdan sonra Mir Mustafa xan yenidən qalxıb yanıma gəldi. Dedi: «Sizlər gedib oxuyursunuz, elm sahibi olursunuz, mənim xeyrim nədir?». Cavabında ərz etdim: «Qurbanın olum, mənim Sizə xeyrim, [canınıza] dua etməkdir!». O buyurdu: «Bu sözləri kənara qoyun: Siz mənim mirzəm olmalısınız!». Mən [isə cavabında] dedim: «Qətiyyən heç vaxt mən bu işi qəbul etmərəm». [Xan] acıqlandı, xəncərini [qınından] çəkib dedi: «Bu xəncərin gücü ilə bu işi qəbul edəcəksən!». Fərraşa hökm elədi: «Bunu aparıb divanxanada[49] saxlayın!».

Xülasə, Kəlbi bəy adlı kərmətüklü[50] bir fərraş məni xalılarla bəzədilmiş bir otağa aparıb oturtdu. Mənə bir qəlyan gətirdi çəkdim. Özlüyümdə düşünürdüm ki, mən heç yemək yeməmişəm. Yəqin burada acından öləcəyəm. Elə bu fikirdə idim ki, bir də gördüm başqa bir fərraş qapını açdı. Bir məcməyidə cürbəcür xuruşlarla yemək gətirib qarşıma qoydu. Aftafa-ləyən gətirib dedi: «Mirzə əlinizi yuyub, yeməyinizi yeyin!». Mən bir qədər yedim. Utandığımdan doyunca yemədim. Elə təsəvvür edirdim ki, [mənə xidmət edən] bu iki-üç fərraşın yeməyi də [mənim yeməyimlə] bir məcməyidədir. [Ona görə] mən az yeməliyəm ki, o yazıqlar üçün də qalsın. Bir-iki loğmadan sonra əlimi çəkdim. Fərraş məcməyini dəhlizə apardı. O üç nəfər fərraşı da çağırıb dedi: «Naharınızı gətirmişlər, gəlin yeyin!». Onlar otaqdan çıxdıqdan bir az sonra mən yavaşca qapının pəncərəsindən baxdım; gördüm hər iki nəfər üçün bir məcməyi [yemək] gətirmişlər. Ürəyimdə dedim: mənə olan olub, (9,a) lakin mən burda aclıq çəkməyəcəyəm. Axşam yeməyi də belə keçdi. Lakin bu gecə yorğan-döşək tərəfdən işimin necə keçəcəyini düşünürdüm. Yatmaq vaxtı gəldi. Abamı başıma çəkib yatmaq istəyirdim. Fərraş Kəlbi bəy [mənə] dedi: «Bu fikirləri kənara buraxın; bu Mir Mustafa xanın divanxanasıdır. Bir az səbr eləyin!».

Bu fikirdə idim; gördüm ki, bizim üçün bir dəst çox təmiz kələğayi yorğan və məxmər döşəkdən [ibarət] yataq gətirdilər. Allaha şükür etdim ki, [mənə] elə yaxşı yemək və belə də qəşəng, təmiz yataq qismət etmişdir. Səhər açıldı. Namazımı qıldım. Allahın şükürünü yerinə yetirdim. Bir azdan

sonra gördüm ki, bir nəfər gəlir, onun dalınca da bir fərraş başında bir məcməyi gətirir. Mən fərraş Kəlbi bəydən soruşdum: «Bu kişi kimdir?». Dedi: «Xanın xidmətçi-başçısı Məşədi Mirzə Əlibəydir!».

O, otağıma daxil olub, mənə çox hörmət etdi. Məcməyini mənim qabağıma qoydu. Əl vurub əmmaməmi başımdan götürdü. Başıma bir papaq qoyub dedi: «Sənin mirzəliyin mübarək olsun!». Müxtəsər tuman-köynək, corab və başmaqdan tutmuş insana nə lazım isə hamısını gətirib mənə geydirdilər. Allah şahiddir. O, əmmaməmi başımdan götürəndə dünya gözümdə qaraldı. Öz-özümə dedim: «Ilahi, insaf deyil ki, mən yeddi il qürbətdə və Isfahanda zəhmət çəkim, axırda da başıma belə əzab gətirilsin? Ixtiyar sahibisiz!».

Paltarımı geydikdən sonra məni özü ilə götürüb yüksək rütbəli Mir Mustafa xanın hüzuruna apardı. Ona təzim etdik. [Xan] gülümsəyərək buyurdu: «Sizin mirzəliyiniz mübarək olsun!». Mən utandığımdan başımı aşağı saldım. Heç bir söz demədim. [Xan] dedi: «Allah qoysa mən sənə o qədər iltifat və məhəbbət göstərəcəyəm ki, bir il ərzində bir dəfə də olsun mollalığın yadına düşməsin!». Sonra buyurdu: «Mirzə Seyid Ağa böyük molladır. Kağız yazmaq qaydalarını Sizdən yaxşı bilir. Həmişə onunla oturub-durun ki, bu sahədə usta olasınız!».

(9,b) Indi də Mir Mustafa xanın əslini-nəcabətini sizə izah edim. Məşhur Nadir şahın səltənəti zamanı Talış vilayəti bir neçə dəfə itaət boyunduruğundan baş qaçırmış, üsyan etmişdi.

Talışdan məqsəd bu [yerlər] dir. Birinci Astaranın Kürabı[dır]. O zaman [oranın hakimi] astaralı Musa xan Nadirə bir o qədər də baş əyməmişdi. Keçmiş qocaların dediyinə görə, Musa xanın Nuşirəvan tayfasından olduğuna çox ehtimal vardır. [O] Astara Kürabında müstəqil hakim olmuşdur. Astara Kürabı: Goganrud,[51] Asalim,[52] Vilgic, Drığ[53] və Zuvand[54] mahallarından ibarətdir. Zuvand yerlərinin Arşaq[55] mahalından, lakin rəiyyətinin talış olduğunu mən, Mirzə Əhməd, öz atamın dilindən eşitmişəm. Yəni talışlar [bu yeri] öz əllərinə keçirmişlər. Drığ mahalının sərhəddi Qonçin meşəsinin[56] ortasından gəlib Şiləvar[57] kəndinə bitişən bir çaydır. Bu çaya Kəkuyə-cu deyirlər. Şiləvar kəndinin ortasındadır. Lənkəran şəhərinin yuxarısına [qədər] gəlir. [Bu sətirləri] yazarkən orada Seyid Mir ağa Mir Əsgər oğlunun övladları məskən salıb yaşayırdılar. [Drığ mahalının sərhəddi] oradan gəlib Lənkəran çayından keçmiş Vələdinin[58] aşağısında, yəni qəbiristanda, Sopeh-xoy pirinə, oradan da Mordabın[59] yanmış əkinlərinə çatmışdır. Əgər bu fəqirin sözünü yoxlayıb bilmək istəsəniz, yeri qazıyın. [Görərsiniz ki,] Astara mahalının istehkamı üçün oralara kömür tökülmüşdür. Oradan da dəniz kənarına kimi uzanır. Sonra üzü qibləyə [doğru] Denyaçal[60] çayına kimi [bu yerlər] Astara Kürabı olmuşdur. Talışın bir mahalı da Uluf[61] idi. Uluf da minlərlə ailədən və on iki parça [ərazidən] ibarət idi.

Miyankuhdan[62] [başlayaraq] Boradıgah[63], Bədəlan,[64] Lənkəran [və bir sıra] xırda kəndlər də Uluf mahalına (10,a) daxil olmuşdur. Üluf mahalı keçmişdə Astara mahalından kiçik olsa da [əhalisinin] sayına görə ondan böyük idi. Qocaların rəvayətinə görə, Separadi[65] kəndindən [tutmuş], Girdəni[66] kəndinə qədər on iki yerdə divanxana var idi. Onları [idarə edənlərin hamısı] hörmət sahibi olub, hər biri böyük xan dərəcəsində [adamlar] idi. Öz istədikləri kimi [kimsədən asılı olmadan] divan [işlərini] aparırdılar. Heç bir hökmdardan qorxmurdular. Onların hər biri özünü padşah sayırdı.

O zamanlar Boradıgahdan Göytəpə çayına[67] kimi Dəştvənd[68] mahalı idi. Talış dilində [danışan] bir neçə kənd vardı. Onlar dəştvəndli idi. Qalan kəndlər isə türk idi. Bu sətirləri yazarkən [türklər] son dərəcədə çoxalıb, kəndlər salmışdılar. Onlar ətraf yerlərdən gəlmiş qəriblərdi. [Özü də] təzə gəlmişlər.

Dəştvənddə Yarməhəmməd Kələntərin[69] oğlanları [olan] yeddi qardaşdan başqa dikbaş adam yox idi. Onlar bir-birini başa düşür, zamanın tələbinə görə bir-biri ilə rəftar edirdilər. Hər kəs hər yerdə hakimiyyət iddiasında olsa idi, onlar o adamla dil tapır, ona tabe olurdular. Bir-birilə yaxşı münasibət yaradıb güzəran keçirirdilər.

1299-cu (hicri) ildə mən bu sətirləri yazarkən Səfidəşt mahalı məşhur idi. O zaman onlar bəzən Qaradağ,[70] bəzən də Şirvanat[71] hakimləri ilə əlaqəyə girişirdilər. Uluf mahalı isə bu cəhətdən [fərqlənirdi]. Əhalisi çox fitnəkar və qan tökən olub kimsəyə baş əymirdi. Ulufdan başqa bu mahalların hamısı padşahlar tərəfindən iki-üç dəfə tənbeh olunmuşdur. Məsəldir: «Öləm allah deməرəm!». Bir neçə dəfə padşahlar (10,b) onlara qulaq burması vermişdilər. Lakin onlar əvvəlki xasiyyətlərini dəyişməyib [yenə də] dikbaşlıq edirdilər.

Axırda Nadir şah fitnə-fəsad alovunu söndürmək üçün şirazlı Ibrahim xanı [Ulufa] hakim təyin etdi ki, [orada] hökumət işlərilə məşğul olsun. Onlar bir də fitnə törətməsinlər. Ali rütbəli padşahın əmrilə şirazlı Ibrahim xan Ulufa gəldi. Bacarığı sayəsində nüfuz qazandı. Məzkur xan ailəsiz idi. Öz vilayətində də ailəsi yox idi. Lakin şərab içənlərin içində birinci idi. Uluflar arasında onun şərab içməkdən başqa bir işi yox idi. Camaatın ağıllıları düşünürdülər: Talış vilayətində hər cür adam olmuşdusa da, lakin belə şərab içən görünməmişdir. Ona görə belə məsləhət gördülər ki, xanı ailə sahibi etsinlər, bəlkə onun xasiyyəti yaxşılaşdı. Ağsaqqallar və xeyirxahlar yığışıb bir yerdə Ibrahim xanın yanına gəlmiş və ona məsləhət yolu ilə [demişdilər]: «Siz bizim hakimimizsiz, sizə subaylıq yaraşmaz. Razılıq verin sizin üçün ürəyinizə yatan bir qız alaq!».

Təsadüfdən Xərxətan [kəndində][72] on dörd yaşlı xoş simalı Seyid Abbas adlı bir nəfər olurdu. Bu kəndlərdə həmin seyid kimi gözəl uşaq yetişməmişdi. Bu uşaq yetim idi. On iki yaşlı gözəl bir bacısı vardı. [Ibrahim]

xan dedi: «Seyid Abbasın bacısı olsa, onunla evlənərdim!». Ağsaqqallar cavabında dedilər: «var və hazırdır!». [Xan] həmin qızı aldı.
Indi də Sizə haman Seyid Abbasın hansı tayfadan [olduğu] və hansı vilayətdən gəldiyi haqqında məlumat verim. Seyid Abbasın atası Xalxal[73] [mahalının] Hir[74] kəndindəndir. Güzəranını yaxşılaşdırmaq üçün ailəsini götürüb Talış yolu ilə Şirvana getmək fikrində idi. Onun bir eşşəyi vardı. Türk demişkən öz hoş-hoşunu [yükünü] ona yükləyib gedirdi. Indii Xərxətan deyilən kəndə çatdıqda palçıq çox olduğundan eşşək palçığa batdı. [Sahibi] onu min əziyyətlə ayağa qaldırdı. Lakin gün axşam olmuşdu. O, gecəni orada qalıb yatdı. Röyada allah tərəfindən ona ilham nazil oldu: «Ey alicənab seyid, bu yerdən getmə, [çünki] sənin övladın Talış vilayətinə hakim olacaqdır!». Deyirlər ki, Seyid o gecə yatdı, bu xəbər ona təkrar allah tərəfindən nazil oldu. Seyid haman kənddə sakin oldu. (11,a) Oradan başqa yerə getmədi. Hazırda o kənd Xərxətan adlanır, həqiqətdə isə Xərqəltandır.

Xülasə, Ibrahim xan Seyid Abbasın bacısını aldı. Bütün [Uluf mahalının idarə işlərinin] ixtiyarını da ona tapşırdı. Dəftər, hesab işləri də onun əlinə keçdi. [Seyid Abbas çox] yaxşı, ağıllı və gözəl bir cavan idi. O, Ulufun bəzi ağsaqqal və sözbilən adamları ilə birləşib dost oldu. Doğrudan da xalqın [məhəbbətini qazanmış], onu özünə tabe etmişdi. [Əvvəllər] Uluf vilayətinin malcəhətini[75] hər il Ibrahim xan özü toplayırdı. Öz hissəsini götürdükdən sonra [qalanını] böyük padşahın xidmətçilərinə və təhvildarlarına verirdi. Lakin iki il idi ki, [Ibrahim xan] tövcü və divan vergilərini arvadının qardaşı Seyid Abbas vasitəsilə [şahın] hüzuruna göndərirdi. Üçüncü il yenə də əvvəlki kimi Seyid Abbası göndərdi. Seyid Abbas tövcü pullarını [mənimsəyib] böyük şahın vəzirlərinə bağışladı. [Əvəzində] fərmanla Uluf vilayətinin hakimliyn ona verildi. Ibrahim xanı [hakimiyyətdən] saldılar. Seyid Abbas iki-üç il itaət kəmərini belinə bağlayıb şöhrət qazandı. Şayiə yaydı ki, «Mən padşah tərəfindən Talış üsyançılarını cəzalandırmağa təyin olunmuşam!». O zaman Talış camaatı sadəlövh idi. Seyid Abbas bəyin yalan sözünə inanıb çox adam ona baş əydi. Bir qədər yerini möhkəmlətdikdən sonra Dəştvənd mahalını [ələ keçirmək] fikrinə düşdü. Dəştvənd camaatı ilə bir neçə dəfə müharibə etdisə də, bir nəticə əldə edə bilmədi.

Nəhayət o, bu «Əxbarnamə»nin başlanğıcında zikr olunmuş Yarməhəmməd kədxudanın oğlanları ilə sazişə girdi. Onlarla yaxınlaşdı. Öz övladlarından onlara bir qız verib qohum olduqdan [sonra] çox yaxın oldular. Qorxusuz-hürküsüz hər gün bir-birinin evinə gəlib gedirdilər, aralarında etimad və xatircəmlik meydana kəldi. (11,b) Seyid Abbas onları qonaq çağırdı. Onlar öz dəstələri ilə Xərxətan kəndinə qonaq gəlib eyş-işrət etdilər. Iki-üç gün burada qaldıqdan sonra xudafisləşib evlərinə qayıtdılar. Bir neçə vaxtdan sonra onlar da Seyid Abbas bəyi qonaq çağırdılar. Lakin Seyid Abbas bəy

onlar haqqında tədbirlər görürdü. Onların bəzi [nüfuzlu] adamları ilə dostluq və birlik edirdi. Bəzilərini bəxşiş, digərini isə kədxudalıq və s. vəzifə verməklə özünə cəlb edirdi. Seyid Abbas hər biri Rüstəmi Zal[76] ilə bərabərlik iddiasında olan bir neçə nəfər qan içən adamlarını özü ilə götürüb, haman gün Ərkivan kəndinə onların evinə getdi. Onlar yemək vaxtı Seyid Abbas bəy ilə adamlarını öldürmək fikrində idilər. Miri Kələntərin övladlarından bir nəfər zahirdə onlar ilə, gizlində isə bunlar ilə həmfikir idi. O, bu işə razı olmadı. Kənd içində evdə böyük-kiçik arasında bu işin icrasını məsləhət görmürdü. O, məsləhət görürdü ki, «sabah ov təşkil edək. Onlar ovlağa çıxsınlar. Orada da onların işini tamam edək». Müxtəsər o günün sabahı Qaratikanlı adlı [yerdə][77] ova çıxdılar. Ovdan sonra Qaratikanlı çəmənində nahar yemək üçün atdan düşdülər. Seyid Abbas bəy dedi: «Indi bir o qədər iştaham yoxdur. Bir az çəməndə oynayaq iştahamız açılsın, sonra xörək yeməyə başlayaq». Seyid Abbas bəy məsələni başa düşmüş və adamlarına demişdi: «Bu nahar bizim xeyratımızdır. Hadisə baş verməjdən qarşısı alınmalıdır. «Turna dökdü» oyununa başlayaq. Hər iki-üç nəfəriniz onlardan birinin kəmərindən yapışıb çəkiniz. Bəlkə [bir təhər ilə] canımızı bu təhlükədən xilas edə bilərik». Dəştvəndlilər [isə] fikirləşdi: «Eybi yoxdur. Onlar oynayıb yorulduqdan sonra (12,a) biz onların işini bitirərik». «Turna dökdü» oyunu başlandı. Onların arasında çox güclü və yekə bir adam gözə çarpırdı. Seyid Abbas bəy [onu tutmaq üçün] yoldaşlarına nə qədər göz ilə işarə etdi, gördü ki, heç biri yerindən tərpənmir. [Axırda] çarəsiz [qalıb] özü birdən-birə onun arxasından asıldı və [onu] tutdu. O adam gülə-gülə Abbas bəyə dedi: «Siz nə üçün [məni] arxadan tutursuz? Hünəriniz varsa, Turna vurun!». Seyid Abbas bəy zarafat ilə ona dedi: «hərəkətinizdən siz mənə çox güclü görünürsünüz. Mən də öz [gücümə] çox güvənirəm. Gəl əvvəlcə güləşək!». Xülasə, Seyid Abbas yarı zarafat, yarı gerçək onun belindən yapışıb yerə vurdu. Onu yerə yıxan kimi xəncərini kəmərindən çəkib sinəsindən vurdu. Xəncərin ucu onun kürəyindən bir qarış çıxıb yerə sancıldı. Yerdə qalan adamların da hər birinin [üstünə] iki-üç nəfər [düşüb onları] tutub öldürdülər. Tez atlarına minib Xərxətan kəndinə öz evlərinə çapdılar. Bu hadisədən sonra o, dörd il Dəştvənd mahalı işlərinə qarışmadı. Heç bir cəhətdən o, mahalın işi ilə məşğul olmadı. Ancaq uzaqdan onlara nəvaziş göstərib salam və xələt hədiyyə göndərməklə o, mahal ağsaqqallarının ürəyini ələ aldı. Belə ki, [Seyid Abbas] əvvəllərdə onlardan bəziləri ilə yaxşı münasibətdə idi. Dəştvənd mahalının ağsaqqal və nüfuzlu adamlarını qonaq çağırdı.

Belə qərara alındı ki, Seyid Abbas bəy özünü qürur və təkəbbürlü [aparıb], böyük bir hadisə üz verməyincə onların yanına getməsin. Məsələ ancaq Seyid Abbas bəyin məsləhəti ilə həll edilsin. O, bir müddət də günlərini belə keçirdi. Onlar Seyid Abbas bəyin məsləhəti olmadan heç bir məsələni həll etmirdi. Bütün işlərini onun tövsiyəsilə görürdülər. [Ona görə]

Seyid Abbas bəy də onların əlaqəsini yaxşılaşdırmaq naminə bir kəlmə də demirdi. Bu tərəfə bir, digər tərəfə [isə tamamilə] ona zidd olan başqa bir məsləhət verirdi.

[Onun] bütün fikri (12,b) onların arasını vurmaq və bir-birilə düşmən etmək idi. Beləliklə, onlar bir-birinə qarşı kin və ədavət bəsləməyə başladı. Buna görə də [intizam yaratmaq üçün] Seyid Abbas bəyi öz [mahallarına] aparıb hökumət başında oturtdular. Nəticədə, Seyid Abbas bəy Dəştvənd mahalının hakimi oldu.

Bu sətirlərin yazıldığı 1882-ci ildə böyük [rus] imperatorunun жurnalında Səfidəşt[78] adı altında qeyd edilmiş o mahalın əsil adı Ucarud mahalıdır. Ucarud adının aradan götürülüb [bu mahala] Səfidəşt deyilməsinin səbəbi vardır. Ucaruddan danışarkən [bu barədə] ətraflı danışılacaqdır.

Ucarud böyük mahaldır. Çox elatdan ibarətdir. Onların arasında yaxşı süvarilər yetişir. Onlar çox igid və mükəmməl silahlı olub, başqa heç bir vilayətdə özlərinə bərabər igid olacağını qəbul etmirlər. Lakin Dəştvənd mahalı qarşısında onlar qurd yanında qoyun kimidirdər. Dəştvəndlilərin əsiridirlər. Istər döyüşdə, istərsə də öldürməkdə Dəştvənd mahalı həmişə onlardan üstündür. Dəştvənddə kim hakim olubsa, Səfidəşt mahalı ona itaət və xidmət etmişdir. Müxtəsər Seyid Abbas bəy Ucarud, Dəştvənd və Uluf mahalından ibarət olan Talış vilayətində iyirmi ilə kimi asudəliklə hakim olduqdan sonra vəfat etmişdi. Onun bir neçə oğlu qalmışdı. Onların böyüyü və işgüzarı olan Qara bəy[79] atasının yerində oturdu. Lakin qəbilə sahibi olan Zöhrab bəy adlı bir adam ona düşmən oldu. [Zöhrab bəy] Iran dərgahına gedib padşaha tabe oldu. Öz adına fərman alıb hakimiyyəti ələ keçirdi. Girdəni kəndinə kəldi. Onun əsli haman kəndin bəyzadələrindən idi. [Girdəniyə gəldikdən sonra] o əhali arasına fitnə saldı. Qara bəyin işini pozdu. Şahın fərmanı ilə vilayətdə hakimiyyəti ələ aldı. Seyid Abbas bəyin qayda-qanunu tapdaladı, hakimiyyətinə son qoyub, onu hörmətdən saldı. (13,a) O, bir neçə il Uluf mahalında hakim oldu. Dəştvənd mahalı Seyid Abbas bəy zamanında olduğu kimi yox, keçmişdəki qayda ilə [yerli əhalinin] öz istədiyi kimi idarə olunurdu. Lakin Xıl[80] kəndində rəhmətlik Seyid Abbas bəyin tapdağı altında [qorxudan] sükuta dalmış köhnə bəyzadələr [yenidən] sakitlik guşəsindən baş qaldırdılar. Dəştvəndlilər [ona] itaət etdilər. Zöhrab bəy də Seyid Abbas bəy kimi Dəştvənd mahalını qarət etmək və onları öz əlində saxlamaq üçün nə qədər çalışdısa da, məqsədinə çatmadı. O zamanlar hər kəs öz vilayətində baş qaldırır, üsyan edirdi. Gilanın Rəşt mahalında hidayət xan[81] meydana çıxıb Mazandarandan[82] Talış sərhədi olan Denyaçal çayına kimi [yerləri] öz əlinə keçirdi. O, belə təsəvvür edirdi: «Mən də müstəqil padşaham. Bütün Gilan vilayətləri gərək mənim hökmümə tabe olsun».

Lakin bir neçə il ondan əvvəl girdənili Zöhrab bəy Qara bəyin sərhəddə fitnəkarlıqla məşğul olub, ara qarışdırdığını, Iran padşahının şöhrətli sarayına ərz edib bildirmişdi. Ucarütbəli şahın məmurları işi yoxlamadan hökm vermişdilər. Qara bəyi qolu bağlı aparıb Şiraz[83] vilayətində həbsə salmışdılar. O, Şiraz vilayətində yeddi il zindanda qalmışdı. [Buna görə də] Zöhrab bəy ucarütbəli padşahın uca dövlətindən əl üzüb yaxın yolu özünə qənimət bildi. Rəştli Hidayət xana baş əydi. Dostluq həlqəsini boynuna salıb ona xidmət etməyə başladı.

Bu xəbər yüksək dövlət məmurlarının qulağına çatınca ali məqam şahın əmrilə Qara bəyi həbsxanadan azad edib ona xələt verdilər. Talış vilayətinin idarəsini də ona tapşırdılar. (13[b]) O, Qara xan adlandırıldı. Talış vilayətinə gəldi. Zöhrab bəyi və Dəştvənd mahalındakı Xıl bəyzadələrini məhv etdi. Qara xan bir neçə il öz atasının vilayətində hakimiyyət taxtında oturdu. Talış mahalında onun ədaləti aşkar oldu. Sonra o, Astara mahalını [ələ keçirmək] fikrinə düşdü. Bu vaxt astaralı Musa xan vəfat etmişdi. Astara mahalında hakimiyyət rəhmətlik Musa xanın övladından Şücaəddin xana çatmışdı. [Musa xan] qışda məşhur Lömir[84] kəndində qışlayırdı. Yayda isə Vilgic mahalının Nəmin kəndində otururdu. Qara xan öz qoşununu toplayıb bir gecə qəflətən basqın edib onu öldürdü. Ucarütbəli şah tərəfindən vilayətin hakimiyyəti Şücaəddin xan Mehraninin övladına verildi. Onlar Qara xanın qorxusundan öz ata yurdlarını buraxıb getdilər. Gorganrud kəndində sakin oldular. Butəsər kəndindən ibarət olan öz sərhəd vilayətlərini uzaqdan idarə edirdilər. Bu kəndlərə nayiblər təyin edirdilər.

Zamanın məsləhətinə görə Qara xan Astara mahalının Rudəkənar[85] kəndin kətxudası Qədim Əli ilə dostluq etdi. Onun qızını alıb qohum oldu.

Ənbəranı qarət edərkən Qara xanın əsgərləri həmin kəndin samanlığında yeddi yaşlı bir qız ilə bir oğlan tapmışdılar. Oğlan qızın qardaşı idi. Qızın adı Gülzar, oğlanınkı isə Şahpələng idi. Bunlar Qara xanın hərəmxanasında ev uşağı olub, xidmət edirdilər. Bu uşaqlar dolğunluq dövrünə yetincə qız gözəl olduğundan [Qara xan] onu özünə arvad etdi. Şahpələngə də müəyyən imtiyaz verdi, o etibarlı adam oldu. Şahpələngin yaşı on dördü keçdikdən sonra [Qara xan] onun üçün Sipehkəran[86] kəndində ev tikdirdi. (14,a) Vilgicin qərb tərəfinin və başqa (kəndlər)in ixtiyarını ona verdi. Onu Sipehkəran kəndində oturtdu ki, Vilgic hakimindən narazı olanlar Şahpələngin ətrafına toplansınlar. Çünki o zaman Vilgic mahalı Qara xana tabe olmurdu. Ona qarşı azğınlıq və üsyan edirdilər. Ceyd[87] kəndinin bəyzadələri də onlara qoşulmuşdu. Bu bəyzadələr Yar Əhməd bəyin babaları idi. Vilgic mahalının rəisi belə mülahizə edirdi ki: «Şahpələngi Sipehkəran kəndinə təyin etmək Vilgic mahalının işini pozmaq məqsədini güdür. Ona görə də Şahpələng bəy güclənənə qədər, onu bir bəhanə ilə bu kənddən qovmalıyıq». [Bu məqsəd ilə] bir gecə qəflətən onun üzərinə iki-üç yüzə

yaxın atlı göndərdi ki, onu tutsunlar. Təsadüfən Şahpələng bəyin lələsi[88] Ibrahim də haman gecə ov etmək məqsədilə tüfəngini götürüb Viş meşəsinə getdi ki, bəlkə bir qırqovul ovlaya bildi. Ağacda bir qırqovul oturmuşdu. [Ibrahim lələ] ona qırma atmağa fürsət tapmırdı. «Səhərə bir saat qalmış gəlib xatircəmliklə bu qırqozulu ovlaram!» – deyə oradan uzaqlaşmışdı. Sübhə bir saat qalmış Ibrahim lələ qırqovulu ovlamaq üçün tüfəngini götürüb getdikdə Xombelani[89] yolundan saysız-hesabsız tüfəngçi gəldiyini körmüşdü. O, məsələni başa düşüb tez geri dönərək Şahpələngi yuxudan oyadıb onu xəbərdar etmişdi. Şahpələng bəy arxalığını geyməyə belə fürsət tapmadığından [ancaq] tüfəngi ilə patrondaşını götürüb evdən çölə qaçmışdı. Vilgic qoşunu sürətlə Şahpələngin evinə basqın edib qarətə məşğul oldu. Şahpələng mülazimlərindən bir-iki nəfərlə düşmənə güllə atmağa başladı. [Lakin] öz çoxluğuna güvənən Vilgic qoşunu iki-üç nəfər [düşmən] gülləsindən qorxmayıb qarətə məşğul idi.

Amma nə deyim! O yerə Lənkəranın Çayiçi deyirlər. (14,b) Zahirən o, əhəmiyyətsiz görünür. Lakin qocaların rəvayətinə görə Talışa hakim olmaq istəyən adam, əvvəlcə mütləq Lənkəranın Çayiçi [hissəsini] öz əlinə almalıdır. Qoşun qarətə məşğul idi. Bir anda ətrafdan Şahpələngin başına iki yüzə qədər tüfəngçi toplandı. Meydanı qoşunlar daraltdılar. Tüfəng səsi Lənkəranda Qara xanın qulağına çatdı. O, çox adamla Sipehkəran tərəfə yönəldi. Lakin Qara xan gələnə kimi Şahpələng qoşunu şir kimi məğlub edib, onlardan çoxunu əsir etdi. Onlardan yüz əlli nəfərə kimi əsir aldı. Ona görə də Qara xana [müharibə etmək] növbəti çatmadı. Qara xan qoşunu ilə gəlib gördü ki, Şahpələng bəy bu əsirləri qolu bağlı hazır saxlamışdır. Şahpələngin igidliyinə Qara xan əhsən dedi. Mehribanlıq ilə Şahpələng bəyin saçlarını tumarladı. Ona mərhaba söylədi. Şahpələng bəy ərz edib dedi: «Ey mənim qocaman yeznəm, siz nə üçün zəhmət çəkmişsiniz. Sizin nökəriniz ölməmişdir ki, siz belə tülkülərin davasına gələsiniz!».

Qara xan mərhəmətlə Şahpələngə belə dedi: «Tüfəng və başqa yaraqların hamısı sənin olsun. Lakin onları [əsirləri] mənə verin!». Onun cavabında Şahpələng [belə] ərz edib dedi: «Qocaman yeznəm, bu mənim birinci ovumdur. Bu əsirlərin hamısını silahları ilə birlikdə mənə verməniz xahiş edirəm!». Qara xan Şahpələngin istəyini qəbul edib [əsirlərin] hamısını ona verdi. Özü Lənkərana qayıtdı.

Şahpələng bəy əsirlərin hamısını evə gətirdi. Onlara lazımi hörmət göstərdi. Dörd-beş gün öz yanında saxladı. Onlara xələt verdi. Mehribanlıq etdi. Onlar da Şahpələng bəydən bu hörmətləri görüb (15,a) hamılıqla Şahpələng ilə [dost olmağa] söz verdilər. [Dedilər]: «Siz Sipehkəran kəndindən köçüb Vaqoy kəndinə[90] gəlin. Orada sakin olun, O kənd Vilgic mahalına yaxındır. Siz bizim canımızı Qara xanın cəngindən xilas etdiniz.

Yoxsa o bizi öldürərdi. Biz hamılıqla sizin yanınıza gəlib sizə xidmət və itaət edərik!».

Buna görə Şahpələng Sipehkərandan köçüb Vaqoy kəndinə gəldi. Özünə ev və mənzil tikdi. Vilgic mahalındakı işə yarar və [işgüzar] adamların hamısı verdikləri sözə müvafiq olaraq ona xidmət və itaət etdilər.

Bir az keçmədi ki, Şahpələng Qara xan ilə birlikdə qoşun çəkib Ceyd qalasını aldılar. Qətl və qarət başlandı. Vilgic mahalı tamamilə onlara tabe oldu.

Xudavəndi-aləm Qara xana bir neçə oğul verdi. Onlardan böyüyü Mustafa xan idi. Biri də Şahpələngin bacısı oğlu Mir Əsgər bəy idi. Həqiqətən Qara xanın hər iki oğlu çox igid və zirək idi. Qara xanın bu oğlanları böyüdükdən sonra dünyada kimsəni tanımaq istəmirdilər. O vaxtlarda Mehrani övladından Aslan xan Qəhhar və Ibrahim Ağa [adında] iki qardaş vardı. Onlar Gorganrud və Asalim mahalında müstəqil hakim idilər. Onlar da Qara xan kimi rəştli Hidayət xanın itaətindən çıxmış və Qara xan ilə əhd bağlayıb belə and içmişdilər ki: «Gedib Rəşt vilayətini alsınlar və Hidayət xanı da ortadan götürsünlər».

Qaraxanın oğlanları Mir Mustafa xan və Mir Əsgər bəy və qaynı Şahpələng bəy birlikdə qoşun topladılar. Qaniçən uluflulardan beş yüzə qədər tüfəngçi götürub getdilər. Mir Mustafa xan və Əsgər bəy öz qoşunları ilə Lisar[91] kəndində dayandılar. Qaraxan isə bir neçə nəfərlə Gorganruda daxil olub (15,b) Aslan xanın evində mənzil saldı. Onlar [Aslan xan və Ibrahim Ağa] da Lömirdən Lisara qədər [ərazidən] minə qədər tüfəngçi topladılar. Lisarda dayandılar. Belə qərara gəldilər: «hazırda havalar bir qədər soyuqdur. Rəşt vilayətində qoşun soyuqdan yəqin ki, əziyyət çəkəcək. Novruzdan bir ay sonra isə hava xoş və mötədil olanda gedərik». Novruz bayramına bir ay yarım qalmışdı. Aslan xan Qara xana lazımi məhəbbət [və hörmət] göstərirdi. Həmişə özünü [Qara xandan] aşaqı tutub ona deyirdi: «Siz bizim atamızsınız. Belə əhd bağlamışıq ki, həm bu, həm də o vilayət sizin olsun. Hər iki vilayətin ixtiyarı sizdədir. Bizlərə də bir parça çörək verərsiniz. Dolanarıq. Verməzsiniz də ixtiyarınız vardır!». O, özünü həqir sayaraq bu sözləri söylərdi. Onun vilayətindən nə qədər şikayətçi gəlsə idi, [onları] Qara xanın yanına göndərib deyirdi: «Nə qədər ki, atam oradadır, mən divan ilə məşğul olmağa qadir deyiləm!».

Qara xan iki-üç dəfə Aslan xana bu qədər qoşunu bir yerdə saxlamağın çox çətin olduğunu [bildirib] təklif etdi: «Öz məqsədimizin ardınca gedək!». Aslan xan [Rəştə tərəf hərəkəti] məsləhət bilmədi. Ərz elədi: «Səbr edin, hələ vaxt yetişməmişdir».

Aslan xan özlüyündə belə hesab edirdi: «Qara xan qoca kişidir. Gorganrudda bunun əlindən nə iş gələ bilər? Yaxşısı budur ki, bir hiylə ilə Lisarda Mir Mustafa xan ilə Mir Əsgər bəyin işini bitirək. Onda asudəliklə

bütün Talış vilayəti mənim əlimə keçər». Bu fikrini qardaşları və qohumları ilə məsləhətləşdi. Onlar da bu fikirlə razılaşdı. Sonra (16,a) qardaşlarını gizlicə öyrədib [dedi]: «Siz Lisarda Mir Mustafa xan ilə Mir Əsgər bəyə at çapmaq yarışı təşkil etməyi təklif edin. Onlar atla cıdır meydanına gəldikdə siz onları güllə ilə vurub öldürün. Mən də burada Qaraxanı qətlə yetirərəm!». Onlar da Aslan xanın tapşırdığı kimi Mir Mustafa xanın yanına bir adam göndərib [dedilər]: «Gəlin sabah Xərədəşt meydanında at çapaq və şənlik edək. Çünki Novruz bayramı yaxınlaşır, şənlik lazımdır!».

Mir Mustafa xan da bu təklifi qəbul etdi. Aslan xanın nökəri drığlı Cilə baba ağasından bir qədər narazı olduğundan gecə fürsət tapıb, gizlincə Mir Mustafa xanın yanına gəldi. Onu işdən xəbərdar etdi.

Atam [Mirzə Xudaverdinin] dediyinə görə, Mir Mustafa xan qorxuya düşüb kiçik qardaşı Mir Əsgər bəyi yanına çağırdı. Əhvalatı ona söyləyib xəbərdar etdi. Dedilər: «Bəs nə çarə qılaq?». Mir Mustafa xan Mir Əsgər bəyə tapşırdı: «Sabah mən ora gedirəm. Siz isə [evdə] qalıb deyərsiniz ki, xəstəsiniz. Onlar sizdən qorxub bizi öldürə bilməzlər!». Mir Əsgər bəy də bu söz qəbul etdi. Səhər açıldı. Mir Mustafa xan mükəmməl silahlanıb meydana tərəf getmək istədi. Gördü ki, Mir Əsgər bəy də gəlir. Xeyli təəssüfləndi ki, Mir Əsgər bəy onun tapşırığını unutmuşdur. Mir Əsgər bəyin yanına bir adam göndərib [dedi]: «Əgər o, xəstədirsə [meydana] gəlməyi təxirə salsın. Sabah gələr!». O, cavab göndərdi ki, mənzildə qalmayıb meydana gəlir. Mir Mustafa xan bu məsələni öz nökərləri arasında açıq müzakirə edə bilmirdi. Belə ki, bu barədə Mir Mustafa xan və Mir Əsgər bəydən başqa heç kim bilmirdi. Mir Mustafa xan atını minib nökərləri ilə öz mənzilinə gəlmək istədi. Gördü ki, Mir Əsgər bəy də onun dalınca gəlir. Mir Mustafa xanın ovqatı təlx oldu. Az qaldı ki, atdan yerə yıxıla. (16,b) Cıdır meydanına yaxınlaşdıqda gördü ki, Mir Əsgər bəyin nökərlərindən biri qışqıra-qışqıra arxadan yetişib ərz elədi: «Qurbanın olum, Mir Əsgər bəyin ürəyi elə bərk ağrıyır ki, ata minə bilməyir. Mir Mustafa xan atını saxlayıb gördü ki, Mir Əsgər bəy zarıldayır, fəryad edib [deyir] «Dadaşıma deyin mən öldüm, qayıdıb məni mənzilimə çatdırsın!». Mir Mustafa xan atını döndərib gəldi. Mir Əsgər bəyi qucağına alıb mənzilinə apardı. Onlara xəbər göndərdi ki, bu gün şənliyimiz baş tutmadı. Allah qoysa, sabah gələrəm bir az at yarışdırarıq. Onun [Aslan xanın] nökərlərindən Mirzə Həsən bəy dedi: «Ağalar [məsələni] yəqin başa düşmüşlər!». Başqa bir nökər dedi: «heç nə başa düşməmişlər. [Onlar] ulufludur. Donuz kimidirlər. [Mir Əsgər bəy] o qədər yemişdir ki, toxluq etmişdir!». Müxtəsər, hər iki tərəfin [adamları] dağılıb evlərinə getdilər. [Mir Mustafa xan] axşam atasının yanına qasidlə göndərdiyi məktubda xəbər verdi ki, bu ağaların belə tədbirləri var. Qaraxan əmr elədi. «Bütün qoşun Gorganruda gəlsin». Hər iki dəstə Gorganruda Qara xanın və xam xəyalda olan Aslan xanın mənzilinə getdilər. «Nə doğrarsan

aşına, o da çıxar qaşığına!». Aslan xanın qoşununun çoxu o vilayətdən idi. Hər kəs öz evinə, bəzisi də məscidə getdilər. Qara xanın qoşunu isə dağılmadan bir yerdə qaldılar. Aslan xanın məclisində nahar yedikləri zaman Qara xan üzünü Aslan xana tutub dedi: «Ey haramzadə, bu nə xam xəyaldır? Sizə nə yamanlıq etmişəm? Bu vilayəti sizə tapşırmışam yeyirsiz!». Əvvəllər Qara xan Gorganrud və Asalim vilayətlərini əlinə keçirmişdi. Yenə də onlara vermişdi. Aslan xan dedi: «Ata, nə olmuşdur?». [Qara xan] dedi: «Bu saat [əmr edərəm] əhvalatı sənə oxuyarlar!».

[Sonra] öz uluflu qoşunlarına əmr etdi: «Bu haramzadələri tutun!». Talarda[92] olanları bir-bir tutub əllərini bağladıqdan sonra aşağı gətirdilər. Onların sırasında olan Ibrahim Ağa dedi: «Xan məni də tutursunuz?». Ibrahim Ağa Qara xan ilə yaxın idi və istəyirdi ki, yaxınlıq edib qohum olsun. Qara xan buyurdu: «Bəli, bəli bütün bu fitnələrin başçısı elə sənsən!».

Müxtəsər, onların hamısını tutdular. Onların və tərəfdarlarının evlərini soyub qarət etdilər. (17,a) [Qara xan] təxminən bir ay Gorganrud və Asalim mahallarında qalıb hökumət işlərini idarə etdi. Hər kəndə yeni kədxuda təyin etdikdən sonra Lənkərana qayıtdı. Qara xanın bu hərəkətini eşidən rəştli Hidayət xan qoşun toplayıb [Talışa gəlmək] fikrinə düşdü. O zamanlar Vilgic mahalında bir tayfa [müstəqil] hökumət iddiasında idi. Qara xan onlar ilə birləşib [Hidayət xana qarşı sadiq bir dost olmağa] and içdilər. Şindan[93] qalasını özlərinə istehkam seçdilər. Rəştli Hidayət xan öz qoşunu ilə gəlib çatana qədər onlar bütün ərzaq və azuqələrini Şindan qalasına aparıb orada anbara yığdılar. Rəştli Hidayət xanın qoşunu Gorganrud vilayətinə çatdıqda, içdikləri anda müvafiq olaraq öz köçləri ilə Şindan qalasına getdilər. Rəştli Hidayət xan gəlib gördü ki, Qara xan, Mir Mustafa xan, Mir Əsgər bəy, Şahpələng bəy və onların müttəfiqi olan Mehrəli bəy, Ağa Qəni, Ağa Əbdül və digər şəxslər Şindan qalasına çəkilib möhkəm istehkam arxasında yerləşmişlər. Onlarla bir neçə dəfə müharibə etdisə də, rəştli Hidayət xan məqsədinə çata bilməyib məğlub oldu. Nəhayət, [qalanı] mühasirəyə aldı. Iki il Şindan qalasını mühasirədə saxladı. Qaladakılar ərzaq çatışmazlığından çox çətinlik çəkdilər. Aman istədilər. Onlar az qalmışdı aclıqdan birbirlərini yesinlər. Nəticədə çarəsiz qalıb qaladan çıxıb aman istədilər. Öz qılınclarını boyunlarından asıb rəştli Hidayət xanın hüzuruna gəldilər. Rəştli Hidayət xan Qurana and ki, siz mənə itaət etsəniz, günahlarınızdan keçərəm, Keçmişdə olduğu kimi yenə də sizi Talış vilayətinə hakim təyin edərəm. içdi Lakin onlar yetişən kimi rəştli Hidayət xan Qara xanı, Mir Mustafa xanı, Mir Əsgər bəyi və Şahpələng bəyi həbs edib ailələri ilə birlikdə Rəştə göndərdi. Onları həbs etməklə kifayətlənib [xatircəm oldu]. Elə fikir etdi ki, Talışda itaət (17,b) yolundan kənara ayaq qoyacaq bir adam qalmamışdır. [Ona görə də] Şindan qalasından qayıdıb Rəşt vilayətinə getdi. Oradan Talış kədxudalarına nə qədər əmr verdisə, [onlardan] biri də onun

əmrinə qulaq asmadı. Drığ vilayətindən Şahmar bəy adlı bir nəfər baş qaldırdı. Onun ətrafına çoxlu adam yığıldı. [Onlar Hidayət xana qarşı] üsyan etdilər.

Indi Sizə Qara xan və Mustafa xandan xəbər verim. Hidayət xanın əmrilə onlar Rəşt şəhərində həbsdə idilər. Onların mənzili qarşısından bir çay axırdı. Rəştin avam kiləkləri[94] hər səhər çılpaq suya girib oynayırdılar. Onların bu hərəkəti Mir Mustafa xanın xoşuna gəlmədiyindən özlüyündə [belə] fikir etdi: «Bunları öldürməkdən başqa bir çarə yoxdur». [Bir gün] yenə də həmişəki kimi çayda üzüb çimirdilər. Mir Mustafa xan onlara xəbər göndərib [dedi]: «Bu nə ədəbsizlikdir ki, bizim arvad-uşağımızın qarşısında edirsiniz? Axı biz seyid, peyğəmbər övladıyıq!». Onlar gilək dilində cavab verdilər: «Biz seyyid, meyyid bilmirik!». Üzlərini [xanın olduğu mənzilə tərəf] çevirib iyrənc hərəkətlər edir, qəhqəhə ilə gülürdülər. Mir Mustafa xan tüfəngini götürüb onlardan iki-üç nəfərini güllə ilə vurub öldürdü. Onlar fəryad edib ağlaya-ağlaya Hidayət xanın hüzuruna getdilər. [Xana] ərz etdilər: «Bu talışlılar burada da [bizimlə] düşmənçiliyə başlamışlar. Iki-üç nəfərimizi güllə ilə öldürdülər!». Rəştli Hidayət xan tez Mir Mustafa xanı hüzuruna çağırıb dedi: «Siz burda da fitnə ilə məşğulsunuz. Bu nə hərəkətdir?». Mir Mustafa xan cavabında: «Bizi öldürmək fikriniz varsa öldürün. Bu hörmətsizlikdən [ölüm] yaxşıdır. Axı biz seyid, peyğəmbər övladıyıq. Məgər siz məlun yezid tayfasındansınız ki, giləklərin bizə belə hörmətsizlik etməsinə əmr verirsiz!». Rəştli Hidayət xanın hüzurunda molla, şeyxülislam[95] və müctəhid tayfasından da bir neçə nəfər vardı. (18,a) [Onlar] Hidayət xanı danladılar. Hidayət xan əmr etdi: «Bu gündən sizə icazə verirəm. Əgər bir adam yenə də elə ədəbsizlik etsə, öldürün. Gedə bilərsiz!». Bu [hadisədən] sonra o yoldan keçənlər ətrafına baxmadan Mir Mustafa xanın [yaşadığı] mənzilə təzim edib keçirdi.

Indi də əvvəlki mətləbə keçək. Təxminən dörd ildən bir qədər az müddətdə drığlı Şahmar bəy Talışda hakim oldu. Kimsəyə baş əymədi. Hidayət xan on iki minə yaxın qoşun toplayıb, Şahmar bəyi cəzalandırmaq üçün [Talışa] gəldi. Şahmar bəy də çox adam toplayıb dəniz kənarında hazırda Şahmar adı ilə məşhur olan [yerə] gəldi. [Burada] iki qoşun bir-birilə rastlaşdı. Müharibənin əvvəlində Hidayət xanın qoşunu böyük məğlubiyyətə uğradı. Rəştli Hidayət xan Şahpələngi də özü ilə gətirmişdi. Rəştə qayıtmaq haqqında Şahpələng ilə məsləhət elədi. Şahpələng razı olmayıb dedi: «Evin yıxılsın, sən buradan qaçsan, Talış qoşunu sənin qoşununu Ənzəliyə[96] kimi təqib edib hamını qılıncdan keçirəcəkdir. Yaxşısı budur ki, bir səngər qazıyıb oturaq. Görək nə etmək lazım gələcəkdir!». Hidayət xanın qoşunu bir səngər düzəldib orada yerləşdi. Güllə atmağa başladılar. Drığlı Şahmar bəy hərdən bir özü atla [meydana] girib Hidayət xanın qoşunundan on-on beş nəfərini qırırdı. O, giləklərin gözünü elə qorxutmuş idi ki, onlar onu gördükdə ona

güllə belə ata bilmirdilər. Yalvarıb deyirdilər: «Allah xatirinə bizi öldürmə, biz çıxıb gedirik. [Bizi] Şahpələng qoymadı, onun evi dağılsın!». (18,b) Drıqlı Şahmar bəy Şahpələnkin fikrini anlamışdı. O, daima [düşmənə] hücum edib uca səslə üç xəlifəni[97] söyurdü: «Ey dinsizlər! Donuz kimi nə üçün durmusunuz? Niyə qayıdıb getmirsiniz? Niyə razı olmursunuz ki, mən bu giləklərin bir qədərini qılıncdan keçirim. Mən bilirəm ki, onlar sizə arxayın olub qaçmırlar!». Şahpələng bəy bərk hirslənir, lakin yenə də səbr edirdi. Nəhayət, Şahmar bəyin tənəsindən təngə gəlib dedi: «Ey ləvənd, mən səni öldürmək istəmirdim. Lakin sən həya etmədin!». Sonra öz tüfəngini götürüb Şahmar bəyə [bir güllə] atdı. Zahirdə sanki [güllənin təsirindən] bir şey hasil olmadı. Lakin Şahmar bəy bir daha dava meydanında at çapmadı. Şahpələng bir tərəfdən Şahmar bəyin söyüşlərindən acıqlanır, digər tərəfdən isə belə fikirləşirdi: «Bir vaxt gələr ki, buradan xilas olarıq. Şahmar bəy bizi Talış vilayətinə girməyə qoymaz. Yaxşısı budur ki, onun söyüşlərini bəhanə edib işini bitirim!». Müxtəsər, Şahmar bəy oradan qaçmağa üz qoydu. Yolda isə atdan düşüb öldü.

Hidayət xan artıq bir addım da irəli atmağa cəsarət etmədi. Allahdan cansağlığı istəyib bir başa Rəşt tərəfə qaçdı. Bir daha Talış vilayətinə hökm və fərman göndərməyə cəsarət etmədi. Çünki Şahpələngi orada özünə xeyirxah görmüşdü. [O] Qara xanı, [Mir] Mustafa xanı və başqalarını, həmçinin Şahpələng bəyi öz yanına çağırıb onlar ilə məsləhət edib [fikirlərini soruşdu]: «Talışı öz ixtiyarımıza keçirmək üçün nə tədbir görək? Hazırda Talış sahibsizdir!». Onlar [belə] məsləhət gördülər: «Siz Mir Əsgər bəyi azad edib Talışın hakimiyyətini ona verin. (19,a) O, gedib asanlıqla bütün Talış vilayətini sizin itaətinizə salar. Siz xatircəm olun, biz burada sizin xidmətinizdəyik. O [sizə] lazımi xidmət [göstərəcək] və can yandıracaqdır!». Buna görə Hidayət xan onların məsləhət və tədbirlərinə [inanıb] xatircəm oldu. Unutdu ki, «dəmir mıx daşa getməz!».[98]

Mir Əsgər bəyi hakim təyin edib, Talış vilayətinə göndərdi. Mir Əsgər bəy Talış vilayətinə çatan kimi hamı ona itaət etdi. O da Hidayət xana sadiq idi. Çünki Mir Əsgər bəy [Talışa] gələrkən Mir Mustafa xan və Şahpələng bəy onu öyrətmişdilər ki, o, bir il bir növ özünü Hidayət xana [sadiq] tanıtsın. Onu xatircəm etsin. Bir ildən sonra [Hidayət xana qarşı] baş qaldırsın. Bir ildən sonra Mir Əsgər bəy baş qaldırıb itaətdən boyun qaçırdı. Rəştli Hidayət xan Mir Mustafa xanı və Şahpələng bəyi hüzuruna çağırıb dedi: «Mir Əsgər bəyin fikri nədir?». Onlar ərz etdilər: «Mir Əsgər bəy cavandır. Talış fitnəçiləri onu yoldan çıxarmışlar». Mir Mustafa xan [Talışda asayış yaratmaq] məqsədilə dedi: «Siz məni azad buraxın. Mən Talışa gedim. Talış vilayətində sizin üçün asudəlik yaradım. Mən [əgər] sözümdə sadiq olmasam, sizin yanınızda qalan ailəmə, atama və Şahpələng bəyə lazımi cəza verə bilərsiz!».

Hidayət xan onun ərzini qəbul etdi. Onu Talışa göndərdi. Şahpələng və Qara xan Mir Mustafa xana təlimat verdilər: «Talışda öz hökmranlığını möhkəmləndirdikdən sonra yanıma gizli bir elçi göndərərsən. Biz də öz başımıza bir çarə edərik». Mir Mustafa xan Talışa gəldi. Iğtişaşın təhrikçisi o, olduğundan Mir Əsgər bəy və başqa [iğtişaşçılar] qul kimi ona tabe oldular. Aradan bir neçə ay keçdi. Şahpələng və Qara xan hazırlaşıb nahar vaxtı öz adamları ilə Rəştdən (19,b) Talışa köçdülər. Yol üstundəki bütün kəndləri qarət edib soydular. Qarət edilmiş kəndlərə Hidayət xan tərəfindən heç bir imdad olmadı. Şahpələng və Qara xan asanlıqla Talışa varid oldular. Talış vilayətində rahatlıqla yerləşdilər. Rəştli Hidayət xanı aradan qaldırmaq fikrinə düşdülər. Çox qoşun hazırlayıb Rəştə yola düşdülər. Hidayət xan bu qədər qoşunun qarşısında dura bilməyəcəyini mülahizə edib gəmi ilə Rəşt dənizində lövbər salıb dayanmış gəmidəki Rusiya məmuruna pənah apardı.[99] Kərəciyə minib rus gəmisinə tərəf qaçdı. Mir Mustafa xanın adamları onu təqib edərək tutdular və işini bitirdilər. Rəşt vilayəti çox böyük idi. [Məsəldir deyərlər] «Kiçik qab öz ölçüsündən artıq su tuta bilməz». Mustafa xan güclü düşməni məhv etdiyini qənimət bilib, sağ və salamat öz vilayətinə döndü. Çünki Iraq padşahı tərəfindən Mir Mustafa xanın qulağına bəzi təhdidedici xəbərlər çatırdı. Müqavimət edə bilmədi. Öz işinin [nəticə etibarilə] çətin olacağını mülahizə etdi. Bir neçə ildən sonra o, Talış vilayətində hakimiyyət bayrağını qaldırdı.

Bu vaxta qədər yazılan hadisələr atamın Mir Mustafa xan tərəfindən aparılıb özünə mirzə təyin edilməsindən əvvələ aiddir. O zamanlar atam çox kiçik idi və ya heç dünyada yox idi. Bu, Qara xan və Mustafa xanın Rəştdə həbsdə olduqları mərhələdir. Indi də bir neçə kəlmə Ağa Məhəmməd şah zamanından ərz edim.

Ağa Məhəmməd şahı Qarabağda öldürdülər. Onun bacısı oğlu Fətəli xan padşahlıq iddiasında idi.[100] Iraq vilayəti ona tabe olmuşdu. Onun Rzaqulu xan adlı bir qardaşı varmış.[101] O öz qardaşına itaət etməyib qaçmış, Talış hakiminə pənah aparmışdı. O zaman Talış hakimi məşhur Mir Mustafa xan idi. Rzaqulu xanın [ona pənah gətirib] birləşməsilə Mir Mustafa xanın qeyrət dəryası hərəkətə gəlmişdi.[102] Salyandan Asalimə qədər Talış qoşununu (20,a) toplayıb hazırlamışdı. O zaman qışın başlanğıcı idi. Rzaqulu xan Ərcivanın[103] Gəzənd-dəşt çəmənində düşərgə salmışdı. Mir Mustafa xan qoşun hazırlamaq fikrində olmuş, Gilan xanlarından bəzilərinə də gizli məktub yazıb onları bu işə cəlb etmişdi. Xanların çoxu buna razı olmuşdu. Onların içərisində çox şövkətli və güclü olan şiftli Ağaəli də vardı. Norvuz bayramından 10-12 gün keçdikdən sonra Mustafa xan qaniçən sərkərdələri ilə Talışdan Gilana tərəf hərəkət etmişdi. Mustafa xanın əmisi oğlu muğanlı Xankişi xan da altı min piyada və atlı ilə qoşunun avanqardını təşkil edirdi. Mustafa xan harada düşərgə salsa idi, [Xankişi xan] ondan altı mənzil irəlidə dayanırdı. Bu qayda

ilə yürüş edirdilər. Rzaqulu xan da onlarla yol yoldaşı idi. Mir Mustafa xanın bu yürüşlərindən xəbər tutan Fətəli şah Mazandaran, Beluc,[104] Xələc və Iraqdan[105] 25 min qoşun toplayıb Mir Mustafa xana qarşı göndərdi. Rəştdən iki ağac o tərəfə iki qoşun [bir-birilə] görüşdü. Fətəli şahın qoşunu daha çox olduğundan Rzaqulu xana döyüş meydanı dar oldu. Talış sərkərdələri hər tərəfdən fədakarlıqla vuruşurdular. Qacar tayfasının hər yerdə igidlikdən məhrum olduğu aydındır. Nadirin tarixində[106] yazıldığı kimi qızılbaşlar[107] bütün müharibələrdə məğlub olur. Az qalmışdı Rzaqulu xan da ata-baba adətini təzələsin. Təşvişlə nökərlərindən birinə buyurdu: «Sərkərdələri çağırın!». Haman nökər yüksək səslə: «Ey şiftli Ağaəli, ey şiftli Ağaəli!» Rzaqulu xan hirslə buyurdu: «Ey pədərsuxtə, şiftli Ağaəli nə itdir? Şahpələngi çağırın!». Xülasə, Şahpələngi hüzuruna çağırdı.[108] Şahpələng gördü ki, Rzaqulu xan qorxusundan canını təslim etmək ərəfəsindədir. Şahpələng (20,b) Rzaqulu xana ərz etdi: «Qurbanın olum, heç qorxma! Mənə bir saat möhlət ver!». O saat hər biri əждaha kimi hüçum edən, qaniçən və dava meydanını «turna döydü» oyunu təsəvvür edən Vilgic, Təngərud, Siyaku tüfəngçilərini yanına çağırdı. Həmişəki kimi tüfəng atmadan dava etməyi onlara tapşırdı. Yəni xəncər və qılınca ol atıb «ya Əli» deyərək [düşmənə] hücum etdi. Şahpələng belə müharibəni donuz davası adlandırırdı. Bütün tüfəngçilər itaət gözü üstə əl qoyub [razı oldular]. Iraq qoşunu üzərinə hücum etdilər. Yarım saat ərzində ölənlərin cəsədindən təpə qaladılar. Çox əsir aldılar. Istədikləri qədər qarət etdilər. Iraq əsgərlərinin hər biri toyuq kimi başını kol-kosa soxub [gizləndi]. Bu qorxulu xəbəri Fətəli şahın qulağına çatdırdılar.[109] O, bu xəbərdən çox qorxdu. Onun yaxın adamları belə məsləhət gördülər ki, bu alovlanmış odu soyuq su ilə söndürmək lazımdır. Xanlardan ikisini Mustafa xan və Rzaqulu xanın yanına göndərdi. And içib Rzaqulu xanı bu sözlərlə əmin etdi: «Qardaşınız Fətəli şah deyir ki, qardaşım bu fitnədən əl çəkib gəlsin. Azərbaycan vilayəti onun payı olsun.* Oranın hökumətini özü idarə etsin. Iraq vilayəti isə mən, Fətəli şaha çatsın!». Rzaqulu xan onun sözlərinə aldanıb şahın hüzuruna getdi. Mustafa xan ilə də belə danışıq aparıldı: «Denyaçal çayından Salyana kimi bütün Talış vilayəti xalisə mülkü olaraq sənin və övladlarının ixtiyarında qalsın. Talışdan toplanılan tövcü və vergilərdən zərrə qədər də dövlət xəzinəsinə daxil olmasın. Ancaq zahirən Mustafa xanın [Irana] tabe olduğu elan edilsin». Bundan əlavə, Gilan və Rəşt gəlirindən də ildə iki min əşrəfi daimi olaraq (21,a) Mustafa xana veriləcəyi [vəd edilirdi].

Mir Mustafa xanda o qədər təkəbbür, qürur və dikbaşlıq vardı ki, bu vədlərə razı olmurdu. Lakin xeyirxah məsləhətçilər araya girib min

---

* Мирзя Ящмяд сящв олараг Фятяли шащ йазыр. Рзагулу хан Гаъарын гартгашы Аьа Мящяммяд шащдыр.

zəhmətdən sonra Mustafa xanın ürəyini bir az yumşaltdılar. Mustafa xan döyüşdən əl çəkdi. Qoşununu götürüb rahat Lənkərana qayıtdı. Bundan sonra kimsə öz evində gecələr [belə] öz arvadı ilə Mir Mustafa xanın adını çəkməyə cəsarət etməzdi. Qorxudan hamınıi ödü partlayırdı. Beləliklə, o, Talışda iyirmi ilə yaxın müstəqil hökm sürdü.[110] Kəmhövsələ və sözündən dönən Fətəli şah hər tərəfdən vəziyyətini möhkəmləndirib tədricən Mustafa xan haqqında düşünməyə başladı. Dostluq və mehribanlıqla belə bir xahiş etdi: «Xatircəmlik üçün Mustafa xanın övladlarından bir qız və bir oğlan Tehranda olmalıdırlar». Mustafa xan öz qardaşı, ilə bacısını nökər və kəniz sifətilə şahın sarayına göndərdi. Aradan bir il keçdikdən sonra həmin oğlanı və qızı [orada] öldürdülər. Belə bir şayiə yaydılar ki, «Tehranın havası çox ağır olduğundan onların səhhətinə pis təsir etdi, onlar da vəfat etdilər». Bu sözlər çürük əfsanə idi. Bu hadisədən sonra [Mustafa xana] inanmayan Fətəli şah öz vəziri Mirzə Əbülqasım Büzürgü[111] Mir Mustafa xanın yanına elçi göndərib [bildirdi]: «Mustafa xan mənimlə qohumluq etməlidir!». Mir Mustafa xanın Bəyim ağa adlı bir qızı vardı.[112] Dünyada onun kimi gözəl olmamışdı və ola da bilməzdi. Qızın yeddi yaşı vardı. Onu Fətəli şahın böyük oğlu Məmmədəli şah üçün nişanladılar.[113] Mirzə Əbülqasım (21,b) sevinclə geri qayıtdı. Bir az keçmədi [şahdan] təklif gəldi ki, Mir Mustafa xan öz qızını Tehrana göndərsin, [qız] böyüyənə qədər Tehranda qalsın. Böyüdükdən sonra isə Tehranda ona toy olsun. Mir Mustafa xan bu ağır təklifə razı olmadı. Talış mahalının bütün kədxudalarını toplayıb üç aya kimi Lənkəranda [bu barədə] məsləhətləşdilər ki, qızı Tehrana göndərsinlər və ya [şah ilə] davaya başlasınlar? Mir Mustafa xanın baş əmirlərindən biri – ucarütbəli drığlı Ixlas bəydən başqa məsləhətçilərdən heç kəs qızın göndərilməsini məsləhət görmədi. [Ixlas bəy] cəsarətlə ərz elədi: «Qurbanın olum, siz razı olmayın bir qız xatirinə on min can tələf olsun. Əlbəttə, qızı verib yazıq [əhalinin] canını ölüm atəşindən qurtarmaq məsləhətdir!». Mir Mustafa xan ucarütbəli Ixlas bəyin dilindən bu sözləri eşidərkən çox acıqlandı. Xəncərini belindən çəkdi. Ucarütbəli Ixlas bəyə tərəf hücum edib buyurdu: «Ey arvadı fahişə! Sən istəyirsən ki, mən öz namusumu girov verim, siz isə Talışda rahat olasınız. Mən bunu əsla qəbul etmərəm. Mən Qacara yox, rus dövlətinə pənah apararam!». Kədxudalardan Güdə Kələntər deyilən biri dedi: Qurbanın olaq, Urus [padşahından] və Qacardan [yaxa qurtarmağın] çarəsi asandır. Heç kəsə itaət etmədən haman dağın başına gedin. Hər iki qoşuna papaq göstərin!». Bu söz Mir Mustafa xanın arzusuna uyğun olduğundan çox xoşuna gəldi, buyurdu: «Bəli, söz sizin dediyinizdir, canlarını xilas etmək üçün (22,a) hərə bir məsləhət irəli sürür!». Nəticədə baş əymədən döyüşə başladılar. Fətəli şahın əmrinə cavab verdilər. Mir Mustafa xan Fətəli şah Qacara belə yazırdı: «Sizin adınız Şah olsa da, mən özümü sizdən əksik saymıram!». Buna görə Mir Mustafa xanı cəzalandırmaq üçün

Fətəli şah Babalı xanın[114] başçılığı altında çoxlu qoşun göndərdi ki, Mir Mustafa xanı tutsun, bütün Talışa od vurub yandırsınlar. Babalı xanın ixtiyarında olan Şandermen,[115] Masal,[116] Şift,[117] Dolab Talışı[118] və başqalarından ibarət olan Gilan vilayətinin qoşunu da təntənə ilə Ərdəbildə durub hər iki tərəfin müharibəyə başlamasını gözləyirdi. Mir Mustafa xan [məsələdən] xəbərdar idi. Onun da bu barədə öz fikri vardı. [Mir Mustafa xan] Kərbəlayı Əsədulla adlı bir nəfəri yardım istəmək üçün rus padşahının ölkəsinə göndərdi.[119] [Hazırda] bu sətirlər yazılarkən Miladın 1882-ci ilidir. Onun Kərbəlayı Əsədulla bəyin evladlarından biri sağdır. O, butəsərli Kərbəlayı Rəcəb oğlu Məşədi Əkbərdir. Zirəklikdə, biclikdə və hiyləgərlikdə dünyada misli yoxdur. [Bu işdə] o, öz ata-babalarını da keçmişdir. O zamanda rus padşahı qadın idi. Adı Fenaşinpurx idi.[120] O, Kərbəlayı Əsədullanın sözünə bir o qədər də inanmayıb Yeqor balasının komandası altında dəniz yolu ilə iki yüz nəfər soldat göndərmişdi.[121] Qacar qoşununun gəlməsindən bir qədər əvvəl Yeqor balası iki yüz soldat və iki topla Lənkəran körfəzinə daxil olub xanın hüzuruna yetişmişdi. [Düşmən qoşununun] gecə basqını təhlükəsinə qarşı o, iki yüz nəfər soldatdan yüz əllisini gəmidən sahilə çıxarıb, Mir Mustafa xanın divanxanası qarşısında yerləşdirmişdi. Onda Mir Mustafa xanın evi və imarəti dəniz sahilinə yaxın idi. [Indi] bu sətirlər yazılarkən Rusiya dövləti orada möhkəm bir qala tikmişdir. Əhalinin rəvayətinə görə Mir Mustafa xanın divanxanası həmin qalanın yerində idi. Hər gün casuslar xəbər gətirirdi ki, yaxın günlərdə Qacar qoşunu Ərdəbildən Talışa gələcəkdir. Təsadüfən bir gün Mir Mustafa xan öz imarətində – divanxanada nahar yeməylə məşğul idi. Birdən baxıb gördü ki, (22,b) Bəlləbur[122] kəndindən tutmuş xanın Divanxanasına [qədər ərazidən] ibarət olan Çayiçi[123] atlı və piyada qoşunla doludur. On iki bayraq [dalğalanır]. Bu qoşunu görən [xanın] halı dəyişmədi. Oğlanlarına buyurdu: «Ata minib müdafiəyə başlayın!». Özü yeməkdən əl çəkmədi. Yavaş-yavaş yeməyə başladı. Oğlanlarından şir ovlayan Mir Həsən xan ki, dünyada hələ belə bir oğul doğulmayıb, bundan sonra da doğulmayacaqdır – bir neçə nökərləri[124] ilə tez ata mindilər. Nökərləri ilə atlanıb Qacar qoşunundan müdafiəyə girişdilər. Bu əsnada gördülər ki, həmin yüz əlli nəfər rus soldatı öz tarelka [boşqab]larını götürüb dəniz tərəfə qaçırlar. Heç müqavimət göstərmirlər. Mir Mustafa xan onların bu vəziyyətini görüb güldü və buyurdu: «Bunlara baxın, hələ qoşun onlara çatmamışdan görün necə qaçırlar. Biz nə qədər ağılsızıq. Bunlara ümid bağlayıb Iran padşahı ilə baş-başa dava edirik. Allaha pənah!».

Bir anda Mir Mustafa xanın oğlanları hərəsi bir tərəfdən dəniz kimi qoşunun canına düşüb [ona] böyük tələfat verdilər. Onları təqib edib qaytardılar. Bəylər kəndi qarşısında dayanmağa məcbur etdilər. Axşam çağı idi. Döyüşdən əl çəkib, hər iki tərəf qarşı-qarşıya durmuşdu. O cümlədən

Dolab Talışı və Şandermen adamlarından səkkiz min piyada tüfəngçi məşhur darğa Nur Məhəmmədin[125] evlərindən yuxarıdakı qəbiristanda yerləşdilər. Həqiqətən ora çox pis yer idi. Çünki qərbdən Kosalar[126] biçarı, şimaldan çay, qiblə tərəfdən böyük Suxtamurdab çayı[127] vardı. Çətin vəziyyət idi. Heç bir tərəfdən bura kəlməyə yol [tapmaq] imkanı yox idi. Mir Mustafa xan gecə basqını etmək üçün tədbir gördü. Lakin o zaman xanın xidmətində bir o qədər qoşun yox idi. Xanın əmrilə hamı öz ailəsini (23,a) Gamışavan adasına[128] gətirmək üçün [evlərinə] getmişdilər. Bu əsnada Ucarud tərəfdən Muğanı çapıb-talan etmək üçün on iki minlik qoşun gəldiyini xəbər verdilər. Mir Həsən xan atasının əmrinə görə, bir neçə nəfər qaniçən nökərləri ilə [müdafiəyə] hazırlaşdı. Bu [nökərlərdən] biri şahsevən Cəfər bəy,[129] allah şahiddir, əgər desəm ki, o qılıncının bir zərbəsilə bütün Talışı yerlə yeksan edər, yəqin siz inanmazsınız. Mir Həsən xanın lələsi döyüşdə ikinci Rüstəmi [Zal] kimi misli olmayan Kərbəlayı Şahverdi bəy Kələntərov, özünü Kərbəlayı Şahverdi bəydən əskik tutmayan və əksik də olmayan, gözü önündə yüz güllə atsaydılar da kirpiklərini belə qırpmayan və Mir Həsən xanın əzizi olan ucarütbəli Rza Əli bəy Əli Mirzə bəy oğlu, Zəkəriyyə bəy Əli Mədəd oğlu və bunlardan başqa bir neçə nəfər də vardı. Onların adlarını bir-bir yazmaq olmaz. Çünki biz onlardan qorxuruq. Əgər adları dillərdə söylənərsə, o, igidlər qeyrətə gəlib torpaqdan baş qaldırar, cəmaəti qılıncdan keçirərlər. Dünyanı xalqa dar edərlər. [Bəlkə də] xalq mənim bu tərifimi sırf istehza hesab edir. Lakin allah şahiddir. [Onlar] bundan artıq tərifə layiq idilər. Mən onlardan hər birinin döyüşlərdə göstərdikləri igidliyi yazmaq istəsəm, [onda] gərək Mir Mustafa xan və Mir Həsən xanın əhvalatından əl çəkmiş olam. Heyf ki, mənim məqsədim Mir Mustafa xan və Mir Həsən xanın əslini-nəcabətini yazmaqdır.

Xülasə, Mir Mustafa xan səkkiz min tüfəngçinin (23,b) üzərinə gecə basqını etdiyi zaman, Mir Həsən xan nökərlərlə birlikdə həmin qəbiristanda səngər düzəltmişdilər. Mir Hüseyn xan[130] atasının xidmətində idi. Buna görə Mir Mustafa xan Mir Hüseyn xana əmr verdi: «Nə qədər işə yararlı atlı varsa özün ilə bərabər götürüb səhər çağı Böyük yoldan o qoşuna hüçum edərsən. Onlar bunu görəndə döyüşə başlayacaqlar. Onda, siz qaçmağa üz tutub yavaş-yavaş geri çəkilin. Mən də Ağa Lələ bəyin komandası altında olan Miyankuh tüfəngçiləri ilə pusquda [durub] həmin qoşuna hücum edərik!». Mir Hüseyn xan razılıq əlini gözü üstə qoyub qəbul etdi. Hazır oldu.

Atam Mirzə Xudaverdi deyir ki, mən də Mir Mustafa xanın yanında idim. Mir Mustafa xan göstəriş verib xatircəm olduqdan [sonra] bir qədər adam, o cümlədən əlsiz-ayaqsızları götürüb pusquda durdu. O, səssiz hazır durub Şürük[131] tərəfdən Mir Həsən xanın gəlməsini gözləyirdi. Səhər açıldı. Mir Həsən xandan bir əsər görünmədi. Bir iki saat keçdi. Çayiçində arasıra güllə atıldığını eşitdilər. Mir Hüseyn xanın qorxudan [Böyük] yol ilə deyil,

Çayiçindən hücum etdiyi məlum oldu. Atlılar birbir çəmən yolu ilə atlarını çapırdılar. [Mir Hüseyn xanın] bu hərəkətini eşitdikdə Mir Mustafa xan buyurdu: «Artıq heç bir iş etmək mümkün olmayaçaq!». Öz dəstəsinə əmr elədi: «Siz də davaya başlayın, görək allah nə məsləhət bilir!». Sözün qısası bunlar da (24,a) Şürük tərəfdən tüfəng atmağa başladılar. Istənilən [nəticə] hasil olmadı. Çünki Mir Mustafa xanın adamları düz çöldə idi, onlar isə xəndəkdə səngər salmışdılar. Təxminən on saat hər iki tərəfdən atışma oldu. Qacar dəstələri məğlub olmadı. On iki saatdan sonra döyüş alovu yavaş-yavaş sakitləşdi. Bu Mir Mustafa xanı sevindirdi. [O], belə düşünürdü: «Bəlkə [düşmən] qaçmaq istəyir. Mən, Mirzə Xudaverdi bir ağacın başına çıxdım ki, bəlkə bir şey öyrənə bilim. Mir Mustafa xan məni saxladı: «Ağaca çıxma, səni güllə ilə vurarlar!». Mən ərz etdim: «Qurbanın olum, ağacın bir tərəfindən elə yuxarı çıxaram ki, onlar məni görməsinlər!». Xülasə, [ağacdan] baxıb gördüm ki, yüz, iki yüz tüfəngçi hissə-hissə səngərdən çıxıb yavaş-yavaş Kosalar kəndinə tərəf gedirlər. Mən bu vəziyyəti tez [xanın] hüzuruna ərz etdim. Xan buyurdu: «Onlar ot üçün gedirlər!». Bir az keçmədi gördüm ki, dörd min piyada tüfəngçi qarşımızı kəsib az qalmışdır ki, bizi əsir alsınlar. O zaman Fətəli adlı bir şəxsin nəslindən [olan] təpgərudlu Məmmədbəy xanın qulluğunda idi. Heyf ki, o tək idi. Təngərudlulardan bir nəfər də yanında yox idi. Mir Mustafa xan ona əmr etdi: «Irəli gedib döyüşə giriş!». O, ərz elədi: «Məmməd başına nə kül töksün. Mən hara, Miyankuh tüfəngçiləri hara!». Mən onlara qarşı müharibə meydanına tək gedə bilmərəm!». Müxtəsər, müharibə meydanına gedib başını (24,b) yuxarı qaldıran kimi, onu başından güllə ilə vurdular. O saat canını təslim etdi. Bu qədər qoşunun qarşısında dayanmağın mümkün olmayacağını gördükdə Mir Mustafa xan atına minib Viyan[132] tərəfə qaçdı. Viyan Gərmətük kəndinin bir hissəsidir. Viyan ilə Şürük arasında çox palçıqlı bir bicar [düyü əkini] yeri vardı. Oradan keçmək çox çətin idi. Xanın adamlarının atları palçığa batdı. Çünki əkin vaxtı idi. Ağa Lələ bəyin rəhbərliyi altında Miyankuh tüfəngçilərinin hamısı Dizdəmeşə[133] tərəfə qaçdı. [Mir Mustafa] xan ucarütbəli Rza Əli bəyin qardaşı Abas Əli bəyi, Ağa Lələ bəyi öz tüfəngçilərilə geri qaytarmaq üçün göndərdi. Ağa Lələ bəy Abas Əli bəyin sözünə qulaq asmayıb dedi: «Xana deyin Gilək Hacı Məmmədəlini öz yanına çağırsın. Çünki davanı bizim yox, onun məsləhəti ilə aparır. [Qoy] indi də Hacı Məmmədəli gəlib ona kömək etsin!». Ağa Lələ bəy geri dönmədi. [Mir] Mustafa xan adamları ilə Gərmətük kəndinə gəldi. O istəyirdi ki, Lənkəran çayını keçib Sərdabəyi Xil[134] yolu, yəni Şiləvar və Digah[135] kəndləri yolu ilə özünü Gamışavan səngərinə çatdırsın. Çünki xanın və [Irana tabe olmayan] bütün üsyançıların köç-külfəti Gamışavanda idi. O, Qacar qoşununun hüçum edib Gamışavanı alacağından, qətl və qarətə başlayacağından qorxurdu. Lakin baxıb gördü ki, çaydan keçmək mümkün deyildir. Bu vaxt Qacar

qoşunundan minə qədər atlı və piyadanı səngərdən çıxıb drığlı Dərgah bəyin komandası altında xanın imarəti tərəfə getdiyini gördü. Mir Hüseyn xanın hansı kol-kos dibində gizləndiyi heç məlum deyildi. Dərgah bəy xanın imarətinə çatan kimi ona od vurdu. Odun şöləsi göyə yüksəldi. Mir Həsən Muğan atlıları və şirə bənzər nökərləri ilə özunü o saat atasının qulluğuna (25,a) yetirib ərz elədi: «Niyə durmusunuz?». Atası buyurdu: «Necə gedək? Səngərdən Lənkəran şəhərinə qədər [hər yer] atlıdır. Keçmək mümkün deyildir!». Mir Həsən xan ərz elədi: «Mən irəlidə gedirəm, siz də gəlin!».

Mir Həsən xan acıqlı şir kimi özünu Qacar atlılarının mərkəzinə vurdu. Atlı [qoşun] iki hissəyə bölündü. Bir hissəsi Lənkəran tərəfə qaçdı. Bir dəstəsi də səngərə qayıtdı. Yol düşməndən təmizləndi. Mir Mustafa xan Sərdabəyi Xildən Şiləvar ilə Digah arasındakı Şabəkünci yolu[136] ilə özünü Damışavan səngərinə saldı. Allaha şükr elədi. Qacar qoşunu da səngərdə idi. Onlar səngəri boşaldıb Lənkərana gəldilər. Mustafa xanın imarətində toplanıb qalada möhkəm istehkam düzəltməyə başladılar. Hər gün bir dəstə tüfəngçi səhər qaladan çıxıb günbatana kimi Mir Mustafa xanın qoşunu ilə müharibə edir, axşam yenə də Lənkəran qalasına dönürdü. Onların qarşısına Mir Hüsyn xan çıxıb dava etdiyi gün qaladakı [düşmənlər] rahat və xatircəm olurdular. Lakin talesiz Mir Həsən xan dava etdiyi gün qorxudan qaladakıların ürəyində qan qalmırdı. Onlar çox narahat olurdular.

Birinci gün Qacar sərkərdəsi Məmməd bəy Gamışavan səngərinə hücum etdikdə Mir Həsən xan onunla dava etməsə idi, şübhəsiz ki, o, Kamışavan qalasını alıb fəqir-füqəranı əsir edərdi. Lakin əждaha kimi hücum edən Mir Həsən xan məzlumların qanlarının tökülməsinə səbəb oldu. Sərkərdə Məmməd bəy də öldürüldü. Qacar qoşunu böyük məğlubiyyətə uğradı. Bütün qoşun başçıları şirinər Mir Həsən xandan qorxdular. Bu qayda ilə bir müddət hər iki tərəf arasında dava davam etdi. (25,b) Nəhayət, ərzaqvə yanacaq cəhətdən qaladakılara böyük çətinlik üz verdi. Atamın rəvayətində deyilir: Bir gün cənnətlik xan mənə buyurdu: «Bir uğurlu saat[137] seçin Veravul[138] kəndi samanlığına gedək. Bəlkə oradan heç olmazsa bir az odun gətirək!». Mən də bir xoş saat seçdim və cənnətlik xanın qulluğuna yetirdim. Cənnətlik xan sərkərdələrini toplayıb belə tədbir gördü: Mir Həsən xan bir neçə nəfər atlı ilə Veravul kəndində salınmış səngərin pusqusuna getsin. Bu səngərdə min nəfər Qacar qoşunu keşikdə durmuşdu. Mir Mustafa xan da bir neçə nəfər piyada tüfəngçi və sərkərdələri ilə qayığa[139] minib sübh çağı Murdab yolu ilə onlara basqın etsin, bəlkə uca olan allah köməklik etsin. O, səngərdəki qoşun dağılıb getsin. Qaladakılara odun [gətirmək üçün] yol açılsın.

Mir Mustafa xan mən, Mirzə Xudaverdiyə buyurdu: «Mənimlə qayığa oturun, gedək!». Mən istəmirdim. Mir Həsən xanın qulluğunda atlı olaraq getmək istəyirdim. Bir təhər ilə cənnətlik xanı qayıqda yola saldım.

Özüm [də] atımı minib Mir Həsən xana yoldaş olub getdim. Sübh namazı vaxtı Girdəni kəndinin çəmənliyinə çatdıq. [O yer] Zənəbbə adı ilə məşhurdur.

Mir Həsən xan atından yerə düşdü. Dəstəmaz alıb namazını qıldı. Onun adəti belə idi. Iki aləm bir-birinə dəysə də o, namazının vaxtını keçirməzdi. Namazı qurtardıqdan sonra buyurdu: «Atlıların sayını deyin!». Mir Həsən xanın ləlləsi ucarütbəli Kərbəlayı Şahverdi bəy də orada idi. O, atlıları saydı. Gördü ki, mənimlə və Mirzə Saleh ilə birlikdə otuz səkkiz nəfər atlı vardır. Bunlardan ikisi işə yaramırdı. Biri mən idim. Tüfəngim yoxdı. Belimdən bir qılınc asmışdım. [O biri də] Mirzə Saleh idi. Onun da əlində bir nizəsi vardı. Mir Həsən xan qılıncını belinə bağladıqdan sonra üzünü atlılara çevirib buyurdu: «Cəddimə and olsun, hər kim bu davadan geri dönsə, bu qılınc ilə (26,a) onun boynunu vuracağam!». Sonra atına minib Muğan nayibi ucarütbəli Xanı bəyə buyurdu: «Bizi qamışlıqdan elə keçirin ki, qoşunun ortasına düşək!». Girdəni ilə Veravul arasında bir o qədər məsafə olmadığı üçün bir az getdikdən sonra xan buyurdu: «Qulaq asın, güllə səsi hansı tərəfdən gəlir?». Dinləyib davanın Mir Mustafa xanın döyüşdüyü səngərdə getdiyini [xana] ərz etdilər. Bir neçə dəqiqədən sonra dedilər: «Tüfəng səsi [xanın] imarətinə tərəf, yəni Murad keçidinə yaxınlaşır!». Aydın oldu ki, xanın qoşunları səhvən və ya hiylə yolu ilə qaçmağa başlamışdır. Mir Həsən xan ucarutbəli Xanı bəyi hədələdi: «Bizi tez qoşuna yetir!». Alişan Xanı bəy yürüşü ləngidib yolu bir az uzatdı. Ərz etdi: «Qurbanın olum, bu [keçilməsi] çox çətin bir qamışlıqdır!». Ucarütbəli Kərbəlayı Şahverdi bəy Xanı bəyə dedi: «Ey məlun nə bəhanə gətirirsən, hər il bu qamışlıqda min dəfə ova çıxmısan. Rədd olub dala çəkil!». Kərbəlayı Şahverdi bəy öz atını irəli sürdü. Bir anda özünü Qacar qoşununun yaxınlığına yetirdi. Qacar sərkərdələri ehtiyat edərək ətrafa baxıb hansı tərəfdən qoşun gəldiyini öyrənmək üçün əvvəlcədən bir nəfəri ağacın başına çıxartmışdılar. O adam Mir Həsən xanın qoşununu görən kimi qışqırdı. «Qoşun gəldi!». Bunu eşidən kimi [Mir Həsən xanın] adamları iki dəstəyə bölündü. Biri səngərə tərəf qaçdı. Bir dəstəsi də qamışlıqda gizləndi. Mir Həsən xan səngərə hücum etdi. Mir Mustafa xan gördü ki, Mir Həsən xan dava edir, o da piyada tüfəngçilərlə hücuma keçdi. Qacar qoşunu səngərdən nə qədər güllə atdılarsa, Mir Mustafa xanın piyadaları, o cümlədən suxtamurdablı ucarütbəli Rza Əli bəy Əli Mirzəbəy oğlu onların gülləsindən qorxmayıb, bir neçə nəfərlə özünü səngərə atdı. Haqqında məlumat verdiyimiz Rusiya dəstəsi (26,b) sərkərdəsi Yeqor balası da işin başlanğıcında iki yüz soldat ilə orada idi. O, Rza Əli bəyin igidliyinə təəccüb edib xana dedi: «Rusiya padşahı soldatları arasında heç belə igid və cəsarətli adam yoxdur!». O, ucarütbəli Rza Əli bəyin igidliyinə afərin söylədi, [onu] çox tərifədi.

Qacar qoşunu səngərdən çıxıb qaçdı. Mir Mustafa xanın qoşunu səngəri qarət etdi. Onların bütün var-yoxunu öz əllərinə keçirdi. Murdabdan qayıq ilə gəlmiş adamlar qayıqlarını əşya, xüsusən odun ilə doldurdular. Atam söyləyirdi ki, bizim də Vələdi kəndi sakinlərindən Molla Rzaqulu tayfasından Əliəkbər uşaqlarından Zərdi, Qulam və Gənci adlı bir neçə nökərimiz vardı. Mən onlara tapşırmışdım ki, qayıq gətirib odun aparsınlar. Ona görə onlar da qayıq gətirmişdilər. Mən onların qayığına çox odun yüklədib Gamışavana evə göndərdim. Sonra ata minib Veravul qamışlığına girdim. Mükəmməl silahlı bir nəfərin qamışlıqda gizlənmiş olduğunu gördüm. O, qamışlıqda başını gizlətmiş, dalı isə aşkar görünürdü. Əvvəl mən ondan qorxdum. Bəlkə tüfəngi var, məni öldürər. Bir qədər uzaqda durub səsləndim: «Ay kişi nə üçün burada gizlənmisən?». O, başını palçıqdan qaldırıb yalvarmağa başladı. Onun tüfənginin yeddi bəndi olduğunu gördüm. Onu qorxudub [dedim]: «Tüfəngini aparıb iyirmi arşın o tərəfdə qoy sonra yanıma gəl. Qorxma mən səni öldürmərəm!». O, tüfəngini uzaqda qoyub yanıma gəldi. Qoltuğundan bir kisəcik çıxarıb mənə verdi [və dedi]: «Allah xatirinə məni öldürmə!». [Kisəcikdə] dörd tümən pul vardı. Mən gedib onun tüfəngini götürdüm. Onu səslədim: (27,a) «Düş qabağıma, gedək!». Onu atımın qabağına salıb getdim. Mir Mustafa xanın səngər kənarında oturduğunu gördüm. Qacar qoşunundan bir neçə nəfəri tutub xanın hüzuruna gətirmişdilər. Xan bizi gördükdə gülüb dedi: «Bunlar necə qorxaqdır ki, Mirzə də tüfəngsiz onlardan birini tutubdur!». Onun tüfəngi divana verildi. Özünü də xandan xahiş etdim mənə tapşırdılar. Boradıgah ətrafında və Ərkivan kəndlərində olan qoşun Mir Mustafa xanın bir həmləsilə həmin gecə qaçıb Lənkəran qalasına sığındılar.

Bundan bir neçə ay əvvəl Mir Mustafa xan kömək istəmək üçün Rusiya dövlət sarayına uluflu Mirzə Əhmədi elçi göndərmişdi. Elə bu vaxt Muğan yolu ilə Sarı mayorun[140] komandası altında dörd-beş min göy-göz, sarısaç soldatın gəlməsi xəbəri çatdı. Bu şad xəbəri eşidən Mir Mustafa xan öz mülazimləri ilə Sarı mayoru qarşılamaq üçün Qumbaşıya[141] kimi getdi. Çox qar yağmışdı. Sarı mayor soldatları ilə Gamışavan yolundan keçib Lənkərana getdi. Qacar qoşunu qaladan nə qədər güllə atdısa da, Sarı mayor heç qorxmadı. Gedib məşhur Kərbəlayı Xudaverdi məscidinin qabağında çadır qurdu. Bu sətirlər yazılanda, 1299 (1882)-cu ildə o məscid xaraba qalıb dağılmışdı. Onun yerində Hacı Əhmədin kürəkəni Məşədi Fərəc ev tikmişdi. Bu, həqiqətən çox yaxşı bina idi. [Sarı mayor] Mir Mustafa xanı yanına çağırıb ona dedi: «Xahiş edirəm altı-yeddi nərdivan sifariş edəsiniz. Mən bu Qacar qalasını bünövrəsindən dağıdım!». Mir Mustafa xan talışlara əmr etdi ki, gedib meşədə bir neçə nərdivan hazırlasınlar. Onlar nərdivanın uzunluğunu soruşdular. Sarı mayor dedi: «Boylarının uzunluğunu sabah özüm deyəcəyəm!». O gecə Sarı mayor bir soldat ilə gedib qala divarını

ölçdü. Sabahı [nərdivanların] ölçüsünü bildirdi. Nərdivanları düzəldib Sarı mayora verdilər. Sarı mayor türkcə [Azərbaycanca] dedi: «Bu gecə qalanı zəbt edəcəyəm!». Mir Mustafa xan buyurdu: «Allah qoysa!». Sarı mayor təkrar dedi: «Allah qoysa da tutacağam, qoymasa da». (27,b) Mir Mustafa xana dedi: «Siz adamlarınız ilə gedib uzaqdan tamaşa edin. Mənim sizə ehtiyacım yoxdur!». Təsadüfən o gün qaladan bir nəfər xanı elçi göndərmişdilər Barışıq ətrafında danışıq aparmaq istəyirdi. Lakin Sarı mayor buna razı olmadı. O, xana dedi: «Bu gecə siz qalaya getməyin. Yazıqsınız, məhv olarsınız. Mir Mustafa xan ilə gedib canınızı qurtarın!». O xan da Mir Mustafa xanla çayın bir tərəfində Suxta Murdab məhəlləsinə gəldilər. Atlarını orada qoyub piyada gəlib Hacı Novruz Əli məscidinin dalında durdular ki, oradan Sarı mayorun qalanı necə alacağını görsünlər.

Sübhə təxminən iki və ya iki saat yarım qalmışdı. Gördük ki, rus qalanın üstünə hücum edir. Qaladakılar da bundan xəbər tutub vuruşa hazırlaşdılar. Onlar qaladan iki məşəl çıxarıb qala xaricində yerə sancdılar ki, rus qoşununu görüb onları vura bilsinlər. Lakin Sarı mayorun soldatları bir anda onları yerdən çıxarıb qalanın içərisinə atdılar. Qalanın içi işıqlandı. Qaladan «ya Əli! ya Əli!» səsi yüksəldi. Soldatların da «ur-ra!, ur-ra!» səsi göyə qalxdı. Soldatların nərdivanlarla qala üstünə çıxdıqlarını gördük. Sərbazlar isə xəncər və qılınc ilə onları başından vurub aşağı salırdılar. Soldatlar isə ur-ra çəkib yenidən nərdivanlara dırmanırdılar. Iki saat ərzində hər iki qoşun arasında bu qayda ilə döyüş davam etdi. Gördük ki, şərq tərəfdən bir dəstə Gilək özünü qaladan aşağı atır. Sarı mayor soldatların önündə idi. Dörd yerdən yaralanmışdı. Qoltuğunda bir sınıq şeypur özünü qalaya atıb, şeypur çalırdı. Rus şeypurunun səsini eşidən rus soldatları güllə və qılıncdan heç də qorxmadılar. Qalaya həmlə etdilər. Qalanı alıb od vurdular.[142] Qacar məğlub olub qaçmağa üz qoydu. Lənkəran çayı ilə adamlar qoyun sürüsü kimi qaçırdı. Evi yıxılmış Sarı mayor əmr verdi ki, iki top arabasından qırmalı güllə atsınlar. Tələf olmuş adamların [cəsədi] qoyun kimi yerə sərildi. (28,a) [Çayın] suyu dayandı. Müsəlman ölülərinin çoxluğundan bir ay çay [cəsəd ilə] dolu qaldı. Camaat ölülərin üstündən keçirdi. Sonra Mir Mustafa xan əmr verdi ki, ölüləri dəfn etsinlər. Ətrafda quyular qazdırıb hər quyuya yüz ölü basdırdılar. Bu qayda ilə Lənkəran şəhəri və qalanın ətrafı zahirən bir növ təmizləndi. [Bundan sonra] Iran dövləti qorxudan bir də Mir Mustafa xan ilə müharibəyə girişmədi. Iran dövləti Talış vilayətində böyük müharibələr etmişdi. Bir neçə dəfə gecə basqını etmişdisə də, bir nəticə əldə edə bilməmişdi. Mir Mustafa xan bütün Talış vilayətinin iyirmi ildən çox müstəqil hakimi olmuşdu.

Mir Mustafa xan Talış vilayətini Qacar qoşunundan təmizlədikdən sonra Rusiya tayfasından [Talışda] bir dəstə [soldat] sakin oldu. Bunlar, idarə işlərinə qarışmadan bir il Talış meşəsindən odun qırıb gəmilər ilə Hacı

Tərxana göndərirdilər. Mir Mustafa xan Talışda qüvvətləndikdən sonra Rusiya vəzirlərindən biri Rus qarnizonu başçısına göndərdiyi bir məktubda soruşurdu: «Talışda meyvə neçə ilə yetişir? Yeməli olurmu?».

Rusiya qarnizonu başçısı cavabında yazmışdı: «Iyirmi beş ildən bir az artıq [vaxtda] yetişər!».

Mir Mustafa xan bu sual-cavab məktublarının məzmunundan xəbər tutdu. Təəccüb elədi ki, bu nə sözdür. Öz yaxın adamlarını, əyanlarını topladı ki, hər kəs öz düşüncəsinə görə bu sözü izah etsin. Biri dedi: «Peterburqdan bura altı aylıq yoldur. Bu yerlərin təbiəti onlara məlum deyildir, ona görə də soruşmuşlar!». Müxtəsər, hərə bir cür izah etdi. Heç birinin izahatı Mir Mustafa xanı qane etmədi. Veravul kəndində çox yaşlı bir kişi vardı. (28,b) O, Mir Mustafa xanın xidmətinə ərz etdi: «Qurbanın olum, bu sözün mənası budur: Talış vilayəti bir neçə ilə Rusiyanın ixtiyarına keçər!». Adamların hamısı qoca kişinin [verdiyi] izahata «əhsən! əhsən!» dedi. Mir Mustafa xan buyurdu: «...baxaram, əgər Rusiya dövləti belə bir iddiada olarsa, Qacar kimi onu da qovaram!». Lakin Mir Mustafa xan bilmirdi ki, ömrü ona nə qədər vəfa edəcəkdir. Ondan sonra Mir Mustafa xan çox yaşamadı. Allah rəhmətinə getdi.[143] Vəziyyəti Rusiya sarayına yazdılar. Dövlət tərəfindən belə bir əmr gəldi: «Qayda belədir ki, hakim vəfat etdikdə, böyük oğlu onun yerinə keçər. Siz də bu adəti nəzərə alıb, onun bütün övladını toplayın və keçmiş adətə əməl edin». Soldatlar arasında Rusiyadan [gəlmiş] böyük bir adam vardı. O, padşahın əmrinə əsasən, Mir Mustafa xanın övladlarını kədxudalar, kələntərlər, ağsaqqallar və hacılar ilə birlikdə Lənkəran məscidinə topladı. Padşahın fərmanı xütbə kimi oxundu. Mir Mustafa xanın böyük oğlu Mir Həsən xan, Mir Abbas bəy, Mir Ismayıl bəy, Mir Əkbər xan, Hidayət xan, Mir Kərim bəy və Talıb bəy burada idilər. Bunların hamısı razılıqla öz böyük qardaşları Mir Həsən xanı hakimiyyət taxtına oturtdular.[144] Ona baş əydilər. Nökər kimi itaət əlini sinələrinə qoydular. Bütün Talış əyanları bu işdən razı qaldılar.

Bir az keçdikdən sonra rəis Bulqakov[145] aranı qızışdırıb Mir Mustafa xanın oğlanlarını birbirinə düşmən elədi. Bunlar Mir Hüseyin xan, Məmməd xan, Mir Ismayıl bəy və başqalarından ibarət idi. Xanın arvadını da yuxarıda adları qeyd olunanların (29,a) tərəfinə çəkib Mir Həsən xanı təklədilər. Atamın rəvayətinə görə: Mir Mustafa xan [sağlığında] Talış mahallarını oğlanları arasında bölüşdürdükdə, Astara mahalını Mir Abbas bəyə vermişdi. Mən Mirzə Xudaverdi də, o zaman Astara mahalının Butəsər kəndində idim. Bizi də Mir Abbas bəyə bağışlamışdı. Mərhum xanın sadiq nökəri olan drığlı Ixlas bəyi də ona verdi. Çünki rəhmətlik xan övladlarından Mir Abbas bəyi çox sevirdi. Buna görə hörmətli və bacarıqlı nökərlərinin hamısını ona bağışladı. [Mir] Mustafa xanın arvadı Xanım[146] çox təkəbbürlü idi. Xalqın töhmətindən qorxmasa idi o, Talışa hakim olmaq iddiasına düşərdi. O da

başqaları, yəni xanın oğlanları ilə birləşib Mir Həsən xan ilə düşmənçiliyə başladı. Mir Həsən xan ona nə qədər nəsihət verib doğru yola çağırdısa da, bir nəticə vermədi. Axırda Xanım oğlanlarını, tabelərini nə nökərlərini, o cümlədən ucarütbəli drığlı Ixlas bəyi, fitnə dağarcığı olan bədəlanlı Ağa bəyi götürüb [Mir Həsən xanın] tabeliyindən çıxmaq məqsədilə Bəlləbur kəndinə toplandılar. Talış kədxudaları və ağsaqqallarının rəyini elə döndərdi ki, [onlar] Mir Həsən xanı hakimiyyətdən uzaqlaşdırıb, Mir Abbası hökumət başına gətirsinlər. Bunun üçün bir ay Bəlləbur kəndində qaldılar. Nəhayət, belə məsləhət gördülər ki, əvvəl Drığ mahalı ələ alınmalıdır. Çünki, məşhur bir qaydadır, Talış vilayətində hakim olmaq istəyən əvvəlcə iki yeri ələ keçirməli idi; onlardan biri Drığ, digəri də həmin Lənkəranın Çayiçi mahallarıdır. Buna görə ağıllı ağsaqqalların məsləhətilə Bəlləbur kəndindən köçüb Drığda Xanımın qardaşı oğlu Nəcəfqulu xanın evinə getdilər. Onların ətrafında çox adam olduğundan (29,b) bir gün ərzində istədikləri yerə çatmaq mümkün deyildi. Allahsız Miyankuh mahalından keçib Yuxarı Dinkəvin[147] kəndində dayandılar. Atam deyirdi: Mən də onlarla bir yerdə idim. Sabahçağı oradan çıxıb Drığ mahalına daxil olduq. Ucarütbəli Nəcəfqulu xanın evinə çatdıq. [Bizə] lazımi hörmət və qonaqpərəstlik göstərdilər.

Mir Mustafa xanın arvadı və oğlanları hərəmxanada yerləşdi. Biz nökərlərə də öz divanxanasında mənzil hazırladı. Hər cəhətdən məhəbbət və mehribanlıq göstərdi. Gecədən bir qədər keçmişdi. Mən, Mirzə Xudaverdi, ucarütbəli Ixlas bəy və kədxuda bədəlanlı Ağabəy bir mənzildə yerləşmişdik. Hamımız yatmışdıq. Bir də gördük kədxuda Ağabəy yerindən sıçrayıb yorğanımı başına çəkdi. Dadfəryad eləyib [dedi]: «Aman bir şir gəlib, istəyir bizi yeyib, tələf etsin!». Onun uca səsindən həyətdə yatmış olan Butəsər kəndi nökərləri, o cümlədən Baxşəli bəy Tahir bəy oğlu, Abbasqulu bəy Ağa Kərim bəy oğlu, Qubad bəy və qeyriləri həyəcanla yuxudan oyanıb [yerlərindən] sıçradılar və tüfəng atdılar. Həyətdəki adamların hamısı yuxudan oyandı. Hay-küy düşdü. Biri tüfəng atdı. Bəzisi çıplaq və ayaqyalın, digəri papağını itirib qaçdı. Xülasə, iki saata kimi təsviri mümkün olmayan çaxnaşma oldu. Axırda gördülər ki, arada heç bir şey yoxdur. Qoşundan [düşməndən] heç bir əsər və əlamət görünmür. Bədəlanlı Ağa bəy kəndxudanı tutdular: «Ay kişi bu nə işdir?» Ağa bəy kədxuda bir qədər özünə gəlib dedi: «Mən yuxuda gördüm ki, bir böyük şir üstümüzə gəlir və hamımızı tutub yeyir».

Xülasə, o gecə heç kəs yatmadı. Bəziləri gülür, digərləri isə onu lağa qoyub tənə edirdi. Axırda dedilər: «Hər kəs öz ağlına görə bu yuxunu təbir etsin!». Hər kəs onu bir cürə izah edirdi. Biri deyirdi, bu yorğunluğun əlamətidir. (30,a) Dikəri isə: «Çox yeməkdən irəli gəlmişdir!». Mən də dedim: «Şir Mir Həsən xandır, yəqin ki, sabah gələr!». Hamı mənim təbirimə güldü. [Dedilər]: «Mir Həsən xan Talışda biz isə Drığdayıq. O necə cəsarət

edib bura gələ bilər!». Nəçəfqulu xanın oğlanlarından Fətəli bəy və başqaları dedilər: «Gələrsə, öz cəzasına çatar, yəqin bilir ki, onun ömrü bitmişdir!». Biz elə düşünürdük ki, bu Fətəli bəy [də] igid və işə yarar adamdır.

Sübh oldu. Günortaya saat yarım qalmışdı. Gördük dağın başından bir atlı aşağı gəlir. Onun ardınca beş-altı yüz, bəlkə də çox, hamısı mükəmməl silahlı atlı gəlirdi. Mir Həsən xan da bunların arasında idi. Bunlar o gələn atlıları görüncə, tülkü kimi hərəsi bir tərəfə qaçdı. Ətrafımıza toplanmış Drığ camaatı onu qarşıladı. Mir Həsən xan gəlib gülə-gülə qardaşlarına dedi: «Siz Drığda mənsiz ov etmək istəyirdiniz, mən də gəldim!». Anasına dedi: «Siz xala oğlanlarımın qonaqlığını [tək] özünüz yemək istəyirdiniz, mən də cəsarət edib bir az atlı ilə özümü üç saata Muğandan [sizə] yetirdim. Çox yaxşı oldu. Bütün qardaşlar anamızla bir yerdə bir neçə gün Drığ mahalında qalarıq, eyşişrət edib əhd-peymanımızı təzələrik!». Onun qarşısında bir söz danışmağa heç kimin hünəri çatmadı. Xülasə, gecəni orada qaldılar. Sabahı ova başladılar. Drığ mahalında nə qədər atlı vardısa, hamı toplanıb böyük dəstə ilə şikara çıxdılar. Atam deyirdi: Mən də orada idim. Ovlaqda gördük ki, ucarütbəli Kərbəlayı Şahverdi bəy də min nəfər atlı ilə Muğan və (30,b) Ucaruddan özünü yetirdi. Mir Həsən xan belə fikir eləmişdi. Əgər Drığ camaatı qardaşlarım ilə birləşib başqa qəsdə düşsələr, onda, Drığ mahalını çalıb-çapsın, qardaşlarına da bərk qulaq burması verib, qolu bağlı Lənkərana gətirsin. Lakin onlarda belə hərəkətə cürət olmadı. [Mir Həsən xan] sakit oldu. [Atam deyirdi]: Bir neçə gün Nəcəfqulu xanın evində qaldıq. Zahirdə onların arası düzəldi. Oradan hamı bir yerdə Lənkərana qayıtdı.

On-on beş il ərzində onlar bir-birilə bir təhər yola getdilər. Çünki Mir Həsən xana gücləri çatmırdı. Əgər bir çarə tapa bilsəydilər, fürsəti fövtə verməzdilər. Nəhayət, bu köhnə dəstəbazlıqdan əl çəkdilər. [Lakin] Rusiyanın [Talışdakı] böyük [məmuru] bunları [yenidən] təhrik edib, Talış əhalisini gizli və açıq qızışdırırdı. Hətta Muğan əhlindən Qasım bəy, Kazım bəy və qeyriləri Rusiya təhriki ilə bir neçə dəfə camaatı toplayıb Lənkərandakı Rusiya baş [məmurunun] hüzuruna Mir Həsən xandan yersiz şikayət etdilər. Naçalnik zahirdə şikayətçilərə nəsihət edirdi. Lakin gizlində narazılığı gücləndirirdi. Kələntəriyyə tayfasını öz tərəfinə çəkib, şəhər əhalisini yoldan çıxarırdı. Iş o yerə çatmışdı ki, Mir Həsən xan Muğan, yəni Ərkivandan Lənkərana gəldikdə Lənkəran bazarından keçərkən bazar camaatı onun nökərlərinə tərəzi gözlərini çalırdı. Buna görə xan o yolu tərk edib bicarın ortasından yol salıb, Hüşə-Püştəyə kimi daim həmin yolla hərəkət edirdi.

Lənkəran rəisi mayor Ilinskinin[148] təhrikilə yenə [təzədən Lənkəranda] Mir Abbas bəy, Mir Ismayıl bəy, Boradıgahda Mir Yəhya oğlu Məmmədəli bəy öz oğlanları və tərəfdarları ilə, Səfidəşt mahalının Limar

kəndində Ocaq bəy öz nökərləri ilə, (31,a) Perembeldə[149] bu sətirlər yazılarkən Səfidəşt adı ilə məşhur olan Ucarud mahalının üsyançıları ilə birlikdə Əbdül Hüseyn xan, Şücaəddin bəy, Drığ mahalında yuxarıda adı çəkilən Fəthi bəyin oğlanları, Şiləvar və Digahda Fətəli bəy, Məlik bəy, Tahir bəy və başqaları, Muğanda Xanı bəy öz oğlanları ilə, Seybətin kəndində[150] Seyid Mirzə Bağır Mir Həsən xandan incimişdilər.

Lakin iki ay bundan əvvəl kirməli Mirzə Əhməd Soltan Mir Həsən xana müctəhiddən, Iran padşahından gizli bir məktub və fərman gətirmişdi. Bu məktub [Mir Həsən xanı Iran ilə münasibəti yaxşılaşdırmağa] çağırırdı. Ucarütbəli Rza Əli bəy, Mir Haşım bəy və mən, Mirzə Xudaverdidən başqa kimsə bu sirri bilmirdi.

Mir Həsən xan buyurdu: «Mən bilirəm ki, fəqir-füqəranın evlərini xaraba qoymaqdan başqa Qacardan bizə heç bir xeyir olmayacaqdır. Lakin müsəlmanların tənəsindən [can qurtarmaq üçün] mən bu təklifdən baş qaçıra bilmərəm!».

Iran padşahının [təyin etdiyi] vaxta bir ay qalmışdı. Talışda vəziyyət çox qarışıq idi. Mən, Mirzə Əhməd, o zaman on iki yaşında, bəlkə də bir az kiçik olardım. Bütün əhvalat günəş kimi aydın xatirimdədir. [Yazılanların] heç birisində yalan yoxdur. Mir Həsən xanın qardaşlarının və başqa əzizlərinin xahişinə görə naçalnik onu tutmaq istəyirdi. Qacarın [da] qoşun topladığı haqqında səs yayılırdı. Gah deyirdilər ki, Ruma[151] getmək istəyir. [Gah da guya] rusların üstünə gəlir. Lənkərandakı ruslar çox qorxuya düşüb keyfləri pozuldu. Qurban bayramı günü idi. Yuxarıda adı çəkilmiş Lənkəran rəisi özü ilə çox qoşun götürüb Ərkivana Mir Həsən xanı tutmağa getdi. Mir Həsən xan bu əhvalatdan xəbər tutub (31,b) kənar yoldan Boradıgah və Boladı[152] kəndlərindən Lənkərana qaçmışdı. Öz əsir [ailəsini] rusların əlindən xilas etmək istəyirdi. Atamın rəvayətinə görə, Mir Həsən xan Boradıgaha daxil olduğu zaman xanın düşmənlərindən Ocaq və Xudaverdi [bəylər] təsadüfən orada idilər. Onlar Mir Həsən xana rast gəldilər. Mir Həsən xan Ocaq [bəyi] öldürmək istədi. Iki dəfə qılıncını Ocağın başına endirdisə də, Ocaq fəryad edib özünü Mir Həsən xanın qılıncından qurtardı. Atam deyirdi ki: Mən gördüm ki, [xan] bu adamı öldürəcək. Atdan düşüb [xanın], çəkməsini öpdüm, yalvarıb dedim: «Qurbanın olum, işin əvvəlidir. Sizə qan tökmək məsləhət deyildir!». Buyurdu: «Məndən əl çəkin. Bu köpək oğlunu öldürəcəyəm!». Mir Həsən xana ərz elədim: «Qurbanın olum, bu kimdir ki, [onun üçün] özünüzü bədnam edirsiniz, bunun nahaq qanını boynunuza alırsınız!». O, mənim ərzimi qəbul edib qılıncını qınına qoydu. Buyurdu: «O qədər lazımdır, onu vurun!». [Onu] kötəklədilər. Buyurdu ki, Ocağın evinə od vursunlar. Odun alovu asimana yüksəldi.

[Indi də] sizə mayor Ilinskidən xəbər verim. Mayor beş yüz nəfər atlı kazak və rus tərəfdarları ilə özünü Ərkivanda Mir Həsən xanın evinə

yetirdikdə, Mir Həsən xanın qaçdığını gördü. Tez Mir Həsən xanın ailəsini tutmaq üçün bir nəfər atlı kazakı çapar göndərdi. Bu kazak Lənkərana çatan kimi bir dəstə soldat təbil və nağara çalaçala Mir Həsən xanın evinə hücum etdi. Mir Hüseyn xanın arvadını və qızı Saray xanımı mühasirəyə alıb qaçmağa qoymadılar. Mir Həsən xanın zövcəsini – kürd Sadıq xanın qızı və Mir Kazım bəyin anasını – bir neçə həyət nökərləri, bir neçə kəniz və Sadıq xan qızının mənzilində olan Mir Həsən xanın (32,a) bacısı Səkinə xanım ilə birlikdə tutdular. Mir Hüseyn xanın mirzəsi gəncəli Soltanın oğlu Mirzə Qurbanəlini, Mir Hüseyn xanın divanxanasında şagirdlik edən boradıgahlı Kərbəlayi Abdullah oğlu Molla Zərbəlini də həbsə aldılar. Muğanlı Məmməd Salah xanın qızı və Mir Həsən xanın ikinci arvadı Xeyrənnisa xanım, oğlanları Mir Abdulla bəy, Cavad bəy və Xanlar bəy, qızları Nisə xanım və Zəhra xanım və bir neçə nəfər kənizləri ilə birlikdə zirək tərpənib başıaçıq və ayaqyalın Şiləvar kəndinə tərəf qaçdılar. Günbatan vaxtı idi. Bizim evimiz də Mir Həsən xanın evinə yaxın idi. Mənim anam da başıaçıq-ayaqyalın onlarla bir yerdə qaçdı. Mən də onlarla birgə idim. Gördük, böyük Şiləvar çayının o tərəfində əlli-altmış nəfər sıra ilə durmuşdur. Mir Həsən xanın arvadı Xeyrənnisa xanım özünü çayın o tərəfinə atıb fəryada başladı. Gördük ki, Mir Həsən xandır, öz dəstəsilə [gəlmişdir]. Arvadına dedi: «Qorxma, qorxma mən buradayam!». Bu ölümdən və rüsvayçılıqdan canını qurtara bilmiş nə qədər şəhərli və nökər ailələri vardısa, Mir Həsən xan [onları] bir yerə toplayıb Şiləvar kəndinə apardı. Bir saat orada qaldıqdan sonra Rva kəndinə[153] getdilər. Qaranlıq gecə idi. Ata oğlunu, oğul atasını, ər arvadını tanımırdı. Müxtəsər, min əziyyətdən sonra şübhə yaxın özlərini Rva kəndinə yetirdilər. Bir tərəfdən yolun əziyyəti, bir tərəfdən aclıq [onlarda] taqət qoymamışdı. O günü Rva kəndində qaldılar. [Mir Həsən xan] Mir Hüseyn xana dedi: «Mən bu camaatı Zuvand mahalına yetirənə kimi siz öz dəstənizlə Miyankuh[154] kəndlərinə gedib, bir neçə gün Miyankuh meşələrində gizlənin!». O zaman Zuvand mahalı qızılbaşların əlində idi. Ləkər çayı[155] sərhəd idi. Mir Həsən xan öz ailəsi və başqa köçlər ilə Zuvand mahalına yollandı. Bizdə – anam, bacılarım və öz adamlarımızla xanın hüzurunda idik. Yadımdadır, yol yoxuş idi. Özümü at üstə saxlamağa qüvvətim qalmamışdı. Yıxılırdım. Mir Həsən xan özü atdan düşüb məni qucağına alır, ata mindirir və təsəlli verirdi: «Qorxmayın!». O təkcə mənimlə yox, hər kəslə belə rəftar edib qayğıkeşlik göstərirdi. Min əzab və əziyyətlə Ləkər çayını keçdik. Rus qorxusundan bir az xatircəm olduq. Gecə Zuvand mahalından Veri[156] kəndinə girdik. Zuvandlı Mir Kazım xan tez Həsən xanın ailəsi üçün mümkün qədər bir neçə yük arpa və buğda çörəyi göndərmişdi. [Mir Kazım xan] bir dəfə rəhmətlik Mir Mustafa xan zamanı atama qulluq edən rozqahlı Tayir[157] ilə bizim üçün də çörək yollamışdı. Çünki zuvandlı Kazım xan atamla qardaşlıq əlaqəsini kəsməmişdi. Tayir adlı adamın köməyi ilə aramızda əlaqə saxlanılırdı. O

gecəni Zuvandda qaldıq. Allaha şükr etdik. Sabah oradan Monidigah[158] kəndinə getdik. Çünki [o kənd] Drığ mahalına yaxın idi. Bir gün orada qaldıq. Drığ tərəfindən dağ ətəyilə çox atlı gəldiyini gördük. Doğrudan da onları gördükdə bizim adamlar çox vahiməyə və qorxuya düşdülər ki, bəlkə onlar rus qoşunudur. (33,a) Ucarütbəli Mir Həsən xan diqqətlə baxıb zövcəsi Xeyrənnisa xanıma dedi: «Qorxmayın, Nurulla xanın qardaşı Hüseyn bəydir». Atlılar yaxınlaşan kimi hamı atdan düşüb xanın hüzuruna gəldilər. Vilayətin adətinə əməl edib xana baş əydilər. [Həsən]Xan Hüseyn bəyi yanına çağırıb öz qarşısında oturtdu. [O] oturan kimi xanın qulağına gizli bir söz dedi. Xan bir qədər kədərləndi, sonra buyurdu: «Gərək bu işi tutmaya idin!». Hüseyn bəy ərz etdi: «Qurbanın olum, belə olmasaydı Drığ mahalı asudə olmaz və siz də oraya gələ bilməzdiniz!». [Mir Həsən] xan buyurdu: «Bir işdir görmüsən, peşimançılıq fayda verməz!». Xeyrənnisa xanım soruşdu: «Nə xəbərdir?». Xan buyurdu: «Nurulla xan ilə Fəthibəy oğlu arasında dava düşmüşdür. Hüseynəli bəyi öldürmüşlər. Evini yandırıb malını, dövlətini qarət etmişlər!». Müxtəsər, Mir Həsən xan o günü axşama kimi Monidigah kəndində qaldı. Səhəri nökərləri və Drığ atlıları ilə adı çəkilən Hüseyn bəyin sərkərdəliyi altında Muğana getdi. Zuvandlı Kazım xan da Şəhriyar bəyin rəhbərliyi altında otuz dörd atlı köməyə göndərmiş və yazmışdı: «Bu barədə mənə heç bir məlumat verilməsə də, qonşuluq vəzifəsini nəzərə alıb xanın xidmətinə təcili olaraq bu qədər atlı göndərdim. Əgər qızılbaşlardan bir xəbər gələrsə, [köməyə] hazıram. Zuvand mahalında nə qədər piyada və atlı səfərbər etmək mümkün olsa, hamısını göndərəcəyəm!».

Xanın yanında altmış-yetmiş atlı vardı. Mir Həsən xan öz atlıları ilə (33,b) Səfidəşt yolundan Ərkivana öz evinə getdi. Yuxarıda müfəssəl yazıldığı kimi, Mir Həsən xan Ərkivandan Lənkəran tərəfə qaçdığı zaman naçalnik Qasım bəy, Kazım bəy və Rzaqulu bəyi seçib Ərkivan mahalının idarəsini onlara tapşırmışdı. Onlar öz adamları ilə, o cümlədən də davakar Mirzə Bağır gəlib Ərkivanda Mir Həsən xanın imarətlərində rahat yerləşmişdilər. Onlar soyunub çox xatircəm öz yataqlarında yatmışdılar. Şairin dediyi kimi:

«Parlaq günəş gizləndikdə
Yarasa çox azad uçar!».[159]

Günortaya bir saat qalmış Mir Həsən xan Siqdəşt dağı təpəsinin[160] kəndə tərəf olan yerindən zahir oldu. Siqdəşt camaatı dağılıb meşə tərəfə qaçdı. [Lakin] Mir Həsən xanın gəldiyi məlum olduqda hamı bir-birinə [xitabən]: «Qaçmayın, Mir Həsən xandır.!». Siqdəşt əhalisi yaman gündə heç kimi özünə yaxın hesab etmir. Onlar çox igid adamlar idi. Onlardan biri də rəhmətlik Mirzəcan bəy idi. Allah şahiddir. Onun kimi igid dünyaya gəlməmişdi və bu gündən sonra da gəlməyəcəkdir. Bir anda hamı mükəmməl

silahlanıb xanın xidmətində hazır oldular. Dəstə kiçik olsa da, min tüfəngçiyə bərabər idi. Siqdəşt kəndindən [Ərkivana] yol bir o qədər [uzaq] deyildi. Təxminən bir ağac məsafə olardı. Ərkivana getdilər. Yolda əvvəlcə bir nəfər gəlib xəbər vermişdi ki, xanın evində iki arabalı top ilə min nəfərə qədər soldat vardır. Bu xəbəri eşidən camaat bir qədər qorxuya düşmüşdü. Mir Həsən xan onlara ürək verirdi: «Qorxmayın, cəddim mənimlədir!». Bir saatdan sonra başqa bir nəfər də gəlib demişdi ki, Ərkivanda xanın evində nə top və nə də soldat (34,a) vardır. Bu xəbər tamamilə yalandı. Ərkivan qalasında cəmi iki yüz, bəlkə də bir qədər artıq soldat vardı. [Onlar] xanın bütün ilxısını aparıb qalada saxlayırdılar.

Mir Həsən xan Alişən şahsevən Cəfər bəyə buyurdu: «O soldatları ilxı ilə birlikdə bu saat qolu bağlı sizdən istəyirəm!». Cəfər bəy özü ilə on-on iki nəfər atlı götürüb qalaya hücum etdi.

Indi qulluğunuza bir xəbər ərz edim. Mir Həsən xanın bir tulası vardı. Qaçan zaman onu həmişə yanında aparardı. Xanın evinə yarım fərsəx qaldıqda, tula adəti üzrə hamıdan qabaq xanın evinə getmişdi. Xanın evində məskən salmış işdən xəbərsiz, sadəlövh bəyzadələr iti görüb heyran qalmışdılar. Onlardan biri demişdi: «Yəqin indi bu itin sahibi də gəlib çıxar!». Bəzisi isə: «Axmaq kişi, bu tula aclıqdan qaçıb gəlmişdir. Sahibini elə itirmədik ki, bir də gələ!». Elə bu danışıqda idilər ki, xanın irəlidə gedən kəşfiyyatçı nökərləri Qaratikanlıdan qəflətən onlara hücum etdilər.

Atam söyləyirdi: «məndən və iki nəfər qulluqçudan başqa xanın yanında bir nəfər də tüfəngçi qalmamışdı. Hamı getmişdi. Tüfəng səsi göyə yüksəlirdi. Mən də dözə bilmədim. Atıma hey vurub çapdım. Xan dalımca: «Getmə!». Mən isə qulaq asmadım. [Xan] buyurdu: «Indi ki, gedirsən, deyin ki, o yekə başı tutsunlar!». «Yekə baş» (34,b) Masallı kəndindəki Əbdülsəmədin atası Kazım bəy idi. Atam deyirdi: Mən Çillədərəni keçdim. Güclü güllə atəşi altında bazardan keçməyin mümkün olmadığını gördüm. [Lakin] allaha təvəkkül edib oradan keçdim. Gördüm ki, Qasım bəyi və başqalarını tutmuşlar. Adı çəkilən Kazım bəy isə qaçıb canını xilas etmək üçün özünü bicarın içinə salmışdı. Şiləvarlı Əmirgünə bəyin oğlanlarından Mir Nağı bəy və Mir Haşım bəy onu tutmaq üçün dalınca hücum etdilər. Kazım bəyin yanında bir nökər varmış. O, tüfəngini Mir Nağı bəyin sinəsinə dayadı. Tüfəngə od vurduqda Mir Haşım bəy tez onun sinəsinə bir güllə vurub, bicarın palçıqlığında yerə sərdi. Kazım bəyi bicarlıqdan tutub gətirdilər. Keçəl Məmməd Hüseyn adı ilə tanınmış bədəlanlı Məmməd Hüseyn tüfənginin qundağı ilə onun başına vurub, bir gözünü kor elədi. [Sonra] onu yerə sərib atının ayaqları altında əzməyə başladı. Mən yetişib Məmməd Hüseynin başına bir qamçı vurdum. Mane olub qoymadım. Gördüm Mir Həsən xan da özünü yetirdi. Kazım bəyin başına iki qamçı vurub dedi: «Ey it, siz məndən sonra Muğanda hökumət sürmək

istəyirsiniz?». Buyurdu: «Bunu tutub saxlayın!». Bu zaman Sərkar xanın tövləsi arxasındakı təpədən hiyləgər Mirzə Bağırın zahir oğlunu gördük. Yaylığını üzünə tutub ağlaya-ağlaya xanın hüzuruna yetişdi. Bir az ağladı. Xan ona xitab edib [dedi]: «Mirzə Bağır, siz niyə ağlayırsınız?». Ərz elədi: «Qurbanın olum, ruzigarın necə qarışıq olduğunu görürsünüz?». Sonra xan ona buyurdu: «Sizin eviniz Seybətin kəndindədir. Siz burada nə edirdiniz?» Gülüb dedi: «Məni bəylər bura gətirmişdi ki, (35,a) sizin bu vilayətə dönüb və ya dönməyəcəyiniz haqqında fal açım». Xan onun hər hərəkətindən əvvəlcə ağlayıb, sonra gülməsindən çox acıqlandı. Muğan mahalının dikbaş igidləri dəstəsindən başqa orada hazır olanlara əmr etdi: «Kim məni istəyirsə, bunu vursun!». Ətrafdan iki min nəfər adam onu vurdu. Mən, Mirzə Xudaverdi, Mir Haşım bəy və Rza Əli bəy ilə birlikdə onu ölümdən xilas etdik. Onu həbsxanaya göndərdilər. Gördük ki, Pir məhəlləsindən güllə səsi gəlir. Xanın həyəti yaxınlığında da bəzi [adamlar] yerə yıxılır. Cənab xan yetişib [dedi]: «Bu nə güllə səsidir?» Dedilər: «Qasımbəyin qardaşı Ağa Məmmədbəy iyirmi-otuz nəfər nökərləri ilə xanın otaqlarından birinə girmişdir. Həmin evin dörd tərəfi çəmən və səhradır. Irəli getmək imkanı yoxdur. Divarı deşib Hüseynbəyin rəhbərliyi altında olan Drığ camaatı ilə dava edir!». Cənab xan buyurdu: «O uşağı görürsünüz!». Atını o evə tərəfə sürdü. Xanın atının hər iki tərəfinə güllə yağırdı. Cənab xan qorxmadı. Hüseyn bəyə çatan kimi acıqla ona çığırdı: «Niyə siz iki saatdır ki, burada yubanmısınız?». Ona bəzi tənələr də vurdu.

Tayı-bərabəri olmayan Hüseyn bəy öz drığlı dəstəsini çağırıb dedi: «Güllə atmağı dayandırın. Evə hücum edin. Allaha təvəkkül – kim ölər, kim qalar». Buna görə Drığ tüfəngçiləri Hüseyn bəy ilə birlikdə papaqlarını gözləri üstə basıb cəsarətlə hücuma keçdilər. Gəlib [evə] (35,b) çatdılar. Onların divar deşiklərindən bayıra çıxmış tüfənglərinin lüləsindən tutdular. Ağa Məmmədbəyi əsir edib evdən bayıra çıxardılar. Qalan [adam]larını isə evin içində saxlayıb [qapını] qıfılla bağladılar. Evə od vurub hamısını yandırdılar. Cənab xan Ağa Məmmədbəyi bərk döydürdü. [Sonra] həbsə aldırdı. Xan atdan düşüb öz imarətinə gedib rahatlandı. Bir saat çəkmədi gördük Şahsevən Cəfər bəy öz kiçik dəstəsilə qaladakı soldatların hamısını qolu bağlı ilxı kimi xanın hüzuruna gətirdi. [Xan] erkək şirə bənzər Cəfərbəyə lazımi mərhəmət göstərdi. Cəfər bəyli soldatları əsir alması belə olmuşdu. O, bir küllə ilə onların əfsərini vurmuş, onlar isə dəxi tüfəng atmayıb, döyüşü dayandırmışdılar. Cəfər bəy də birbir onların qollarını bağlatdırıb gətirmişdi. Atam deyirdi: O gecə xanın evində ehtiyatla yatmışdıq. Gecə yarısı gördüm bir nəfər ayağımdan çəkib çağırır: «Qalx ayağa!». Gözümü açıb gördüm mənim Məmmədəli adında uzunsaqqal şahsevən nökərimdir. Soruşdum: «Məmmədəli nə olub?». O dedi: «Zabit Muzekin[161] minə yaxın soldatla boradıgahlı Ismayıl bəy və Məmmədəli bəy

ilə birlikdə gecə yarısı Qumbaşı ağzını keçib gəlirlər. Az qalıb ki, xana gecə basqını etsinlər!». Buna görə mən hövlnak qalxıb tez yoldaşlarımdan Rza Əli bəyi və Mir Haşım bəyi oyatdım. Onlarla bir yerdə xanın içəri həyətinə getdik. Cənab xanı bir təhər yuxudan oyatdıq. Bu hadisədən xəbər tutdu. Bütün qoşunu ayağa qaldırdıq. Xan öz xidmətçisinə buyurdu: «Görün namaz vaxtıdır?». Qulluqçu dedi: «Xeyr, hələ namaz (36,a) vaxtı deyil».

Xan bir qədər gözlədi. Sonra namazını qıldı. Atına mindi. Yanında on min nəfərə qədər adam vardı. [Bir qədər getdikdən sonra] gördük ki, Masallıda Xələfin evləri ətrafına çatmışıq. Lakin [soldatlardan] heç birəsər yoxdur. Səhər açılırdı. Biz Şıxlar[162] və Yeddioymaq[163] tərəfə gedirdik. Rusların bu yoldan gələcəyini zənn edirdik. Masallı kəndi evlərini bir az keçmişdik ki, elə bil göy yerə endi. Soldatlar başımıza [saysız] güllə yağdırdılar. Hava bir az da işıqlandı. Bizim qoşunumuz hərəsi bir tərəfə qaçıb dağıldı. Xanın harada qaldığını nəzərə də almadılar. Xanın yanında Bədəlan və Kolatan[164] əhalisindən yüz nəfər piyada tüfəngçi ilə iyirmi atlıdan ibarət xas nökərlərindən başqa kimsə qalmamışdı. Bunlardan başqa hamı qaçdı. Haşımxanlı[165] və Həmidxanlıya[166] qədər [gedib] Suxta çaydan[167] keçdilər. Cənab xan yoldan bir az kənara çəkildi. Xanın qarşısına suyu çəkilmiş bir çay çıxdı. Xan atdan düşdü. Tüfəngçilər [quru çay] içində yerləşib, soldatlara yaylım atəşi açdılar. Xan özü də nökərlərilə iki dəfə yaylım atəşi açdı. Soldatlar məğlub olub özlərini Viləş çayı[168] içinə yetirmək istədilər. Çünki Viləş çayı çox dərin idi. Allah eləməmiş soldatlar özlərini Viləş çayı [məcrasına] salsaydılar, onları oradan çıxarmaq çox çətin olardı. Çünki çayın bu tərəfində möhkəm qalaya bənzər böyük bir yarğan var idi. Cənab xan Bədəlan və Kolatan tüfəngçilərini səslədi: «Sizə qurban olum, qoymayın soldatlar özlərini çay içinə salsınlar!». Adları çəkilən kəndlərin tüfəngçiləri doğrudan da Rüstəm kimi döyüşürdülər. Soldatlar nə qədər çalışdılarsa (36,b) da Bədəlan və Kolatan tüfəngçiləri onlara aman vermədi. Onlar soldatlardan əvvəl özlərini çay içinə saldılar. Soldatlar böyük məğlubiyyətə uğrayıb düzənliklə Qumbaşı tərəfə qaçmağa başladılar. Davanın başlanğıcında qorxudan hərəsi bir tərəfə qaçmış atlılar xanın mərdliklə müharibə etdiyini gördülər. Atam deyirdi: Mən də öz xüsusi və yedək atımı nökərimə verib, məni qoyub qaçmağı qadağan etmişdim. O isə mənim atımı götürüb qaçmışdı. Bir gün keçdikdən sonra qayıdıb gəldi. Qaçmış atlıdar bir-bir qayıdıb xanın hüzurunda toplanırdılar. Rusiya qoşununu çöllükdən çıxarıb Qumbaşı keçidini tez tutdular ki, rus qoşunu oradan keçə bilməsin. Mir Həsən xanın kiçik qardaşı Mir Ismayıl bəy Rusiya [qoşunu] dəstəsində idi. O, bir dəfə rus soldatlarından ayrılıb ucarütbəli xanın qoşunu tərəfə at çapdı. Zəkəriyyə bəy mahmudabadlı[169] Əli Məmməd oğlu ilə vuruşurdu. O, Mir Ismayıl bəyin atını çaparaq gəldiyini gördükdə belə [dedi]: «Əgər mən səni [vurmaq] üçün tüfəngimi çiynimdən çıxarsam sən atınla bərabər cəhənnəmə

vasil olarsan...». Tüfəngini çiyninə asıb, atını Mir Ismayıl bəy tərəfə çapdı. Qılıncını çəkib Mir Ismayılbəyi qovdu. Onu qılıncla öldürmək istəyirdi. Bu tərəfdən [Mir Həsən] xan səsləndi: «Öldürməyin, öldürmayin!». (37,a) Mir Ismayıl bəy qorxusundan ona güllə ata bilmədi. Qaçıb özünü soldatların arasına saldı. Artıq qorxudan bir dəfə də olsun soldatlardan ayrılıb meydana çıxmadı. Müxtəsər, Qumbaşı yolunu Rusiya qoşunundan aldılar. Boradıgahlı Məmmədəli bəy özünü Yabuqırana[170] yetirməyi məsləhət bilmişdi. Yabuqıran o zaman dənizin içində bir ada idi. Oraya atla getmək mümkün deyildi. Buna görə Rusiya qoşunu özünü şir pəncəsindən qurtaran siçan kimi oraya qaçdı. Cənab [xanın] şahsevən və qeyri [tayfalar]dan ibarət olan qoşunu Yabuqırana gedib soldatları tutmaq üçün çox çalışdılar. Lakin xan mane olub qoymadı. Çünki Mir Həsən xanın arvadı rus əsarətində idi. O, bu işin arvadı üçün pis nəticə verəcəyini nəzərə alırdı. Bu [sətirlər] yazılarkən Yabuqıran quru çöldür. Hətta Göytəpə malakanları orada qışlaq salmışdı. Allah bilir Yabuqıran bundan sonra yenə də əvvəlki halına düşəcək ya yox?

Mir Ismayıl bəyin Dərviş adlı bir nökəri vardı. O, həqiqətən çox cəsarətli və diribaş adam idi. Könüllü olaraq [dedi]: «Əgər [Mir] Ismayıl bəy öz kürən atını mənə versə, mən dənizdə bir ağac məsafəni atla üzdükdən sonra Gamışavan yaxınlığında quruya çıxıb Lənkərana xəbər apararam, onda bəlkə kərəci ilə gəlib sizi buradan aparsınlar. [Mir] Ismayıl bəy çox razılıqla öz kürən atını [ona] vermişdi. (37,b) Haman Dərviş kürən atı minib özünü dənizə atmışdı. Təxminən bir ağac [məsafəni] suda atla üzüb, Sinəbaşı[171] yaxınlığında sudan sahilə çıxmışdı. [O], quru yolu ilə bir saat ərzində özünü Lənkərana yetirib, bu qorxulu xəbəri Lənkəran rəisinə yetirmişdi. Rəis iki kərəci göndərmişdi. Onları Yabuqırandan Lənkərana gətirmişdilər. Lənkəran tərəfdən Mir Həsən xanın üstünə daha qoşun gəlməmişdi. Lakin Xərmən vətəgəsində həmişə iki-üç yüz soldat olurdu. [Onlar] yenə də hazır dayanmışdılar. Mir Həsən xanın zərbələrindən əsla qorxmurdular. Zabit Muzekin həmin vətəgədəki soldatlara güvənərək yüz nəfər soldatla Lənkərandan hərəkət etdi ki, Mir Həsən xanla dava etsin. Mir Həsən xan bundan xəbərdar oldu. Belə kiçik bir dəstə ilə müharibəni özünə layiq bilmədi. Onları arıq [zəif] milçək sayıb oğlu Mir Kazım bəy ilə şahsevən Cəfər bəy, Mir Haşım bəy və şiləvarlı Mir Əli Nağı bəy kimi bir neçə sərkərdəyə tapşırdı ki, o, soldatları başçıları ilə birlikdə tutub qolu bağlı hüzura gətirsinlər. Lakin onlar sərxoş adamlar kimi düşmənin vəziyyətindən xəbərsiz, min nəfər Muğan atlısı ilə [xanın] tapşırığını icra etməyə getdilər.

Vətəgənin dörd tərəfi (38,a) açıq çöl idi. Ondan başqa şirvanlı Haşım xan da öz dəstəsi ilə ruslaraköməyə gəlib vətəgə qalasına daxil olmuşdu. [Ona görə də ruslar tərəfindən] çox adam var idi. Vətəgə ətrafına çatan kimi iki qoşun arasında döyüş başlandı.

Hər iki tərəfdən alov asimanə yüksəldi. Mir Kazımbəyin köməyi yox idi. Mir Kazım bəyin dəstəsi böyük məğlubiyyətə uğradı. Elə bu anda şirvanlı Mir Haşımxan meydana girib [əlində] Həmədan nizəsi atını meydanda dolandırmağa başladı. Şirə bənzər Cəfər bəyin qeyrəti [bunu] qəbul etmədi. O, qoşununun məğlub ola biləcəyindən çəkinməyib atını meydana saldı. Haşımxanın qarşısına çapdı. Şirvanlı Haşım xan Cəfər bəyə güllə atmadan [əvvəl] Cəfər bəy onu qabaqlayıb ona tərəf hədəfsiz bir güllə atdı. Əgər onu öldürmək istəsə idi [Cəfər bəyin] gülləsi heç də hədəfdən kənara çıxmazdı. Çünki şirvanlı Haşım xanın bacısı Bikə xanım Mir Həsən xanın zövcəsi idi. [Cəfər bəy] bu qohumluğu nəzərə almışdı. Şirvanlı Haşım xan yenə də soldatların arxasından çıxıb çox hədə ilə meydanda at çapdı. Gördü ki, Cəfər bəy onun hədə-qorxusundan çəkinmir. [Ona görə də] o, artıq irəli addım atmağa (38,b) cəsarət etmədi. Saat yarıma kimi o, soldatların önündə durdu. Cəfər bəy də tək başına onun qarşısında dayanıb müqavimət göstərirdi. Hər ikisi qarşı-qarşıya durmuşdu. Mir Kazım bəy tərəfindən bir adam kəlib onun əmrilə Cəfər bəyi oradan qaytardı. Mir Kazım bəy atasının töhmətindən qorxub xanın hüzuruna kələ bilmirdi. Bu vəziyyəti bir ərizə ilə xana ərz elədi. Mir Həsən xan oğlunun [ərizəsinin] cavabında yazdı: «Oğlum, sən uşaqsan. Belə davalar [sənin] əlindən gəlməz. Lakin mən özümü ora çatdırana kimi, vətəkə ətrafında bir az özünüzü mühafizə edin!». Müxtəsər, Mir Həsən xan şir ovlayan bir dəstə [tüfəngçi] ilə vətəgə tərəfə hücum etdi. Gəldiyindən bir saat keçməmişdi ki, onun əmrilə vətəgədə olan quru otlara od vurdular. Vətəgə yandı. Soldatlardan bir çoxu əsir, bir qismi də öldürüldü. Vətəgə başçısını da qətlə yetirdilər. Vətəgə də dağıdıldı. Mir Həsən xan güclü qoşunla oradan Lənkərana işlərini qaydaya salmaq üçün getdi. [Xan] Girdəni kəndində nahar yediyi zaman (39,a) [ona] kömək üçün Qızılbaş dövləti tərəfindən [göndərilmiş] iki min nəfər sərbazın iki top ilə Muğan yolundan gəlib çatmaqda olduğu xəbəri yetişdi. Bir az keçdikdən sonra gördük: Bir neçə sərhəng, sərbaz və tobçubaşı, o cümlədən məşhur Kazım bəy yüksək nəsildən olan Mir Həsən xanın ədalətli hüzuruna gəldilər. Görüş şərəfinə nail oldular. Mir Həsən xan onlara lazımi iltifat və hörmət göstərdi. Onlar [xanın] hüzuruna ərz etdilər: «Qurbanın olaq, [səbr edib] dözmək lazım deyildir. Xahiş edirik bizə bir bələdçi təyin edəsiz ki, bizi Lənkəran şəhəri ətrafına çatdırsın».

Cənab Mir Həsən xan da onlara bir nəfər [bələdçi] verib yola saldı. Özü nahar gözləyirdi. Istəyirdi ki, özünü qoşuna çatdırsın. Çünki qoşun nabələd idi. Işin əvvəlində [bəlkə də] gözlənilməyən bir hadisə üz verə bilərdi. Nahar gətirdilər. Biriki tikə yemişdi, birdən qulağına təsvirə gəlməyən tüfəng səsi dəydi. Cənab xan heyrətlə [yerindən qalxıb] atına mindi. Atını təcili Lənkəran tərəfə (39,b) çapdı. Gördü ki, bələdçi sərbazları gətirib Şabəküncidə yerləşdirmişdir. Sərbazlar uzaqdan gəldikləri üçün

yorğun və ac idilər. Paltarlarını və silahlarını əyinlərindən çıxarıb yemək hazırlamaqla məşğul idilər. Lənkərandakı ruslar bundan xəbər tutub onlara hücum edib sərbazları əsir almaq istəyirdilər. O zaman Lənkəranda bərbərli bir seyid vardı. O, məhərrəmlikdə sinəsinə zəncir vurardı. Bərbər dilində[172] mərsiyə oxuyardı. O [seyid], rusların gəlməsindən xəbərdar olub başıaçıq özünü Qızılbaş qoşununa yetirib demişdi: «Bu saat Rusiya qoşunu başınızın üstünü alacaqdır, xəbərdar olun!». Seyid özünü Maruşlu meşəsinə[173] salmışdı. Sərbazlar ancaq tüfəng və kisələrini götürə bildilər. Paltarlarını geyinməyə imkan tapmadılar. Rusiya qoşunu artıq gəlib çatmış, dava və atışma başlanmışdı. Mir Həsən xanın atlıları Maruşlu çəmənində meşənin kənarını tutub güllə atmağa məşğul oldular. Gördülər ki, biçarə sərbazlar başıaçıq, ayaqyalın, əyinlərində köynək, tumandan başqa heç bir şey olmadan dava edirlər. Tüfənglərini doldurduqdan sonra «ya Əli!» deyərək ruslara hücum edir, hər hücumda on-on iki addım irəliləyirdilər. Təkrar yerə yatıb tüfənglərini doldururdular. Rus dəstəsi isə qorxudan bir addım da irəli atmırdı. Mir Həsən xan (40,a) Xüşkəpüştəyə[174] gedib rusların arxasına keçmək üçün öz qoşununa əmr verdi. Mir Həsən xanın atlıları Xüşkəpüştəyə çatdıqda bir dəstə rus atlısının Xüşkəpüştə altından gəldiyini gördülər. Aralarında bir güllə mənzili [məsafə] qalmışdı. Rus dəstəsinin qabaqcıllarından Kərbəlayi Ağababa bəy hacı Əhməd oğlu və Məşhədi Məmməd Rza bəy Kələntərov orada idilər. Mir Həsən xan atlılarının önündə Rüstəm sani Kərbəlayi Nəzərəli bəy durmuşdu. Ağababa [bəy] Kərbəlayi Nəzərəli bəyi çağırıb dedi: «Bir az irəli gəl; səninlə gizli sözüm var!». Kərbəlayi Nəzərəli bəy Kərbəlayi Ağababa bəyin ona hiylə quracağını heç də təsəvvür etmirdi. Çünki onlar qohum idilər. Buna görə Kərbəlayi Nəzərəli bəy irəli getdi. Kərbəlayi Ağababa bəy namərdcəsinə ona bir güllə atdı; onu öldürmək istədi. Kərbəlayi Nəzərəli bəy [ona] dedi: «Ey haramzadə! Ey namərd! Indi səbr edib gör gülləni necə atarlar!». Ona bir güllə atdı. Kərbəlayi Ağababa bəy qaçdı. Lakin güllə onun yəhər qaşını apardı. Kərbəlayi Nəzərəli [bəy] səslənib dedi: «Mən namərd deyiləm! Səni öldürmək istəmədim. Sənə bir qorxu gəldim ki, başa düşəsən!».

Müxtəsər, Şəbəkünci yolundan [gedən] sərbazlar Rusiya dəstəsini məğlub etdilər. Rusiya dəstəsi Lənkəran tərəfə qaçdı. Mir Həsən xan Xüşkəpüştə yolu ilə özünü tez Giləklər[175] məhəlləsinə yetirdi. Əmr etdi ki, Kiləklər məhəlləsini yandırsınlar. Atəşin alovu asimana yüksəldi. (40,b) Maruşlu suyunun kənarındakı ev, avadanlıq, rusların içərisində bir sürü donuz olan donuzxanası sərbazlar tərəfindən tamamilə yandırıldı. Donuzları da yandırdılar. O imarət [və tikintilərdən] əsər də qalmadı.

Mir Həsən xan sürətlə atını çapıb qoşun və sərbazları ilə evinə gəldi. Tam arxayınlıqla evində oturdu. Qalanı mühasirəyə aldı. Iyirmi günə kimi Lənkəran qalası mühasirədə qaldı. Bir gecə Rusiya qoşunu qaçıb kərəcilərə

minərək özlərini Sarıya[176] yetirdilər. Rusiya tərəfdarları da öz köçlərini [götürüb] ruslarla bərabər Sarı adasına getdilər. Bundan sonra Mir Həsən xan bütün Talış vilayətini öz ixtiyarına keçirdi. Qızılbaş şahı da Korkanrud və Asalim vilayətlərini ona tapşırdı.

Lakin Rusiya gəmisi daim dənizin [sahil] sularında dolaşır və arabir Lənkəran şəhərinə top atırdı. Buna görə Qızılbaş padşahı topçubaşı Kazım bəyin [rəhbərliyi altında] Lənkəran şəhərinə iki araba top və iyirmi dörd nəfər topçu göndərmişdi. Bunlar Rusiya gəmisindən top atıldıqda, həmin gəmiyə cavab atəşi açmaq üçün [təyin edilmişdi]. Topçular Lənkərana çatdıqda onlara Mir Abbas bəyin evində mənzil verib, orada yerləşdirdilər. Onlar da bəzən Rusiya gəmisinə top atırdılar. Rusiya gəmisinə böyük zərər (41,a) verirdilər. Kazım bəy yaxşı topçubaşı idi. Bir az qoca idi. Lakin bir neçə müharibələrdə böyük şöhrət qazanmışdı. Mir Həsən xan Talış cavanlarından bir neçə nəfəri Kazımbəyə verdi ki, onlara topçuluq öyrətsin. Iran padşahı tərəfindən göstəriş vardı. Iran topçuları Talış cavanlarını öyrətdikdən sonra topları talışlılara verib geri qayıtsınlar. Padşahın buyurduğu kimi də oldu. Iran topçuları bir ildən sonra getdilər. Həmin toplar iki dövlət arasındakı barışığa qədər Lənkəranda qaldı.

Mir Həsən xan da ehtiyat üçün Korkanrud və Asalimdən min nəfər tüfəngçi toplayıb hazırladı. Drığ, Zuvand və bütün Talış mahallarından hər birinin imkanına görə Lənkərana tüfəngçilər topladı. Onları keşik çəkmək üçün Xolmilidən Qumbaşına qədər divar kimi dəniz kənarında dəstə-dəstə yerləşirdi.

Bu həqir bəndə Mirzə Əhməd o zaman on iki yaşında idi. Atam Mirzə Xudaverdi Mir Həsən xanın baş vəziri idi. O, böyük ixtiyara malik idi. Mən öz qonaq otağımda Drığlı Molla Qədiməlidən dərs alırdım. Lakin bir o qədər də onun sözünə qulaq asmırdım. Kefim istəyən kimi rəftar edirdim. Iki cavan nökərim vardı; biri minabadlı[177] olub adı Heydər idi. O biri siyahkuhlu[178] Musaxan oğlu Babay idi. Onların hər ikisi sünni idi.[179] Hər ikisi də atamın divanxanasında Molla Qədiməli ilə bir mənzildə olurdu. Drığlı Molla Qədiməli sünni-şiə məzhəbilə əlaqədar onlara nalayiq sözlər deyirdi. Onlar da ürəklərində dini kin və ədavət saxlamışdı. həmişə (41,a) mənə ondan şikayət edirdilər. Mən onların sözünə qulaq vermirdim. Təsadüfən bir gün özbaşına məktəbdən bayıra çıxıb çay kənarında balıqçılara tamaşa edirdim ki, görüm balığı necə tuturlar. Atam öz hərəmxanasında[180] idi. Hərəmxanadan çıxıb xanın yanına gedərkən gözü mənə sataşmışdı. Məni çay qırağında durub balıqçılara tamaşa edən görmüşdü. Mollama çox tənəli sözlər dedikdən sonra Mir Həsən xanın divanxanasına getmişdi. Gördüm atam Mir Həsən xanın hüzuruna gedir. Arxasınca da çoxlu adam onu izləyir. Bu vaxt butəsərli Fərzəli bəy arxadan gəlib gülə-gülə mənə dedi: «Əhməd xəbərin olsun, Mirzə sənin üstündə mollanı çox məzəmmətlədi. Yəqin molla səninlə

pis rəftar edəcəkdir!». Mən nökərlərimə möhkəm tapşırdım: «Molla məni döymək istədikdə, mən sizə desəm ki, mollanı vurun, siz çəkinməyin!». Onlar dedilər: «Baş üstə, göz üstə!». Biz bu danışıqda idik, gördük, şagirdlərdən biri gəlib [dedi]: «Molla sizi çağırır!». Mən öz hesabımı götürdüm. Nökərlərimlə bərabər getdik. Məktəbə daxil olan kimi molla üstümə qışqırıb mənə bir çubuq vurdu və dedi: «Sən harada idin ki, atan mənə min tənə yağdırdı!». Dedim: «Siz çay qırağına getməyi mənə qadağan edirsiniz?». Müxtəsər, o mənə iki-üç çubuq endirdi. Mən əlimi uzadıb mollanın boğazından tutdum. Gördüm ona gücüm çatmır. Nökərlərimə əmr elədim: «[Bu] köpək oğlunu tutun!». Nökərlərim bu günü allahdan istəyirdilər, [lakin] əllərinə düşmürdü. Tez mollanı götürüb yerə yıxdılar. Mən də mollanı lazımınca vurdum. Sonra ağlaya-ağlaya hərəmxanaya anamın yanına getdim. Çox ağlayıb sızladım. Anam da mollanın bu hərəkəti haqqında çox qalmaqal saldı. (42,a) Atamın qorxusundan nökərlər də hərə bir tərəfə qaçdı. Axşam çağı oldu. Atam divanxanadan evə gəldi. Oturdu. Mən də kitablarımı açıb mütaliə edirdim. Lakin qorxudan bağrım çatlayırdı. Axşam yeməyini yedikdən sonra gördük otağın qapısının pərdəsini qaldırdılar. Iraqlı nökərim Ağa Məmmədəli evə daxil oldu. Molla tərəfindən [yazılmış] bir ərizə kətirib atamın qarşısına qoydu. Hələ [atam] ərizəni oxumamışdı. Mən ağlamağa başladım. Atam mənim ağladığımı gördükdə dedi: «Ey haramzada, bu sənin kələyindir!» Anam tez əhvalatı atama söylədi. Atam soruşdu: «Bunun nökərləri hardadır?». Dedilər: «Mənzildə deyillər!» Atam gülümsəyib dedi: «Dur get mollanın yanına, onun ürəyini ələ al!». Mən ağlayıb sızladım. Dedim: «Mən əsla cürət edib onun yanına getmərəm!». [Atam] buyurdu: «Mən səni onun yanına elə göndərərəm ki, molla sənin təqsirlərindən keçər!».

Mənim zəhmətimi çəkən Cəfər lələni çağırdı. Bir məcməyiyə öz paltarlarından [molla üçün] bir dəst xələt və altı tümən pul qoydu. Cəfər lələ məcməyini başına qoyub mənimlə birgə [mollanın yanına] getdik. Mənzilə daxil olduq. Molla Cəfər lələnin başında məcməyini görən kimi bu iltifatın səbəbini başa düşüb çox sevindi. Zarafatca mənə dedi: «Mən razıyam siz məni hər gün deyəsiz. Mənim üçün belə məcməyi gəlsin!».

Mir Həsən xan iki il Talışda müstəqil hökumət sürdü. Salyandan Denyaçal çayına kimi Talış bütün tabeləri ilə tamamilə onun ixtiyarında idi. Bu iki il ərzində bir neçə dəfə Rusiya qoşunu dava və qarət məqsədilə Talışa gəldisə də, lakin istədiklərinə nail ola bilmədi. Bunlardan [yürüşlərdən] biri də məhərrəm ayında olmuşdu. Adətə görə (42,b) [camaat] dəstə-dəstə imam Hüseyn bayrağı götürüb ucarütbəli Mir Həsən xanın hüzuruna gəlirdi. [Xanın] hüzurunda bir iki-saat sinə vurduqdan sonra öz məscidlərinə qayıdır, orada təziyədarlıqla məşğul olurdu. Bir axşam atam evdə idi. Xanın hüzuruna getmək fikrində deyildi. Hər biri otuz-əlli tümənə dəyən on iki at ağılda

bağlanmışdı. Mehtərlərimiz onlara xidmət edir, ot verirdilər. Atam məni də özü ilə götürüb talardan aşağı endi ki, ağıla baxsın nökərlər atlara ot verib ya yox. Gördük mehtərlər atların qabağına az ot tökmüşlər. Atam acıqlandı. Mehtərləri çağırdı. Onlardan biri də gəlmədi. Sonra məlum oldu ki, Kələntəriyyə məscidi camaatı imam Hüseyn bayrağı ilə xanın hüzuruna getmiş, mehtərlər də oradadır.

Bu əsnada ailəmizin etimadını qazanmış Cəfər lələ atamın xidmətinə gəlib təşvişlə ərz etdi: «Indicə Muğan tərəfindən bir atlı gəlib xəbər verdi ki, Rusiya tayfasından çoxlu adam qarət məqsədilə Salyan Küründən keçib, kimsənin xəbəri olmadan Ərkivan mahalı kəndlərini çapmışdır. [Onlar] Lənkərana gəlmək fikrindədir!». Bu xəbəri eşidən Mir Həsən xan [imam Hüseyn] bayrağı [mərasimi]ni keri qaytardı. Özü də Muğan tərəfə hərəkət etməyə hazırlaşdı. Mir Həsən xanın belə bir adəti vardı: Bu [növ] xəbərləri nökərlərindən heç birinə söyləməzdi. Iki-üç mülazim və tüfəngçiləri ilə ata minib gedərdi. Lakin sonradan xəbər tutan hər bir nökər onu izləyib bir ağaç yol getməmiş ona çatır, onun başına toplanırdılar. Bir saat ərzində (43,a) xanın ətrafında dörd, beş min, hər biri özünü dastandakı Rüstəm Sistaniyə bərabər sayan, qaniçən atlı [toplaşmışdı]. Nadirin tarixində deyildiyi kimi:

«Allahın şiri mənə köməkçi olarsa
Mən bayrağımı Qustəntəniyyədə sancaram...».[181]

Atam «Kikəl» adlı atını mindi. At bir qədər azğınlıq etdi. Atam mənə acıqlanıb dedi: «Neçə dəfə sənə tapşırmışam ki, arasıra bu atı minəsən ki, o azğınlıq etməsin!». Lakin atam mənim «Kikəl» ata minməyimə heç də razı olmurdu. Çünki o, atamın xüsusi atı olduğundan onu çox sevirdi. Doğrudan da, o, çox yaxşı, xoş yürüşlü, qəşəng biçimli və iti qaçan bir at idi. Bəlkə heç Mir Həsən xanın tövləsində də belə at tapılmazdı. Atam özünə bir yoldaş götürüb Mir Həsən xan ilə Muğana getdi. Atamın Muğan əhlindən Məmmədhəsən bəy adlı bir cavan, yaraşıqlı və gözəl üzlü nökəri vardı. Bu [nökər] həmişə atamın xidmətində olurdu. Özüdə çox igid idi. Lakin [bu dəfə] atam onu özü ilə götürməyib bizim yanımızda qoydu. Tapşırdı: «Mir Həsən xanın köçü [ailəsi] hara ketsə, siz də bizim köçümüzü götürüb onlarla gedin!». Bundan başqa bir neçə nökərimiz də vardı. Onların hamısı yanımızda hazır idilər. Məmmədhəsən bəy onlara oxşamırdı. O, çox işbilən və qanacaqlı adam idi.

Həmin gecə Rusiyanın qorxusundan bütün Lənkəran camaatı, Mir Həsən xanın və [xana] yaxın başqa əyanların köçü hərə bir tərəfə qaçdı. Bizim də köçümüz (43,b) Mir Həsən xanın köçü ilə birlikdə gecə yarısı Siyahlələ[182] kəndi tərəfə qaçdı. Lakin o gecə təsvirə gəlməz çox qaranlıq gecə idi. Bərk yağış da yağırdı.

Bizimlə bərabər atlı və piyada altı nökərimiz vardı. [Bunlar] Ismayıl oğlu Cəfər lələ, ərcüvanlı Islam, xıllı Devlət, şahsevən Zərbəli, tüfəngçi Məmmədhəsən bəy və iraqlı Ağa Məmmədəlidən ibarət idi.

Bunlardan Məmmədhəsən bəy və iraqlı Ağa Məmmədəli çox işə yarayan adamlar idi. Lakin iraqlı Ağa Məmmədəli Ağa Məmmədhəsən bəyin igidliyini bəyənmirdi. Həmişə özünü ondan üstün hesab edirdi. Narazılıqla [deyirdi]: «Məmmədhəsən bəyin nə qabiliyyəti vardır ki, ağamız ona bu qədər hörmət edir. Pis gündə mən onu zəif milçək də saymıram!». O gecə hər ikisinin də igidliyi aydın oldu. Güclü sel axırdı. Lüvəsər[183] kəndi yaxınlığında çayın keçidini təyin etmək mümkün deyildi. Nə qədər çalışıldısa da, yol tapmaq mümkün olmadı. Anam iraqlı Ağa Məmmədəliyə buyurdu: «Get, Lüvəsər kəndinə, Eyvazın evindən bir çıraq gətir!». Iraqlı Ağa Məmmədəli mükəmməl silahlanıb kök bir ata minib [kəndə tərəf] çapdı. Biz isə dayanıb iraqlı Ağa Məmmədəlinin çıraq gətirməsini gözləyirdik. Oradan Eyvazın evinə təxminən yarım «verst» məsafə vardı. Iki saat keçdi. Iraqlı Ağa Məmmədəlidən bir əsər görünmədi. [Birdən] iraqlı Ağa Məmmədəli gəlib çıxdı və dedi: «Sizsiniz!» Mən elə bildim ki, bu qaraltı Eyvazın evidir!». Müxtəsər, o, dörd dəfə gedib-gəldi. Hər gedib-gəlməsi də iki saat çəkdi, sadə bir çıraq gətirə bilmədi. Məmmədhəsən bəy istehza ilə ona dedi: «Siz hələ bu hünərlə mənə bərabər olmaq istəyirsiniz!». Məmmədhəsən bəy atına təkan verib sürətlə çapdı. Beş dəqiqədən sonra neftlə dolu bir çıraq gətirdi. Yolu tapdı. Asanlıqla bizi Siyahlələ kəndinə yetirdi. Sakit olduq. Indi də Sizə Mir Həsən xandan xəbər verim. Atam belə rəvayət edirdi: Mir Həsən xan sübh çağı Qumbaşına çatdı. Gördük qarşıdan, yəni Qızılağac kəndi[184] tərəfindən beş yüz atlı gəlir. Onların bayrağı da görünürdü. Mir Həsən xan bir qədər ruhdan düşdü. O, atlıların kazak dəstəsi olduğunu zənn edirdi. Bir qədər yaxınlaşdıqdan sonra (44,a) onların şahsevən cammatı və Mir Həsən xanın adamları olduğu aydınlaşdı. Kədxuda Ibrahim bəy və Əlipənah bəy yeddioyymaq və Hüseynhacılı tayfalarından ibarət dəstələrilə Mir Həsən xan gəlib çatana qədər Rusiya qoşunu ilə vuruşmuş və bir neçə kazak öldürmüşdülər. Bu bayrağı da rus bayraqdarının əlindən almışdılar. O [bayrağı alan da] atamın nökərlzrindən iyirmi dörd |yaşlı hüseynhacılı Əhmədxan idi.[185] Bayraq onun əlində idi. [O], rus bayraqçısını tutub öldürmüşdü. Atam belə, deyirdi, şahsevən dəstəsi Mir Həsən xanın qulluğuna gəldikdə, xan onlara çox hörmət [və qayğı] göstərdi. Xüsusən həmin Əhmədxana qayğı göstərdi. Mən onu gizlincə yanıma çağırıb dedim: «Ey haramzadə, bu qədər səy göstərdin, daha bəsdir. Artıq ehtiyatla dolan, [ehtiyatla] dava et ki, səni öldürməsinlər!». Əhmədxan mənə dedi: «Ağa, vallah rus tüfənginin gülləsi adama heç təsir etmir, havadan ötür!». Atam deyirdi: Mən ona nə qədər nəsihət etdimsə, qulaq asmadı. Rusiya dəstəsinə çatdıq. Gördük ki, Qızılağac kəndi ilə Şahsevən kəndi[186] arasında dörd min

nəfər soldat və kazak durmuşdur. Bunlardan min nəfəri iki dəstəyə, beş yüz nəfəri də iki hissəyə bölünüb, «ur-ra» ilə Mir Həsən xanın qoşununa hücum etdi. Soldatların beş yüzü [irəli] gəlib tüfənglərini boşaldır, geri qayıdırdı. Onların ardınca [kazakların] digər beş yüz nəfəri gəlib Mir Həsən xan qoşununa güllə atırdılar.

Beləliklə, [ruslar] Mir Həsən xanın qoşununa tüfənglərini doldurmağa macal belə vermirdi. Müxtəsər, [ruslar] iki-üç dəfə hücum etdilər. Mir Həsən xanın qoşunu kələfin ucunu itirdi. Bir dəfə yenə beş yüz kazak hücum etdi. Mir Həsən xan öz qoşununa əmr etdi: «Tüfəng atmağı dayandırın. Özünüzü sıyırmaqılınc kazak dəstəsinin mərkəzinə vurun!». Kazak dəstəsi yetişən kimi Mir Həsən xan qılıncını sıyırıb qoşunu ilə özünü kazak dəstəsinin mərkəzinə vurdu. Vəziyyət o yerə çatdı ki, hər iki dəstə bir-birinə yetişdi. Bir-birinin boğazından yapışıb, qılınc və xəncərlə başlarını kəsirdilər. Bu əsnada haman Əhmədxan [müharibə] meydanında bir nəfər kazakı tutub, atdan yerə vurdu. Özü də atdan düşüb atını buraxdı. Həmin kazakın başını kəsdi. Onun tüfəng və qılıncını götürdü. (44,b) Atına minmək istədi, [lakin] at ondan hürküb Rusiya qoşunu tərəfə qaçdı. Arxadan kazakların ikinci dəstəsi özünü Əhmədxana yetirib, onu nizə ilə yaraladı. Onun bədəninə qırx iki yara vurdular. Aşura günü idi.[187] O, iki gündən sonra vəfat etdi. Allah ona rəhmət eləsin! Iki-üç dəfə hər iki tərəf arasında belə vuruşma oldu. Rus dəstəsindən çox adam qırıldı. Qoşun müqavimət göstərə bilməyib məğlub oldu, Salyana tərəf qaçmağa üz qoydu. Mir Həsən xan da onları təqib etdi. Rusiya [qoşununun] bir hissəsi əsir düşdü, bir çoxu da həlak oldu. Qalibiyyət xəbərini Siyahlələ kəndinə çatdırdılar. Biz də şadlıq və sevinclə evimizə döndük.

Bu [hadisədən] sonra Rusiya bir neçə dəfə Talış vilayətinə qoşun çəkdisə də, bir nəticə vermədi. Abbas Mirzənin[188] oğlu Cahangir Mirzə Ərdəbil vilayətində hakim olduğu zaman Salyanda çoxlu rus tayfası vardı. Nayibüssəltənə Abbas Mirzə qoşunla kedib Irəvan və Naxçıvanı aldıqdan sonra Qızılbaş dövləti bir az qüvvətləndi. [Buna görə] Cahangir Mirzə xamxəyala düşüb Mir Həsən xana belə yazırdı: «Mən Salyan vilayətini almaq istəyirəm. Siz də öz qoşununuzla hazır olun!». Mir Həsən xan qoşun toplayıb hazırlandı. Cahangir Mirzə iki-üç min sərbaz və beş-altı, [bəlkə də] səkkiz min Ərdəbil, Meşkin[189] şahsevən atlıları ilə Muğan yolu ilə gəldi. Həməşərədə[190] hər iki tərəf birləşib Salyana hərəkət etdilər. Fətəlixan Nuri Cahangir Mirzənin vəziri idi. Dəştvənd, Səfidəşt və Drığ mahallarının Talış atlıları Mir Həsən xanın sərkərdələrilə Muğan çölü ilə hərəkətdə idi. Fətəli xan Mir Həsən xanın qoşununu gördükdə qorxuya düşüb dedi: «Allaha və Əliyə and olsun ki, heç Fətəli şahın belə qoşunu yoxdur. Bütün Iranda bu qədər qoşun tapılmaz». Atlılardan hürkən ceyranlar o qədər qaçmışdılar ki, axırda yorğunluqdan taqətdən düşmüşdülər. Mir Həsən xanın tüfəngçiləri

onları əllə tutub Cahangir Mirzənin yanına gətirirdilər. Iki yüzə qədər xoruz və çöl toyuğu hürküb havada hərlənirdi. Yerə endikdə, onları [asanlıqla] tuturdular. Mir Həsən xanın qoşunu Muğan çölündə dərya kimi dalğalanırdı. [Bunu görən] Cahangir Mirzə və vəzir Fətəli xan heyran qaldı. Cahangir Mirzənin on min atlı sərbazı vardı. Lakin onlar Mir Həsən xanın qoşunu arasında [itib] heç gözə görünmürdü. Salyan vətəgəsinə bir fərsəx qalmışdı. O tərəfdən min nəfər rus kazakı iki-üç min Şirvan atlısı ilə gəlmiş, orada səngər qazıb (45,a) iki-üç araba topla pusquda durmuşdu. Vətəgənin dörd tərəfi açıq çöl, bir tərəfi isə xol idi. Istər piyada və istərsə də atlının oradan keçməsi mümkün deyildi.

Bir sözlə əlverişsiz mövqe olduğundan oranın alınması çətin idi. Mir Həsən xan qoşunun önündə gedirdi. Vətəgəyə bir verst qalmışdı. Cahangir Mirzə bir neçə min atlı və piyada ilə gəlib çataraq Mir Həsən xanın qarşısına keçdi. Xanın sərkərdələri ona demişdi: «Mir Həsən xan sizdən əvvəl Salyan vilayətini alar. Salyanın alınması da onun adına çıxar. Sizin ondan əvvəl Salyanı almağınız məsləhətdir!». Cahangir Mirzə də Salyanın alınmasının halva yemək kimi asan olduğunu zənn edirdi. Mir Həsən xan Cahangir Mirzənin bu hərəkətini görüb güldü və dedi: «Qacarlara tamaşa edin. Bu saat qaçacaqlar!». Vətəgəyə çatınca vətəgədən bir dəfə top atəşi açıldı. Meydanı qarışıq görən Cahangir Mirzə elə birinci zərbədə qoşunu ilə məğlub olub qaçmağa üz qoydu. Iki fərsəx geri çəkilib dayandı. Azğın ruslar birinci zərbə ilə qızılbaşların məğlub olub qaçdığını gördükdə, şirə döndülər. Rus qoşunu Mir Həsən xana tərəf və Cahangir Mirzənin ardınca əlli top gülləsi atdı, Mir Həsən xan bir qarış da olsun ayağını meydandan [geri] çəkmədi. Orada su arxları vardı. O arxlardan bicarlar suvarılırdı. Mir Həsən xan qoşunu ilə birlikdə o arxların içində [səngər salıb] yerləşdi. Rus [qoşunu] fasiləsiz top atırdı. Axşam oldu. Ara sakitləşdi. Bir də gördük ki, Cahangir Mirzə bir nəfəri göndərib [deyir]: «Allah xatirinə, bu saat Mir Həsən xan özünü mənə yetirsin, bağrım çatlayır!».

Atam deyirdi: Mir Həsən xan ata minib bir-iki atlı və mənimlə birlikdə gedib Cahangir Mirzənin çadırına çatdıq. Gördük ki, Cahangir Mirzə ayaqyalın qaça-qaça [bizə tərəf] gəlir. Mir Həsən xana çatan kimi qollarını xanın boynuna salıb dedi: «Mir Həsən xan, bu nə qələtdir etdim, belə fikrə düşdüm. Kaş heç Ərdəbildən gəlməyə idim. Hər iki aləmdə rüsvay olmayaydım. Indi sizdən xahişim var. (45,b) Bu gecə siz də öz qoşununuzu götürün dala qayıdaq. Bütün Iran qoşunu gəlsə də bu Salyanı ala bilməz. Rusların bu gecə basqın edib bizi qıracağından qorxuram».

Mir Həsən xan gülümsəyib dedi: «Şahzadə, heç qorxma, burada sakit [qal]. Mən sabah iki saatın ərzində Salyanı sənin üçün alaram!». Müxtəsər, Mir Həsən xan onu min təsəlli ilə sakit etdi və qərargahına döndü. Öz qoşununa çatan kimi böyük sərkərdələrindən ucarütbəli Şahsevən

Cəfərbəyi yanına çağırdı. Ona buyurdu: «Sabah səhər çağı iki min Səfidəşt atlısı ilə xolun o tayından da Rusiya qoşunlarına qarşı döyüşməlisiniz. Hələ gün çıxmamış siz meydanı qızışdırmalısınız ki, mən sübh namazını qılıb [qurtarım]. Qorxmayın, mən tez özümü sizə yetirərəm!». Ucarütbəli Cəfər bəy əlini gözü üstə qoyub dedi: «Göz üstə!». [Sonra] ərz etdi: «Qurbanın olum xan, sizdən bir xahişim var. Siz zəhmət çəkməyin. Bu tərəfdə durub tamaşa edin!». Mir Həsən xan ucarütbəli Cəfərbəyə buyurdu: «Mənə aydındır ki, sən arıq pişik kimi meydandan çox fayda götürəcəksən. Lakin mənim könlümə dava etmək həvəsi düşmüşdür. Iki-üç aydır müharibə etməmişəm!». Mir Həsən xan gecəni o mənzildə yatdı. Sübhə bir saat qalmışdı. [Birdən] tüfəng və top səsindən yerin, göyün fəryada gəldiyini eşitdik. O gecə şahsevən Cəfərbəyin [başçılığı altında] iki min Səfidəşt atlısı milçək kimi xolsuyunu o taya keçib davaya başladı. Özü də necə dava! Onun tərifi qələmə gəlməz. Səhər açıldı. Gördük ki, şirvanlı Qanbayın qardaşı Banbayın başçılığı altında min nəfər Şirvan atlısı vətəgədən çıxıb, min nəfər kazak və iki min nəfər soldatla meydanın ortasında müharibəyə məşğuldur.

Bu tərəfdən Cəfər bəy, digər tərəfdən Cəfər bəyin oğlu Əsgər bəy öz dəstələrinin önündə at çapıb elə dava edirdilər ki, dördüncü göyün mələkləri onlara əhsən deyirdi. Mir Həsən xan [bu vəziyyəti] görüncə əmr etdi: «Bir külaz tapın!». Min zəhmətdən sonra bir külaz tapdılar, gətirdilər. Mir Həsən xan atının yəhərini götürüb cilovu ilə birkə külaza qoydu. Suyun o tayına keçdi. Atını yəhərləyib mindi, (46,a) öz qoşunu tərəfə sürdü. Elə bu vaxt şirvanlıların sərkərdəsi Qanbayın qardaşı Banbay meydana at saldı. O istəyirdi ki, Mir Həsən xan özü onun qarşısına gəlsin. Lakin onun qarşısına şahsevən Cəfər bəy çıxdı. Onlar meydanın ortasında bir-birinə çatdılar. Cəfər bəy hiylə ilə atını döndərib onun qarşısından qaçmağa başladı. [Banbay] cəsarətlənib çığırdı: «Siz indiyə qədər mərd görməmisiniz!». Cəfər bəyi hədəfə alıb ona bir güllə atdı. Cəfər bəy yəhərdən enib atın qarnı altında gizləndi. Onun gülləsi yəhərin qaşını apardı. Sonra Cəfər bəy yəhərə qalxdı. Ona hücum etdi. O qaçdı. Cəfər bəy [ona] dedi: «Ey, Banbay, siz tülkü ilə dava etmişdiniz. Bu isə şir meydanıdır. Vallah sənə tüfəng atmaram. Səni sərçə kimi əllə tutaram!». Cəfər bəy tüfəngini çiyninə salıb qılıncını çəkdi. Onun boynunu vurmaq istəyəndə o, aman istədi. Fəryad edib dedi: «Aman, ey igid, məni öldürmə!». Bu tərəfdən də Mir Həsən xan səsləndi: «Öldürməyin!». Cəfər bəy yavaşca qılıncla onun bir qulağını dibindən kəsib dedi: «Səni öldürmədim. Sənə bir qulaq burması verdim ki, Mir Həsən xanın Cəfər adlı bir nökəri olduğunu biləsən!».

Mir Həsən xan qoşuna xitabən dedi: «Bu nə döyüşdür? Sizdə bir hərəkət görmürəm. Qılınca əl atın!». Cahangir Mirzənin sərbazlarının hamısı toplanıb, xolun o tayında hazır oldular. Fətəli xana [xitabən] səslənib dedilər: «Köpək oğlu, sərkərdə Mir Həsən xan kimi olar! O, özünü qoşuna çatdırdı.

Əgər siz bizim sərkərdəmizsinizsə, bəs nə üçün bizdən bir ağac dalda durmusunuz!». Onu çox söydülər. Axırda sərbazlar əlacsız qalıb, xolun o tərəfindən rus qoşununu gülləyə tutdular. Güllələrdən bəzisi hədəfə çatır, bəzisi isə çatmırdı. Sərbazlarda təqsir yoxdu. Onlar çox igidlik göstərirdi. Lakin faydası yoxdu. [Çünki] onların sərkərdələri yox idi. Onlar deyirdilər: «Bizim Mir Həsən xan kimi sərkərdəmiz olsaydı, bir başa gedib Tiflisi alardıq. Bu köpək uşağı sərbazların adını batırıb rüsvay edibdir!».

Mir Həsən xanın qoşunu qılınclarını çəkib Rusiya qoşununun mərkəzinə soxuldular. Rus qoşunu tülkü kimi vətəgənin bir ağaclığında olan Salyan şəhərinə tərəf qaçdı. Cəfər bəy oğlu Əsgər bəy (46,b) cəld tərpənib bir dəstə perembellu atlısı ilə gedib azğın rusların yolunu kəsdi. Rüstəm kimi dava elədi, onları Salyan şəhərinə girməyə qoymadı. Onlar çarəsiz qalıb Badkubə yolu ilə Badkubəyə qaçdılar. Əsgər bəy öz dəstəsilə onları təqib edib Badkubənin iki ağaclığına kimi getdi. Onların çoxunu əsir edib, çox mal-dövlət axtarma[191] ələ gətirmişdi. Mir Həsən xan Əsgər bəyi qaytarmaq üçün bir atlı göndərməsəydi, onun bir başa gedib Badkubəni alacağına çox ümid vardı.

Mir Həsən xan Salyan şəhərinə varid oldu. Salyan mollaları onu qarşıladılar. Başlarında Quran, dua edərək onun pişvazına çıxdılar. Mir Həsən xan o gecəni Salyanda qaldı. Səhəri sübh tezdən bir adam göndərib Cahangir Mirzəni yanına çağırıb dedi: «Ey şahzadə Cahangir Mirzə, bu Salyanı sənin üçün aldım. Salyan sənin olsun, mənə lazım deyil. Çünki bu sənin birinci səfərindir. Qoy Salyanın alınması soiin adınla [bağlı] olsun!».

Mir Həsən xan Talış qoşunu ilə Salyandan çıxdı. Salyanı Cahangir Mirzəyə təhvil verdi. Cahankir Mirzə Salyan şəhərində bir gecədən artıq qala bilmədi. Ertəsi gün Rusiyanın qorxusundan Salyanı tərk edib, şəhəri qarət etməyi əmr verdi. Beş yüz ailə əsir sifətilə köçlərilə Talış vilayətinə gəlib sakin oldular. Cahangir Mirzə də Ərdəbil tərəfə tələsdi. Bundan sonra Mir Həsən xan Talışda iki il hakimiyyət sürdü. Lakin bundan başqa bir dəfə Mədətov Qarabağda nayibüssəltənə Abbas Mirzə ilə dava edib Abbas Mirzəni Qarabağdan qovdu. Onun bütün çadır-otaqlarını qarət etdi. [Onu təqib edərək], Qaradağı və Meşkini taladı. Geri dönmək üçün Rusiya dövləti əmr verdi. Bir ildən sonra (47,a) Rusiya sərdarı Paskeviç[192] güclü qoşunla. Meşkin və Qaradağ istiqamətindən hərəkət etdi. Qoşunun yarısı da Irəvan və Naxçıvan yolu ilə irəlilədi.

Bu vaxta qədər iki qardaş olan Həsən [və] Hüseyn xanlar başlarını Rusiya itaəti boyunduruğuna salmayıb, Rusiya ilə arasıra döyüşürdülər. Mir Həsən xan Talış vilayətində belinə hümmət kəməri bağlayıb Rusiya dövlətinə baş əymədiyi kimi, onlar da cənab Mir Həsən xan kimi Rusiya ilə döyüşdə gecə-gündüz ürəkdən fədakarlıq göstərirdilər.

Rusiya Talış igidlərinin qılıncı zərbindən təcavüzü dayandırdı. Heç bir sahədə Talış vilayətinin və Mir Həsən xanın işlərinə qarışmadı. Irəvan və Naxçıvanda isə Rusiya himayəsinə keçməyə təmayül vardı. Bu dəfə Həsən [və] Hüseyn xanlar müqavimət göstərə bilmədilər. Rusiya Irəvan və Naxçıvan şəhərlərini hökmranlığı altına keçirtdi. Rus qoşunu artıq heç bir yerdə dayanmadan birbaşa gedib Təbriz Şəhərini aldı.[193] Çoxlu mal-dövlət, nayibüssəltənənin toplarını və topxanasını ələ keçirdi. Nayibüssəltənə köçü və ailəsilə tələsik Iraq tərəfə qaçdı. Təbriz əhalisi onun mal-dövlətini ata malı kimi öz aralarında bölüşdürdü. Yüz tümənə alınmış bir xalını bölüşdürərkən Təbriz şəhərinin Şeyxülislamı Mir Fəttah[194] ilə yoldaşının sözləri düz gəlmədiyindən, o, xalını bıçaqla ortadan ikiyə böldü, hər biri öz payını götürdü.

Nayibüssəltənəni təqib edən Rusiya dəstəsi irəliləyərək sürətlə Xoy,[195] Miyana[196] və Səlmas[197] şəhərlərini döyüşsüz aldı. Talış və Ərdəbilə hələlik toxunulmamışdı. Bu zaman Cahangir Mirzə Ərdəbil şəhərində hakim idi. Mir Həsən xandan kömək istəmişdi. Mir Həsən xanın əmrinə görə Gorganruddan min nəfər piyada tüfəngçi, Vilgic vilayətindən də beş yüz nəfər Ərdəbil şəhərinə yardıma göndərildi. (47,b) Cahangir Mirzə kiçik Ərdəbil qalasını möhkəmlədib qalada yerləşmişdi.

Fətəli şah sülh və saziş qədəmini meydana qoyub, hər iki tərəfi barışmağa çağırdı. Belə qərara gəldilər: Rus qoşunu zəbt etdiyi Qızılbaş dövləti şəhərlərini tərk edib öz vilayətinə qayıtsın. [Bunun] əvəzində Fətəli şah öz xəzinəsindən [Rusiyaya] yeddi kürur[198] pul verməli və Talış vilayəti də əvvəldə olduğu kimi danışıqsız olaraq Rusiyaya verilməli idi. Buna müvafiq olaraq Fətəli şah yeddi kürur pulun üç kürurunu xəzinədən verdi. Bu üç kürur pulu sayarkən Fətəli şahın ürəyi gedib yerə yıxıldı. Pulun qalan hissəsini vermək üçün möhlət istədi. Elə bu vaxtlarda Ərdəbil qalasını döyüşsüz almaq üçün Meşkin yolu ilə Rusiya qoşununun bir böyük dəstəsi gəlməkdə idi.

Lakin Rusiya tayfası [qalaya] çatdıqda Cahangir Mirzə Ərdəbil qalasını təslim etmədi. Qalanı istehkama çevirib qapıları bağladı. O, dava etməyi qərara almışdı. Rusiya qoşunu komandanı işi belə görüncə, Ərdəbil şeyxinin üzərinə bir neçə top göndərdi ki, döyüşə başlasın. Bu xəbər nayibüssəltənəyə çatdı. Nayibüssəltənə Cahangir Mirzəyə aşağıdakı məzmunda təcili bir əmr verdi: «Mən min zəhmətlə Azərbaycanın məsələsini yırtıq bir yaxa kimi yamamışam. Siz isə bunu yenidən yırtıq yaxa kimi parçalamaq istəyirsiniz! Bu fərman çatan kimi Ərdəbil qalasını təslim etməlisiniz. Rusiya dəstəsi tam asudəliklə atalarının evi kimi orada yerləşsinlər!». (48,a) Buna görə Cahangir Mirzə məəttəl qalıb atasının əmrini pozmağa cəsarət etmədi. Gorganrud və başqa yerlərdən toplanılan bütün tüfəngçiləri azad etdi. Özü isə Rusiya sərkərdəsinin pişvazına çıxdı. Onu

qalada yerləşdirdi. Rusiya dövlətinin bütün Iranı alacağını zənn edən Təbriz əhalisi nayibüssəltənəyə və onun övladlarına qarşı yaramaz hərəkətlər etmişdi. [Onlar] bu işin sülh ilə bitəcəyini güman etmirdi. Ona görə öz təqsirlərini təmizləmək üçün gündüz [günorta çağı] küçələrdə nabələd rus soldatlarını tutub evlərinə aparır və öldürür, cəsədlərini yerə basdırıb gizlədirdilər. Rus komandirləri hər səhər qoşunun sayını yoxladıqda, gecə ikən soldatlardan min nəfərin yoxa çıxdığını görürdülər. Heç bir tədbir bu vəziyyətin qarşısını ala bilmirdi. Sərdar Paskeviç bu hadisəni yazıb şaha bildirdi. Rusiya dövləti ona [Paskeviçə] belə yazır: «Bir bəhanə ilə qoşunumuzu Azərbaycandan çıxarın!». Məhz buna görə barışığa razı oldular. Əgər rus qoşunu bir ay da Təbrizdə qalsaydı, Təbriz əhalisi yuxarıda dediyimiz qayda ilə onları [qırıb] axırına çıxardı.

Barışıqdan sonra Rusiya qoşunu zəbt etdiyi bütün şəhərlərdən əl çəkdi. Araz çayından keçib doğma vətəninə ketdi. [Bu hadisədən sonra] Mir Həsən xan altı ay Talış vilayətində asudə hökumət sürdü. Sonradan Qızılbaş dövlətinin Talış vilayətini Rusiya dövlətinə verdiyi aydın oldu. Nayibüssəltənə bu barədə fərman da vermişdi.

Mir Həsən xan atamı Təbrizə nayibüssəltənənin hüzuruna göndərdi. Atam belə deyirdi: Təbrizdə nayibüssəltənənin hüzuruna çatdıqda, o mənə lazımi hörmət göstərdi. Mir Həsən xanın hal-əhvalını, səhhətin məndən xəbər aldı. O gün [Talış barədə] mənə artıq heç bir söz demədi. Nayibüssəltənənin məsələni açmayacağı məni təşvişə salırdı. Halbuki, mən məhz bu məsələ üçün Təbrizə gəlmişdim.

[O günün] səhəri nayibüssəltənə yenə məni öz hüzuruna çağırdı. Mən cəsarət edib (48,b) Talışın vəziyyətini ona ərz etdim. Mənim ərzimi eşidən nayibüssəltənə bir saata qədər başını yuxarı qaldırmadı. Sonra məclisdə iştirak edənləri azad etdi. Məclisdə məndən başqa kimsə qalmadı. O, başını yuxarı qaldırdı. Yalvarıcı səslə sözə başlayıb dedi: «Siz gələn iki gündür. Mən xəcalətimdən bu məsələni sizə aça bilmirəm. Mən Mir Həsən xanı böyük oğlum hesab edirəm. [O], mənim silahdaşım və mücahidlərimin qabaqcılı idi. Şəriksiz allaha and olsun, Talışı Rusiya dövlətinə verməmək uğrunda mən çox çalışdım, mümkün olmadı. Axırda Rusiya sərdarı dedi: «Yeddi gürur puldan bəlkə əl çəkim, lakin Talışdan əl çəkməyəcəyəm!». Mən [də] çarəsiz qalıb razı olmuşam. Mən yenə Mir Həsən xana təklif edirəm. Bacarırsa, Rusiya dövləti ilə sazişə girsin. Mən əsla ondan incimərəm. Ümid var ki, bir vaxt gələcək Talış vilayəti yenidən bu dövlətin ixtiyarına keçəcəkdir. Əgər bizi istəyirsinizsə, Rusiya qoşunu Talışa gəldikdə, [xan] Talış vilayətini boşaldıb ruslara təhvil versin. Özü də sərhəddin bu tərəfinə keçsin. Talışın əvəzinə Ərdəbil şəhəri vilayətini Gorganrud, Asalim və Vilgic vilayətlərilə birlikdə ona bağışladım. Qoy, o, rahatlıqla yaşasın. Qızılbaş

dövləti durduqca, bu vilayətin onun və övladlarının ixtiyarında xalisə[199] kimi qalacağına söz verirəm!».

Mən ərz etdim: «Qurbanın olum, Mir Həsən xan Sizin ətəyinizdən əl çəkməyəcəkdir. Talış sizin əmrinizdə olacaqdır!».

Xülasə, bizə xələt və bəxşiş verib yola saldı. Talışa qayıdıb Mir Həsən xanın qulluğuna gəldik. Əhvalatı olduğu kimi ərz etdik. Mir Həsən xan qızılbaşları çox söydü. Bizə xitab edib buyurdu: «yadınızda varmı, qızılbaşların əlindən bir iş gəlməyəcəyini işin əvvəlində sizə demişdim. Lakin çarəmiz yox idi. [Qızılbaşlara müraciət etməsə idik], müsəlmanların tənəsindən qurtara bilməzdik. Qızılbaşlar evimizi yaman yıxdı. Köhnə ədavətlərinin intiqamını aldılar!». Sonra əmr edib bütün Talış xanlarını və öz məsləhətçilərini hüzuruna çağırdı. (49,a) Hamı xanın hüzurunda hazır oldu. Talışı tərk edib getmək və yaxud Talışda qalıb Rusiya dövləti ilə bir təhər yola getmək, ona itaət etmək məsələsini bir ay müzakirə etdilər. Məsləhətçilər iki dəstəyə ayrıldı. Bir dəstə Talışdan çıxmağı məsləhət bilmirdi. Bunlar Kərbəlayı Xudaverdi tayfasından [olub], Kələntərovun dəstəsindən idi. Ikinci dəstə [Talışdan] çıxmaq tərəfdarı idi. Bunlar Mir Həsən xanın qulluğunda Rusiyaya qarşı vuruşanlar idi. Drığlı Nurulla xan, Mir Həsən xanın qardaşı və Vilgic mahalı hakimi Mir Hüseyn xan, Mir Həsən xanın qardaşı Mir Məhəmməd xan və qeyriləri bu dəstəyə daxil idi. Kələntəriyyə tayfasından olan ucarütbəli Kərbəlayı Şahverdi bəy, hacıların şərəflisi hacı Əhməd və Məşədi Məhəmməd Rza bəy cəsarətə gəlib şəxsən Mir Hüseyn xana ərz edib yalvardılar ki: «Siz Talışdan getməyin. Getsəniz, yenidən Talışı öz əlinizə keçirmək çox çətin olacaq!». Ucarütbəli Kərbəlayı Şahverdi bəy Mir Həsən xana ərz etdi: «Oğlanlarınızdan Mir Abdulla bəyi mənə qoşun, Tiflisə Rusiya sərdarı hüzuruna gedib Talış vilayətini əvvəlki kimi sizin üçün alım. Mənim bu əmrimi qəbul etməsəniz, o zaman doğrusu mən öz tərəfdarlarımla Talışdan kənara getməyəcəyəm. Çünki keçmişdə ata-babalarımız bizə vəsiyyət etmiş ki, belə hallarda Talışdan kənara çıxmayın. Buna görə mən öz babalarımın vəsiyyətinə əməl edəcəyəm!».

Bu xəbəri Mir Həsən xanın – Məhəmməd Salah xanın qızı və Mir Abdulla bəyin anası olan – zövcəsinə çatdırdılar. (49,b) O, çox ağlayıb-sızladı. Matəm saxladı. Mir Həsən xan ucarütbəli Kərbəlayı Şahverdi bəyin bu məsləhətini bir o qədər də bəyənmədi. O zahirdə ucarütbəli Kərbəlayı Şahverdi bəyə «bu da pis məsləhət deyildir» dedi. Lakin onun ürəyində qəzəb odu alovlandı. Çünki o xanın hüzurunda belə [açıq] cəsarət etmişdi: «Mən səninlə Talışdan kənara çıxmayacağam!». O, Mir Həsən xanın köhnə yaralarını yenidən təzələmişdi. [Lakin] o, əvvəllərdə Lənkərandakı ruslarla yekdil olub Mir Həsən xanın başına nələr gətirməmişdi?

Mir Həsən xan təklikdə öz xas nökərlərinə deyirdi: «Indi də Kərbəlayı Şahverdi bəy oğlanlarıma əl atıb onları puça çıxarmaq istəyir?».

Iki-üç aydan sonra baharın ortasında xəbər gəldi ki, Rusiya qoşunu çox xatircəmliklə Salyan körpüsünü keçib Talış tərəfə kəlir. Mir Həsən xan Həmid xanın[200] başçılığı altında beş yüz nəfərdən ibarət bir dəstə Muğan atlısı göndərdi. Onların dava qəsdilə və yaxud Qızılbaş padşahının göstərişilə gəldiyini öyrənmək istədi. Həmid xan Muğan atlıları ilə onlara çatdı. Rus qoşunu ilə dava etmək fikrində idi. Rusiya qoşunundan Karsov adlı mayor[201] irəli gəlib Həmid xana dedi: «Mir Həsən xan ilə müharibə edib Talışı qılınc gücü ilə almağa əmr yoxdur. Biz iki dövlətin müqaviləsi əsasında Talışı almışıq!».

Mir Həsən xan da Həmid xana tapşırmışdı: «Onlar vuruşmaya başlamasalar, siz də döyüşsüz onlardan bir ağac irəlidə gedib, məni vəziyyətlə tez tanış edərsiniz». Buna görə də Həmid xan vəziyyəti yazıb Mir Həsən xana göndərdi. Mir Həsən xan qoşununu toplayıb hamısını Lənkəranda hazır saxladı. Qumbaşıdan Rusiya qoşununun gəldiyi xəbərini alan kimi Mir Kazım xanın[202] başçılığı ilə onların qarşısına beş yüz atlı göndərib tapşırdı: «Onlar dava etməzsə, siz də döyüşsüz onların qabağında yavaş-yavaş Lənkəran şəhərnnə tərəf gələrsiniz!». Mir Kazım xan öz dəstəsilə Camışavan[203] kəndində onlara rast gəlmiş: Ismayıl bəyin[204] də onlarla gəldiyini görmüşdü. Iki dəstə (50,a) bir-birinə yaxınlaşdı. Elə bil ki, rus atlıları Mir Kazım xanın atlıları ilə danışırdılar. Şəhərin bir verstliyində Mir Ismayıl bəyin qaynı Hacı Əhməd oğlu Kərbəlayı Ağa Baba bəy atının cilovunu çəkib yalandan fəryad qoparmışdı ki, [aman] Rusiya atlıları bizi tutdular. Bu hiylə ilə o, Rusiya dəstəsinə qoşulmuşdu. Bütün aləm bunun hiylə olduğunu bildi. Mir Həsən xan öz köçü, ailəsi və qoşunu ilə evini tərk edib Lənkəran şəhərindən çıxdı. Öz ailəsini tabelərinin köçlərilə birlikdə Siyahlələ kəndinə göndərdi. Özü də Dargakəndində[205] sakin oldu. Ətrafdan Lənkəran şəhərini mühasirəyə aldı. Mir Kazım xan bir gün öz atlı qarnizonu ilə Lənkərana daxil olan, Rusiya qoşununa [təsadüf etmiş] və atasından xəbərsiz bir neçə soldatı [tutub] əsir almışdı. Kələntəriyyə tayfasının xahişinə görə Kərbəlayı Ağababa bəy bu məzmunda xəbər göndərmişdi: «Siz mənim əvəzimə əsir edilmiş [soldatları] versəniz, onlar da məni azad edərlər!». Mir Kazım xan o soldatları atlılarının tərkinə alıb getmişdi. Qərəçiobanı[206] keçib Mir Ağa Mir Əsgər oğlunun dükanlarının yerində sıra ilə durmuşdu. Lənkəran tərəfdən də bir neçə nəfər kazak və müsəlman gəlib onların qarşısında sıra ilə durub bir-birilə danışıq aparırdı. [Ruslar] deyirdi: «Əvvəl soldatları verin, biz də Kərbəlayı Ağababanı azad edək!». Onlar hiylə işlədirdilər. Onların qarşısını almaq üçün Köhnərud[207] yolu ilə beş yüz soldat göndərmişdilər ki, o tərəfdən soldatlar, bu tərəfdən isə kazaklar Mir Kazım xanı dövrəyə alıb tutsunlar. Mir Kazım xanın bu hiylədən xəbəri yox idi. Birdən arxadan, yəni Sərdabəyi Xil tərəfdən soldatların gəldiyini gördükdə Mir Kazım xan öz dəstəsi ilə (50,b) cilovu geri döndərib görmüşdü ki,

arxadan soldatlar, qabaqdan da kazaklar [yolunu kəsmişlər]. Çarəsiz qalıb Lənkəran çayından keçmək ümidi ilə atlarını qibləyə tərəf çapmışdılar. Lakin oradan keçmək çox çətin idi. Su çox dərindən axırdı. Sahil isə, türkün sözü, uca bir yarğan idi. Fürsəti qənimət bilən əsir soldatlar atlıların tərkindən yerə atılıb Lənkəran tərəfə qaçdılar. Soldatlar atdan yerə atılarkən həmin atlıları tutmaq, kazaklar gəldikdən sonra isə öldürmək istəyirdilər. Lakin atlılar min çətinliklə özlərini xilas edib qaça bildilər.

Mir Kazım xan öz atlıları ilə çaydan Vilgic çəməninə keçdi. Rusiya atlıları onlardan əl çəkməyib [təqib edirdi]. Öz döyüşləri ilə məşhur olan şahsevən Cəfər bəyin oğlu ucarütləbi Əsgər bəyə belə demişdi: «Bu nə biqeyrətlikdir? Nə üçün qaçırsınız?».

Əsgər bəy cavabında demişdi: «Atımın boynu sınsın. Atım bir qədər nanəcibdir. Ona etibarım yoxdur! O çarəsiz qalıb atının cilovunu çevirib meydana sürmüşdü. Qərəyçioba çəmənində görmüşdü ki, Rusiya qoşununun başçısı, həm də yaxşı süvari olan qızılağaclı Ibrahimbəy Qələyçi oğlu ruslar tərəfindən Əsgərbəyin üzərinə hücum edib ona güllə atır. Əsgər bəy də atını döndərib çəpinə atdığı bir güllə ilə onun atını vurmuşdu. O, atdan düşüb piyada Rusiya qoşunu tərəfə qaçmışdı. Bu tərəfdən Kərbəlayı Nəzərəli bəy cəldlik göstərib, onun atının yəhərini götürməyə müvəffəq olmuşdu.

Müxtəsər, meydan qızışmış, hər iki tərəfdən bir neçə güllə atılmışdı. Mir Həsən xanın ikinci oğlu Mir Abdulla bəy də öz atlılarının Şəfqət bəy oğlu Fətulla bəy, qızılağaçlı Məlik oğlu Ibrahim bəy və xan bir neçə [digər] atlıları ilə burada idilər. Onlar Viləpüştədə[208] gəzməyə çıxmış, güllə səsini eşidən kimi özlərini dava meydanına yetirmişdilər. (51,a) Doğrudan da [onlar] cəsarətlə vuruşmuş, rusları məğlub edərək [qaçırtmışdılar]. Bu xəbəri ucarütbəli Mir Həsən xanın hüzuruna çatdırdılar ki, guya Mir Kazım xan bu işi kələntəriyyə tayfasının xahişinə görə etmişdir. Danışıq zamanı Lənkəran şəhəri sakini Məşədi Ağa Məhəmmədəli oğlu Hüseyn Piləkəllə[209] dilmanclıq etmişdi. O, ucarütbəli Rza Əli bəy Əminüddövlənin qaynı olub zahirdə bu tərəfə meyl göstərirdisə də həqiqətdə kələntəriyyə tayfasına gizli rəğbət bəsləyirdi. Mir Həsən xan həmin piləkəllə Hüseynin kələntəriyyə tayfasının cavanları ilə birlikdə hüzuruna çağırdı. Onları lazımınca döydürdü. Onların sağ qaldığına kimsə inanmırdı. Sonra əmr verib kələntəriyyə tayfasını və onlara tabe olanlarla birlikdə köçlərilə Drığ mahalının Bibiyanı kəndinə[210] sürgün etdi. Onları məhbus kimi orada yerləşdirdi. Bu hadisədən sonra bir müddət Mir Həsən xan ilə Rusiya qoşunu arasındakı [vəziyyət] belə davam etdi. Hər iki tərəfdən bir xətər [olmadı], Qızılbaş dövləti tərəfindən Fətəli xan Nuri[211] Mir Həsən xanın hüzuruna gəldi. Min cür nəvazişlə Mir Həsən xanı tərəfdarları ilə birlikdə Talışdan çıxardı. Yenə Astara çayının o tərəfinə keçirdi. Mir Həsən xan bir neçə xas nökərlərilə Cilənd kəndində[212] sakin oldu. Qalan nökərləri isə Astaranın o tərəfində Kanrud[213] və Levendevil[214]

kəndlərində yerləşdilər. Aradan iki yay, üç payız və iki qış keçdi. Lakin bu müddət ərzində çox adam tələf oldu. Çünki onların bəzisi Talış yaylaqlarında yaşayan adamlar idi. Bəzilərinə də [təzə] yerlərin iqlimi pis təsir edirdi. Müxtəsər, bunların üçdə bir hissəsi iqlimin pisliyi nəticəsində tələf oldu. Bir qismi də, Mir Həsən xanın yenə də tezliklə Talışa dönəcəyi ümidi ilə gələnlər idi ki, işin belə şəkil aldığını və xanın [bir də] Talışa qayıdacağının məlum olmadığını görüb öz vətənləri olan Talışa qayıtdı. Başqa bir hissə Isgəndər səddi[215] kimi orada qaldı. (51,b) Novruz bayramına bir ay qalmışdı. Astara, Kanrud, Levendevil və Ciləvənd [camaatından] ibarət rəiyyətlərinə, hərənin ehtiyacına görə [taxıl] əkməyə icazə verdi ki, onlar güzəranlarını təmin edə bilsinlər. Vilgic, Korkanrud və Asalim mahalları Mir Həsən xanın əlində idi. [Onlar] xana xidmət edirdilər. Lakin Mir Həsən xan bu cür güzərana razı olmurdu. Bütün fikri bu idi: Allah tezliklə [bir vasitə etsin ki, o özünü] Talışa sala bilsin.

[Bu dövrün] hadisələrindən biri də budur: Tehranda camaat toplanıb Rusiya səfirini öldürmüşdü. Səbəbi bu idi. [Iran sərbazları] Qarabağ vilayətindən vuruşma və qarət zamanı təsadüfən bir gözəl gürcü qızını əsir aparmışdılar. Qız çox gözəl olduğundan tehranlı Yəhya xan onu özünə zevcəliyə qəbul etmişdi. Neçə vaxt idi ki, o qız [Yəhya xanın] arvadı idi. Iki dövlət arasında dostluq əlaqələri nizama salındıqdan sonra Rusiya səfiri Tehranda sakin oldu. Bir gün Yəhya xan o arvada [zevcəsinə] acıqlanıb onu döymüşdü. Guya arvadın başında əvvəlki əqidəsi qalmış, o, ürəkdən müsəlman olmamış, təqiyyə edirmiş. [Arvad] o saat çarşabını başına salıb özünü Rusiya səfirinin mənzilinə salmışdı. Rusiya səfiri də ona qayğı göstərib öz himayəsinə almışdı. Yəhya xan hər nə qədər səfirin yanına gedib həmin qadının illərdən bəri onun nigahlı zövcəsi olduğunu ərz etmiş, ondan bir neçə uşağı olduğunu bildirmiş və «mənim arvadımı saxlamayın» demişdisə də, [səfir] onun sözünü qəbul etməmişdi. Axırda Yəhya xan, mollalar və sairə Tehran müsəlmanları hövsələdən çıxıb bu namussuzluğu qəbul etməmişdi. Şahın icazəsi olmadan camaat səfirin mənzilinə girib onu və xidmətçilərini öldürmüş, həmin arvadı evdən çıxarıb kətirmişdilər.[216]

Ənzəli sərhədçisi Məhəmməd Haşımxan mütribbaşı[217] Ağa Mahəmməd Əlixan vasitəsilə bu xəbəri dostcasına Mir Həsən xana yazmış, onu bu hadisədən xəbərdar etmişdi. Mir Həsən xan bu xəbəri eşidincə öz qoşununu toplayıb Talış torpağına yönəldi. Əmr verdi ki, Gorganrud və Asalimdən min nəfər piyada tüfəngçi özünü xanın hüzuruna yetirsin. O zaman Rusiya sərdarı Paskeviçin yardımı ilə Hacı Mir Abbas bəy[218] Tehran həbsxanasından azad olub Talışa gəlmişdi. O, ailəsi Xanım Ağanı Astarada (52,a) Rudəkənar kəndindəki evində qoyub özü Lənkəranda rəisin yanında xidmət edirdi. O zaman [hələ] Astara mahalının ona təslim edilməsi haqqında yuxarı hakimlər tərəfindən əmr verilməmişdi. Hacı Mir Abbas bəy öz

mahalını ələ gətirmayə çalışırdı. Mir Həsən xanın qorxulu xəbərini eşitdikdə Lənkəran rəisi Hacı Mir Abbas bəyin xahişilə ona dörd-beş yüz soldat verib Mir Həsən xanın qarşısına göndərdi ki, o gedib Astarada Mir Həsən xan ilə vuruşsun. Lakin hacı Mir Abbas bəy soldatları bir gəmiyə mindirib özü bir nəfər nökərlə dəniz kənarı ilə Astaraya getmişdi. O, Kələdəhnədə dayanıb gözləmişdi ki, soldatlar gəlib ona çatsın. Mir Həsən xana xəbər verdilər ki, Hacı Mir Abbas bəy nökərlə buralarda avara-avara dolanır. Mir Həsən xan elə güman etdi: «O, öz ailəsinin pozulmaq təhlükəsindən qorxub mənə pənah gətirir». Lakin xan yanılırdı. Mir Abbas bəyin gəlməsindən ehtiyat edib çəkinmədi. Soldatlar gəmidən [sahilə] çıxdılar. Hacı Mir Abbas bəyin başçılığı altında nahar çağı qəflətən Mir Həsən xanın tüfəngçiləri üzərniə hücum etdilər. Mir Abbas bəyin evinin dörd tərəfi mühasirə olunmuşdu. Gözlənilmədən [onların üzərinə] tökülüb bir neçə nəfərini öldürdülər. Hacı Mir Abbas bəyin evi ətrafındakı qoşunların hamısı qaçıb Mir Həsən xanın yanına toplandılar. Iki tərəf arasında bərk vuruşma oldu. Mir Abbas bəy qoşunları ilə birlikdə evin hasarları arxasında daldalandı. Evin hasarlarını möhkəmlədib döyüşə başladı. Neçə gün səhər-axşam vuruşdular. Bir neçə gün belə keçdi. Rus konsulu bu əhvalatı Təbrizdə nayibüssəltənəyə bildirdi. Nayibüssəltənə xələcli[219] Rəhmətulla xanı Mir Həsən xanın yanına göndərdi. Töhmətli bir məktub da yazdı: «Sizin bu hərəkətiniz hər iki dövlətin zərərinədir. Bütün etdikləriniz yersizdir. Tutduğunuz əməllərdən əl çəkib əvvəlki kimi evinizdə sakit və rahat oturun!». Mir Həsən xan böyük oğlunu güclü qoşunla Muğana göndərdi. Rəhmətulla xan [ora] çatan kimi xəbər göndərib Mir Kazım xanı qoşunu ilə geri qaytardı. Onlar Mir Həsən xanın hüzuruna gəldilər.

Rusiya dövlət başçıları Mir Həsən xanın bu hərəkətindən çox narahat qalıb, Mir Həsən xana sərhəddən uzaq yerdə mənzil verməyi Qızılbaş dövlətindən xahiş etdilər. Buna görə də Nayibüssəltənədən Mir Həsən xanı hüzuruna çağıran bir neçə əmr gəldi. Mir Həsən xan hüzura getməkdən çəkindi. Şahzadə Cahangir Mirzə özü Mir Həsən xanın yanına gəldi. Ganrud kəndində görüş oldu. [Cahangir Mirzə] min nəzakət [və hörmətlə] Mir Həsən xanı özü ilə Ərdəbil şəhərinə apardı. Onu bir neçə ay öz yanında saxladı. Mir Həsən xanın və tabelərinin köç və ailəsi isə əvvəlki kimi Cilənd və digər kəndlərdə asudə yaşayırdılar. Çünki keçmişdə Nayibüssəltənə ilə Mir Həsən xan arasında dostluq və qohumluq möhkəmlənmişdi. Onların qohumluğu bir qədər də möhkəmləndi. Mir Həsən xan Nayibüssəltənənin qızını oğlu Mir Kazım xana aldı. Onu Nəmində sakin etdi. Vilgic mahalını [Mir Kazım xana] tapşırdı. Özü isə Nayibüssəltənənin icazəsi ilə Cilənd kəndindəki malikanəsinə getdi. Iki ilə qədər Mir Kazım xan Vilgicdə, [Mir Həsən xan] isə Cilənd, Levendevil və Astara kəndlərində, Gorganrud və Asalim mahallarında hakim olub əmin-amanlıqda yaşadılar.

Lakin onun bir neçə nəfər alçaq və oğru nökəri Ciləvənd [kəndində] toplanmışdı. Onların oğurluq və dələduzluqdan başqa peşələri yox idi. Ciləvənddə onların adları dillərdə gəzirdi. Özləri isə gecə-gündüz Talış meşələrinin Rusiyaya keçən hissəsində gizlənib, tək-tənha bir ev gördükdə onu yandırır, mal və avadanlığını qarət edirdilər. Kazakların və soldatların keçdiyi yollarda pusquda oturub onları da öldürürdülər. Onların [törətdiyi] pis əməllərin və yaramazlıqların səsi hər yerə yayılmışdı. Mir Həsən xan onlara nə qədər nəsihət verib düzlüyə dəvət edirdisə də, bir nəticə vermədi. Onların [pis hərəkətləri] gündən-günə daha da artdı. Axırda Rusiya dövlət məmurları tənkə kəlib Qızılbaş dövlətindən xahiş etdilər ki, Mir Həsən xanı Ciləvənd kəndindən köçürüb [sərhəddən] qırx fərsəx* uzaqda, yəni (53,a) Rəştin Səfidrud [mahalında][220] yerləşdirsin.

Lakin bu tərəfdən Mir Həsən xana nə qədər təklif və fərman verildisə də, o, qulaq asmadı. Axırda Nayibüssəltənə gördü ki, fərmanlardan bir fayda çıxmır, özü Ərdəbil şəhərinə getdi. Mir Həsən xanı öz hüzuruna çağırdı. Ona lazımi hörmət və nəvaziş göstərdi. [Təklif etdi ki,] Mir Həsən xan özü Ciləvənddə sakin olsun, lakin onun köçlərindən biri girov olaraq Ərdəbildə qalsın. Bəlkə [beləliklə] Rusiya dövlət məmurları Qızılbaş dövlətinin yaxasından əl çəksinlər. Ərdəbil nahiyəsindəki Adıbəyli,[221] Şıxlar[222] və bir neçə başqa kəndlər Mir Həsən xanın köçünə verilsin. Bundan əvvəl [də] Nayibüssəltənə Mir Həsən xana çox belə vədlər vermişdisədə lakin əməl etməmişdi. Buna görə Mir Həsən xan Nayibüssəltənənin bu təkliflərini qəbul etməyib demişdi: «Mən, Mir Həsən xan, sizin əmrinizə görə bütün Talışdan əl çəkib gəldim. Ciləvənd kəndində sakin oldum. Ildə iki-üç dəfə Gorganrud və Asalim mahallarını mənə verirsiniz. Digər tərəfdən isə məzkur mahalların zabitlərini[223] mənə qarşı üsyan və dönüklük etməyə təhrik edirsiniz. Indi iş elə məqama çatmışdır ki, sizin mənə verdiyiniz çörəkdən əl çəkirəm. Bir şərtim var. Üç aydan ibarət olan bu qışı mənə möhlət verin. Sonra mən Iraq vilayətinə gedəcəyəm!». Mir Həsən xanın bu cavabı Nayibüssəltənəyə ağır gəldi. Xatircəmliklə [düşünüb] cavab vermək üçün ona möhlət verdi. Təxminən bir həftə cavab gözlədi. Lakin ondan bir xəbər gəlmədi. Mir Həsən xan [Nayibüssəltənədən] icazəsiz öz nökərlərilə atlarını minib Ciləvənddaki mülkünə getdi. Aradan bir-iki ay keçdi, lakin Ciləvənddən çıxmaq üçün Mir Həsən xandan bir təşəbbüs hasil olmadı. Nayibüssəltənə şahsevən Fərzəlixanın sərkərdəliyi altında Balaxana və asalimli Mustafa xana qəti əmr verdi ki, Mir Həsən xanı güllə gücü ilə də olsa Ciləvənd kəndindən çıxarıb, Rəştə tərəf qovsunlar. Mir Həsən xan (Ciləvənddən) çıxmaq istəmədiyi təqdirdə (53,b) onun var-yoxunu qarət etmək və özünü də öldürmək haqqında əmr verilmişdi. Gorganrudlu Bala

---

* Бир фярсях тяхминян 5-6 километрдир.

xan, asalimli Mustafa xan iki minə yaxın tüfəngçilərini toplayıb Ciləvəndin bir ağaclığında olan Lömir kəndində mənzil saldılar. Balaxan hər gün Mir Həsən xanın yanına adam göndərir, bu məzmunda ərizə yazdırdı: «Mən sizin köhnə nökərinizəm. Sizin çörəyinizlə bəslənmişəm. Xahişim budur ki, hörmətlə Ciləvənd kəndini tərk edəsiniz. Rəştə gedərkən mən sizin nökəriniz kimi atınızın qabağında piyada gedəcək və Sizə lazımi xidmət edəcəyəm. Padşahın əmri belədir. Bu fərmandan kənara çıxa bilmərəm!».

Mir Həsən xan da cavabında yazdı: «Siz qoşununuzu götürüb Gorganrud və Asalim mahalına gedin. Mən özüm Ciləvənd kəndindən çıxacağam!». Bala xan yenə adam göndərib yazırdı: «Mən şahın əmrilə qoşun toplayıb bura gəlmişəm. Özbaşıma buradan qayıda bilmərəm!».

Mir Həsən xan hər gün atamı Bala xanın yanına göndərirdi. Balaxan da Qurana and içib deyirdi: «Qacarın fikri budur ki, mən Mir Həsən xana hörmətsizlik edim. Lakin mən əvvəllər Mir Mustafa xan və Mir Həsən xan dövlətinə xidmət etmişəm. Özümü onların qapısında qulluqçu görmüşəm. Onun üçün də duz-çörək itirməyə razı ola bilmərəm!». Atam gəlib bu xəbəri xanın hüzuruna ərz edirdi.

Bir para alçaqlar Mir Həsən xana gizlicə ərz edirdilər ki: «Mirzə Xudaverdi Bala xan ilə əlbir olub sizi Ciləvənd kəndindən çıxarmaq və bu kənddə özü hakim olmaq istəyir!».

Mir Həsən xan da onların sözünə inanırdı. Zahirdə atama bəli, bəli deyirdisə də, [ürəyində] onların dediklərinə inanırdı.

Novruzdan iki ay keçdi. Lakin Mir Həsən xan [Ciləvənddən] çıxmaq istəmədi. Axırıncı dəfə Bala xanın yanından qayıtdıqda atam Mir Həsən xana ərz elədi: «Bu gecə və ya sabah [gecə] Bala xanın qoşunu bizim üzərimizə (54,a) basqın edəcəkdir. Biz biabır olacağıq. Kaş, Lənkərandan min nəfər soldat gəlib bizi rüsvayçılıqla Ciləvənddən çıxara idi. Bu çox yaxşı olardı. Biz öz rəiyyətlərimizin əlində rüsvay olmazdıq!».

Mir Həsən xan gülərək atama dedi: «Mirzə Sizin piyadalarınız [hələ] o yerə çatmamışlar. Onlar nə itdilər ki, bizə qarşı belə hərəkət etsinlər!».

Atam ərz elədi: «Mən özüm üçün qorxmuram. Sizin hörmətdən düşəcəyinizdən çəkinirəm!». Mir Həsən xan atamın ərzini qəbul etmədi. Məsəldir:

Qəlbi qaraya nəsihətin nə faydası,
Dəmir mıx daşa batmaz.[224]

Xulasə, Mir Həsən xanın halı çox dəyişmişdi. Alçaqlar onu yoldan çıxarmışdılar. Həmin gecə evimizdə yatmışdıq. Səhərə iki saat qalmış gördük ki, gecənin qaranlığı arasıra gündüz kimi işıqlanır. Göylər sanki ildırım çaxan kimi guruldayır.

Bizim evlərimiz, yəni Mir Haşım bəy, Mir Talıb bəy, Mir Tağı bəy, Əhməd bəy oğlu Zöhrab bəy, Mir Həsən xanın əmisi Mehdi bəyin, digər

nökər, fərraş və xidmətçilərin evləri o zaman Ciləvənd kəndinin kədxudası Şəfiəddinin evinin yanında idi. Hamı bu məhəllədə yaşayırdı. Lakin Mir Həsən xanın evləri yuxarıda ciləvəndli Ağa bəyin həyətində idi. Arada yarım fərsəx məsafə vardı. Diqqət edib gördük ki, Mir Həsən xanın evi üzərində şiddətli dava gedir. Tüfəng səsindən qulaq batırdı. Bizim evimizin qarşısında güllə çatan [məsafədə] bir dağ vardı. Baxıb gördük ki, o dağın başında dörd yüzə qədər tüfəngçi evlərimizin üstünə dolu kimi güllə yağdırırlar. Evdən bayıra çıxmaq mümkün deyildi. Mən bir nəfər nökərim ilə ayrı evdə yatmışdım. (54,b) o [nökərin] adı Məhəmməd Həsən idi. Doğrudan da bu yaxşı nökər idi. Çox cavan və bacarıqlı idi. Igidlikdə tayı-bərabəri yox idi. Atam Mirzə Xudaverdi başqa evdə öz arvadı ilə yatmışdı. Güllə səsindən oyanıb səsləndi: «Ayağa qalxın, atlarınızı minib özünüzü Mir Həsən xana yetirin!».

Qonşumuz şiləvarlı Mir Haşımın evi Gorganrud camaatının bizə güllə atdığı dağa yaxın idi. Elə bu vaxt paltarını geyib silahlanmağa vaxt tapmayan [Mir Haşım] çarığı, dolağı, tüfəngi və patron qatarını götürüb qaçaqaça hövlnak özünü atamın evinə saldı, fəryad edərək dedi: «Mirzə Xudaverdi, bu nə işdir ki, bizim başımıza gəldi?». Atam cavabında tənə ilə dedi: «Bəli, mən hər gün Bala xan tərəfindən gəlib bu işin həqiqi [vəziyyətini] Mir Həsən xanın xidmətinə ərz edirdim. Mən [xanın hüzurundan] qayıtdıqdan sonra alçaqlar, dələduzlar Mir Həsən xanın yanında məni ələ salıb istehza edirdilər. Mir Həsən xana işi başqa cür izah edib, onu şübhələndirirdilər. Mir Həsən xan da onların dediyini qəbul edirdi!».

Mir Həsən xanın dəstəbaşısı Zöhrab bəyin çox sakit və soyuqqanlıqla tüfəngi əlində bizim evlərə tərəf gəldiyini gördük. O tərəfdən isə Gorganrud camaatı onun başına güllə yağdırırdı. O, ətrafına yağan güllələrə əhəmiyyət vermir, kirpiyini belə qırpmırdı. [Gəlib] həyətimizin ortasındakı açıq yerdə durdu. Düşməni hədələyərək dedi: «Güllə atmaqdan əl çəkin. Yoxsa mən də bu tüfəng ilə sizi bir-bir həyatdan məhrum edərəm!».

Sonra Mir Haşımbəyin nökəri muğanlı Nur Məmməd atını yəhərləyib Mir Haşım bəyə yetirdi. Mir Haşım bəy atı minib Mir Həsən xanın evlərinə tərəf çapdı. Gorganrud camaatının onun sözlərinə qulaq asmayıb güllə atmaqda olduqlarını görən Zöhrab bəy də öz evinə getdi. Atını minib Mir Həsən xanın evlərinə tərəf (55,a) çapdı. Biz də atlarımızı minib Mir Həsən xanın evinə çapdıq.

Atamın göy rəngli xüsusi bir atı vardı. Onu kimsəyə verməz, yalnız özü minərdi. Məmmədhəsən ona mindi. Mənim də çox yaxşı bir kürən, axta iri atım vardı. Ona mindim. Mir Həsən xanın evinə tərəf getdik. Məmmədhəsən mükəmməl silahlanmışdı. Mənim on iki yaşım olduğundan vuruşmağa cəsarətim çatmırdı. Atam altmış əşrəfiyə bir qılınc almışdı. Mən onu belimə bağladım. Ciləvənd çayından keçib Mir Həsən xanın evinə tərəf

getdik. Mir Həsən xanın kiçik zövcəsi Yegənkənd[225] əhalisindən muğanlı Məhəmməd bəyin qızı Qızxanım həmin evdə olurdu. Qiblə və habelə şimal istiqamətində dağlar vardı. Bu iki dağdan atışmaq mümkün idi. Mir Həsən xanın evləri bu iki dağın arasında idi. Mən nökərimlə xanım Qızxanımın evinin hasarı içərisinə daxil olduq. Gördüm ki, evlərinin içi tüfəngçilərlə doludur. Canımız salamat qalmaq üçün bizi evə qoymadılar. Çarəsiz qalıb hasardan çıxıb, atlarımızı Mir Həsən xanın böyük evinə tərəf çapdıq. Mir Həsən xan da orada idi. Evlərin arasında əlli arşına yaxın bir çəmənlik vardı. [Bu çəmənlikdən] keçənlər hər iki dağdan aydın görünürdü. Biz atımızı o çəməndən sürdükdə dağlardan «Vurun! Öldürün!» (55,b) səsi yüksəldi. Başımıza dolu kimi güllələr yağırdı. Güllələrin yeli bizi yəhərdən yerə yıxmaq istəyirdi. Məmmədhəsən qabaqda, mən onun arxasınca gedirdik. həyətin qapısına yetişincə Məmmədhəsənin atına bir güllə dəydi. Güllə üzənginin yanından dəymişdi. At güllə zərbindən yıxıldı. Lakin atına güllə dəydiyini Məmmədhəsən başa düşməmişdi. Ona görə atı səsləyib sağrısından bir neçə qamçı vurdu. At çox nəcib olduğundan qeyrətə gəlib ayağa durdu. Yenə irəli getdi. Mir Həsən xanın böyük bacısı Qəmərxanımın evinin qapısı qarşısına qədər gəldik. Ata yenə bir güllə dəyib qabaq qıçını dirsəkdən sındırdı. Onun artıq hərəkət etməyə taqəti qalmadı. Məmmədhəsən özünü atdan yerə atdı. Atı buraxıb özünü Qəmər Ağanın evinin içərisinə yetirdi. Orada gizləndi. Mən də atımı çapdım. mətbəxindədir. Mən də öz atımla o mətbəxə girdim. Orada otuz nəfərə Gördüm ki, xanın nökərlərindən bir neçəsi öz atları ilə xanın kimi nökər toplandığını gördüm. Mən də onlarla qaldım. Mətbəxin arxası çaya baxırdı. Çayın o tərəfində Gorganrud tüfəngçiləri pusqu qurub gözləyirdilər ki, hər kim o tərəfə keçsə, [onu] güllə ilə vursunlar. Mətbəxin divarında iyirmi yerdə deşik açılmışdı. Bizim adamlar həmin deşiklərin arxasında durub keşik çəkirdilər ki, Gorganrud əhalisi çaydan keçərək Mir Həsən xanın həyətinə daxil olmasınlar. Mir Həsən xan həmin günlərdə kürd tayfasından bir qız tutub gətirmiş, onu siğə etmişdi. Gecəni onunla yatdığı üçün qüsl[226] edirdi. Xan gorganrudluların atdığı güllələrə heç əhəmiyyət vermirdi. [Düşmən gülləsi] (56,a) nəzərinə belə gəlmirdi. [Mir Həsən xan] kənizlərinə[227] buyurmuşdu: «Mənim üçün yemək hazırlansın!». Bu əsnada [Mir Həsən xan] evinin qapısından bayıra çıxıb, divara söykənərək dayanmışdı. Gorganrudlular bu anda ona iki güllə atdılar. [Güllə] onun başı üstündən bir qarış [yuxarı] divara dəydi. Mir Həsən xan o güllələrdən heç çəkinmədi. Zövcəsi qalaqayınlı[228] Məhəmməd Salah xanın qızı Xeyrənnisa xanım təlaşla onun qolundan tutub dedi: «Ay kişi, evə gəl, səni vurarlar!». Mir Həsən xan zövcəsinə acıqlanıb dedi: «Bunlar kimdir və nə cürətləri var ki, məni güllə ilə vursunlar!». Sonra evə girib oturdu.

Bu vaxt atam Mirzə Xudaverdinin gəldiyini gördüm. Xanın hüzuruna çatdıqda xan ona buyurdu: «Gəl otur!». Artıq hazır olan naharı da

gətirdilər. Xan atama nahar etməyi təklif etdi. Atam yemədi. Ağlamağa başlayıb dedi: «Qurbanın olum, bu nə müsibətdir ki, başımıza gəldi. Kaş Lənkərandan min soldat gəlib bizi əsir edə idi. O bundan yaxşı olardı. Gorganrud və Asalim camaatı atababadan bu yüksək nəslin rəiyyəti olmuşdur. Onların əlində rüsvay olmazdıq!».

Mir Həsən xan atama buyurdu: «Bu sarsaqlar kimdirlər ki, bizi əsir edələr. Heç qorxub narahat olmayın!». Atam ərz etdi: «Qurban olum, doğrudur, bunlar ata-babadan bizim rəiyyətimiz olublar, lakin bu iş padşahın əmridir, başqa əlacları yoxdur. Şahın fərmanına əməl etməlidirlər!».

Mir Həsən xan atama dedi: «Siz Bala xan və Mustafa xanın yanına gedib [onlara] deyin ki, qoşunlarını Lömir kəndi tərəfinə qaytarsınlar. Mən də bir həftədən sonra Ciləvənddən çıxacaqam!».

Buna görə atam xanın hüzurundan mürəxxəs oldu. Nökəri Məmmədhəsəni öz yanına çaqırdı. Mənim atımı ona verib dedi. «Siz mənim oğlum yerindəsiniz. Mir Həsən xan hara getsə siz də ondan ayrılmadan birgə getməlisiniz!».

Atam məni də özü ilə alıb Balaxanın yanına gəldi. Balaxan bizi gördükdə dedi: «Allaha şükr olsun (56,b), bu uşağı təhlükədən çıxardınız. Allah eləməmiş döyüş vaxtı buna bir güllə dəysəydi, sabah sənin üzünə baxa bilməzdim!».

Atam Mir Həsən xanın dediklərini Bala xanın hüzuruna ərz edib bildirdi. Bala xan dedi: «Bu qoşun orada min zəhmətlə toplanmışdır. Bunları geri qaytarmaq mümkün deyildir!».

Bu zaman gördüm ki, gilək Mirzə Bağırı və Rza Əli bəyi tutub əsir gətirirlər. Mir Həsən xanın Ciləvənddən çıxmaqda olduğu və meşə tərəfə getdiyi xəbəri bizə çatdı. Bala xan atama acıqlanıb dedi: «Sən məni aldatmaq istəyirsən ki, Mir Həsən xan rahaq qaça bilsin!».

Bizi də Rza Əli bəy və Mirzə Bağır ilə birlikdə Mir Həsən xanın evi görünən bir dağın başına aparmağı əmr elədi. Baxıb gördük ki, Mir Həsən xan öz köç və külfətilə ayaqyalın dağın meşəliyinə tərəf gedir. Lakin dörd tərəfdən onu [əhatə edən] tüfəngçilər Mir Həsən xana və onun arvadının köçünə güllə atırdılar. Bala xan öz qoşununa [deyirdi]: «Güllə atın, amma öldürməyin!». Mustafa xan isə: «Atın! vurun!» – deyirdi.

Buna görə Balaxan Mustafa xanın bu hərəkətindən acıqlandı. «Bu nə qələtdir ki, edirsiniz? Istəyirsiniz ki, bir nəfər ulufluya güllə dəyib onu öldürsün və biz Uluf əhli ilə qanlı olaq? Sabahkı kün torpağımızı torba ilə daşısınlar? Siz Qacar təhriki ilə evlərimizi xaraba qoymaq istəyirsiniz?». Sonra [Balaxan] özü səslənib [dedi]: «Köpək uşaqları, tüfəng atın, lakin [adam] öldürməyin!». Mən Mirzə Əhməd Mir Abdulla bəyin zövcəsi Fəxri xanımın «Alagöz» adlı səmənd ata[229] mindiyini öz gözümlə gördüm. Atının tərkində bir xurcun vardı. Deyildiyinə görə, o xurcun pul və başqa qiymətli

şeylərlə dolu idi. At bir qədər yoxuşa qalxdı. Təhlükə vaxtı xurcunu yəhərə bağlamağa fürsət tapmamışdılar. Xurcun atın tərkindən yerə düşdü. Mir Həsən xanın xas nökəri Baxşəli bəyin oğlu Kəlbəl ibəy Fəxri xanımın atının önündə piyada gedirdi. Fəxri xanım ona [dedi]: «Xurcunum düşdü!». O gəldi, xurcunu götürüb atın tərkinə qoymaq istədi. Deyildiyinə görə, Mustafa xan dövründə Alxasbəyə xidmət etmiş Mahmud adlı bir nəfər gorganrudlu (57,a) [Kəlbəli bəyə] səsləndi: «Xurcun ilə işin olmasın!». Kəlbəli bəy onun sözünə qulaq asmadı. Xurcunu götürmək istədi. O köpək oğlu Kəlbəli bəyin başına bir güllə vurdu, [Kəlbəli bəy] xurcunun üstünə düşüb canını təslim etdi.

Gorganrud əhalisi Mir Həsən xanın özünə, ailəsinə və ona tabe olanların ailələrinə o qədər zülm etmişlər ki, onun onda birini belə yazmaq mümkün deyildir. Mən bunları gözümlə görüb, qulağımla eşitmişəm.

Istər Mir Həsən xan övladından və istərsə [də] Talışın qeyrətli [oğul]larından hər kəsin yolu qeyrət bazarından düşərsə, bir gün onun əlinə fürsət düşər, Gorganrud və Asalim camaatının etdiyi zülmün əvəzini çıxar. Qılınc çəkib onların etdiyi zülmün yüzdə birinin də olsa intiqamını alar. Aydındır ki, qisas o dünyaya qalmaz. Mərhum və cənnətlik Mir Sultan Əhməd xan Bala xan tayfasından bir az intiqam aldısa [da], lakin [qisasın] çoxu hələ də qalmışdır. Hər halda:

Bu ayrılığın, ürək qanının şərhinin,
Vaxtı deyil, başqa bir vaxta saxla.
Yalnız xanın əhvalatını söylə,
Çünki bu sözün sonu yoxdur.[230]

Xülasə, o köpək oğlu Mahmud xurcunu götürüb apardı. Onun çiynində bir heybə də vardı. Onu güllə ilə vurub heybəni götürdülər. Içində bir batman düyü və ya yarım batman un olan heybə üçün yazığı həyatdan məhrum etdilər.

Bu zaman Mir Həsən xan piyada idi. On iki qarış tüfəngi çiynində idi. Vəziyyətin çox ağır olduğunu gördü. Mərdlik qeyrəti coşdu. Əhməd bəyin oğlu Zöhrab bəylə birlikdə yenilməz qədəmini yerə basıb gorganrudlular tərəfə yeddi-səkkiz dəfə atəş açdılar. Gorganrudlular sürət ayaqlarını bir az dala çəkib durdular. Mir Həsən xan qılıncdan salamat qalan [adamları] ilə özünü meşə içərisinə çəkib şir kimi nərildədi.

(57,b) Məhəmməd Salah xanın qızı, Mir Həsən xanın ikinci arvadı Xeyrənnisa xanım qaçmağa fürsət tapmadığı üçün yeddi yaşlı qızı Zəhra xanımla evdə qalmışdı. Mir Həsən xan meşəyə girdikdə Gorganrud əhalisi Mir Həsən xanın evlərinə tərəf üz qoymuş və Zəhra xanımı görmüşdülər. Onlar qızın çəkinini[231] əynindən çıxarmaq istəyirdilər. Çünki çəkininin ətəkləri əşrəflərlə bəzədilmişdir. Qız fəryad edib çığırdı. Atamın nökəri Məmmədhəsən özünü ora yetirib mane olmuşdu: «Bir çəkin üçün bu qıza əl

vurmayın Bu Mir Həsən xanın qızıdır!». Gorganrudlular Məmmədhəsənə Talış dilində «Les» deyilən dəmir ağacla bir neçə zərbə burub demişdilər: «Köpək oğlu, sən ölənə kimi uluflu xasiyyətindən əl çəkməyəcəksən?». Müxtəsər, o çəkini parça-parça etmişdilər. Məmmədhəsənin bir qolu ağacın zərbindən sınmışdı. [O], qızı onların əlindən xilas edib, anasının yanına gətirmişdi. Lakin Gorganrud əhalisi Məmmədhəsəni tamamilə soyub atını, tüfəngini və qılıncını almış, onu piyada qoymuşdular. Məmmədhsən «Bu şəkildə Mir Həsən xanın xidmətinə gedə bilmərəm» – deyə qayıdıb bizim evimizə gəlmişdi. Birinci gün Mir Həsən xan getdikdən sonra Balaxan onun evlərinə təcavüz etməmişdi. Öz qoşununu toplayıb dəniz kənarında mənzil salmışdı. Səhəri günü Mir Həsən xanın Rusiya tərəfə keçdiyini xəbər verdilər. Bu xəbəri eşidən Bala xan şadlığından hətta rəqs etməyə başladı.

Parlaq günəş gizlənəndə
Yarasa meydanda oynar.[232]

Həmin gecə sübhə yaxın Mir Haşım bəy bir neçə atlı ilə, o, cümlədən Baxşəli oğlu Haqverdibəy və Səfərqulu oğlu Allahverdi bəy şahsevən gəlib Xeyrənnisa xanımı aparmışdılar. Meydanı boş görən Balaxan sübh çağı öz qoşunu ilə Mir Həsən xanın evlərinə od vurdu. Onun bütün var-yoxunu talan etdi. Gorganrud tüfəngçiləri çiyinlərində mal daşımaqdan təngə gəldilər. Bala xan bir həftə Ciləvənddə dayandı. Mir Həsən xanın nökərlərinin evində nə qədər mal, pul və qızıl vardısa, hamısını qarət edib apardı.[233] Şəddad[234] kimi zülm etdi. Sonra [da] Gorganruda getdi.

Indi də Sizə Mir Həsən xandan xəbər verim. (58,a) Mir Həsən xan özünün və nökərlərinin köçü ilə o gün Ciləvənddən çıxdı. Gecəni Levendevilin bir hissəsi olan Sulirə [adlı yerdə] keçirdi.[235] Səhəri Alaşa kəndi[236] yaxınlığında Astara çayından Rusiya tərəfə, yəni Astara kəndinin Rudəkənar adlanan yerinə keçdi. Bu xəbəri tez Lənkəran rəisinə yetirdilər. Lənkəran rəisi [də] təcili olaraq bir dəstə soldat, bir neçə atlı kazak, Mir Abbas bəy, Mir Ismayıl bəy, Əzim bəy və Cəfər bəy Alxazov ilə birlikdə Astara tərəfə getdi. O, Mir Həsən xanın [Talışda] qarışıqlıq salmaq məqsədilə bu tərəfə keçməsindən ehtimat edirdi. Körüşdən əvvəl Mir Həsən xanın yanına bir nəfər göndərdi ki, [onun] nə məqsədlə gəldiyini aydınlaşdırsınlar. Mir Həsən xan cavabında demişdi: «Uca Rusiya dövlətinin bayrağı altına gəlmişəm!». Rəis bir qədər rahat olub Mir Həsən xanın yanına getmiş və Mir Həsən xana lazımi hörmət göstərmişdi. Gecə onu nökərlərlə birlikdə Giləkəran[237] kəndində yerləşdirdi ki, səhəri gün Lənkərana aparsın. Talışın bütün fitnəçi və araqarışdıranları onunla birlikdə idi. Yolda Mir Həsən xana qoşulmuşdular ki, Talışda qarışıqlıq salsınlar.

Mir Həsən xan [da] Şahağacı kəndindən özünü meşəyə salıb vilayətdə qarışıqlıq salmaq fikrində idi.[238] Mir Həsən xanın qardaşları Mir

Abbas bəy, və Mir Ismayıl bəy bu məsələdən xəbər tutub xanın yanına gəlmiş, ağlayıb yalvarmışdılar: «Siz bu işdən əl çəkin. Bunun nəticəsi pis olar. (58,b) Sizin bu hərəkətinizi ruslar bizdən görər. Çünki bizi də sizin yoldaşlarınız kimi tutub, Sibirə göndərərlər!».

Mir Həsən xan qardaşlarına müraciətlə: «Gəlin mənimlə birləşin, rusları Lənkərandan çıxaraq!». Onlar yenə ağlayıb yalvardılar: «Biz də sizinlə birlikdə özümüzü Şahağacından meşəyə salsaq, ruslar Lənkərandakı köç və ailəmizi tutub şiddətli cəza verər. Eybi yoxdur. Biz sizinlə Lənkərana gedərik. Bir neçə gün orada qaldıqdan sonra bir təhərlə köçlərimizi Lənkərandan çıxararıq. Sonra sizinlə birlikdə iğtişaşa başlarıq!». Sözün qısası, Mir Həsən xanın qardaşları bu hiylə ilə onu Lənkərana gətirdilər. Bu məsələni tez naçalnika xəbər verdilər. Naçalnik də Mir Həsən xanı tutub dənizdə dayanan rus gəmisinə göndərmiş və bu əhvalatı uca Rusiya dövlət məmuruna yazıb bildirmişdi.

Mir Həsən xanın qiyam fikrində olmasından əvvəl iki dövlət arasında belə şərt qoyulmuşdu: Mir Həsən xan Qızılbaş dövlətindən üz çevirib Rusiya dövləti tərəfə keçsə, Rusiya hakimi danışıqsız Mir Həsən xanı tutub Qızılbaşlara təhvil verməlidir. Mir Həsən xanın bu gizli hərəkətləri [nəticəsində] onun tutulub Qızılbaş sərdarına verilməsi [haqqında] təkidli əmr verildi. Buna görə də Lənkəran rəisi Mir Həsən xanı gəmi ilə gətirib yaxın adamları ilə Bala xana təhvil verdi. Mir Abbas bəy, Mir Ismayıl bəy, Mir Hüseyn xan və Talışın digər nəcib [adam]ları da burada idilər. Mir Həsən xanı təhvil aldıqdan sonra [Bala xan] Mir Həsən xana dedi: «Buyur, qalx gedək!». Mir Həsən xan tənə və töhmət yağdıran ağzını açıb Bala xanı layiqincə söydü... (59,a) «Allah qoysa, vaxtı gələr bu alçaqlığın əvəzini sizdən birə yüz alaram!» – dedi...

Mir Həsən xanı bu vəziyyətdə [görən] Bala xan özünü itirib başını aşağı saldı. Heç bir söz demədi. Üzünü Mir Abbas bəyə tutub dedi: «Baxın, mənim nə təqsirim var ki, məni söyür?». Mir Abbas bəy Bala xandan üzr istəyib dedi: «Eybi yoxdur. Mir Həsən xan qoca kişidir, dənizin dalğalı olması onu haldan salmışdır. Canı boğazına gəlmişdir!».

Balaxan yenə Mir Həsən xanın yanına gəlib üzr istədi: «Qurbanın olum, mən sənin babalarının nökəriyəm. hər nə buyursanız, qəbulumdur. Fərraş kimi sənin xidmətində qulluq etməyə hazıram. Nə xidmətiniz varsa buyurun. Canla, başla hazıram!».

Buna görə Mir Həsən xan bir az sakit oldu. Sonra qalxıb ata mindi. Bala xan onu köçü, ailəsi ilə Lömir kəndinə apardı. Atam bu əhvalatı anama bildirdi. Həmin gecə sübhə kimi nalə və fəğan səsi göyə yüksəldi. Ağlamaqdan atam on dəfə huşun itirdi. Az qalmışdı ki, canını təslim etsin. Balaxan Mir Həsən xanı o gecə Lömirdə saxladı. Səhəri gün özü ilə Lömir yolundan Vilgic mahalına, yəni Hovari kəndinə[239] apardı. Gecəni orada qalıb,

səhəri gün Ərdəbilə müşayiət edib Ərdəbil hakiminə təslim etdi. Nayibüssəltənənin əmrinə görə onu Xalxal mahalında Ağqala qalasında[240] [saxladı], köçünü isə Ərdəbildə yerləşdirdi. Qızı Nisə xanım atası[241] ilə Xalxal qalasında[242] idi. [Xanın] bütün nökər və əyanları Baxşəli bəy Haqverdi bəy oğlu, xidmətçisi muğanlı Zöhrab kimi iki-üç nəfərdən başqa hərəsi bir tərəfə baş götürüb getdi. (59,b) Mir Həsən xan [iki-üç nökərlə] üç ay Xalxal qalasında həbsdə qaldı.

Qaçıb ətrafa dağılmış nökərlərdən iyirmi, iyirmi beş nəfər, o cümlədən məşhur Kərbəlayi Nəzərəli bəy, Əmir Günə bəyin oğlanları – Mir Haşım bəy və Mir Nağı bəy, muğanlı Canıbəyin oğlu Hüseynəli bəy və onlara bənzər adamlar gedib Xalxalda xanın başına toplandılar. Qala qarovulçuları bu nökərləri [qalaya] gedib-gəlməyə qoymadıqları üçün onlar kənddə mənzil tutdular. Mir Həsən xanla birlikdə qalada həbs edilmiş nökərlər bəzi zəruri şeylər almaq üçün kənddəki dükanlara gəlirdi, [kənddə yerləşmiş], nökərlərin ərizə və tapşırıqlarını xanın qulluğuna yetirirdilər. Mir Həsən xan da onlara söz verirdi ki, allah qoysa baharda bu qaladan qaçıb Talışa gedərik.

Camaat arasında bir nəfər dilaqardalı vardı.[243] Bu, igidliklə məşhur idi. Haqverdi bəylə siğə qardaş olmuşdu. O, Mir Həsən xanın başına belə bir iş gəldiyini və qardaşı Haqverdibəyin Xalxalda xanla birlikdə məhbus olduğunu eşitmişdi. Həmin adamın adı Mirzə Baba bəy idi. Bu iş onun qeyrətinə sığışmadı. Bir neçə nəfər mükəmməl silahlanmış cavan qohumları ilə Xalxala gedib Mir Həsən xanın nökərləri ilə birləşdi. Deyildiyinə görə, bu qalaya qarışqa belə girə bilməzdi. Lakin [dilağardalı] Mirzə Baba bəy hər gecə bu qala divarından yol tapıb [içəri girir], özünü Mir Həsən xanın xidmətinə yetirir, bir-birilə məsləhət edirdilər. Sübhə bir az qalmış o yenə də mənzilinə qayıdırdı. Bu məsələdən heç kimin xəbəri yox idi. Bahara bir ay qalmış Mir Həsən xan adamları ilə [qaladan] qaçdı.[244]

O zamanlar Səfərəln xan Xələc[245] nayibüssəltənə tərəfindən Ciləvənd, Levendevil və Astara kəndlərinə habelə Gorganrud və Asalim mahallarına hakim təyin edilmişdi. Öz köçünü gətirib bizim qonşuluğumuzda, Mir Haşım bəy və Mir Nağı bəylərin evlərində yerləşmişdi. Dərs oxuyan bir qızı və iki oğlu vardı. Mən [Mirzə Əhməd] onlara dərs verirdim. Məktəbxana Mir Haşım bəyin imarətindən xaricdə idi. Bir gün hava yağışlı və soyuq idi. Mən də dərs deməklə məşğul idim. [Birdən] yeddisəkkiz nəfər atlının gəldiyini gördüm. Mir Nağı bəy də bunların arasında idi. [O], bizi gördükdə gülüb soruşdu: «Bu hasarın [həyətin] yolu hansı tərəfdədir?». Mən də yolu (60,a) göstərdim. Məndən soruşdu: «Mirzə haradadır?». Dedim: «Evdədir!». O mənə dedi: «Get Mirzəyə xəbər ver ki, xan gəlib Ciləvənd çayının o tərəfində Oruc kədxudanın evində mənzil tutmuşdur. Qoy atan Mir Mir Həsən xanın xidmətinə getsin!».

Mən sevincək evimizə qaçdım. Atamı bu əhvalatdan xəbərdar etdim. Atam çox sevinib allaha şükür etdi. Məni də götürüb tez özünü Mir Mir Həsən xanın xidmətinə yetirdi. Onunla görüşdü. Allaha şükür etdi. Mir Həsən xan atama çox hörmət və iltifat göstərdi. Bizim ardımızca atamın nökəri Məmmədhəsən də gəlib çıxdı. Mir Həsən xan Məmmədhəsənə tez yaxşı bir tüfəng verdi. Mir Həsən xan gecəni orada qalıb, səhəri Astara kəndinə getdi. Adları çəkilən kəndlərin tüfəngçilərini toplayıb özü ilə apardı.

O zaman Səfərəli xan evdə yox idi. Gorganruda getmişdi. Xanın əmrinə görə Mir Nağı bəy Səfərəli xanın köçünü qarət edib lüt Gorganrud tərəfə göndərmişdi. Mir Həsən xan o kəndlərə [dağılan] bütün qərib Talış [ailələrinin] və nökərlərinə [mənsub] köçlərin Astara kəndinə getməsi üçün əmr verdi. Atam Mirzə Xudaverdi də ucarütbəli xanın xidmətinə getdi. Biz isə evdə olan bir neçə nökərlərimizin köməyilə köçümüzü götürüb Astaraya gəlib, Qızılbaş sərhəddində Kərbəlayi Qurbanəli bəyin evində yerləşdik. Mir Həsən xan da kiçik bir dəstə ilə gedib Kosalar və Səfidar[246] kəndlərində sakin oldu. Bütün Talış onun başına toplandı.

Mir Abdulla bəy öz oğlunu Mir Haşım bəylə birlikdə Muğan tərəfə –Dəştvənd mahalına göndərdi. Fətəli bəyin oğlu drığlı Kəlbəli bəy bir neçə nəfər qaniçən drığlı tüfəngçilərlə [xanın] hüzuruna gəldilər. Bizisal kəndindən[247] igidliyi ilə tanınmış Calal oğlu Kərbəlayı Kazım da [onlarla idi]. Bu adam yalançılıqda böyük məharətə malik idi. Əgər desəydi ki, qatıq ağdır, yəqin etmək olardı ki, yalandır. Hər gün atamın yanından adam gəlir (60,b) və bizim üçün cürbəcür sovqat gətirirdi. Biz belə düşünürdük ki, dünyaya təzə gəlmişik. Bir gün xəbər çatdı ki, Mir Həsən xan dayım Məmmədəli bəy Tahir bəy oğlunu qırx nəfər tüfəngçi ilə Astaraya təyin edib ki, Alaşah kəndində, yəni Zənguləkəş çəmənində Saxlov [248] durub o yolun keşiyini çəksin. Biz bu xəbərdən çox şad olduq.

Bir gün xəbər çatdı ki, adamyeyən Nəcəfqulu xan Qızılbaş padşahının əmrilə Lənkəran ruslarına kömək etmək üçün Vilgic tüfəngçilərilə Astara kəndinə gəlir. Biz məğrur dayanıb [düşünürdük ki, axı onlar] necə gələ bilər? [Axı] Məmmədəli bəy onların yolunu kəsmişdir. Evdən bayıra çıxdıqda gördük ki, çay tərəfdən saysız-hesabsız tüfəngçi gəlir. Bizlər öz köçümuzü oradan göturüb çayın bu tərəfinə – Ardupa kəndinə qaçdıq.[249] Min zəhmətlə özümüzü Məşhədi Nurəlinin evinə yetirdik, orada rahat olduq. Dayımın da oraya gəldiyini gördük. Ondan hal-əhval soruşduq. Dayım Nəcəfqulu xanın qoşununu görən kimi, özünü onlara göstərmədən qaçmışdı. Bildim [öz-özümə dedim]: – «Bığlarının [böyüklüyünə] baxma, qorxaqdır!».

Atam ailəmizi aparmaq üçün bir neçə atla Məmmədhəsəni göndərmişdi. Səhəri gün sübh tezdən Butəsər kəndinə bizim əkinçimiz Ağacanın evinə getdik. O biri gün səhər yuxudan ayılıb gördük ki, həyətimiz atlı ilə doludur. Atam da onlarladır. Məlum oldu ki, Mir Həsən xan qaniçən

Nəcəfqulu xanın gəldiyini eşidib Kəlbəli bəyi və Mir Nağı bəyi iki yüz nəfər piyada ilə Nəcəfqulu xana gecə basqını etmək üçün göndərmişdir. [Onlar da] Nəcəfqulu xanı tutub bütün malını, at və qatırlarını qənimət almışdılar. O cümlədən [onun] Qızılboz türkmən atının yəhəri, digər əşyasını və xurcunu ilə bərabər atam qənimət almışdı. Atam Qacar [tayfasının] nə qədər aciz olduğunu gördü. Onlar tüfəng və yaraqsız bir Mirzə olan atamın əlində aciz qalmışdılar. O, onları tutmuş, atlarını da qənimət alıb gətirmişdi. Qaniçən Nəcəfqulu xanı qolu bağlı gətirdilər. O, heybətli və yekəsaqqal bir kişi idi. Saqqalının yarısı ağ, yarısı qırmızı idi. Fərraş Kor Allahqulu onu tutarkən döyərək demişdi: «Siz qaniçən, yox kötəkyeyənsiniz. (61,a) Siz hələ mərd adama rast gəlməmişdiniz!».

Xülasə, orada nahar etdilər. Nəcəfqulu xanı götürüb Səfidar kəndinə Mir Həsən xanın xidmətinə apardılar. Mir Həsən xan Nəcəfqulu xanı öz hüzuruna çağırmadan onu Bibiyanı kəndinə göndərib həbs etdirdi.

Lənkəran rəisi bir neçə dəfə Mir Həsən xana göndərdiyi məktubda yazmışdı: «Necə ki, gəlib Səfidarda mənzil salmışsız, elə orada sakit qalın. Əliuzunluq etməyin. Mən vəziyyəti mərkəzi hakimlərə bildirdim. Çox ümidim var ki, ədalətli Rusiya padşahı sənin təqsirindən keçər və səni bağışlar».

Lakin fitnə və fəsad törədənlər mane oldular. Haman Haqverdi bəy hər gün şəhərin ətrafında rast gəldiyi Rusiya adamlarını tutub soyur, soldatları öldürür və [beləliklə] düşmənçilik salırdı. Axırda rəis əhvalatı sərdara yazdı. Sərdar Şirvan, Şəki və Dərbənddən bir neçə min nəfər qoşunla qəti əmr verdi ki, gedib Talış fitnəsini yatırsınlar. Buna görə Lənkərana on min rus qoşunu gəldi. Mir Həsən xan Səfidar kəndində olduğu zaman [rus qoşunu] Qanbayın sərkərdəliyi altında sübh çağı Mir Həsən xanın üzərinə hücum etdi. Onların yolu Bəlləbur qalasının aşağısından idi. [Ona görə] Mir Həsən xan həmin qalanın aşağısındakı çox dar və çətin yolu tutmaq üçün butəsərli Ismayıloğlu Əfzəl kədxuda və təngərudlu Mütəllibin komandası altında Butəsər, Təngərud və Miyankuh tüfəngçilərini göndərdi ki, orada Rusiya dəstələri ilə döyüşsünlər. Tüfəngçilər sayca çox deyildi. Üç yüz nəfərə yaxın idi. Xanın əmrilə gəlib həmin yolda özlərinə səngər düzəltdilər. Səngərin qarşısında bir çay vardı. Çayın o tərəfi kol-kossuz geniş bir çəmənlik idi.

Səhər açılan kimi çəmənlik soldat və kazaklarla doldu. Mir Abbas bəy, Mir Ismayıl bəy və şirvanlı Qanbay bəy onlara başçılıq edirdi. Onlar qılınclarını siyirib çiyinlərinə qoymuşdular.

Xülasə, çəmənlikdə yeddi min soldat hazır olub çaydan keçməyə başladı. Butəsər, Miyankuh və Təngərud tüfəngçiləri soldatlarla göy gurultusu kimi səslənən bir yaylım atəşi açdılar. Ilk yaylım atəşi nəticəsində iki yüz nəfər (61,b) soldat cəhənnəmə vasil oldu. Butəsərli Kazım oğlu

Məşədi Məmməd və keçəl Lütfəli də [burada idi]. Onlar zahirən həqir görünsələr də, dava meydanında siyistanlı Rüstəm[250] kimi döyüşürdülər.

Rusiya qoşunu sərkərdələri soldatları nə qədər hədələyib siyirmə qılıncla qorxutdularsa da, bir fayda vermədi. Axırda əlacsız qalıb, oradan [çıxmağa] yol tapmadıqları üçün özlərini çaya atdılar. Rusların oradan keçməsinə mane olmaq üçün Kəlbəli bəy öz dəstəsi ilə Mir Həsən xan tərəfindən ora təyin edilmişdi. Lakin bir-birlərindən aralı bir neçə tənək sarılmış ağaclardan başqa orada [elə] bir yer və daş yox idi ki, Kəlbəli bəy ona daldalanıb rus qoşunları ilə dava etsin. Drığlı Kəlbəli bəy həmin ağaclara daldalanaraq qızğın döyüşə girdi. O ağacların qabığını, bəlkə də gövdələrinin yarısını soldatların gülləələri parça-parça etdi. Tüfəng gülləsindən [keçməyə] yol tapmadılar. Kəlbəli bəy otuz nəfərlik dəstəsilə mətanət ayağını yerə qoyub şir kimi döyüşürdü. Rusiya tərəfindən Kəlbəli bəy tərəfə od püskürən top atəşi yağırdı. Bir neçə ağac kökündən qopub yerə düşdü. Artıq Kəlbəli bəyə dayaq olacaq bir yer qalmadı. Kəlbəli bəyin dəstəsi düşmən gülləsinin açıq hədəfinə çevrildi.

Yaxınlıqdakı evdə mənzil etmiş Mir Həsən xan Kəlbəli bəyin döyüşünə baxır və saatda ona yüz afərin deyirdi. Mir Həsən xan bildi ki, Drığ əhlindən bir nəfər də qalsa, Kəlbəli bəy yenə də döyuşdən əl çəkməyəcək. Axırda o, Kəlbəli bəyin bir az oradan kənara çəkilməsi [üçün] əmr göndərdi. Buna görə də Kəlbəli bəy öz dəstəsilə Mir Həsən xanın xidmətinə gəldi.

Yolun düşmən tərəfindən tərk edildiyini görən Rusiya qoşunu ehtiyat və min qorxu ilə çayın içindən Rva kəndi tərəfə, baş yuxarı Siyahlələ kəndinə gedirdi. Mir Həsən xan şiləvarlı Mir Nağı bəyi bir dəstə [tüfəngçi] ilə bu çətin yolun bir qədər yuxarısına göndərdi ki, onu tutub rusları Siyahlələ kəndinə getməyə qoymasın (62,a).

Lakin nə fayda! Türklərin məşhur məsəli var: «Lüləyin aftafanı əvəz edər, amma girov qoyanda [onların fərqi] məlum olar».[251] Kəlbəli bəyə də Mir Nağı bəy kimi bəy deyirdilər. Onun cürətinə anası qurban olsun. Uşaqlıqdan anası beşik başında ona layla ilə öyrətmişdi: «Güllə səsi gələn yerdən bir ağac məsafədə dur!». Ana nəsihəti onun qulağında halqa olub qalmışdı. Buna görə o, şimal tərəfdəki dağın başında özü üçün bir xəndək düzəltmişdi ki, bəlkə [orada] heç güllə səsi eşitməsin.

Rusiya [qoşunu] yol boyu kimsəyə rast gəlmədiyindən daha çox cəsarətlənib döyüşsüz Siyahlələ kəndinə tərəf gedirdi.

Mir Həsən xan özünü Təkəsəng bəndinə[252] çəkmiş, Kəlbəli bəyin dəstəsi, Butəsər, Miyankuh və Təngərud kəndləri [əhalisi] də gəlib onunla birləşmişdi. Təkəsənk bəndindən Rusiya qoşununa boş yerə güllə atırdılar. Soldatlar isə ayaqlarının [birini] göyə qaldırıb istehza ilə deyirdilər: «Doşqan propal!».

Rusiya qoşunu Şirvan atlıları ilə birlikdə Siyahlələ kəndini qarət etdi. Bu hadisəni müfəssəl bəyan etmək istəsəm, qeyrət məni hövsələdən çıxaracaqdır. Müxtəsər, bir işarə kifayətdir. Qoşun gecəni həmin kənddə qalıb kefi istədiyini etdi. Sabahı gün onlar Lənkəran şəhərinə döndülər.

Mir Həsən xan hiss etdi ki, artıq vəziyyətdən çıxış yolu yoxdur. Ona görə orada qalmağı daha məsləhət bilmədi. Miyankuh meşələrinə tərəf hərəkət etdi. Rusiya qoşunu da bu tərəfi boş görüb Mir Həsən xanın o tərəfə keçdiyini eşitdi. Onlar da özlərini o tərəfə verdilər.

Tənkərudlu Məşhədi Əfzəl və Mütəllibin dəstəsi Mir Həsən xandan üz çevirib Təkəsənkdən öz evlərinə qayıtdılar. Çünki Astara mahalı tüfəngçiləri keçmişdə o tərəflərdə bir hünər göstərməmişdi. Bundan başqa Mir Abbas bəy[253] bir dəstə soldatla gəlmişdi. Mir Həsən xan ilə olan adamların ailələrinin [ayaqlarını] iplə bağlayıb onlara ağır cəza verirdi ki, onlar bu xəbərdən sonra Mir Həsən xandan əl çəkib öz evlərinə qayıtsınlar (62,b).

Əgər [Mir Həsən xan] tayfası bir-birilə birləşsəydi, padşah olardı. Lakin onların arasında daim nifaq hökm sürürdü. Mərhum ucarütbəli Mir Mustafa xan Iran padşahı ilə eyni səviyyədə duran bir sima idi. Iran padşahı ona üstün gələ bilmirdi. Övladları indi belə onun dövlətilə güzəran keçirirdilər. Dediyim bu sözlər böyük bir qələt olsa da, ürəyim [onların halına] yanır, canıma qəsd edib yazıram. Onların analarından biri dövlətli, digəri rəiyyət və üçüncüsü isə [erməni] qızı olub müxtəlif adamlardır. Buna görə övladlar arasında birlik yox idi. Bu [sətirlərin] yazılması miladın 1882-ci ilinə təsadüf edir. Ruslar Mir Mustafa xan tayfasını elə hörmətdən saldılar ki, rəiyyət üzüzə gəldikdə onlara salam verməyib, istehza edirdi. Bundan artıq [yazmağa] cəsarət etmirəm. Çünki mən Mir Mustafa xan dövlətinin qullarındanam. Onun nəslindən kor bir qız qalsa da mən onun qulu olacağam. Bizim ad və sanımız da bu uca ailənin mərhəməti sayəsində məşhur olmuşdur.

Indi can ətəyimi qatlamışdır.
Yusifin köynəyinin iyini tapmışdır.[254]
«Yoxsa mən həmin torpağam ki, varam...»[255]

Mir Həsən xan Miyankuh tərəfə çəkildikdə, Rusiya qoşunu da Rəşt dənizi qarşısında[256] toplandı ki, Mir Həsən xanın yerini müəyyən edib onun üzərinə hücum etsin. Mir Həsən xan da bütün yanında olan tüfəngçilərə buyurdu ki, o tərəflərə gedib Rusiya qoşunu ilə vuruşsunlar. Lakin Mir Həsən xanın adamları onların üzrinə getməkdən bir qədər boyun qaçırıb, başqa yoldan hərəkət etdilər.

Zabit Əzimbəy Alxasovun komandası altında beş yüz nəfər soldat pusquda durub başqa yoldan – yəni meşənin içindən Mir Həsən xanın üstünə hücuma hazırlaşırdı. Mir Həsən xan öz mülazimləri və yüz nəfər atlısı olan

drığlı Kəlbəli bəy ilə birlimdə meşənin bir guşəsində gizlənib dayanmışdı. Birdən bir nəfər gəlib Mir Həsən xana xəbər verdi: «Budur rus qoşunu gəlir, indi səni tutacaqdır!». Mir Həsən xanın adamları bu xəbəri eşidən kimi hamısı qaçdı. Mir Həsən xan nə qədər onları geri qayıtmağa çağırdısa da, heç biri onun sözünə baxmadı. Çünki [sayca] az idilər. Mir Həsən xan da çarəsiz [qalıb] onların dalınca getdi. Talışların «Ayubərə» dediyi yerə[257] çatdıqda Kəlbəli bəyin orada olduğunu gördü. Mir Həsən xan onu söyüb dedi: «Siz nə üçün qaçırdınız?». (63,a) O, cavabında ərz elədi: «Qurbanın olum, orada durmaq məsləhət deyildi. Çünki o yerlər düzənlikdir, arxalanmağa yer yoxdur. Indi burada Kəlbəli ölənə qədər döyüşəcəkdir. Əgər buradan da qaçsa, boynunu vurun. Kəlbəlinin ölümü buradadır!».

Mir Həsən xan nökərlərini başına toplayıb xoşluqla onlara dedi: «Mən Talışda hakim olduqda sizə o qədər yaxşılıq etmişdim ki, hərəniz bir xan kimi yaşayırdınız. Əgər mən yenə Talışda hakimiyyəti ələ gətirsəm, siz yenə də öz rütbənizdə qalacaqsınız. Bu nə namussuzluqdur ki, siz edirsiniz? «Rus gəldi» xəbərini eşidincə, biixtiyar qaçır, bizi biabır edirsiniz. Siz bir dəfə də olsun bir saat vuruşmadınız ki, sözünüz aləmə yayılsın ki, filankəs bu vilayətdəndir!».

Nökərlərin hamısı ağladı. Hamı razılıq əlini itaət gözü üstə qoyub dedi: «Qurbanın olaq, indi burada canımızı sizin yolunuzda qurban verəcəyik!».

Mir Həsən xan da adamlarını üç yerə böldü. Birini qiblə tərəfdə çay kənarında yerləşdirdi. Bu, Kəlbəli bəyin dəstəsi idi. O, on-on iki nəfərlə mərkəzdə dayandı. Rza Əli bəy, Zəkərriyyə bəy və sair nökərlərdən ibarət olan digər dəstəni də şimal tərəfdə yerləşdirdi. Rus qoşununun gəlməsini gözləməkdə olan bu dəstəyə [tapşırdı]: «Məndən icazəsiz kimsə özbaşına güllə atmasın. Mənim əmrimlə atəş açarsınız!».

Lakin əsas yol Kəlbəli bəyin durduğu yerdən keçirdi.

Bu vaxt atam Mir Həsən xanın yanında idi. Mən də atamla birlikdə idim. Mir Həsən xanın yanında on-on iki nəfər nökəri vardı. Butəsərli Şahsuvar oğlu Molla Əzim də orada idi. Mir Həsən xanın böyük bir tüfəngi vardı. Öz hakimiyyəti dövründə onu Şahsuvara vermişdi. Həmin tüfəng Molla Əzimin əlində idi. Mir Həsən xan qurquşunu hər biri dörd misqal ağırlığında parçaparça doğrayaraq o tüfəngə doldurub atırdı. Mir Həsən xan tüfəngi doldurub arxasını böyük bir palıd ağacına söykəmişdi. Arxası rusların gələcəyi yola, üzü isə öz adamlarına tərəf idi. Bir dəstə soldatın milçək kimi gəldiyini gördük. Mir Həsən xanın burada gizləndiyindən heç xəbərləri də yox idi. Baxıb gördük ki, soldatlar qarışqa və çəyirtkə kimi gəlməkdədir. Mir Həsən xan adamlarından soruşdu: «Soldatlar hansı yoldan gəlir?».

Ərz etdilər: «Bizim [oturduğumuz] yolla. Qurbanın olum, yaxınlaşır, güllə çatar!». Mir Həsən xan buyurdu: «Səbir edin, [hələ] vaxt deyil!». Bir az

gözləyib yenə ərz etdilər: «Qırma çatan [məsafəyə] çatmışlar!». [Xan] buyurdu: «Bir az da gözləyin!». Hamının [qorxudan] rəngi heyva kimi saralmış, kəlmeyi-şəhadətlərini oxuyurdular.[258] Rus dəstəsi o qədər yaxınlaşmışdı ki, arada çox az bir məsafə qalmışdı.

Mir Həsən xan buyurdu: «ya Əli! Vurun!». Bu on-on iki nökər soldatlara yaylım atəşi açdı. Soldatlar ağac yarpağı kimi (64,a) yerə töküldülər: Rus dəstəsi qaçmağa üz qoydu. Gördüm bir rus zabiti qılıncını çəkib soldatları elə vurur ki, onların səsi bir ağaclıq məsafədən eşidilir. Lakin [bu adamın] özü rus, dili isə Talış dilidir. O, Mir Həsən xanı [talışca] söyürdü. Bu gün həmin hadisədən çox illər keçmişdir. [Lakin] mən [indi də] o söyüşləri dilimə gətirməyə cəsarət etmirəm.

Mir Həsən xan onun səsini eşitdikdə allaha şükür etdi: «Mən allahdan bu günü istəmişdim, indi [o gəlib] yetişmişdir».

Xülasə, dünyada nə qədər pis söz vardısa, zabit Əzim bəy dilinə gətirməkdən [çəkinmədi]. Bu tərəfdə bir iş görə bilmədilər. Rza Əli bəyin dəstəsi uzərinə hücum etdilər. Mir Həsən xan əlini göyə qaldırıb yalvardı: «Ilahi, sən onların fəryadına çat. Qorxuram mənim o dəstəm Rusiya qoşunu qarşısında dayana bilməsin!».

Lakin onlar da inadla vuruşurdular. Ruslar o tərəfdən qayıdıb yenidən Kəlbəlibəyin üstünə hücum etdilər. Mir Həsən xanın adamları hər yaylım atəşi atdıqda yüz nəfər soldat ölürdü. Belə ki, Mir Həsən xanın adamları ağacların arxasında gizlənmiş, rus dəstəsi isə açıqlıqda idi. [Ruslar] Kəlbəli bəy tərəfə hücum etdikdə Mir Həsən xan allah dərgahına əl götürüb dedi: «Mən Kəlbəli bəydən arxayınam!».

Mir Həsən xan yan cinahdan soldatlara tüfənglə atəş açdı. Soldat dəstəsi qaçmağa başladı. Mir Həsən xan buyurdu: «Qorxuya düşməyin!». Haman haramzada güllədən yıxıldı. Rus qoşununun hay-küyü kəsildi. Baxıb gördük ki, soldatlar öz ölülərinin ayaqlarından tutub çəkirdilər. Kəlbəli bəy və başqaları nə qədər çalışdılarsa, soldatlara mane ola bilmədilər. Bu işi Mir Həsən xanın özü icra etdi.

Mir Həsən xanın miyankuhlu dəstəsi onlardan sonra gəlib çatdı. Ikiüzlülüklə çox təəssüflənib [dedilər:] «Heyf ki, biz bu döyüşə gəlib çatmadıq!». Bu tamamilə (64,b)yalan idi.

Bu döyüşdən sonra Rusiya qoşunu [bir də] Mir Həsən xanla üzüzə döyüşmədi. Mir Həsən xanın qoşununa bərk xəstəlik düşdü. Mir Həsən xan harada mənzil edib gecələyirdisə [səhəri gün] oyandıqda [tüfəngçilərindən] əlli nəfərinin öldüyünü görürdü. Buna görə də o xəstəliyin şiddətindən Talış vilayətində dayana bilmədi. Beləliklə, bizim köçümüz Mir Həsən xanın köçü ilə birlikdə Miyankuh meşələrində dolanırdı. Hər gecə müxtəlif yerdə mənzil edirdik. Bu qayda ilə qırx dörd yerdə ağac yarpaqlarından koma qayırmışdıq. Nəhayət, Mir Həsən xan öz camaatını azad edib dedi: «Hər kəs canını

götürüb istədiyi tərəfə getsin. Mən də Talışdan gedirəm. Allah bir də fürsət verərsə, yenə gələrəm!». Sonra kiçik bir dəstə ilə – o cümlədən Kəlbəli bəy, xanın qaynı muğanlı Ağakişi bəy, şiləvarlı Əmirgünə bəyin oğlanları Nağı bəy və bəzi nökərlərilə birlikdə taleyini sınayıb Mazandarana getdi. Çünki Fətəli şahın böyük oğlu orada hakim idi.[259] Xan ona pənah apardı. Nökərlərindən bəzisi, yəni Əmirgünə bəyin oğlanları Rəştdə ondan ayrılıb xain çıxmışdılar. Onun qızı Xeyrənnisa xanımı götürüb qaçmaq istəmişdilərsə də, fürsət tapmamışdılar. Kəlbəli bəy və Agakişi bəy Lahicandan[260] qayıtmışdılar. [Mir Həsən] xan iki-üç nökəri ilə özünü şahzadənin xidmətinə yetirdi. Onun adı Əli şah idi. O, təcili olaraq Mir Həsən xanın gəldiyini Tehranda Fətəli şahın hüzuruna ərz etdi. Fətəli şah qorxuya düşdü. [Şahzadə] onu Tehrana göndərdi. Orada isə ona zəhər verib öldürdülər. Qacarın vəfasına lənət, yüz lənət!..

Xülasə, o gün çox ah-zar oldu. Çox ağladılar. Atamın, Bədəl bəyin, Zöhrab bəyin, Rza Əli bəyin, Mir Haşım bəyin, Rza Əli bəyin qardaşı Kərbəlayi Abbasəli bəyin köçləri birləşib sərhəddə – Ərdəbilə tərəf getdik. Mir Həsən xandan ayrıldığımız günün axşamı köçlərimiz Duvarə [adı ilə] məşhur[261] olan Zuvand mahalı dərəsinin aşağısına yetişdi. Gecəni orada qaldıq. Rvarudlu[262] Məhərrəm adlı zuvandlının birdən zahir olduğunu gördük. Köç sahibləri ondan xahiş etdilər ki, bələdçi olub köçümüzü zuvandlıların bizə əziyyət verə bilməyəcəkləri bir yoldan keçirsin.

Çünki Zuvandda Rusiya tərəfindən təyin edilmiş Əmiraslan adlı bir xan vardı. Həmin günlərdə o qaçqınları tutub soyurdu. Məhərrəm [bu işi] boynuna alıb [dedi]: «Mənə dörd tümən versəniz sizi elə yolla apararam ki, heç bir zərər toxunmaz!».

Adamlar ona dörd tümən verdi (65,a). O, bizi Ажuyokbil yolu ilə[263] meşədən gətirdi. Bütün günü və gecə yol getdik. Sərhəddin o tərəfində Pilərud[264] kəndinə çatdıq. Gecəni orada qaldıq. Biz elə güman edirdik ki, Mir Həsən xanın oğlu Mir Kazım xan bizim gəldiyimizi eşidib yanına çağırar, qoruyar və hörmət edər. Lakin əksinə oldu. Gecə yarısı gördük ki, otuz atlı, o zaman Nəmində Mir Kazım xana qulluq edən qızılağaclı Ibrahim bəy Dəryaqulu oğlunun rəhbərliyi altında başımızın üstünü aldılar. [Ibrahim bəy] dedi: «Mir Kazım xan bizi göndərmişdir ki, sizi soyub yenidən qolu bağlı ruslara verək!». Bizim ah və fəğanımız göyə ucaldı. Malqaradan, qoyundan, dövlətdən və təzə paltardan nəyimiz vardısa, əlimizdən aldılar. Onun fikri sabah bizi ruslara vermək idi. Lakin Nəmin kəndində Mir Kazım xanın xidmətində bir seyid vardı. O, bu əhvalatdan xəbər tutmuşdu. Mir Kazım xanı çox məzəmmət etmişdi: «Bu nə hərəkətdir ki, siz edirsiniz. Axı, bu fəqirlər də sənin atanla [birgə] sinələrini külləyə vermişlər. Atan müqavimət göstərə bilməyib Talışdan getmiş, onları azad buraxmışdır. Bu yazıqlar sənə pənah gətiriblər. Sən isə onlarla belə rəftar edirsən. Sənə çox eyib olsun. Bu bəd

əməl dünya durduqca sənin özün və övladın üçün bir ləkə olub qalacaqdır. Sən bu işdən əl çək!».

Mir Kazım xan tez bir atlı göndərib Ibrahim bəyə tapşırdı ki: «Onları əsir edib, qolu baqlı ruslara verməyin. Onlara Vilgic sərhəddindən rədd olmalarını əmr edin. Kimsənin gözünə görünməsinlər. Onlardan hər kim mənim vilayətimdə sakin olsa, gətirib boynunu vurduracağam!».

Xülasə, [o günün] səhəri köçlərin hərəsi bir tərəfə getdi. Atam da öz köçü ilə Ərdəbil tərəfə yola düşdü. Məlun Ibrahim bəy bizi lütüryan edib soydu. Allah ona lənət etsin. O, allahın lənətinə yetdi. (65,b) Indi onun adı və izi belə məlum deyil. Bizim yanımızca gedən bir neçə nökərdən başqa heç nəyimiz qalmamışdı. Bunlar butəsərli Cəfər Lələ, muğanlı Məmmədhəsən, iraqlı Ağa Məmmədəli, ərcüvanlı Islam və xıllı Dövlət idi. Bizim qadınlar başıaçıq piyada irəliləyirdi. Ərdəbil vilayətində səhra ilə gedirdik. Mükəmməl yaraqlı boz ata minmiş bir süvarinin pusqudan gəldiyini gördük. Atam dedi: «Əgər canımızı bu atlının əlindən qurtara bilsək, böyük hünərdir!». O atlı bizə yaxınlaşıb atdan düşdü. Ağlaya-ağlaya gəlib özünü atamın ayağına saldı [dedi]: «Kaş boynum sınaydı, sizi bu halda görməyə idim». Sonra atama təklif edib [dedi]: «Siz bizim qonağımızsız, gedək!». Onunla bir az getdik. Bir kənd göründü. O kəndə Nirnəvənd deyirdilər.[265] Bizi evinə apardı. Təmiz bir kürsü hazırlanmışdı.[266] Bizi o kürsüdə yerləşdirdi. Biz bir tərəfdən ac, digər tərəfdən çox yorğun [olduğumuzdan] tez yatdıq. Bir azdan sonra o bizi oyadıb dedi: «Indi qalxıb nahar edin!».

Kürsünün üstünü xörəklərlə bəzəmişdi. Atam ona dedi: «Həqiqətən mən sizi tanımıram. Özünüzü tanıtdırmasanız, xerəyinizi yeməyəcəyəm!». [O adam dedi]: «Mir Həsən xanın Talışda hakimiyyəti zamanı siz onun baş vəziri idiniz. Ərdəbil hakimi Cahangir Mirzə qoşun toplayıb [Lənkərana] gəlmişdi ki, Mir Həsən xanı da qoşunu ilə götürüb, Salyanı almaq üçün köməyə aparsın. Mən də onun qoşununda idim. Təsadüfən tüfəngim açıldı. Mir Həsən xanın adamlarından birinə dəyib onu öldürdü. Cahangir Mirzənin əmrilə məni tez tutdular. Məni həmin adamın qanı əvəzinə Mir Həsən xana verdilər ki, məni öldürsün. Onda siz Mir Həsən xanın baş vəziri idiniz. Mən fərraşların əlindən qaçaraq sizə pənah gətirib mənzilinizə gəldim. Mir Həsən xan sizi çox hədələdi: «Onu qan sahibinin adamlarına verin!». Siz vermədiniz. Dörd ay məni mənzilinizdə saxlayıb, bizi barışdırdınız. Məni təhlükədən xilas etdiniz. Mənim atımı və yarağımı özümə verib evimə köndərdiniz. O vaxtdan bəri mən sizin o yaxşılığınızın əvəzində sizə bir xidmət etmək üçün allahdan bir təsadüf arzu edirdim. Bir neçə gündür ki, Talış camaatının [dağılıb] hərənin bir tərəfə qaçdığını eşitmişdim. Mən də sizin sorağınızda idim ki, bəlkə bu vilayətə gəlmisiniz. Allaha şükür olsun ki, istəyimi qəbul buyurdu, mən də sizi tapdım!». Bu hadisəni danışdıqdan sonra həmin kişinin çörəyini yedik. O, bir neçə gün bizi evində qonaq saxlayıb,

lazımi hörmət və izzət göstərdi. Sonra atama dedi: «Siz başqa yerə getməyin. (66,a) Mən bu kəndin hakimi yanına gedib [ondan xahiş edərəm ki,] bu kənddə sizə ev verib himayə etsin!». Atam soruşdu: «Bu kəndin hakimi kimdir?». [O] dedi: «Şahsevən hakimlərindəndir». Atam dedi: «Şahsevən hakimlərilə mənim sövdam tutmaz. Mən bu kənddə qalmaram!». Ağbulaq[267] və Qoyluğa kəndlərinə[268] yola düşdük. Bu kəndlər mehranlı Kəlbi Hüseyn xanın əlində idi.[269] Biz o kəndə çatdıqda qarşımıza çıxan bir neçə nəfər uşaq bizi qaraçı zənn etdi. Çünki qardaşım Molla Cəfərqulunun saçı dərviş saçı kimi çiyinlərinə tökülmüşdü. O, dərvişlikdə məşhur idi. Mənim də saçlarım çox uzanmışdı. Həqiqətdə mütrübə çox oxşayırdıq. Hər ikimizin üzünə hələ tük çıxmamışdı. Məmmədhəsən də bizim kimi idi. Amma o, bir az bizdən böyük idi. Saqqalını qırxırdı.

Atam qoyluğalı Hacı Əliqulu ilə möhkəm dost idi. Onun yanında əlli-altmış tümən əmanət pulu vardı. Pulun xatirinə Qoyluğa kəndindən çıxıb, çaydan keçib Ağbulaq kəndinə getdik. Çay kənarında bir qadın paltar yuyurdu. Uşaqlar [da] əl çala-çala dalımızca gəlir və qışqırırdılar: «Bunlar mütrübdür!». Onlar bizi tənkə gətirmişdilər. O qadın bizi gördü. Uşaqları səsləyib dedi: «Qələt etməyin, bunlar qaraçı tayfası deyil, nəcib adamlardır!». Xülasə, uşaqlar bizdən əl çəkdilər.

Hacı Əliqulunun evinə çatdıqda Hacı evdən bayıra çıxdı, atamı məzəmmət edib dedi: «Mən sənə əvvəl gündən nökərçilikdən əl çək demişdim. Nökərçiliyin axırı yoxdur. Lakin sən Mir Həsən xandan əl çəkmədin. İndi özünü təhlükəyə salmısan. Artıq evimdə sənə yer verə bilmərəm!».

Atam dedi: «Yer verməsən, səndən minnət götürməyəcəyəm. Bizim əmanəti ver!». O dedi: «Hazırda sənin əmanətini qaytarmağa imkanım yoxdur!».

Müxtəsər, bəhanə gətirib altmış tümən puldan [ancaq] yeddi tümən verdi. Qalanını vermədi. Atam onunla mübahisədə idi ki, bir nəfər gəlib atama dedi: «Bağışlayın, siz [kimsiniz] və haradan gəlib, hara gedirsiniz?». Atam tez adını deyib, vəziyyəti ona söylədi. O tez qayıdıb getdi. Bir azdan yenə də gəldi. Hacı Əliquluya çox ağır sözlər söylədi. Atama dedi: «Mən Kəlbi Hüseyn xanın nökəriyəm. Bir saat bundan əvvəl xanın zövcəsi sizi çayın qırağında görmüş, xana xəbər vermişdir. Xan mənə dedi ki, «Get onların vəziyyətini öyrən, gör necədirlər və hara gedirlər?». Mən də gəlib sizin halınızı öyrəndim. Hazırda xan məni sizə mənzil vermək üçün göndərmişdir!» (66,b).

Bizi təkrar çaydan keçirib Qoyluğa kəndinə apardı. Bizim üçün iki ev hazırlayıb, orada yerləşdirdi. Bir saatdan sonra bir nəfər kosa saqqal, ucaboy, beli xəncərli [adamın] dörd-beş nəfər ilə gəldiyini gördük. Onların hərəsinin başında bir məcməyi vardı. O kişi [bizə] çatan kimi atama salam

verdi, çox hörmət göstərdi. Məcməyiləri yerə qoydular. Atam dedi: «Doğrusu mən sizi tanımıram!». O adam dedi: «Mən miyankuhlu Muxtar bəyəm. Talışda öz anamı və bacımı öldürmüşəm. O çağdan xanın xidmətində oluram. Xan sizə nahar göndəribdir!».

Atam xana lazımınca təşəkkür etdi. Ona da çox dil töküb hörmət etdi. Bir ay bu qayda ilə hər gün Kəlbi Hüseyn xanın evindən bizə xörək gəlirdi. Hər gün atam xanın hüzuruna gedəndə məni də aparırdı. Xanın atama hörməti getdikcə artırdı. Bir aydan sonra atam xahiş etdi ki, xanın xidmətçiləri məcməyi göndərmək iltifatını dayandırsınlar. Camaat bizdən inciməsin.[270] Xan buyurmuşdu: «Yaxşı, eybi yoxdur. Gündəlik xərcinizi verərik!».

Güzəranımız yaxşı keçirdi. Lənkəranlı hacı Bağırın amili[271] Hacı Ruhullada yüz tümən pulumuz vardı. Ərdəbildə atam pulu ondan aldı. Sevindik.

Birdən Ərdəbil şəhərinə vəba xəstəliyi düşdüyünü və çox adamın tələf olduğunu xəbər verdilər. Ağbulaq, Qoyluğa kəndində gəliş-gediş kəsildi. Yollar tamamilə bağlandı. Iki-üç gündən sonra vəba xəstəliyi Ağbulaq kəndinə keçdi. Gündə iki adam tələf olurdu. Getdikcə [tələfat] artırdı. Hətta elə gün olurdu ki, on-on iki adam ölürdü. Həmin kəndlərin əhalisi yurdlarını tərk edib başqa yerə köçdü. Axırda Kəlbi Hüseyn xan da öz köçünü götürüb çölə qaçdı. Atam dörd-beş at kirayə etdi və biz Alvəri (Alvarsi) kəndinə[272] tərəf qaçdıq. Çünki [yuxarıda] yazıldığı kimi, Gorganrud camaatı iğtişaş [törətdiyi zaman] atam alvarsili Hacı Əliverdiyə yüz əşrəfi [əmanət] tapşırmışdı. Elə buna görə də o tərəfə getdik. Bundan başqa, deyildiyinə görə o, kəndlərdə hələlik xəstəlikdən bir əsər yox idi. O gecəni sübhə kimi çöllə yol getdik. Səhər gün çıxdıqda dağ ətəyində bir kənd göründü. Dedilər, bu Alvarsi kəndidir. Kəndə yaxınlaşdıqda bir neçə nəfər mükəmməl silahlanmış atlı qabağımızı kəsib bizi kəndə daxil olmağa qoymadı. Nəhayət, min minnətdən sonra kəndin kənarında olan bir evdə bizə mənzil verdilər. [Lakin] yenə də kəndin içinə getməyə [yol vermirdilər]. [Sonra] atamı görüb tanıdılar. Atam onlarla dost idi. Ona görə yol verib çox hörmət etdilər. Iki-üç gündən sonra Mir Həsən xanın fərraşbaşısı gərmətüklü Kəlbi bəy də öz köçü ilə gəldi. Atamın vasitəçiliyi ilə ona da bizim yanımızda yer verdilər. Bir yerdə qaldıq. Hər gün bir adam bizi qonaq edirdi. Bizə lazımi qonaqpərvərlik (67,a) göstərdilər.

Bu kənddə Qacar nəslindən olan Məhəmməd Sadıq adlı bir nəfər vardı. Kəndin idarəsi onun əlində idi. O da bizə, yəni atama çox hörmət göstərdi, hər iki-üç gündən bir bizi qonaq edirdi. Bu kənddə üç ay qaldıq. Vəba xəstəliyi hər yerdə qurtarmışdı. Həmişəki kimi Ərdəbilə gəliş-gediş bərpa edilmişdi. Bir gün atam Ərdəbilə hamama getdi. Atam orada bu kitabda haqqında məlumat verdiyimiz Ciləvənd və Levendevil kəndlərinin naibi

Səfərəli xana rast gəldi. O, yenə də atama mehribanlıq göstərib, əvvəlki kimi onu öz yanında qalmağa dəvət etdi. Atam Ərdəbil şəhərindən evə qayıtdı. Əhvalatı bizə bildirdi.

Payız fəsli düşmüş, havalar çox soyuq keçirdi. Alvarisi kəndi bizə həbsxana kimi olmuşdu. Atama çox yalvardıq ki, bizi Ciləvənd kəndinə aparsın. Səfərəli xan atama təliqələr vermişdi ki, gedib Ciləvənd, Levendevil və başqa kəndlərin işlərini nizama salsın. Buna görə atam Ciləvənd kəndinə getdi. Bizə vədə verib [dedi]: «Allah qoysa, sizin üçün adam göndərərəm, onda gələrsiniz». Iyirmi beş gün keçdikdən sonra atam məktubla xəbər göndərdi ki, Ciləvənd kəndinə gedək. Buna görə biz də Alvarsi kəndində bir neçə yabı kirayə edib Ciləvəndə yola düşdük. O günlərdə [yollarda] lazımi şərait olmadığından Darbulağı yoluna[273] gəldik. Onun yaxınlığında olan Törədi adlı bir yerdə[274] Ciləvənd və Levendevil talışlarından iki-üç nəfər Kalış[275] yaşayırdı. Biz də gecəni orada qaldıq. Bizim Şeyda adlı bir kənizimiz vardı. Yazıq ölüm halında olduğundan orada vəfat etdi. Onu orada dəfn etdik. Pərişanlıq [içində] Ciləvəndə kəldik. Orada [bizim üçün] ev və talar hazırlanmışdı. Beləliklə, iki ay Ciləvənddə qaldıq. Iki aydan sonra Səfərəli xan Gorganrud mahalına getdi. [Xan] öz nökərini bəzi sərhəd işləri üçün Lənkərana rəisin yanına göndərdi. Həmin adam isə paxıllıqdan atamı Lənkəran rəisinə pis qələmə verdi. O zaman belə bir qanun vardı. Mir Həsən xanın nökərlərindən kim ələ keçsə idi, sorğusualsız Sibirə göndərilməli idi. Atam isə xüsusi nəzarət altında olmalı idi. Rəis onu Səfərəli xandan istəmişdi. Səfərəli xan xalqın dedi-qodusundan çəkinərək, Gorganruddan gizli bir məktub yazıb atama köçü ilə birlikdə başqa yerə getməyə icazə vermişdi. Atam da vaxtın tələbatına görə özünü qorudu. Sərhəd yaxınlığında qalmağı məsləhət bilmədi. Lömir çayı mənsəbinə gedib bir kərəci kirayə etdi. Atları və başqa dördayaqlı heyvanları iki nəfər nökərimizə tapşırıb quru yolla Ənzəli tərəfə göndərdi. Yerdə qalan uşaqların hamısını kərəciyə mindirib Ənzəliyə hərəkət etdi. Təsadüfən dənizdə fırtına başladı. Dalğalar dağ kimi gəlirdi. Az qalmışdı məhv olaq. Bütün gecə-gündüz suyun üzündə yol getdik. Uşaqlar qorxudan ağlayırdı. Günbatan vaxtı bizim kərəci sürən sükanı öz muzduruna verib bir az yatdı. Çünki bir neçə gün [davam edən] fırtına təhlükəsi zamanı o heç yatmamışdı. Köpək oğlu muzdur isə sükanı dənizə çevirdi. Sübhə yaxın [birdən] qışqırdı: «Ey kəmiçi, böyük fırtına var!». Kəmiçi diksinib yuxudan oyandı. Çığırıb dedi: «Türkmənlərə yaxınlaşmışıq. Sükanı başıaşağı dəniz kənarına tərəf döndərin!». On-on iki saat kərəci sahilə tərəf üzdü. Səhər açıldıqda ətrafa baxdıq, heç yanda quru görünmürdü. Sübhdən dörd-beş saat keçdikdən sonra üfüqdə ip kimi uzanan bir şey göründü. [Nə olduğunu] soruşdum, kəmiçi dedi: «Dağlardır!». Yavaşyavaş irəlilədik, dağlar seçilməyə başladı. Dəniz sahilinə yarım ağac qalmışdı. Artıq sahildəkilər görünürdü. Hamımız şükür edib allaha səcdəyə düşdük. Atam

kəmiçidən xahiş etdi ki, köçümüzü sahilə çıxarsın, bir qədər dincəlib, xörək hazırlasınlar.

Buna görə bizi sahilə çıxartdıqda gördük ki, həmin sahə Dulab Talışı kəndlərinin bicar yeridir. Həmvilayətlərimizin, yəni Aşağı Nüvədi[276] və Xonbeli[277] kəndləri camaatının [bir hissəsi] Mir Həsən xan hadisələrində öz köçlərilə gəlib bu kənddə məskən salmışdılar. Atamı gördükdə onlar çox məzəmmət edib [dedilər]: «Indi sizin köç və ailə ilə (67,b) Ənzəli şəhərinə getməyiniz məsləhət deyildir. Çünki Ənzəlidə şiddətli azar [vəba xəstəliyi] vardır!». Atam onların məsləhətini qəbul edib Ənzəliyə getmədi. Kərəci sürənin pulunu verdi. Onu razı saldı. Aşağı Nüvədi [kəndin]dən Məhərrəm oğlu Kərbəlayı Hüseynəli adlı bir nəfər bizə öz evində mənzil verdi. Yerliləri bizə çox hörmət etdilər. Biz onları görən kimi qəriblik kədərini unutduq. Qəriblik heç yadımıza düşmədi.

Bir neçə gündən sonra Dulab Talışı hakimi Əliqulu xanın yanına getdik. O, həqiqətən yaxşı adam idi. Atama çox hörmət etdi. Onun [bizə] daim mehribanlıq [göstərməsi] və şirin dilli olması atamı Ənzəliyə getmək fikrindən daşındırdı. Çünki buradakı bicar yeri bizim Şahağacı kimi çox yaxşı çəmənliyi olan sərin bir yer idi. Atam yol kənarına yaxın özünə iki ev tikdirdi. Həmin evlərdə yerləşdik. Güzəranımız yaxşı keçirdi. Payız və qış fəsilləri keçdi. Atam ticarətə başladı. Ənzəlidən parça alıb gətirirdi. Mən də Mir Həsən xan hadisələri zamanı qaçıb gəlmiş yerlilərimizdən Qubad bəy oğlu Kazım bəy adlı bir nəfər butəsərli ilə parça satırdım.

Dulab Talışda[278] həftədə üç yerdə bazar olurdu. Biri Çərşənbə bazarı, yəni Ərdərud[279] kənarında, biri Dulab Gilində,[280] o biri də Kəskərdə [idi]. Bir həftə içində bu üç yerdə bazar olurdu. [Bazar] belə olurdu: alverçilər parçalarını atlara yükləyib bazara gətirir, yüklərini atdan düşürüb açır və alverə başlayırdılar. Günbatan vaxtı yenə də mallarını atlara yükləyib evlərinə aparırdılar. Biz də onlar kimi alver edirdik. Çox mənfəət əldə edir, çox yaxşı dolanırdıq.

Yay fəslinin başlanğıcında atam bizi də özü ilə Rəşt şəhərinə aparmaq istədi ki, biz orada dərs oxumaq və [hüsnxətlə] məşq etmək ilə məşğul olaq. Ənzəliyə (68,a) çatdıqda gözlərim ağrımağa başladı. [Atam] məni evə qaytardı. Qardaşım molla Cəfərqulunu özü ilə apardı. Mənə tapşırdı: «Gözlərin yaxşı olan kimi mənə kağız yaz, səni yenə Rəştə çağıracağam!». Bir həftədən sonra gözlərim sağaldı. Atam mənə yazdı ki, mütləq gəl. Mən kəndimizdə dəlləklik edən və bizimlə bərk dost olan bir nəfər gilək ilə birlikdə Rəştə tərəf yola düşdüm. Gecəni Ənzəlidə qaldıq. Sabahı bir kərəciyə minib Rəştin bir ağaclığında olan Pirəbazara[281] getdik. Günorta vaxtı idi. Hava çox isti olduğundan, piyada yol getmək çox çətin idi. Dəllək mənə dedi: «Bu məhəllədə bir nəfər tanış Hacı vardır. Yaxşı olar ki, gedib bir az onun evində rahatlanaq. Hava bir qədər sərinləşəndən sonra Rəşt

şəhərinə gedərik. Şəhər yaxındır!». Mən də onun sözünü qəbul etdim. Onunla birgə Hacının evinə getdik. Həyətə daxil olduq. Doğrudan da zəngin bir imarət gördük. Özü də yaxşı adam idi. Bizə çox hörmət elədi. Mənə ayrıca diqqət yetirdi. Gördüm ki, həyətdə çox qürurla gözəl bir qız gəzir. Bir saat talarda yatıb rahatlandıq. Nahar gətirdilər. Doğrudan da gözəl nahar idi. Müxtəlif xuruşlar bişirmişdilər. Hacı ilə bir az yedik. Mənə yoldaş olan dəllək məni taların üstündə oturtdurduqdan sonra bir də mənim yanıma gəlmədi. O, Hacının arvadının yanında oturub pıçıldaşır, mənə tərəf baxır və gülürdü. Mən fikirləşirdim ki, [görəsən] onlar məndə nə nöqsan tapmışlar ki, gülürlər? Bu məsələ məni bir qədər pərt eləmişdi. Lakin özümü itirmədim. Yeməyimizi yedik. Həmin qız gəlib məcməyini götürdü. Xumar gözlərilə bir dəfə mənə baxdı. Az qaldı ki, özümdən gedəm. Bir təhər özümü saxladım. Onun əynində bir köynək, başında gözəl bir araqçın, ayağında bir dizlik [tuman] vardı. Hürkmüş ceyran kimi yeriyirdi (68,b).

Hacı bir az mənimlə oturduqdan sonra durub öz otağına, arvadının yanına getdi. Bir saat orada oturub söhbət etdi. Dəllək durub mənim yanıma gəldi. Çox gülürdü. Mən [ona] dedim: «Niyə gülürsən!». O dedi: «Səni yaxşı işə qoymuşuq!». Mən dedim: «Necə!». O dedi: «Hacının arvadı sənə vurulmuşdur!». Mən ona demişəm ki, bu uşağın ata, anası yoxdur. Özü də Hacı oğludur. Özünə bir qız bəyənib almaq üçün Rəşt şəhərinə gedir. Bu vilayətdə qalmaq istəyir.

Bu hacının da oğlu yoxdur. Ancaq bir qızı vardı. Hacı və arvadı mənə minnətçi oldular. [Arvad mənə dedi]: «Hacı deyir ki, on iki inəyimiz, Pirəbazarda bir neçə dükanımız və bir neçə parça da əkin yerimiz vardır. Şərik əkilməyə vermişik. Əgər bu oğlan qəbul etsə, qızımızı ona verərik. Özünü də oğulluğa götürərik. Bütün mal, mülkümüzü də ona bağışlarıq. Özüm də arvadımla ətabət-i aliyyəni ziyarətə gedərəm.[282] Ona görə məni sənin yanına göndərdi. Bu barədə sənin fikrini bilmək istədi!». Mən isə qıza vurulub ata-anamı yaddan çıxarıb dedim: «Eybi yoxdur, Hacı məni oğulluğa qəbul edirsə, mən də razıyam! Amma ürəyimdən bir şey keçir ki, utandığımdan söyləyə bilmirəm!».

Dəllək çox israr edib dedi: «Söylə görək nədir?». Mən dedim: «Sənə söyləməyəcəyəm. Hacının arvadı məni oğulluğa qəbul edirsə, məndən utanmamalıdır. Ana kimi gəlib yanımda otursa, mən də öz sirrimi bir oğul kimi ona söylərəm!».

Dəllək sevinclə gedib bu əhvalatı hacıya və arvadına söylədi. Hacı çox razı olub dedi: «Mən bazara gedirəm. Arvadım da gəlib onun yanında oturacaqdır!». Sonra hacı qalxıb getdi. Hacının arvadı çox nəzakətlə gəlib yanımda oturdu. Şairin dediyi kimi:

«Əda incə, dodaq incə, bel incə, (69,a)

Təbim kimi başdan ayağa incə!»[283]

Oturan kimi papağımı başımdan götürüb saçlarımı tumarladı. Öz dililə dedi: «Nə sən kiləgsən, nə də mən türkcə bilirəm. Bizim işimiz necə olacaq?». Mən dedim: «Nə dillə danışsan mən anlayıram!». Sonra məni qucağına çəkdi. Elə bil ki, behiştə daxil oldum. Onun ətri məni məst elədi. [O mənə] dedi: «Rəşt şəhərinə getmə. Ey türk balası, mən sənin üçün həm Rəştəm, həm də Təbriz!».

Mən onun sinəsindən öpüb dedim: «Ana, Rəştdə dörd gündən artıq qalmayıb özümü tez sizin qulluğunuza yetirərəm!». Məndən xahiş edib [dedi]: «Indi ki, gedirsən, bu gecə bizə qonaq qal. Sabah gedərsən!».

Mən də [onun təklifini] qəbul etdim. Bu gecə istəyimi yerinə yetirməyi ondan xahiş etdim: Dedi: «Gözüm üstə!». Gecəni orada qaldım. Lazımi mehribanlıq göstərdi. Bizim evə bitişik üzü günçıxana bir talvar vardı. Yatarkən məni orada yatırtdı. Dəlləyə hacının taları altında yer verdi. Hacının Pirbazarda bir neçə dükanı vardı. O, gecəni orada yatdı. Gecədən bir qədər keçmişdi. Hacının qızı Gülçöhrə xanım [yanıma] təşrif kətirdi. Bir yerdə yatdıq. Xülasə, məni elə qucağına çəkdi ki, mollayi Ruminin [buyurduğu sözlər yadıma düşdü].

Ağıllar heyran qalar gər söyləsəm,
Yazmaq istərsəm davam etməz qələm.
Doğru söylər, şərh edərsəm mən əyər,
Çox uzun vaxt istər. Etdim müxtəsər.[284]

Səhər açıldı. Onların xidmətindən mürəxxəs olub Rəşt şəhərinə getdim. Atamla görüşdük. Hücrədə Məsihi adlı qoca və mötəbər bir seyid gördüm. Bu seyid çox təşəxxüslü bir adam idi.

Atam mənə dedi: «Bu kişi lahicanlıdır. Özü də gözəl xəttatdır. Onu Rəşt şahzadəsi gətirtmişdir ki, uşaqlarına gözəl yazı yazmaq öyrətsin!». Bir saatdan sonra məni həmin seyidin yanına apardı. Seyid soruşdu: «Mirzə, bu sizin həmin tərif etdiyiniz oğlunuzdur?». Atam dedi: «Bəli!». Sonra [seyid] bir vərəq kağız götürüb [səhifənin başında] gözəl xətlə bir sətir sərməşq[285] yazıb mənə verib dedi: «Bismillah, siz də yazın!». Gördüm ki, doğrudan da çox gözəl xətlə yazmışdır. (69,b) Mən də bir sətir yazdım. Seyid baxıb çox təriflədi və dedi: «Bu mənim birinci xəlifəmdir!».[286] Iki ay hacı Məhəmmədin mədrəsəsində qaldıq. O nəcib seyiddən [gözəl yazmaq] məşqi aldıq. Məşq alan [tələbələr] arasında mən Mirzə Əhmədə birinci xəlifə deyirdilər. Iki aydan sonra atam evə qayıtmaq fikrinə düşdü. Həmin seyid atama çox təkidlə dedi: «Filankəsi aparma. Qoy mənim yanımda qalsın. Əgər bir il mənim yanımda məşq etsə, bir ildən sonra Iranda buna bənzər gözəl yazan olmaz!».

Atam razı olmadı. Çünki bizimlə olan qardaşım Molla Cəfərqulu xəstələnib ölüm halında idi. Uca allah onu bizə təzədən kəramət etdi, [sağaldı]. Buna görə atamın gözü qorxmuşdu.

Oradan evə döndük. Evə çatdıqda atam xəstələndi. Qızdırmaya tutuldu. Qəriblik kədəri onu bürüdü. Dedi: «Əgər gündə min dirhəm[287] mənfəətim [də] olsa bu vilayətdə qalmayacağam!». Bir azdan sonra Ənzəliyə satmaq üçün yağ gətirmiş alurlu [kəndlilərindən] səkkiz at kirayə etdi. Bicar yerindəki mal-dövlətimizi atlara yükləyib Astara mahalına tərəf yönəldik.

Gorganrudda Bala xan [Talışa getməyi] atama məsləhət görməyib [dedi]: (Talış) vilayətinə getməyin. Ruslar Talışı almışlar. Sizin ağanız Mir Həsən xan Talışda hakim deyil ki, siz də ona vəzir olasınız. Talışda sizi qəm-qüssədən başqa bir şey gözləmir. Mütləq getmək fikrindən daşının.

Həvir[288] və Çubər[289] kəndlərinin ixtiyarını sənə verirəm. Get, həmin kəndlərdə məskən salıb, yaxşı həyat sür. Bacardığın qədər qərib köçləri başına topla. Onların ixtiyarını [da] sənə tapşırıram. Mən onlardan daha heç vergi almayacağam!».

Atam bu təklifə razı olmadı. Balaxana cavab verib dedi: «Dulab Talışından olan Əliqulu xan mənə lazımi hörmət və izzət göstərdi. Qəriblik məni təngə gətirdiyindən mən orada qalmadım. Burada da qalmayacağam!». Balaxan ilə vidalaşıb Astara kəndinə, yəni Astaranın o tərəfinə gəldik. 1883-cü ildə bu sətirləri yazarkən [o kənd] Qızılbaş dövləti sərhəddinə daxil olub Mir Kazım xan övladlarının ixtiyarında idi. Üç il burada qaldıq. Astara, Gorganrud, Levendevil və Ciləvənddən ibarət olan bu kəndlər Ərdəbil hakiminə tabe idi. O zaman Ərdəbil hakimi Bəhmən Mirzə idi.[290] Fətəli xan Nuri onun vəziri idi. Fətəli xan Nuri işbilən və çox danışan bir adam idi.

Atam məni Ərdəbilə aparıb Molla Ibrahim mədrəsəsinə qoydu. Dərs oxumaqla məşğul oldum. Sonra səyaq öyrənmək[291] üçün məni Ərdəbildə şah dəftərxanasına qoydu. Gündüzləri oraya gedir, gecələr də mədrəsəyə gəlib yatırdım. Butəsərli Molla Musa ilə bir hücrədə olurdum. Divanda mənə iyirmi tümən pul, üç xarvar [da] buğda məvacib təyin etmişdilər. Hər il [bu məvacibi] mənə verirdilər. Mənim yaxşı xəttim vardı. Üç il bu qayda ilə keçdi. Lənkəranda ucarütbəli hacı Mir Abbas bəyi Səfidəşt mahalına hakim təyin etdilər. Hacı Mir Abbas bəy atamın yanına adam göndərib onu yanına dəvət etdi: «Siz Butəsərə gəlib öz pulunuz ilə alınmış mülgünüzdə yerləşib, bizim mirzəlik işlərini də aparın. Keçmişdə sizin əlinizdə olan əkin [yerini] də sizə bağışlayacağam!». Butəsərdəki bütün qohum-əqrəbamız bu işi bəyəndiyindən Astaraya atamın yanına gəlib ondan xahiş edərək, ürəyini ələ alıb [razı saldılar].

O zaman qayda belə idi. Sərhəddəki Talış vilayətinə getmək (70,a) istəyənlər Təbrizə gəlib Təbriz konsulundan kağız alır, [sonra] asanlıqla Talışa gedirdi. Buna görə atam atını minib Ərdəbil şəhərinə mənim yanıma

gəldi. Bir gün yanımda qaldı. On il atama xəyanətsiz xidmət etmiş iraqlı Məmmədəli ilə birlikdə [atam] Təbrizə getdi. [Talışa qayıtmaq üçün konsuldan] icazə alıb Ərdəbilə döndülər. Bizi götürüb Astaraya öz evinə gəldi. Köçünü Astarada qoyub [özü] Lənkərana yönəldi. Lənkəran hakimi onun icazənaməsini yoxlayıb, bizi Rusiya dövlət bayrağı altına qəbul etdi. Lənkəran hakimi-naçalnik atama demişdi: «Siz padşah adamı sayılırsınız. Xalisə hesab olunmayacaqsınız, çünki siz Mir Həsən xanın vəziri olmuşsunuz. Mir Həsən xanın bütün var-dövləti padşah ixtiyarına keçmişdir. O cümlədən siz də padşahın ixtiyarındasınız. Köçünüzü götürüb keçmişdə olduğu kimi Lənkəranda sakin olun. Sizə lazımi hörmət və məhəbbət göstəriləcəkdir». Bu xəbəri eşidən Hacı Mir Abbas bəy atamı öyrədib [dedi]: «Siz [rəisə] deyin ki, indi mənim Lənkərana gəlməyə imkanım yoxdur. Lənkəranda mənim evim dağılmışdır. Hələlik bir qədər Butəsərdə qohumlarımın evində qalacağam. Sonra [Lənkərana] köçərəm!». Atam Lənkəran rəisinə belə [də] ərz etmiş, o da razı olmuşdu. Sonra atam bir neçə gün öz əmilərinin evində qalıb öz mülkündə olan qaçqın kəndlilərin [boş qalmış] evlərindən ikisini bir növ təmir edib orada yerləşmək üçün köçü ilə Butəsərə getdi. Lakin atam Mir Həsən xanla birlikdə Talışdan getdiyi zaman Hacı Mir Abbas bəyin arvadı Xanım Ağa həmin mülkümüzü mənimsəmişdi. Onun meyvələrini satıb-sovmuşdu. O meyvələrdə Butəsər kəndinin kədxudası Fərzəlinin də gözü vardı. O atamın Butəsər kəndinə gəlməsinə razı deyildi. Xanıma Ağanın təhrikilə [kədxuda] gecə ikən adam göndərib evləri yandırmışdı. Sabahı evlərin yandırıldığını xəbər verdilər. Atamın qeyrəti coşdu. Köçünü götürüb öz mülgünə gəldi. Butəsər camaatının yardımı ilə iki günə evləri yenidən təmir etdi. Orada yerləşdik. Atam iki il Hacı Mir Abbas bəyin qulluğunda oldu. O atama bacardığı qədər (70,b) hörmət etdi. Allah ona rəhmət eləsin. Məlun Fərzəli bəyin gecə-gündüz fikri atamı Hacı Mir Abbas bəyin iltifat nəzərindən salmaq idi. Lakin buna müvəffəq ola bilmirdi. Axırda Xanıma Ağanın ağlını başından çıxartdı. Onlar birləşdilər. Onlar gecə-gündüz Hacı Mir Abbas bəyin nəzərində atamı müqəssirlər sırasına salmaq fikrində idilər. Təsadüfən o günlərdə Səfidəşt mahalının idarəsini də Hacı Mir Abbas bəydən aldılar. Onu gəlirdən məhrum etdilər. Hacı Mir Abbas bəy Məkkəyə [ziyarətə] getdi. Astara mahalının idarəsi Xanım Ağaya tapşırıldı. O da meydanı boş görüb atama bacardığı pisliyi etdi. Vaxtı ilə Hacı Mir Abbas bəy Perembel kədxudası Baba xandan yaxşı bir at alıb atama vermişdi. Şahpələngbəyin nəvəsi kor və axsaq Əsədulla bəy [Rusiyadan Iran] sərhəddinə qaçmışdı. Öz xidmətçilərindən bir neçə nəfərini göndərib Butəsərdə atı bizdən oğurlatmışdı. Oğrular bir nəfər ənbəranlı köçəri ilə tənkərudlu Molla Mahmud idi. Atımı geri qaytarmağa çox çalışdımsa da, mümgün olmadı. At əhvalatı hələlik örtülü qalsın. Allah qoysa, onun, əhvalatını bundan sonra müfəssəl ərz edəcəyəm. Xanım Ağa o atı atamdan

güclə alıb, məlun Fərzəli bəyə verdi. Fərzəlibəy atamın atına minərkən Butəsər camaatına [belə] deyirdi: «Hər kim düşmənin atına minsə, elə bil ki, düşmənin arvadına minmişdir!». Atamın qeyrəti bunu qəbul etmədi. Xanım Ağadan incidi. Indi həmin atın əhvalatını sizə müfəssəl söyləyim, görün ki, təqsir atamdadır, ya Xanım Ağada. Atı mən öz talarımın altında bağlamışdım. Gecə-gündüz ona yem verib sulayırdım. O, çox kökəlmişdi. Qaranlıq bir gecə idi. Atımın yanında yatmışdım. Çünki kor və axsaq Əsədullabəy qaçmışdı. Bir neçə nəfər alçaq və əclaf [adamlar] da onunla getmişdi. Camaat onların təcavüzündən qorxurdu. Gecələr öz mallarının keşiyini çəkirdi. Mən də onlar kimi (71,a) atımın keşiyini çəkirdim. Dörd tərəf möhkəm hasar idi. Üzü qibləyə bir pəyəmiz vardı. Gecələr onun qapısını bağlayırdıq. Onu əl ilə açıb içəri girmək mümkün deyildi. Molla Rəcəb adlı bir qonşumuz vardı. Bunun oğru bir inəyi vardı. Həmin gecə də bu məlun inək gedib atımızın otunu yeyirdi. Onu qovub pəyədən bayıra çıxartdım. Sonra gəlib atın yanında uzandım. Tüfəngimi də qucağıma alıb keşik çəkirdim. Lənətə gəlmiş inək yenə də gəldi. Müxtəsər, mən onu yeddi-səkkiz dəfə həyətdən qovdumsa da o, yenə qayıdırdı. Mənim heç ağlıma gəlmirdi ki, pəyəni mən öz əlimlə bağlayıram, inək yenə gəlir. Axı [inəyin] əli yoxdur. Bəs o necə gəlir? Bunu heç başa düşə bilmirdim. Siz deməyin, Ənbəranlı köçəri ilə təngərudlu Musa pəyəni açıb inəyi içəri salırlarmış ki, inək məni yorsun. Məni yuxu aparsın.

Səhərə yaxın məni yuxu apardı. Ayılıb gördüm ki, atım burada yoxdur. Atamı səsləyib soruşdum: «Atı siz açıb bağ içində bağlamısınız!». Çünki bəzən atımın otu qurtardıqda atam talardan aşağı enib, atı aparıb bağçada bağlardı. Orada ot çox idi. Bu dəfə də mən belə xəyal etdim [ki, atam yəqin atı bağa aparmışdır]. Atam dedi: «Bu gecə mən talardan aşağı düşməmişəm. Yəqin atı oğurlamışlar!». Atam [talardan] aşağı düşdü. Atın izini yoxladıq. Atın pəyədən bayıra çıxarılıb aparıldığını gördük. Ətrafı çox axtardıq, bir nəticə vermədi. Gündən bir-iki saat keçdi. Kiçik qardaşımla tüfənglərimizi çiynimizə salıb Vilgic tərəfə yönəldik. Təngərud yolunda yol boyu atımın izini görüb tanıdım. Mən atımın izini [yaxşı] tanıyırdım. Gördüm onu [bu yol ilə] aparmışlar. Qardaşımı qorxudub dedim: «Cəld ol, [tez] gəl!». Fayda vermədi. Qardaşım Ibrahim bir az kiçik idi. Lakin tüfəng atmaqda misli-bərabəri yox idi. Gedib Bənəvşəkəşdə nahar etdik. Mənim yeməyim dəsmal içindəki soyuq plovdan ibarət idi. Çörəyim yox idi. Qardaşım cavan olduğundan bir dəsmal plovu orada qoymuşdu. O, belə düşünmüşdü: «Mən cavanam. Bəlkə yolda mənə bir adam rast gəlib görsə ki, filankəs belinə çörək əvəzinə dəsmalda plov bağlamışdır, rişxənd edər!». Qardaşım gənc idi, dünyanın yaxşı-yamanını görməmişdi Mənim bu işdən [yəni dəsmalı yolda qoyduğundan] xəbərim yox idi.

Çox yol gedib Pirəzən körpüsünə çatdıq. Qardaşım dedi: «Halım çox pisdir». (71,b) Mən ondan soruşdum: «Halın niyə pisdir?». [Cavabında]

dedi: «Bərk acmışam!». Dedim: «Otur, plovu ye!». Dedi: «Plov yoxdur!». Dedim: «Bəs plovu neylədin». Dedi: «Orada plovu tullamışam!». Mən onu çox danladım. [Lakin] danlamaqdan nə fayda! [Qardaşım] yeddi addım gedir, sonra otururdu. Mən çarəsiz qalıb onun tüfəngini və patron qatarını götürdüm. O, bir saat ərzində azı on dəfə dincəlirdi. Yol boyu mən də qoz yığırdım ki, bəlkə yeyib qüvvətə gəlsin. Müxtəsər [mən] onu min zəhmət və əziyyətlə çarvadarların mənzili olan Noğana[292] çatdırdım. Şimala tərəf baxıb gördüm – bir nəfər Kalış çadır qurub oturmuşdur. Ibrahimin əlindən tutub titrəyə-titrəyə özümüzü o çadıra çatdırdıq. Bu [adam] maşıxanlı[293] Əbdüləzim idi. Biz oraya çatan kimi çörək, qatıq və pendirdən ibarət yemək gətirdilər. Mən yedim. Ibrahim isə [zəiflikdən] xörək yeyə bilmirdi. Ibrahimi qoydum orada [qalsın]. Əbdüləzim mənə təklif etdi: «Siz də getməyib [burada qalın]. Bu gecə yolu kəsib oğruları tutacağam!». Mən qalmadım, günbatana iki saat qalmış mən Nəminə çatdım. Ucarütbəli Rza Əli bəyin evinə girib əhvalatı ona söylədim. O, həmin saat oğlanlarını ata mindirib göndərdi ki, yolları tutub bağlasınlar. Gecəni Rza Əli bəyin evində qaldım. Səhəri [oğrulardan] bir iz görünmədi. Nəmindən Ərdəbilə getdim. O zaman qardaşım Molla Cəfərqulu [Ərdəbildə] Molla Ibrahim mədrəsəsində dərs oxuyurdu. Onun yanına getdim. O da bu məsələdən xəbərdar oldu. Bir saatdan sonra Molla Cəfərqulu ilə birgə Ərdəbil bazarına getdik. Kor Əsədullabəy də o zaman Həmləvar kəndində[294] olurdu. Onun adamları şəhərə çox gəlib-gedirdi. Atın sorağını tapmaq üçün [onların yanına] getdim. Tənkərudlu Molla Musanın bazarda gəzişdiyini gördüm. Görüşdük. O, qollarını boynuma saldı, mənə lazımi hörmət və mehribanlıq göstərdi.

Bəzən bu çirkin işin Molla Mahmuddan baş verdiyini fikrimə gətirirdim. Çünki o mənim yaxın qonşum idi. Onun [mənə göstərdiyi] mehribanlıq məni tamamilə bu fikirdən daşındırdı. Iki-üç gün Ərdəbildə qaldım. Bir xəbər eşitmədim. Oradan qayıdıb Nəminə getdim.

Ucarütbəli Rza Əli bəyin xidmətinə çatdıqda o, mənə dedi: «Sizin atınızı Minabad kəndində görüblər. [Atı] Molla Mamu ilə ənbəranlı bir köçəri aparırmış!».

(72,a) Mən gecəni orada qaldım. Qardaşım Ibrahim [də] ora gəldi. Qardaşımla biz oradan evimizə qayıtdıq. Lənkəran şəhərinə gedib naçalnikin hüzuruna ərz etdik. Ərdəbildə şahzadənin adına bu barədə bir kağız alıb, onun hüzuruna getdik. O zamanlarda tənkərudlu Molla Musa kor Əsədulla bəy ilə birgə xidmət edirdilər. Onun başına əclaflar toplanmışdı. Fitnə-fəsada o, səbəb olurdu. Ərdəbil şahzadəsi Əsədulla bəyi çağırıb ona əmr etdi ki, axsaq Əsədulla bəy atımı mənə qaytarsın. Əsədulla bəy Ərdəbil şahzadəsi hüzurunda mənimlə çox mübahisə edib dedi: «Mən sizi heç tanımıram!». Mən isə onun cavabında dedim: «Mən Talış hakimi Mir Həsən xanın baş vəziri Mirzə Xudaverdinin oğluyam, lakin mən sizin kim olduğunuzu

bilmirəm. Necə olur ki, siz mənim atamı [tanımayıb] soruşursunuz?». O cavabında: «Atam sənin bildiyin kimi məlumdur. Mən Şahpələngin nəvəsiyəm. Sənin atan bəlli deyildir!».

Ərdəbil şahzadəsi dedi: «Bu oğlanın dedikləri doğrudur. Mən bilirəm, bunun atası Mirzə Xudaverdidir. [O] Mir Həsən xanın vəziri idi». Əsədulla bəy çarəsiz qalıb Ərdəbil vəzirinə bir neçə tümən verdi, onu şəriət məhkəməsinə çəkməyi xahiş etdi. Sonra bizi şəriət məhkəməsi sərəncamına aparmaq üçün bir fərraş təyin etdilər.

Mən bunu qəbul etmədim. Öz evimizə qayıtdım. Sonradan xidmətçi adı ilə bir qaçaq göndərdik. O, gedib bir neçə il Əsədulla bəyin yanında qulluq etdikdən sonra atımızı oğurlayıb gətirdi. Bu əhvalatdan xəbər tutan Xanım Ağa yenə də atı məndən alıb Fərzəlibəyə verdi. Fərzəlibəy isə hey deyirdi: «Düşmənin atına mindin, elə bil ki, düşmən arvadına minmisən!». Bundan əvvəl yazdığım kimi Xanım Ağa isə başımıza çox oyunlar açdı. Onların onda birini yazmaq mümkün deyil.

Buna görə atam bu uca dərgahdan üz çevirib [onlara] xidmət etmədi. Evdə oturdu. Yenə də Xanım Ağa bizdən əl çəkmədi.

Rus zabiti Qəndur[295] Talışda bəylərbəyi[296] oldu. Təntənə ilə Butəsərə gəldi. Biz onun dəvəti ilə hüzuruna getdik. [Mənə] dedi: «Sən mənim mirzəm olmalısan!». Mən qəbul etmədim. Məni zorla özüylə (72,b) Astara tərəfə apardı. Bir neçə gün Astara kəndində qaldıqdan [sonra] qayıtdıq. Şahağacına çatdıqda məni [evə] buraxdı. Mənə on manat pul verib tapşırdı: «Dörd gündən sonra Lənkərana mənim yanıma gələrsən!». Qəndur oradan Lənkərana getdi. Mən də evimizə gəldim. Atam mənimlə çox dalaşıb dedi: «Sən nə üçün [öz başına] Qəndur ilə getdin, – sözünə davam edib dedi: – Tutaq ki, Xanım Ağa mənimlə ədavət saxlayır, mən neçə illərdir ki, Mir Mustafa xana, Mir Həsən xana, Mir Abbas bəyə qulluq etmişəm. Zəhmət çəkib saqqalımı bu dudmanda ağartmışam. Bəzən ağa öz nökərinə iltifatsız ola bilər. [Lakin] yenə də [ona] iltifat göstərər». [Atam] məni çox məzəmmət etdikdən [sonra] dedi: «Hacı Mir Abbas bəyin hüzuruna gedib ondan üzr istə!».

Buna görə mən də atamın buyruğuna əməl etdim. Bir az meyvə sovqat götürüb atıma minərək, Hacı Mir Abbas bəyin hüzuruna yönəldim. Çayın o tərəfindən bəyin mülazimlərindən iki-üç nəfərin durduğunu gördüm. Onlar məni görən kimi söyməyə başladılar. Mən onlardan soruşdum: «Kimi söyürsünüz?». Dedilər: «Səni!». Mən onlardan soruşdum: «Mənim təqsirim nədir?». [Onlar] dedilər: «Sən Qəndura qulluq edirsən. Onun üçün də sərkar Mir Abbas bəy buyurmuş ki, səni tutub qolu bağlı onun hüzuruna aparaq!».

Mən onlara çox yalvarıb dedim: «Özüm gedərəm. Qollarımı bağlamaq lazım deyildir!». Onlar razı olmadılar. Dedilər: «Sərkarın əmri budur! Sizi qolu baqlı aparmalıyıq ki, başqalarına ibrət olsun!». Mən onlarla

mübahisədə idim. Bir də gördüm ki, üç nəfər Qəndurun nökərlərindən – Məşədi Dərvişəli oğlu Bağır bəy, Seyid Rza bəy [oğlu] Ağa Rza bəy və onların nayibi Məmməd bəy zahir oldular. Onlar Mir Abbas bəyin nökərlərinin sözlərini eşidib Hacı Mir Abbas bəyin (73,a) drığlı Lələ Baxşəli, drığlı mirab[297] Qurban və fərraş Kəlbəlidən ibarət olan nökərlərinə hücum etdilər. Hər iki dəstə bir-birilə davaya başladı. Bazar camaatının çoxu tamaşaya gəldi. Axırda Qəndurun nökərləri məni onların əlindən qurtarıb Qəndurun hüzuruna apardılar. Hacı Mir Abbas bəyin nökərləri də bizim ardımızca gəldilər. Qəndurun nökərləri [işi] olduğu kimi [ona] ərz etdilər. Qəndur çox acıqlandı. Hacı [Mir] Abbas bəyin nökərləri yetişdi. Qəndur onlardan soruşdu: «Nə qulluğunuz var». Lələ Baxşəli və mirab Qurban ərz etdilər: «Bizi Hacı Mir Abbas bəy yanınıza göndərmişdir ki, Mirzə Əhmədi sizdən alıb aparaq!». Qəndur yavaşcadan dedi: «Bir az yaxın gəlin!». Onlar [yaxın] gəldilər. [Qəndur] Qurbanın saqqalından tutub başına o qədər yumruq vurdu ki, Qurban huşsuz yerə yıxıldı. Lələ Baxşəli meydanı çox qızğın görüb qaçdı. Qəndur bir ay bizi öz yanında saxladı. Hər gün mənə xərclik verirdi. Gündüzləri onun yanında mirzəlik edir, axşamları [isə] bazarda xalam oğlu Kərbəlayı Əzimin dükanında yatırdım. Sonra Hacı Mir Abbas bəy Butəsər kəndində Fərzəlibəy kədxudanın evinə getdi. Təsadüfən mən xəstələndim. Qəndur mənə icazə verib dedi: «Gedin evinizə!». Mən [ona] dedim: «Sərkar Hacı Mir Abbas bəydən çox qorxuram. O, mənə əziyyət verəcəkdir».

Qəndur dedi: «Sənə heç nə edə bilməz. Bir şey olsa da sənin xeyrinə olacaqdır!». Müxtəsər, məni məcburi evə göndərdi. Beş tümən də pul verib dedi: «Bu sənin novruz bayramının xərcidir. Nə vaxt sağalsan mənim yanıma gələrsən!». Buna görə də mən evə getdim. Aradan bir-iki gün keçdi. Fərraş Kəlbəli gəlib atama dedi: «Gəl gedək, sərkar bəy Sizi çağırır!». Atam dedi: «Mən getməyəcəyəm, ona o qədər xidmət etdim nə oldu ki, yenə də ona qulluq edim!». Fərraş Kəlbəli bəy atama dedi: «Mən sənə qarşı ədəbsizlik etmirəm, lakin bilirəm ki, sərkar səndən əl çəkməyəcəkdir!». [O], qayıdıb getdi. Bir saatdan sonra fərraş Kəlbəli bir nəfər ayrı fərraş – Zəkəriyyə oğlu Lütfəli ilə gəldi. Çatan kimi fərraş Kəlbəli uca səslə atama dedi: «Qalx gedək!». Atam dedi: «Getmirəm!». Kəlbəli gözlə işarə edib bildirdi: «Bunu mənə gözətçi qoyublar. Gəl gedək!». Lütfəli yerindən qalxıb atamın qurşağından çəkərək [dedi]: «Qalx gedək!». Atam onunla əlbəyaxa oldu. Mən, qardaşım Ibrahim və iki bacım yerimizdən qalxıb davaya (73,b) başladıq. Xəncərim balışımın yanında idi. Xəncərimi fərraş Kəlbəlinin əlində gördüm. Xəncərimi onun əlindən qapıb aldım. Fərraş Kəlbəlinin dirsəyindən qan axdığını gördüm. Qan elə bil aftafadan axırdı. Atam dünyagörmüş adam idi. Bizləri səslədi və işarə etdi ki, qaçın. Mən və qardaşım Ibrahim Seyid Cəmaləddin tərəfə qaçdıq.[298] Mən yəqin bildim ki, Hacı Mir Abbas bəy mənim evdə olduğumu bilsə, o saat məni tutdurmaq üçün adam

göndərəcəkdir. Mən özümü Dizdameşəyə salmağı məsləhət bildim. Təcili özümü meşəyə, yəni Pəranəkəşin yuxarısına[299] yetirib orada oturduq. Qardaşım Ibrahimə dedim: «Fərraş Kəlbəlinin qolu yaralanıbdır. Mənim də öz başımı yaralamağım məsləhətdir!». Bıçağımı alnıma qoydum. Ibrahimə dedim: «Bir daş götürüb bıçağın üstündən vur ki, başım yaralansın!». Ibrahim dedi: «Ürəyim gəlmir!». Mən ona acıqlandım. Özüm bir daş götürüb bıçağın üstündən vurdum. Başım yarılıb qanı axmağa başladı. Müxtəsər, bu qayda ilə başımı üç-dörd yerdən yaraladım. Başımdan axan qanı sinəmə və paltarıma sürtüb özümü qana buladım.

Indi də sizə atamdan danışım. Biz meşəyə qaçandan sonra köpək oğlu fərraşlar atamı ayaqyalın və başıaçıq Hacı Mir Abbas bəyin yanına apardılar. Fərraş Kəlbəli qolunu göstərib dedi: «Qurbanın olum, Mirzə Xudaverdinin oğlu mənim qolumu xəncərlə yaralamışdır!». Mir Abbas bəy [ondan] soruşdu: «Hansı oğlu?».

O, ərz elədi ki, «Mirzə Əhməd». Mir Abbas bəy mənim adımı eşidən kimi Kəlbəli fərraşa çox acıqlanıb [dedi]: «Niyə siz onu tutmadınız? Mən onun qanına susamışam!». Çox təəssüfdən sonra öz nökərlərindən Fətulla bəyə, Sadıq bəyə və Mürsəl Əfzəl oğluna əmr etdi ki, onu yerin dibindən çıxarıb gətirin. 30 nəfər tüfəngçi ilə Hacı Mir Abbas bəyin qulluğunda olan təngərudlu Camalbəyin oğlu Məmməd Hüseyn bəyə də möhkəm əmr verilir: «Siz də tüfəngçilərinizlə gedib necə olursa-olsun onu tutub gətirin!».

Mən qardaşım ilə heç [adi] yol ilə yox, meşənin içi ilə gedirdik. Lakin bir dəfə yola çıxdıq. Bir nəfərin Lənkəran tərəfdən gəldiyini gördük. Bu şiləvarlı culfa[300] Allahverdi idi. O zaman o, ailəsi ilə Butəsərdə Məhəmmədəli bəyin evində sakin olub culfaçılıq edirdi. Ona görə də o məni qana bulaşıq görüb dedi: «Bu nədir?». Mən bir az başıma gələnlərdən ona söylədim. Ona bərk tapşırdım ki, arxadan gələn olsa bizim sorağımızı bildirməsin. Ondan ayrıldıq. Qardaşıma dedim: «Bu adama etibar yoxdur. Bizim getdiyimizi xəbər verə bilər. Hacı Mir Abbas bəyin adamları arxadan gəlib bizi tuta bilərlər. Yol ilə getmək məsləhət deyildir. Yenə də meşəyə girək!». Sipehkəran kəndinə çatdıq. Sipehkəranlı Əlinin evinə gedib, ondan (74,a) at istədik. Çünki o, Qəndurun yanında hörmətimiz olduğunu bilirdi. Ona görə tez öz atını gətirdi. Bizi ata mindirib Lənkərana Qəndurun yanına çatdırdı. Qəndur bizi bu vəziyyətdə görüncə dəli oldu. Bizi rəisin[301] yanına apardı. Rəis də bizi bu halda görüb bərk hirslənərək əmr etdi: «Hacı Mir Abbas bəy tüfənglə iş görür, lakin mən qələmlə onu xarab edərəm!». Müxtəsər, [rəis] mənə çox vədlər verdi. Tez rus həkimini gətirdi. Bir neçə divanxana katibi[302] ilə mənim başımın yaralarına baxıb nə isə yazdılar. Rəis dedi: «Qorxma, buyaraların əvəzində mən sizə yaxşılıq edəcəyəm!».

Biz iki ay Lənkəranda avara gəzdik. Atam da həbsxanada idi. Hacı Mir Abbas bəy Astara kəndlərini dolaşır, atamı da dustaq kimi özü ilə aparırdı. [Onun məqsədi bu idi ki,] camaat atamı dustaq görüb qorxuya düşsün və Rusiyaya meyl etməsin. Mən hər gün naçalnikə şikayət edirdim. O, mənə deyirdi: «Səbr elə, mən əhvalatı Qarabağa yazmışam!». O zaman quberniya mərkəzi Qarabağ idi. Sonradan Şamaxı quberniya mərkəzi[303] oldu. Bu sətirləri yazarkən quberniya mərkəzi Badkubədir.[304] Qarabağ böyüklərindən biri tərəfindən bizim şikayətimizin yoxlanması qərara alınmışdı. Buna görə də bu işi Petrovski adlı bir zabitə tapşırıb Butəsər kəndinə göndərdilər. Lakin bu vaxt Hacı Mir Abbas bəyi min zəhmətlə Astara mahalından Lənkərana gətirmişdilər. Onun oğlu Məhəmməd Həsən bəy bir neçə nökərlərilə atası tərəfindən Astara kəndinə nayib təyin edilmaşdi. Rəis mənə dedi: «Siz də birlikdə gedin ki, işiniz yoxlansın!». Mən ərz etdim: «Mir Abbas bəydən qorxuram!». [O] buyurdu: «Həqiqəti isbat etmək vaxtıdır, Mir Abbas bəy sizə heç bir şey edə bilməz!».

Qardaşım Ibrahimlə Dizdəmeşə yolu ilə Butəsərə yönəldik. Gecəni gəlib evimizdə yatdıq. Soraqlaşıb öyrəndik ki, Petrovski[305] gəlib Fərzəli bəyin evində yerləşmişdir. Fərzəli bəy əvvəldən mənimlə düşmən (74,b) idi. Səhər mən Petrovskinin yanına getdim. Mən gələn kimi Petrovski mənim işim haqqında istintaqa başladı. Gördüm ki, Fərzəli bəy necə deyirsə Petrovski eləcə də yazır. Mən Petrovskiyə dedim: «Siz niyə onun sözlərinə qulaq asırsınız?». O dedi: «Bu ki, allahdır, heç yalan deməz!». Mən gördüm ki, bu adam bütün şikayətlərimi yalana çıxarır. Mən ifadə vermədim. Yenə də Lənkərana rəisin hüzuruna getdim. Vəziyyəti ona söylədim. Rəis Petrovskini çağırıb ona nəsihət elədi. Yenə də məni ona qoşub Butəsərə göndərdi. Ona bir dilmanc, bir də salyanlı Bağır adlı bir yasavul qoşdu.[306]

Petrovski mənimlə söhbətdə dedi: «Siz necə istəsəniz, mən o cür edəcəyəm!». [Sonra soruşdu]: «Harada mənzil tutacağıq?». Mən dedim: «Orta məhəllədə Molla Imaməlinin evində mənzil tutmalıyıq!». Mənim mollaya qarşı gizli ədavətim vardı. [Petrovskini] mollanın evində yerləşdirib özüm də yasavul ilə Əsədullabəyin atası Ağa Kərim bəy oğlu Məhəmməd Həsən bəyin evində sakin oldum. Molla Imaməli hey dad-fəryad elədi ki, o, molladır və razı ola bilməz ki, evində rus otursun, lakin bir nəticəsi olmadı. Petrovski atamı Mir Abbas bəyin oğlu ilə öz yanına çağırdı. Buna görə də həmin Məhəmməd Həsən bəy öz nökərlərindən Fətulla bəy və Sadıq bəylə atamı gətirib Xosrov bəyin evində həbsə aldı. Özü isə Molla Əli Məmmədin atası Kərbəlayi Babanın evində qaldı. Əvvəl Əfzəl oğlu Mürsəlin istintaqını apardı. Çünki mən ondan şikayət edib (75,a) ərizə vermişdim. Mən fərraşların əlindən Dizdəmeşə tərəfə qaçanda o, gəlib mənim evimi qarət etmiş, bəzi şeylərimi aparmışdı. Buna görə Petrovski Mürsəli istintaq üçün çağırmışdı. Istintaq zamanı Mürsəl bir qədər özünü itirmişdi. Petrovski yasavul Bağıra

dedi ki, onu aparıb başqa bir evdə saxlayın, yasavul Mürsəli gətirib bizim evdə saxladı. Mürsəl aftafanı götürüb bayıra çıxmaq bəhanəsilə evdən xaric oldu. Bir saatdan sonra Mürsəlin aftafanı qoyub qaçdığı məlum oldu. Mənim şikayətim qanuna müvafiq [istintaq nəticəsində] doğru oldu. Sonra [Petrovski] atamı istintaq üçün yanına çağırdı. Atam dedi: «Mən o qədər həbsxana əziyyəti çəkmişəm ki, başımda heç huşum qalmamışdır. Bir də mən yalnız padşahlıq divanxanasında ifadə verəcəyəm. [Atamı] divanxanada istintaq etmək qərara alındı. Səhəri Məhəmməd Həsən bəy öz nökərlərilə ata mindi. Atamı da bizim ata mindirdilər. Petrovski də [öz atına] mindi. Mən, yasavul Bağır və dilmanç onunla birlikdə Lənkərana yönəldik. Məhəmməd Həsən bəylə gedirdik. Hacı Novruzəlinin dükanlarına çatdıqda, Məhəmməd Həsən bəy xudahafizləşib öz evinə tərəf gedərkən atamı da özü ilə aparmaq istədi. Petrovski qoymadı. Dedi: «Bunu padşahlıq divanxanasına aparıb orada istintaq etməliyəm!». Məlun Fərzəli bəy çox israr etdi.Mənim əlimdə dəhrə ilə kəsilmiş bir ağac vardı. Petrovski onu məndən alıb on dəfə Fərzəli bəyin başına vurdu. (75,b) Atamı rəisin yanına apardı. Rəis atamı görüncə ona çox hörmət göstərib dedi: «Allah qoysa, bu əziyyətlərin əvəzini görəcəksiniz!». Aradan bir neçə gün ötdü. Qubernatorun Qarabağdan gəldiyi xəbəri çatdı. Biz çox şad olduq. Qubernatoru xalq qarşıladı. Mir Abbas bəy də Gamışavan kəndinə kimi onun qarşısına getdi. Qubernator yetişən kimi faytondan düşərək Mir Abbas bəyə əl verdi, ona çox hörmət göstərdi. Onlar yenə hər ikisi faytona minib Lənkəran şəhərinə tərəf sürdülər. Işi belə görəndə rus tayfasından sidqim siyrildi. Çox kədərləndim. Atama dedim: «Boş yerə biz evimizi xaraba qoyduq!». Atam isə dedi: «Bu rus işidir, səbr elə, görək nə olacaq!» Atam mənə çox təsəlli verirdisə də, ürəyim qəbul etmirdi.

Qubernatorun qayıtmasına bir gün qalmışdı. Mən axşamları bazarda xalam oğlu Kərbəlayi Əzimin dükanında yatırdım. Gecə yarısı Qəndurun kazaklarından bir nəfər dükanın qapısını döyüb məni çağırdı. Mən oyanıb soruşdum: «Nə var?» O dedi: «Bəylərbəyi, yəni Qəndur səni çağırır!». Mən tez geyinib Qəndurun yanına getdim. Gördüm Qəndurun evləri çıraqbandır. Içəri girdikdə gördüm ki, o, hələ yatmamış, masanın arxasında oturmuşdur. Onun beş nökərlərindən Məşədi Dərvişəli oğlu Bağırbəy mükəmməl silahlanıb Qəndurun qarşısında durmuşdu.

Qəndur o saat mənə əmr edib [dedi]: «Qızılağac kəndinin kədxudasına bir fərman yazın ki, böyük bir adamı müşayiət etmək üçün sabah saat doqquzda Qızılağac çaparxanası yanında yüz nəfər mükəmməl silahlı atlı hazırlasın!». O, Bağır bəyi həmin kağızla Qızılağaca göndərdi. Sonra mənə dedi: «Sabah Mir Abbas bəyi tutacaqlar!». [Onun bizə etdiyi] yamanlıqlara baxmayaraq doğrudan da mənim qeyrətim cuşa gəldi. Bir təhərlə bu xəbəri Mir Abbas bəyə çatdırmaq istədim. Qəndur o gecə [mənzilimə] getməyə icazə vermədi. Dedi: «Siz müsəlmansınız, müsəlmana

heç vaxt etibar yoxdur. Sabah mənimlə birgə getməlisiniz». Get, talarda yat!». Mən ərz elədim: «Soyuqdur!». O dedi: «Mənim yapıncamı al!». Müxtəsər, o öz yapıncasını mənə verdi. Gedib bir saata kimi onun talarında yatdım. [Sonra] o, məni çağırdı. Gedib gördüm mükəmməl silahlanmışdır. Öz atlarından birini də mənə verdi. Ata mindim. Onun yanında bir kazak vardı. Qızılağac tərəfə yola düşdük. Səhərə az qalırdı. Lənkəran çaparxanasını keçəndə gördük ki, (76,a) otuz nəfər silahlı kazak çaparxana qarşısında durmuşdur. Onlar atlarını yedəklərində saxlamışdılar. Onlar Qənduru görən kimi ona salam verdilər.[307] Qəndur onlara tapşırdı: «Qonaqlarımıza hörmət edin!». Onlar da əllərini itaət gözü üstə qoydular. Sonra [çaparxananı] keçib, atlarımızı Qızılağac kəndi tərəfə sürdük. Sübh çağı Qoşasulara[308] çatdıq. Arxadan bir atlının ildırım kimi gəldiyini gördük. Bu Qəndurun xüsusi mülazimlərindən gərmətüklü Abdin idi. O, yetişən kimi Qəndur ondan soruşdu: «Nə olub?». O, ərz elədi: «Əfsər Akinsovun nəzarəti altında altı yasavul, otuz nəfər kazak ilə onu həbsə gətirirlər!». Qəndur üzünü Zuvand və Drığ mahalları dağlarına çevirib iftixarla dedi: «Ey dağlar, sizə ibrət olsun, kimsə mənimlə üz-üzə gəlməyə cəsarət etməsin. Mir Abbas bəyi böyük bəlayə mübtəla etmişəm!». Sonra mənə dedi: «Sən niyə at çapıb şadlıq etmirsən? Qırmızı tumanı tutub gətirirlər!».[309] Mən heç bir söz demədim. Mənim əhvalımı görüb dedi: «Doğru deyirlər müsəlmana etibar yoxdur. Ay evi yıxılmış Mir Abbas bəy sənin evini dağıtmışdır, sən yenə də qəmginsən». Mən ərz etdim: «Xeyir belə deyildir. Bu gecə Sizin talarda yatmışdım. Mənə soyuq dəyibdir. At çapmağa taqətim yoxdur!».

Xülasə, arxadan faytonun gəldiyini gördüm. Hacı Üzeyirdən başqa onun yanında kimsə yox idi. Zabit Akinsov, otuz nəfər kazak və yasavullar onu [Abbas bəyi] əhatə etmişdilər. Allah şahiddir, mən onu bu vəziyyətdə görəndə başımdan bir ah tüstü kimi asimana yüksəldi. Atımı çapdım ki, Qəndur elə bilsin ki, mən şadlıq edirəm. Allah şahiddir ki, yalan demirəm. Fayton gəlib çatana kimi mən o qədər ağladım ki, ürəyim sakit oldu. Qəndur sevinərək Qızılağac çaparxanasına kimi onun qarşısında at oynadıb şadlanırdı. (76,b) Mir Abbas bəyi bir saat o çaparxanada saxladılar. Sonra yüz atlı ilə Salyan tərəfə apardılar. Qəndur da Salyana kimi onunla birgə getdi. Çünki Qəndur Talış bəylərbəyisi idi, [ona görə də] Salyana kimi onu lazımi qayda ilə aparmalı idi. Mən Qızılağacda icazə alıb Lənkərana tərəf yönəldim. Çünki mən hələ dünyanın yaxşı-yamanını anlamamışdım. Öyünürdüm. Lənkəran bazarına daxil olduqda Bakılı Əhmədin dükanında bir dəstə adamın oturduğunu gördüm. Hacı Əhməd Kərbəlayi Şahverdi bəy oğlu Kərbəlayı Məşədi Rəhim bəy və onlardan başqa bir neçə nəfər də orada toplanmışdılar. Atam Mirzə Xudaverdinin də onlarla dükanda oturduğunu gördüm. Məni görən kimi onlar bir-birinə dedilər: «Odur Mirzə Əhməd gəlir. O, Mir Abbas bəyin başına gələni yaxşı bilir. O, Qəndur ilə birlikdə

getmişdi!». Məni öz yanlarına çağırdılar. Olan əhvalatı ətraflı danışdım. Atamın cib yaylığını üzünə tutub ağladığını gördüm. Mən ona dedim: «Sən niyə ağlayırsan?». [Mir Abbas bəy] bunlara yaxşılıq etmişdir, bunlar ağlasalar yeri var. Lakin Mir Abbas bəy səndə abır qoymadı. Sən otuz il onun atası Mir Mustafa xana, iyirmi il qardaşı Mir Həsən xana qulluq etdin, indi də on-onbeş ildir ki, Mir Abbas bəyə sədaqət ilə xidmət edirdin, o [isə] sənin başına bu işləri gətirdi. Iki ay səni həbsdə saxladı. Evini dağıdıb arvadını əsir etdi!».

Atam mənim bu tənəli sözlərimi eşidincə bir ağac götürüb məni qovdu. Bazar camaatı tamaşa edirdi. [Atam] məni (77,a) çox danladı. Sonra bizim yanımıza gəldi. Məni yanına çağırıb dedi: «Nə üçün Mir Abbas bəyin tutulmasına sevinirsən. Tutaq ki, Mir Abbas bəy mənə yamanlıq etdi. Lakin mən yetmiş ilə yaxın bu nəslə xidmət etmişəm. Zəhmət çəkib saqqalımı bu qapıda ağartmışam. Mir Abbas bəy mənə pislik etsə də, bir vaxt gələr ki, Mir Kazım bəy və yaxud Mir Mustafa xanın digər övladı mənə və uşaqlarıma yaxşılıq edər!».

Mən atamın nəsihətli sözlərindən ayıldım. Atamın nəsihətini qəbul etdim.

Mir Abbas bəyi dörd ilə yaxın Rusiya vilayətində həbsdə saxladılar. Dörd ildən sonra azadlıq icazəsilə Talışa qayıdıb, öz evinə gəldi. Bir neçə aydan sonra atam Mir Abbas bəyin hüzuruna getdi. Mir Abbasbəy atama lazımi hörmət, çox iltifat göstərdi. Mir Abbas bəyin arvadı Xanım Ağa ədavətlə atamı Butəsər kəndindən çıxarıb Şiləvar kəndində oturtmuşdu. Bu, Mir Abbas bəyin xoşuna gəlmirdi. [Mir Abbas bəy] bir məktub göndərdi. Atam allah rəhmətinə getmişdi. Qardaşım Molla Cəfərqulu Mir Abbas bəyin evində Mir Tağı bəyə[310] dərs verirdi. Məktubun məzmunu belə idi: «Mirzə Xudaverdi Butəsər kəndində sakin olub mənə qulluq edirdi. Lakin o padşah adamlarındandır.[311] Mən, Mir Abbas bəy, Mirzə Xudaverdi uşaqlarının keçmişdə olduğu kimi Butəsər kəndində yaşamalarına razıyam. Çunki onların güzəranı – mülkləri, bicarı, tut bağları Butəsər kəndindədir. Özləri də padşah adamları silkindəndir».

Atasının ölümündən sonra Mir Tağı bəy o məktubu gizlətmişdi. Atam öldükdən sonra mən Mir Abbas bəyə qulluq etmədim. Çünki o mənə qarşı iltifatsız idi. On səkkiz il ruslara xidmət etdim. Neçə il Lənkəran və Astara mahallarında sərhədbəyi oldum. Səksən ailənin ixtiyarı məndə idi. Butəsər kəndində Ağakərim məhəlləsi camaatı, Gərmətükdə iyirmi maaf ailə,[312] Bəylər kəndində[313] bir neçə ailə, Kosalar kəndində bir neçə maaf ailə və Kərgəlanın[314] hamısı mənim əlimdə idi. Böyük nüfuzum və hökmüm vardı. Ata mindiyim zaman on-oniki yaraqlı oğlan xidmətimdə olurdu. Mir Abbas bəy mənimlə düşmənçilik etməyə çox çalışırdısa da, bacarmadı.

Təsadüfən orucluq yay vaxtına düşmüşdü. Bir gün (77,b) Mir Abbas bəyin qapısından bazara tərəf gedirdim. Mir Abbas bəy öz divanxanasının talarında oturub çox diqqətlə mənə baxırdı. Həmin dəqiqə atamın vəsiyyəti yadıma düşdü. Atam öləndə bizə vəsiyyət etmişdi: «Mir Mustafa xan övladından bir kor qız da qalsa, onu yolda görsəniz ona salam verib hörmətini saxlamalısız!». Buna görə də mən Mir Abbas bəyin orada sərdar kimi oturub mənə baxdığını gördükdə, onun xidmətinə gedib, salam verməməyi insafsızlıq bildim. Onun xidmətinə yetişib təzimlə salam verdim. Mənə çox iltifat göstərdi, halımızı soruşdu. Birdən seləkəranlı[315] Məşədi Əhməd gəlib bicara su verilmədiyini hüzura ərz etdi. Mir Abbas bəy mənə xitabən: «Sizin qələmdanınız varmı?» Ərz elədim: «Hazırdır!». Buyurdu: «Astara kədxudasına bir təliqə yaz ki, Məşədi Əhmədin bicarına su versinlər!». Mən tez təliqəni yazıb onun xidmətinə təqdim etdikdə baxıb dedi: «Siz çox yaxşı yazırsız!». Salyanlı hakim Mirzə Mustafa da məclisdə idi. O, ərz elədi: «Sərkar, filankəs çox yaxşı yazır, nə fayda taleyi yoxdur!». Mir Abbas bəy buyurdu: «Bunun taleyi çox yaxşıdır. Taleyi olmasa idi, indiyədək onu öldürmüşdülər!».

Yarım saat onun hüzurunda qaldım. Sonra məni mürəxxəs etdi. Bazar tərəfə getdim. Bir neçə dəqiqə bazarda gəzdim. Bir fərraş gəlib dedi: «Sərkarbəy Sizi çağırır!». Ayrı çarəm yox idi. Onun hüzuruna getdim. O dedi: «Mirzə Əhməd, sənə zəhmət verdim, mənim üçün bir neçə kağız yaz!». O mənə o qədər kağız verdi ki, günbatana yarım saat qalmış onları yazıb qurtara bildim. Baş əyib getmək istədim. Buyurdu: «Hara gedirsən?». Ərz elədim: «Qurbanın olum, mənzilim Məşədi Dərvişəli oğlu Bağır bəyin evindədir!». (78,a) Buyurdu: «Məgər mənim evim Bağırbəyin evindən pisdir? Getmə, mənim talarımda otur. Allah nə qismət edərsə, gətirərlər yeyərsən. Mütləq qal. [O biri] mənzilini isə tərk et!». Mən nə qədər israr etdimsə də, bir fayda vermədi. O, ərcüvanlı həkim Mirzə Əli Həsənə dedi: «Siz, Mirzə Əhmədi qonaq saxlayın, ona yoldaşlıq edin!». Müxtəsər, mən orada yerləşdim. Mənə çox məhəbbət göstərdilər. O vaxt mənim ağam [olan] sahə rəisi[316] Muğan mahalına getmişdi. Ondan qorxurdum. O mənim Mir Abbas bəyin yanına getdiyimi və onun mənzilində yaşadığımı bilsə idi, yəqin ki, məni öldürərdi. Bir neçə gündən sonra Mir Abbas bəyin dostlarından əvvəllər Lənkəran naçalniki, indi isə Qarabağ rəisi olan Akinsov[317] Qarabağdan ailəsi ilə Mir Abbas bəyin evinə gəlmiş, ondan xahiş etmişdi ki, o da ailəsini götürüb Lənkəranın isti suyuna getsin. Mir Abbas bəy də ailəsini götürüb onunla birlikdə Ibadi Isti suyuna[318] getdi. Mirzə Əli Həsən həkimlə biz getmədik. Mir Abbas bəy də bizə təklif etmədi. Sahə müvəkkilindən şübhəli olduğum üçün getməyə heç meylim yox idi. Aradan iki gün keçdi. Mir Abbas bəyin nökərlərindən biri gəlib mənə dedi: «Sərkarbəy Sizi Mirzə Əli Həsənlə birlikdə hüzuruna çağırır!». Buna görə mən Mirzə Əli Həsənlə

birlikdə atımızı minib Isti suya Mir Abbas bəyin hüzuruna getdik. Tərifi mümkün olmayan bir məclis qurulduğunu gördük. Mir Abbas bəyin belə bir xasiyyəti vardı. Bir yerə getdikdə çox tədarük görərdi. Bir günlük nahar əvəzinə yüz günün yeməyini aparardı. Mənə lazımi hörmət və nəvaziş göstərdi. [Sonra] dedi: «Mən sizi ona görə çağırmışam ki, xilafət mərkəzi Peterburqa bacım Böyük xanıma bir məktub yazım!». Ərz elədim: «Qurbanın olum, baş üstə!». Günbatana bir saat qalmışdı. Həkim Mirzə Əli Həsənə buyurdu: «Siz gedin evə, Mirzə Əhməd qalsın!». Mirzə Əli Həsən getdi. Mən qaldım. Sərkarın xidmətçiləri özləri üçün bir mənzil hazırlamışdılar. Xidmətçi Cabbara dedi: (78,b) «Mirzə Əhmədi o mənzildə yerləşdirin. Özünüz də onun xidmətində olun!». Mən sərkarın əmrinə görə gedib o mənzildə yerləşdim. Şam namazından sonra Mir Abbas bəy məni çağırıb [dedi]: «Qələmdanını götür gəl!». Mən də qələmdanımı götürüb onun mənzilinə getdim. Orada bahalı xalılardan, Xorasan keçələrindən bir taxt döşəndiyini gördüm. Behiştə bənzər bir məclis idi. [Abbas bəy] buyurdu: «Gəl otur!». Müxtəsər, mən oturdum. Peterburqa yazılacaq mətləbi mənə söylədi. Mən məktubu yazmaqla məşğul oldum. Mir Abbas bəy xiftən namazı[319] qılmaq üçün qalxdı. Xanım Ağa[320] mənimlə mehribanlıqla danışmağa başlayıb dedi: «Mirzə Əhməd, sənin atan kim idi, kimə xidmət edirdi? Kimin sayəsində o nüfuz qazanmışdır?». Ərz etdim: «Rəhmətlik Mustafa xanın!». [O] dedi: «Indi kimə xidmət edirsiniz? Nə üçün ruslara qulluq edirsiniz?». Ərz etdim: «Əlacım yoxdur!». Buyurdu: «Məgər bu Mir Abbas bəyin hörməti onun [rusun] hörmətindən əskikdir?». Ərz etdim: «Vallah yox!». [O] dedi: «Siz müsəlmanların ağasına xidmət etmirsiniz? O, rusdan pisdir və ya rütbəsi ondan aşağıdır?». Mən onun cavabında dedim: «Xanım, Mir Abbas bəyə rusdan pisdir deməyə mənim ixtiyarım yoxdur. Mənim atam bu astanada bəslənib qulluq etmişdir. Onların dövləti sayəsində ad qazanmışdır. Indi on iki ildir ki, mən ruslara xidmət edirəm. Astara mahalındakı bütün işləri mənim boynuma qoymuşlar. Bu işi filankəs [yəni Mirzə Əhməd] ruslara xəbər vermişdir. Məni Mir Abbas bəyin xidmətində günahkar qələmə vermişlər. Ona görə də bəzilərinin qəlbində mənə qarşı ədavət meydana gəlmişdir. Ona [Abbas bəyə] qulluq etməkdən o səbəbə imtina edirəm ki, o, ədavəti xatirinə gətirib mənə pislik edər!». Biz Xanım Ağa ilə bu söhbətdə olarkən, Mir Abbas bəy də namazını bitirdi, əlini möhrün üzərinə qoyub dedi: «Bu türbətə and olsun ki, indiyə qədər hər nə etmişsənsə, bağışlayıram. Bundan sonra da əlindən nə xata çıxsa, onu da bağışlayağacam. Sən ürəyini təmiz saxla. Mənə sədaqətlə xidmət etsən, mən də sənə tam məhəbbət göstərəcəyəm!».

Aramızda əhdü-peyman bağlandı. Səkkiz gün orada qaldım. Mənə elə gəldi ki, mən orada bir gün qalmışam. Sabah oldu. Bahar kimi hər tərəfdə bənövşə bitmişdi, aləmi ətir bürümüşdü. Bura behiştə oxşayırdı. Hər biri

behişt hurisinə bənzər qızlar, xanımlar nazlana-nazlana gəzişirdilər. Ağlım başımdan çıxdı. Dünyanı unudub eyş-işrətlə (79,a) məşğul oldum. Səkkiz gün orada qalandan sonra Hacı Mir Abbas bəy bütün köçü ilə birgə Lənkərana gəldik. Bu hadisədən iki-üç il keçdi. Mənə dərin hörmət göstərilirdi. Belə ki, ruslara tərəf meyl göstərməyəcəyim yəqin olmuşdu.

Istisudan Lənkəran obasına qayıtdıqda bir nəfər yasavul gəlib dedi: «Sahə müvəkkili səni çağırır, qalx gedək!». Onun yanına getdim. Sahə müvəkkili məni görən kimi dedi: «Kimə qulluq edirsiniz?». Dedim: «Mayor Mir Abbas bəyə». O soruşdu: «Nökərlik yaxşıdır, ya bəylik?». Mən dedim: «Nökər üçün nökərlik, bəy üçün bəylik yaxşıdır!». Dedi: «Ey haramzada, səni Astara mahalında Mir Abbas bəylə bərabər hesab edib hakim təyin etmişdik, sən yenə də gedib nökərçiliyi qəbul etdin! Mən Talışdan getmək üçün ərizə verməsə idim, səni gətirdib min ağac vurdurardım. Inşallah başına gələcək əzabı görəcəksən!». O, mənə bir şey edə bilmədi. Mən Mir Abbas bəyin xidmətinə gəldim. Üç-dörd il ona və oğlanlarına mirzəlik etdim.

Mir Hüseyn xanın oğlanları Butəsər kəndinin yarısının [onlara aid olduğunu] iddia etdikləri vaxt divanxanalarda böyük mübahisələr baş verirdi. Mir Abbas bəy Peterburqa getmək fikrinə düşdü. Məni də aparmaq istəyirdi. Muğanlı Sadıqbəy onun inanılmış adamı idi. O, buna razı olmayıb demişdi: «Hacı Əziz yaxşıdır. Çünki bir neçə dəfə Rusiyaya getmişdir!». [Lakin] məgər o, bu məsləhəti ağasının xeyiri üçünmü görmüşdü? Vallah yox! O öz mənfəətini güdərək belə mülahizə etmişdi: Mir Abbas bəy qoca kişidir. Uzaq yolun əziyyətinə dözə bilməyib, yəqin ki, yolda öləcəkdir. Mir Tağıbəyin yanında qalan Hacı Əziz də özünü bir kral sayacaqdır. Onun [Hacı Əzizin] da getməsi məsləhətdir. Mirzə Əhməd isə mənə nə edə bilər.

Xülasə, Hacı Mir Abbas bəy, Mirzə oğlu Hacı Əzizi, Məmməd Həsənoğlu Gülhəsəni, (79,b) lənkəranlı Hacı Seyidağanın oğlu Mir Abdullanı, Vağoy kənd sakini Kəlbi oğlu Lütfəlini özü ilə apardı. Astara mahalının idarəsini oğlu Mir Tağı bəyə tapşırdı. Muğanlı Məmmədəli oğlu Sadıq bəyi isə ona ağsaqqal [məsləhətçi] təyin etdi.

Hacı Mir Abbas bəyin səfəri təxminən üç il çəkdi. Peterburq darülxilafəsində[321] Hacı Əziz nacins Gülhəsənlə birlikdə Mir Abbas bəyə çox xəyanətlər edib, onun çoxlu pulunu da oğurlamışdılar. Hacı Mir Abbas bəyin itaətindən çıxmış, hətta Mir Abbas bəyi öldürmək fikrinə düşmüşdülər.

Burada isə Butəsər camaatının ağsaqqalı və söz biləni Nəbir məhəlləsinin sakini butəsərli Əli Mərdan oğlu Baba Mir Tağıbəy dən üz çevirib ona dönük olmuşdu. O, fürsətdən istifadə edib Mir Abbas bəyin keçmiş zülmlərindən şikayət ərizələrini verdi. Bütün Butəsər camaatı onun başına toplandı. Digər tərəfdən də Mir Hüseyn xanın oğlanları Butəsər kəndinin yarısını [almaq üçün] mübarizə aparırdı.

Mir Tağı bəyin başını çox qarışdırdılar. Lakin üçümüz – mən, Sadıqbəy və Mir Tağı bəy birləşdik. Allah şahiddir ki, o zaman mən ona çox sədaqət göstərib onun tərəfinə keçmiş, ürəkdən ona xidmət edirdim. Mənim evim Nəbirln məhəlləsində idi. Butəsər əhalisindən eşitdiyim yaxşı və yaman [xəbərləri] təcili olaraq Mir Tağı bəyə yetirir, ona sədaqət göstərirdim. O da mənə çox iltifat göstərirdi. Haramzada Sadıq bəy belə güman edirdi: Hacı Əzizi bir hiylə ilə Peterburqa göndərdik. Amma Mirzə Əhməd burada mənə krallıq edir. Yaxşı olar ki, onu da Butəsər müqəssirləri sırasına daxil edim. Buna görə Sadıq bəy hər səhər Mir Tağıbəyin yanına gedib ona gizlincə deyirdi ki, [kuya] Butəsər camaatını ərizə yazmağa təşviq edən Mirzə Əhməddir.

Nəbir məhəlləsində Məşədi Veysəl adlı bir məlun vardı. Xanəli adlı bir nəfər hər gün gəlib mənim talarımın taxtabəndi altında yatırdı. Məşədi Veysəl [uydurma] xəbər aparmışdı ki, ərizəçilərin başçısı Ağa Əlinin qardaşı Sadığı Mirzə Əhmədin talarında oturmuş gördüm. Mirzə Əhməd onlar üçün ərizələrin qaralamasını[322] yazırdı. Mir Tağıbəy həqiqəti yoxlamadan Məşədi Veysəlin sözünə (80,a) inanaraq gizli surətdə Peterburqa haqqımda pis məlumat yazdı. Lakin o, zahirdə mənə iltifat göstərirdi. Allahın kəlamına and içib məni xatircəm etmişdi. [Ona görə] bu haqda mənə kim nə desə idi, inanmırdım.

Xəbər məktubu gəlib çatdı ki, Hacı Mir Abbas bəy Peterburqdan çıxıb Lənkərana gəlir. Onun gəlməsinə bir ay qalmışdı. Mir Tağı bəy mənimlə heç danışmırdı. Yalnız arabir onun xidmətinə gedəndə mənimlə danışırdı. Ürəyim təmiz idi. Özlüyümdə düşünürdüm: «Mən bir iş görməmişəm ki, qorxub təşvişə düşüm. Allah qoysa atası gələndə bu sirrlər açılar və həqiqət meydana çıxar».

Bir gün xəbər verib müжdə aldılar ki, [Mir Abbas bəy] Lənkərana varid olur. Mən də bir tümən muştuluq verdim. Mən, təngərudlu Mütəllimin oğlu Ibrahim, Camalbəyin oğlu Fərəc bəy, Məmməd Mürsəl oğlu Vəli və Fərzəli bəy oğlu Nurəli bəy ata minib sevinclə Lənkərana yönəldik. Mənzilə çatdıqda gördük ki, bütün yaxşı və yaman [adamlar] Mir Tağı bəyin hüzurunda hazırdır. Yuxarıda adlarını çəkdiyimiz adamlarla birgə mən də Mir Tağı bəyin hüzuruna getdim. Bəzilərilə pıçıltı ilə danışdı, lakin mənimlə heç danışmadı. O gün paroxod gəlmədi. Biz bayırdakı taların altında yerləşdik. O gün axşam bütün camaata yemək verdilər. Bizə şam yeməyi vermədilər. Yoldaşlarım mənə tənə ilə deyirdilər: «Filankəs, bu nə deməkdir?». Mən onları sakit edib [dedim]: «Heç eybi yoxdur. Görürsünüz ki, adam çoxdur, yəqin xidmətçilər bizi yaddan çıxarmışlar!». Gecəni ac yatdıq. Səhər oldu. Sadıq bəy xələcləri çağırdı.[323] Onlara pul verib [dedi]: «Gedin bazardan bir qoyun alıb gətirin, kabab bişirib yeyin. Bir şərtlə ki, xainlərin dəstəsindən ayrılın!».

Biz də bazara pul göndərib çörək və kabab hazırladıb (80,b) yedik. Artıq heç bir söz danışmadıq. Bu dörd nəfər and içdi ki, «Əgər bunun atası da gəlib bizim haqqımızda iltifatsızlıq göstərsə, biz də butəsərlilər kimi hərəkət edəcəyik. [Onlara] daha qulluq etməyəcəyik.

Paroxodun dənizdə göründüyünü xəbər verdilər. Hamımız ata minib çapa-çapa özümüzü dəniz kənarına çatdırdıq. Paroxoddan sahilə doğru bir qayıq[324] gəldi. Hacı Mir Abbas bəyin paroxodda olduğunu xəbər verdilər. Hər beş-altı adam bir kiçik kərəci[325] kirayə edib Hacı Mir Abbas bəyi qarşılamaq üçün paroxoda getdi. Biz də bir neçə nəfər dörd manata bir kərəci tutub getdik. Nurəli bəy mənimlə bir taxtanın üstündə oturmuşduq. Paroxoda yaxınlaşdıqda Hacı Mir Abbas bəyin bizə tərəf baxdığını gördük. Bizi Nurəli bəylə görən kimi səslənib [dedi]: «Siz niyə gəlmisiniz, qayıdın, rədd olun!». Biz camaat içində xəcalət çəkib kərəcimizi sahilə qaytardıq. Kərəcinin kirayəsini verib, dəniz kənarında durduq.

Hacı Mir Abbas bəy sahilə çıxdı. Faytonu hazır idi. Faytona mindi. Qalanın içərisində faytonu çox izdiham və təntənə ilə evinə tərəf sürdü. Mənzilinə daxil oldu. Həyət qapısında gözətçi qoydular ki, həyətə çox adam buraxılmasın. Bizi buraxmaq istəmirdilər. Biz cəsarət edib içəri girdik. Gördük ki, o öz talarının altında oturmuşdur. Mustafa xanlı və kələntərli tayfalarından çox adam vardı. Bəziləri oturmuş, başqaları isə ayaq üstə durmuşdu. Mən də irəli gedib, baş əydim. O, üzünü sol tərəfə çevirdi. Mən belə düşündüm ki, adam çox olduğundan yəqin o, məni görməmişdir. Sol tərəfə keçib yenə də baş əydim. (81,a) O, üzünü sağa çevirdi. Əsla üzümə baxmadı. Xeyirxah adamlar özünün gəlməsini bir təliqə vasitəsilə Seyfülmülkə[326] bildirməyi Hacı Mir Abbas bəyə məsləhət gördülər. O, bir təhər üzünü mənə çevirib buyurdu: «Ağa yazın!».

Mir Tağı bəy tez irəli gəlib ərz elədi: «Mən deyərəm yazarlar. Bunun yazması məsləhət deyildir!». O saat məsciddə dərs verən təbrizli gön satan Mirzə Hüseyni yanına çağırdı. Kağızı ona verib yazdırdı. Mən də tez atıma minib evimizə tərəf getdim. Yoldaşlar nə qədər israr etdilər ki, getmə, mən qulaq asmadım. Dedim: «Dörd gündür mən ac qalmışam, daha mənim Lənkəranda nə işim var ki, burada qalam. Yaxşı il baharından məlumdur».[327] Butəsərdə evimizə gəldim. Bir neçə gün Butəsərdə qaldım. Həkim oğlu Lütfəli gəlib mənə dedi: «Sərkar tapşırmışdır ki, filankəs ona verilmiş yük atını götürüb gəlsin!». Mən əlimi göz üstə qoyub qəbul etdim. Çünki sərkar istəyən atın bir gözü kor idi. Onu müvəqqəti olaraq mənə vermişdilər. Həmişə mənə vəd edirdilər ki, allah qoysa, sərkar Peterburqdan qayıdar, həmin atı başqasına verib, sənə ilxı atlarından birini iltifat edər. Buna görə mən çox sevindim ki, allah qoysa vədə vəfa olunacaqdır.

Sabah tezdən atı götürüb Hacı Mir Abbas bəyin divanxanasına getdim. Sərkar səhər yeməyini yeyib içəri həyətə getmişdi. Bir fərraş gedib

mənim atı gətirib gəldiyimi ona bildirdi. Sərkar tapşırmışdı: «Atı orada saxlasın, özü isə orada oturub heç yerə tərpənməsin!». Mən çox güldüm, dedim: «Atı möhkəm bağlamışam. Lakin oturub heç hərəkət etməmək pis əmrdir. Bu çox çətin işdir. Çünki yay fəslidir. Burada bit və birə çoxdur, bədənimi dişləyirlər. Hərəkətsiz otura bilmərəm. Gərək dırnağımla bədənimi qaşıyam!».

(81,b) Müxtəsər, çox ac idim. Bir saat taların altında oturdum. Sonra bazara gedib bir az çörək aldım, yedim. Mən belə zənn edirdim: «Şam vaxtıdır. Sərkar Mir Abbas bəyin xidmətinə getməyə lüzum yoxdur. Gərmətük kəndində qaynatam Şahverən kədxudanın evinə gedib [gecəni oradaqalaram]. Səhər [yenə] gələrəm. Bazara çatanda gördüm ki, Hacı Qurbanəli mənim atımı çəkə-çəkə öz evinə tərəf aparır. Mən bir qədər pərişan oldum. Özlüyümdə fikir elədim ki, mənim ağamdır, ixtiyarı vardır. Allah qoysa mənə başqa bir at verər. Yavaş-yavaş sərkarın divanxanasına gəlib oturdum. Günbatana iki saat qalmışdı. Xidmətçi Abdulla oğlu Əsədulla həyətdən çıxdı. Məni görən kimi gülərək dedi: «Mirzə, sərkar bəy Sizi çağırır!». Gedib gördüm ki, sərkar Hacı Mir Abbas bəy otaqda oturmuşdur, lakin yanında bakılı Ağa seyid Hüseyndən başqa kimsə yoxdur. Mən baş əydim. Dedi: «Göpək oğlu, haramzadalıqdan əl çəkmirsən!». Mən elə zənn etdim ki, o, başqa adamı söyür. Mən arxama və ətrafıma baxdım. Məni söydüyünü anladım. Ərz elədim: «Qurbanın olum, Sizin atanız atamı söyməmişdir. Siz niyə məni söyürsünüz!». Dedi: «Köpək oğlu, sən istəyirsən ki, Fərrux oğlu Nurəli bizi Astara mahalı hökumətindən uzaqlaşdırıb, özü orada bəy olsun?». Mən ərz etdim: «Qurbanın olum, sizin mərhəmətinizdən mən hələ bəyəm. Çünki Sizin kimi ağam vardır!». [O] dedi: «Yox, yox mən səni öyrədərəm! Köhnə ədavətləri təzələyəcəyəm!». Mən ərz elədim: «Qurbanın olum, təqsirim nədir?». Buyurdu: «Bütün təqsir səndədir. Səni tutub qolu bağlı ruslara verəcəyəm ki, Sibirə göndərsinlər. Sən mənim rəiyyətimi xarab etdin!». Mən acıqlanıb dedim: «Sizin kəskin iltifatınızdan Sibir daha yaxşıdır. Zərər yoxdur mənim təqsirim varsa, Sibirə gedərəm. Daha sizdən minnət çəkmərəm. Tutaq ki, mən müqəssirəm. Lakin hələlik sizin nökərinizəm. Astaralılardan çox adam Sizə xəyanət etmişdir. Siz əvvəl onlara cəza verin. Mən burada hazıram!». Seyid Hüseyn dedi: (82,a) «Bu yaxşı sözdür!». Hacı Mir Abbas bəy dedi: «Xeyr. Fitnənin əsası budur. Əvvəl gərək onu vilayətdən itirəm, sonra başqalarına [əl atam]!». Müxtəsər, [o] çox acıqlan dı. Hacının dediyinə görə, xələçlər Hacı Fərəclə birlikdə, Sadığın təhrikilə, Şahağacı kəndində alarlı Mir Əlinin evində bir neçə dartu[328] ipək oğurlamışdılar. O, ərz etmişdi ki, bizim ipəyimizi də Mirzə Əhmədin qardaşı oğurlamışdır. [Hacı Mir Abbas bəy bu məsələni] məndən soruşdu. Dedim: «Bu yalan sözdür. Bu da Sadığın işidir».

Sadıq hüzura daxil oldu. Dedi: «Ibrahimin arvadı dəlil və sübutla söyləyir!». Mirzə Yusifin qızı Ibrahimin arvadı idi. Onun bir para hərəkətindən məlum olurdu ki, qardaşım Ibrahim onu boşamışdır.

Buna görə də mən şərt qoydum ki, əgər Mirzə Yusifin qızı gəlib şəhadət verərsə, mənim haqqımda söylənilənlərin hamısı doğrudur.

Hacı Mir Abbas bəy o saat alarlı Mir Əliyə əmr etdi: «Sabah səhər gedib o arvadı gətirin, şəhadət versin, mən də bu haramzadaları tutub ruslara verim, canım xilas olsun!». Çox acıqlandı. Axşam çağı idi. Ayağa durub hərəmxanaya getdi. Mən də bir saat divanxanada durduqdan sonra öz-özümə dedim: «Mənim burada qalmağım yersizdir. Bu adamın məqsədi bir bəhanə ilə məni camaat arasında müqəssir edib, ruslara təhvil verməkdir!». Gərmətük kəndinə getdim. Gecəni kədxuda Şahverənin oğlu Paşa kədxudanın evində qaldım. Əhvalatı Paşa kədxudaya bildirdim. O dedi: «Iş ki, bu yerə çatıb, artıq sənin ona qulluq etməyinin bir faydası olmaz. Daha onun yanına getmə!». Mən də bu fikirdə idim. Lakin onun əmisi Kərbəlayi Əli Mərdan gəldi. Əhvalatdan xəbərdar oldu. Dedi: «Bu yersiz fikirdir. Hakim bəzən mərhəmətə gələr, bəzən də gəlməz. Mən, Kərbəlayi Əli Mərdan, sənə min dəfə israr edirəm ki, mütləq öz ağanın yanına get. Bu cahillərin sözünə baxma!». (82,b) Mən Kərbəlayi Əli Mərdan bəyin sözünə qulaq asdımsa da lakin yəqin etmişdim ki, Hacı Mir Abbas bəy mənimlə pis rəftar edəcəkdir. Çünki Sadıq Mir Tağı bəylə birlikdə mənim haqqımda ona o qədər yalan söyləmişdi ki, yüz nəfər molla və xeyirxah adam da Hacı Mir Abbas bəyə vasitəçi olub xahiş etsəydi də qəbul etməzdi.

Xülasə, istər-istəməz Lənkəran tərəfə yönəldim. Qohumlarımdan iki nəfər də mənimlə yoldaş idi. Qərəyçiobaya çatdıqda fərraş Qəribəlinin qarşıdan gəldiyini gördüm. O, mənə çatmamış səsləndi: «Gəl, gəl, bu gecə sənə görə sərkarbəy  bizi həbs etmişdi!». Mən dedim: «Niyə, məgər günahkaram?». Dedi: «Bəli». O, [mənə] çatan kimi soruşdum: «Siz mənimlə zarafat edirsiniz, ya doğru deyirsiniz!». O isə: «Vallah, billah Sizə görə o, mənə əlindən gələn pisliyi əsirgəmədi. Sərkarbəy məni söyüb dedi: «Köpək oğlu, sən onu niyə qoydun ki, Gərmətükə getsin? Mən onu dustaq etmişdim. Onunla çox işim vardı!». Sərkarbəy mənə əmr edib: «Gedin onu Gərmətükdən tutub qolu bağlı gətirin!». Fərraş Qəribəlinin söylədiklərindən halım pozuldu. [Hərəkətsiz] durdum. O dedi: «Niyə durmusan, getməsən səni qolu bağlı aparacağam!». Mən əlimi xəncərimə aparıb dedim: «Allaha and olsun, bu xəncəri başına elə vuraram ki, ciyərindən xəbər verər. Mən onun nökəri və tayfası deyiləm ki, öz ayağımla [onun yanına] gedim. Indi ki, iş bu yerə çatıb, mən  getmirəm. Get, ağana xəbər ver ki, artıq mən ona xidmət etməyəcəyəm. Mən padşah adamıyam, onun xalisəsi deyiləm ki, mənə hökm edir!». [Fərraş] mənə qarşı bir hərəkət etmək istədi, lakin cürət etmədi. Çünki o, mənə gəlib çatmadan mən dedim: «Bu fərraş mənim dalımca gəlir!». Onlar

[məndən] soruşdular: «Gedirsən?». Dedim: «Artıq söz danışmasalar, əlbəttə gedərəm. [Lakin] hədyan danışsalar getməyəcəyəm!». Onlar mənə dedilər: «Ondan heç qorxma. Qoy, elə mənə desin ki, vur, görərsən onunla neçə rəftar edəcəyəm. Ləzzət aparacaqsan!». [Fərraş] dedi: «Bizimlə getmirsiniz, bəs hara gedirsiniz». Dedim: «Gərmətükə qayıdıram!». Dedi: «Bu saat Gərmətükü sənin başına vuraram!».

Xülasə, o getdi. Mən də qayıdıb fikirləşdim: «Mən neçə gün Gərmətükdə qalacağam? O, [məni] tutmaq fikrindədir. Mən tədbirsiz Gərmətükdə yata bilmərəm. Yaxşısı budur ki, mən də Şiləvar kəndinə kedim. Qızxanım oğlu Əhməd naçalnik yanında çox hörmətli adamdır. Onu əhvalatdan xəbərdar edim. Görüm mənə nə məsləhət edər. Müxtəsər, Qəribəli gözdən itənə kimi fikirləşdim. Sərdabəyi Xil yolundan (83,a) Şiləvar kəndinə yönəldim. Kəndə girdim. Sərdabəyi Xil qəbiristanına çatan kimi ölülərə bir fatihə oxudum. Öz-özümə fikirləşirdim: «Bunlar ,da mənim kimi dünyanın əziyyətini çəkmiş, yaxşı-yaman şərbətini dadmış adamlar olmuşlar. Elə bil ki, yatmışdım, birdən yuxudan oyandım. Təəssüflə əllərimi birbirinə vurdum. Bir neçə dəfə ah çəkib [öz-özümə] dedim: «Heyhat, on-on beş il idi ki, kafir ruslardan uzaqlaşıb, pak olmuşdum. Indi yenə də rusların cənginə düşdüm. Mir Tağıbəyə aşiq idim. Ona ürəkdən bağlı idim. Ilahi bu nə hadisədir. Mən [niyə] ondan ayrı düşdüm. Düşmənin evi dağılsın!». O qəbiristanda oturdum. Keçmiş günləri xatırladım.

Qəm və kədərlə qalxıb Şiləvar kəndinə yönəldim. Əhməd Qızxanım oğlunu öz taları altında oturmuş gördüm. Onun yanına gedib əhvalatı ona bildirdim. O, mənə bəzi məsləhətlər verib [dedi]: «Mirzə Sadıq bəyin evinə gedib, onu sizi müdafiə etməyə cəlb edin. O, sizin vasitəçiniz olar!». Lakin mənim fikrimcə, bu məsləhət bir nəticə verməyəcəkdir. Çünki qarabağlı Mirzə Sadıq ürəyində mənə pis [münasibət] bəsləyirdi. Yalnız mənimlə deyil bütün, tayfamızla ədavətli idi. Burada oturmaqdan bizə bir fayda olmadığını düşündüm. Qalxıb rəisin qulluğuna getdim. Bu vaxt Məcidov adlı bir erməni rəis idi. Əhvalatı olduğu kimi ona başa saldım. O, mənə dedi: «Mir Abbas bəy sizə heç bir pislik edə bilməz. Çünki Siz padşah adamısınız. Siz ona öz xeyriniz üçün [könüllü] xidmət edirdiniz. Artıq onun ixtiyarı yoxdur ki, sizi zorla aparıb yanında saxlasın Bir-iki gün, bəlkə də bir həftə səbr edin, mənə lazım olacaqsınız. Bir həftədən sonra sizi padşah nökərləri sırasına daxil edib, məvacib verəcəyəm. Heç nədən qorxmayıb evinizə gedin!».

Buna görə mən arxayınlıqla Butəsər kəndində evimizə qayıtdım. Bu zaman bicarlarda su az idi. Miri oğlu Fərzəli mirab idi. Su, növbə ilə verilirdi. O günlərdə suyu bizə də vermişdi. Lakin mirab Molla Rəcəbdən gizlincə rüşvət alıb ona demişdi: «Su Mirzə Əhmədin bicarının yarısına çatdıqda, Mirzə Əhmədin suyunu kəsib öz bicarınıza verin!». Özü isə gizlənmişdi. Qardaşlarım Molla Cəfərqulu və Ibrahim [bizim] bicara gedib suyun Molla

Rəcəbin oğlu tərəfindən kəsildiyini görmüşdülər. Ona demişdilər ki: (84,a) «Niyə belə edirsən?». O demişdi: «Yaxşı eləyirəm. Əlinizdən nə gəlirsə buyurun!». Çünki onun atası Molla Rəcəb əvvəldən də imansız idi. Ikinci Ömər idi. Həmişə fikrizikri fürsət tapıb bizimlə ədavətə, düşmənçiliyə başlamaq idi. Digər tərəfdəndə Mir Abbas bəyin təhrikilə onun oğlu Əsədulla qardaşım Ibrahimlə dava etmişdi. Molla Cəfərqulu Əsədullaya nə qədər nəsihət etdisə də o, qəbul etmədi. Hətta Molla Cəfərquluya kobud sözlər də demiş, onları ayırmaq istəyən Molla Cəfərqulunun saqqalından yapışmışdı. Bizim əkin yerində səs-küy olduğunu eşidib [ora] getdim. Gördüm ki, həmin it oğlu Molla Cəfərqulunun saqqalından yapışıb buraxmır. Dünya gözümdə qaraldı. Tez özümü yetirib dedim: «Ey haramzada, bu nə hörmətsizlikdir ki edirsən?». Haramzada heç utanmadı. Onun belini götürüb kürəyinə vurdum. O, yenə də utanıb əl çəkmədi. Mən onu bellə bir də vurdum. O, palçıqlı suyun içinə yıxılıb qışqırdı: «Vay məni öldürdülər!». Onun ata-anası [köməyə] gəldi. Bu tərəfdən də bizim adamlar yetişdilər. Böyük dava qopdu. Məlun Molla Rəcəb tez Mir Abbas bəyin yanına şikayətə getdi. Mir Abbas bəy də məndən şikayət ərizəsi yazıb Molla Rəcəblə naçalnikə göndərdi. Naçalnik də Lənkəran uçastkovısına [sahə müvəkkilinə] bu işi yoxlamaq üçün əmr yazıb göndərdi. O zaman Turkistanov sahə müvəkkili idi. Mənim dostum Məşədi Sayad onun yanında olurdu. Sahə müvəkkili onun məsləhəti ilə iş görürdü. (84,b) Mən o həqiqi dostumun yanına gedib onu işdən xəbərdar etdim. O da bu məsələni olduğu kimi sahə müvəkkilinə bildirdi. Cənab naçalnikin əmrinə görə sahə müvəkkili Butəsər kəndiiə kedib, hadisəni ayırd etdi. Molla Rəcəbin şikayəti rədd olundu. Aradan bir ay keçdi. Mən daim naçalnikin yanına gedib gəlirdim. Bir gün naçalnik məni gizlincə yanına çağırıb dedi: «Mən sizi öz yanımda saxlamaq istəyirəm. Lakin Hacı Mir Abbas bəydən çəkinirəm. Çünki bu evi dağılmış Peterburqdan gəlmişdir. Necə gəldiyini də bilmirəm. Onun haqqında yuxarı hakimlərdən mənə heç bir əmr gəlməmişdir. Ona görə yaxşı olar ki, Siz bir müddət məndən uzaqlaşıb özünüzü ona yaxınlaşdırasınız. Görək yuxarı hakimlərdən [onun haqqında] necə əmr gələcək!». Ona görə mən Mir Islam oğlu Miri bəyin və Mirzə Sadığın yanına getdim ki, onlar vasitəçi olsunlar. Həqiqətdə də mən ürəkdən bu fikirdə idim. Onlar mənə dedilər: «Evinizə gedib bir neçə gün orada sakit oturun. Hər gün Qalada divanxana ətrafında dolandığınızı ona xəbər verirlər. Onun isə qəzəbi daha da alovlanır. Vasitəçilik zamanı mən də Mir Abbas bəyə sizin öz mənzilinizdə sakit oturub bu astanaya göz tikdiyinizi ona ərz edərəm. Bəlkə Hacı Mir Abbas bəy insafa gəlib sizi yenə də öz hüzuruna dəvət edər».

Mən onun məsləhətini qəbul edib Butəsər kəndinə gəldim. Öz evimdə sakit oturdum. Xeyirxahlarımdan hər kimi görürdüm, belə deyirdim: «Nə eybi var, bəzən ağa öz nökərini nəzərdən salar. Vaxt olar ki, iltifat

göstərib onu hüzura çağırar. Allah qoysa mənim ağam da məni çağıracaq, mənə iltifat göstərəcəkdir!».

Bir neçə vaxt (85,b) belə keçdi. Mən arxayınlıqla evdə sakit oturub iltifata müntəzir idim. Lakin Hacı Mir Abbas bəy başqa fikirdə imiş. O, naçalniki görüb onunla danışıq aparmış ki, filankəsi Butəsər kəndindən çıxarsın. Ona bir az da hədiyyə vermişdi. Bir gün [bu işdən] xəbərsiz evdə oturmuşdum. Kəkəlas[329] camaatından bir nəfər gəlib dedi: «Lənkəran sahə müvəkkili köməkçisi Tulayev[330] Sadığın evinə gəlib Sizi çağırır!». Mən isə hər şeydən xəbərsiz atıma minib Tulayevin yanına getdim. O köpək oğlu muğanlı Sadığın talarında oturmuşdu. O, məni görüncə rəis tərəfindən yazılmış bir əmri çıxarıb, mənə oxuyub dedi: «Rəis məni məhz sizi köçürmək üçün göndərmişdir. Bu saat köçünüzlə bərabər Şiləvar kəndinə keçməlisiniz!».

Mən nə qədər israr etdim ki, mənə bir az möhlət verilsin, bir faydası olmadı. O saat Şümür Məşədi Müslümü bir neçə nəfər kəkəlaslı atlı ilə mənə qoşub köçümlə Butəsər kəndindən çıxardılar. Butəsər kəndində yetişməkdə olan əkinlərim sahibsiz qaldı. Ev avadanlığımın və ərzağımın çoxu [orada] qaldı. (86,a) Mən Şiləvardan naçalnikin yanına gedib şikayət etdim. O, mənim şikayətimi qəbul etmədi. Çünki böyük rüşvət almışdı. Türklərin məsəlidir: «Loğma boğmadır!». Iki-üç gün mən Lənkəranda avara dolandım. Həqiqi dostlarımdan biri məni görüb dedi: «Siz niyə avara gəzirsiniz? Padşah tərəfindən bir general təyin olunmuşdur ki, Qafqaz vilayətində zülm görənlərnn dadına çatsın, onları zülmdən azad etsin. Onun adı general Vasilyevdir.[331] O, Şamaxı şəhərinə gəlib Bakı qubernatorunu işdən çıxarmışdır. Siz mütləq onun yanına gedin!». Bir yaxşı atım vardı. Yaxşı yəhər və yarağım da vardı. Lakin heyf ki, cibimdə səkkiz qəpik qara puldan başqa xərcliyim yox idi. Dostaşnadan hər kimə müraciət etdimsə də, kimsədən bir kömək görmədim. Axırda allaha təvəkkül edib atıma mindim, naçalnikdən icazəsiz Şamaxıya tərəf yönəldim. Naçalnik bilsəydi, mane olardı.

Həmin gün Göytəpəyə getdim. Orada bir dostum vardı, onun evinə düşdüm. Vəziyyəti ona bildirdim. O dedi: «Bu saat Muğan çölü sahibsizdir. Siz ora tək gedə bilməzsiniz. Bir nəfər atlıya iki-üç manat verin ki, sizi Salyana salamat çatdırsın!». Məni fikir bürüdü: «Cibimdə səkkiz qəpik qara pulum vardı, onu da yolda xərclədim. Indi iki-üç manatı haradan alım!». Ona dedim: «Ey dostum, mən tək gedirəm. Məgər Muğan həmin Muğan deyilmi ki, köçmişdə orada at qovardım!».

(86,b) Müxtəsər, səhəri gün sübh tezdən allaha təvəkkül deyib, atıma mindim, Salyana tərəf getdim. bir qədər yol getdikdən sonra gördüm ki, doğrudan da yolda gəlib-gedən yoxdur və Muğan yolu çox təhlükəlidir. Xatirimdən çox fikirlər keçdi. Öz-özümə fikirləşirdim ki, allah eləməsin,

oğrulara rast gəlsəm məni soyacaqlar, böyük rüsvayçılıq olacaqdır. Məsəl var deyərlər: «Kosa getdi saqqal üçün, bığı da qoyub gəldi!». Arxaya baxıb gördüm ki, iki Salyan arabası gəlir. Atımı bir az yavaş sürdüm ki, onlar [gəlib] mənə çatsın. Onlar məni görüncə arabaları qoyub qaçdılar. Mən onları səsləyib [dedim]: «Nə üçün qaçırsınız?». Onlar cavab verdilər: «Sizdən qorxuruq, bəlkə yaxşı adam deyilsiniz!». Mən onları yanıma çağırdım. Öz vəziyyətimi onlara bildirdim. Onlar dedilər: «Indi ki, vəziyyətin belədir, Salyana kimi bizə yoldaş ol. Atına lazım olan arpa, samanı biz verərik. Sənin yemək xərcin də bizim boynumuza olsun! Mən də allahdan belə bir gün istəyirdim. Yavaş-yavaş onlarla Axtalama kəndinə[332] qədər yoldaşlıq etdim. Hava çox isti idi. Su da çatmırdı. Az qala susuzluqdan ölmüşdüm. Kəndin ətrafında iki-üç alaçıq gördüm. Yoldaşlarımdan onların kim olduğunu soruşdum. Dedilər: «Bunlar şahsevənlərdir. Yaylağa getməyib burada qalmışlar!». Mən atımı o tərəfə sürdüm. Alaçıqdan bir qadın çıxıb dedi: «Qardaş, dua yazmaq bilirsinizmi?». Dedim: «Mən kamil molla və dua yazanam!». (87,a) O qadın mənim bu sözlərimi eşidən kimi özünü atımın ayaqlarına salıb dedi: «Qardaş, camışım boğazdır, dörd gündür ki, doğa bilmir». Mən atdan yerə düşüb tez bir dua yazıb həmin qadına verdim. Beş dəqiqə keçmədi ki, qadın gəlib ayaqlarımı öpdü və dedi: «Qurbanın olum, duanı camışa çatdıran kimi doğub, xilas oldu!».

Mən də sevindim. Qadın mənim üçün çörək, qatıq gətirdi, yedim. [Mənim üçün] iki qran[333] pul, bir cüt corab və yarım batman yağ gətirdi. Mən ona dedim: «Şamaxıya gedirəm mənə yağ lazım deyil!». O, yağ əvəzinə bir qran pul gətirdi. Mən atıma minib oradan Salyan nahiyəsində olan Hacı Xəlilli kəndinə[334] getdim. Çünki yoldaşlarım Hacı Xəlilli kəndində qalacaqlarını mənə bildirmişdilər. Allahyar bəyin mənzili də orada idi. Mən Allahyar bəyin mənzilinə getdim. Allahyar bəy mənzildə yox idi. Lakin Mirzə Həzrətqulu mənzildə idi. O, məni görən kimi çox mehribanlıq göstərib, hörmət elədi. Gecəni orada qaldım. Sabahı Mirzə Həzrətqulu ata minib iki ağac yolu mənə yoldaş olub [ötürdü]. Salyan yolunu mənə yaxşı nişan verib geri qayıtdı. Çox məsafə qalmamışdı. (87,b) Üç saat ərzində mən özümü Salyan şəhərində salyanlı Qulunun evinə yetirdim. O, Giləgəran kəndindən rəhmətlik Məmmədin qızını almışdı. O [qızın] adı Sədrənnisa idi. O qadın məni görən kimi tanıdı. Onun oğlu gəlib atımı tövləyə apardı. Oğlan məndən soruşdu: «Əmi, atam Lənkərandan gəlmədi?». Mən [cavabında] dedim: «Allah qoysa, atan birisi gün gəlib çıxar».

Gecəni orada qaldım. Səhəri atımı minib Kür çayı bərəsinə getdim. Bərəçilərin başçısı gəldi. Məndən soruşdu: «Haradan gəlib hara gedirsən?». Mən ona dedim: «Lənkərandan gəlirəm. Yolum Şirvan tərəfədir». O, məndən soruşdu: «Biletin varmı?». Mən ona dedim: «Sərhəddən gəlmirəm ki, biletim olsun!». O dedi: «Sizi miqrovun yanına[335] aparmalıyam!».

Atımın cilovunu alıb məni miqrov divanxanası tərəfə apardı. Bu zaman Bədəlan kəndindən Kərbəlayi Suzunun oğlu Kərimin gəldiyini gördüm. O, məni görən kimi tanıdı, lazımi hörmət göstərdi. Mən tez əhvalatı ona danışdım. O, talışca mənə dedi: «Sizi miqrovun yanına apardıqda deyin ki, bir nökərim vardı. O mənim atımı və dörd-beş dartu ipəyimi götürüb bu tərzdə gətirmişdir. O mənə demişdi ki, seydanlıyam.[336] O tərəfdə iki bacım var. [Onlardan] biri Seydan kəndində, digəri də Şirvan nahiyələrindən birikdə ərə getmişdir. Bizim haman nökərimizi Hacı Xəlillidə görmüşlər. Bu tərəflərdə isə kimsə onu görməmişdir!».

Müxtəsər, miqrovun hüzuruna çatdıq. Miqrov erməni Süleymanbəy idi. O, bir neçə il Lənkəranda uçastkovı olmuşdu. Mənim xatirimi çox istəyirdi. O, məni görüncə Nəzər adlı nökərinə uca səslə dedi: «Nəzər, Mirzə Əhməd gəlir, samovarı hazırla!». Mən onun xidmətinə yetişdim. O, mənə mehribanlıq göstərdi. Yüzbaşı adlanan həmin bərəçibaşı [heyrətdən] qurudu. Miqrov ona dedi: «Əgər siz Mirzə Əhmədə hörmətsizlik etmişsinizsə, bu saat sizə cəza verəcəyəm!». Mən ərz etdim: «Sərkar, mənə heç hörmətsizlik olmamışdır!». Onu [bərəçibaşını] mürəxxəs etdi. Məni (88,a) yanında oturdub, çox hörmət və mehribanlıq göstərdi. Mənim üçün çay və çörək gətirdilər. Həmin Süleyman bəy Lənkəran mahalında sahə müvəkkili olduğu zaman ucarütbəli Mir Tağı xanla dost idi. Ona görə də ucarütbəli Mir Tağı xanın və Hacı Mir Abbas bəyin əhvalını məndən soruşdu. Mən fikirləşdim ki, əgər mən Mir Abbas bəydən şikayətə getdiyimi ona söyləsəm, bəlkə də onun xoşuna gəlməsin. Onun üçün də dedim: «Onlar sağ və salamatdır. Çoxlu salamları var. [Amma] cənab miqrov, mənə bir hadisə üz vermişdir!». O buyurdu: «Nə olubdur?». Mən dedim: «Nəzərəli adlı bir nəfər vardı. Deyilənə görə bu tərəflərdəndir. Iki-üç ay idi ki, mənə məvaciblə xidmət edirdi. Məvacibini aldıqdan sonra bir gecə mənim kürən atımı dörd dartu ipəklə götürüb bu tərəfə qaçmışdır. Mən onu axtarmağa gəlmişəm. Hacı Xəlilli kəndinə qədər onun sorağını almışdım. Ondan sonra Salyan şəhərinə kimi heç kəs ondan soraq vermir. Lakin o, həmişə deyirdi: «Mənim iki bacım vardır biri Seydan kəndində, digəri də Şirvan ətrafında ərə getmişdir. Indi bilmirəm o Seydan kəndinə və yaxud Şirvan məntəqəsinə getmişdir!». O buyurdu: «Bu çətin bir iş deyildir. Çünki Seydan kəndi mənim nəzarətimdə olan kəndlərdəndir. Seydan kədxudasının oğlu mənim divanxanamda mirzəlik edir!». Tez onu hüzuruna çağırdı. Həmin oğlan gəldi. Çox fikirləşdikdən sonra dedi: «Bizim kəndə belə adam gəlməyibdir. Bizim kənddə ərə getmiş bacısı da yoxdur!».

Süleyman bəy buyurdu: «Filankəs, sənin işin çətinə düşdü. Gərək özün o vilayətə gedib onu axtarasan!». Tez Seydan kədxudasının üstünə bir əmr yazdırıb mənə verdi ki, məni Salyan bərəsindən keçirsinlər. Seydan kəndinə gedib kədxudanı yanıma çağırdım. Əmri ona göstərdim: Dedi: (88,b)

«Bizim kənddə heç belə adam olmamışdır. Sizə yalan demişlər!». Axşama iki saat qalmış Şirvan tərəfə yola düşdüm. Qarşıma bir arabaçı çıxdı. Ondan su istədim. O dedi: «Bir adamı doyura biləcək qədər suyum qalmışdır. Onu sənə verərəm, çünki sən gedən yolda su yoxdur. Mən isə Seydana yaxınam!». Onun verdiyi sudan içdim. Ağzım zəhər kimi acı oldu. Yola davam etdim. Xeyli yol getdim. Biri sağa, digəri sola gedən iki yol ayrıcına çatdım. Sol yolun Şamaxıya getdiyini zənn etdim. Atımı həmin yolla sürdüm. Nə qədər getdimsə, bir yerə çıxa bilmədim. Günbatan çağı idi. Qarşıma kənarında söyüd ağacları olan böyük bir çay çıxdı. Bu böyük çayın qırağında iki-üç alaçıq vardı. Alaçıqların qapısına çatan kimi iki-üç nəfər gənc dişarı çıxıb məndən soruşdular: «Siz haradan gəlirsiniz?». Mən [cavabında] dedim: «Lənkəran naçalnikinin yasavul başçısıyam, Şirvana gedirəm!». Onlar mənə təklif etdilər: «Atdan enib bu gecəni burada qalın, sabah səhər gedərsiniz!». Sonra alaçıqdan bir qoca kişi çıxıb mənə bir təhər işarə ilz bildirdi ki, burada qalmaq məsləhət deyildir. Bu cavanlar sizi soyacaqlar. Mən qocadan Ağcaqabulu[337] soruşdum. O dedi: «Qiblə ağaran tərəfdədir!». Dedim nə qədər yoldur?». Dedi «Yeddi verst olar!». Axşam düşürdü. Atımı qamçıladım. Ağcaqabul çaparxanasına yarım verst qalanda gün batdı. Elə qaranlıq çökdü ki, heç atımın qulaqlarını da seçə bilmirdim. Birdən qarşıma bir atlı çıxdı. Onun atı məndən hürkdü. Mənim üstümə heybətli bir səslə bağırdı. Mən də onun üstünə bərk çığırdım. Gördüm ki, bir nəfər mükəmməl yaraqlı kazakdır. O, Salyana kağız aparırdı. Keçib getdim. Gördüm ki, Ağcaqabul çaparxanasında [bir nəfər] namaz qılır. Lakin [namazı] sünni qaydası ilə qılırdı. Fikirləşdim ki, burada qalmaq məsləhət deyildir. Atımı sürüb oradan uzaqlaşdım. Bir qədər getdikdən sonra bir salyanlı arabasının yol kənarında dayandığını gördüm. Arabada uşağa oxşar bir nəfər oturmuşdu. Onu nə qədər çağırıb soruşdum Şirvan tərəfəmi, Salyan tərəfəmi gedir, (89,a) o mənə bir söz deyə bilmədi. Çünki orada o qədər ağcaqanad vardı ki, o, ağzını açıb danışmaq istəyən zaman ağzına ağcaqanad dolurdu. Bunun faydasız olduğunu gördüm. Atımı Şirvan tərəfə sürdüm. Bir qədər getdikdən sonra ay yuxarı qalxdı. Onun işığı tədricən dağları və çölləri işıqlandırdı. Lakin susuzluq mənə elə təsir etmişdi ki, dilim quruyub ağzıma yapışmışdı. Ətraf otsuz, qorxunc bir səhra idi. Sağ tərəfdə daşlı dağlar gözə çarpırdı. Bir verstə qədər olan bu yol poçta yolu idi. Atdan aşağı düşdüm. Atımın yüyənindən çəkərək xeyli piyada yol getdim. Yol çox tozlu olduğundan çəkmələrim quluncuna kimi tozla doldu. Xurcunumda çox yaxşı Salyan çörəyi vardı. Onlardan birini götürdüm. Bir qədər yedim. Çox susuz olduğumdan [çörək] boğazımdan getmirdi. Atım arxadan dişlərilə tüfəngimi tutub çəkirdi. Çörəkdən bir az onun ağzına yaxınlaşdırdım. O tez çörəyi mənim əlimdən qapıb yedi. Məlum oldu ki, heyvan acdır. Çörəkdən ikisini ona verdim. Irəlidən bir adam gəldiyini hiss etdim. Yerə uzanıb baxdım. Mükəmməl

yaraqlı bir atlı olduğunu gördüm. Fikirləşdim. «Mənim elə ölən yerim buradır. Çünki qaçmağa yerim yox idi. Səsim də bir yerə çatmaz idi. Atımı minib tüfəngimi hazırladım. Ürəyimdə dedim: «Allaha pənah, igid ölər adı qalar! Müxənnətin[338] nəyi qalar?». [Atlı] bir az da yaxınlaşdı. Mən atımı onun üstünə çapdım. Heybətli bir səslə ona çığırıb dedim: «Tərpənmə vuraram!». O səsimi eşidən kimi atını yoldan çıxarıb çölə tərəf qaçdı. Mən də atımı onun arxasınca çapdım. Bərk yel əsirdi. O öz [ana] dilində yad bir söz deyirdi. (89,b) Qulağım eşitmirdi. Mənim atım onun atından sürətli getdiyindən, axırda mən ona çatdım. Qılıncımı çəkdim. O dayanıb dedi: «Mən çaparam, çaparxanaya kağız aparıram!». Doğrudan da kazak olduğunu gördüm. Ağcaqabul çaparxanasına kağız aparırdı. Onu tanımadığım üçün mən ondan üzr istədim.

[Ey] mənim bu kitabımı oxuyanlar! Mənə [nöqsan tutub] eyb etməyin. Mən bu kitabımı doxsan yaşımda, eynəksiz yazmışam. Gərək bağışlayasınız.

Atımı döndərib yenə də öz yolumla getdim. Yolun hər tərəfinə nəzər salırdım. Aydınlıq bir gecə idi. Yol ətrafında yaxşı yaşıl otlar görünürdü. Atın yüyənini buraxdım. At başını otlara yaxınlaşdırır, lakin otdan yeməyib başını yuxarı qaldırırdı. Mən təəccüb elədim – bu nə sirrdir. O gecə sübhə kimi bir damla su üçün o dağları, daşları gəzdimsə də sudan bir əsər tapmadım. Sabaha bir saat qalmış atımı bir dağa tərəf çevirdim. Atdan yerə düşdüm. Atın ayaqlarını buxovlayıb buraxdım. Özüm də bir qədər yatdım. [Ayıldıqda] gördüm ki, atım mürküləyir, hərdən gəlib başını mənim çəkmələrimə sürtür. Ayağa qalxıb ata min dim. Yenə də yola çıxdım. Qarşıda bir dağ gördüm. Bu yol kərpiclə [döşənib] təmir edilmişdi. Lakin əyri-üyrü idi. Gəlib-gedənlər uçün [salınmış] yol idi. Həmin yolun başlanğıcına qədər getdim. Yol dağın qurtaracağında bitirdi. Dünyaya işıq saçan günəş artıq yüksəlmişdi. Mən atdan düşdüm. Arxa tərəfimdən atımın ayağını bağladım. Bura Ərdəbil çölünə bənzəyirdi. Elə bil ki, Xiyabad kəndi[339] keçidinin üstündə oturub Ərdəbil tərəfə baxırdım. Diqqətlə baxıb gördüm ki, həmin yolla dağdan dörd nəfər atlı qarğa kimi aşağı enib, mənə tərəf gəlirlər. Tüfəngimi hazırlayıb yaxınlığımda olan böyük daşın üstünə çıxdım. Tüfəngimi dizimin üstünə qoyub oturdum. Atlılar yavaş-yavaş mənə yaxınlaşırdılar. Məni görən kimi onlardan biri [dedi]: «Bəli, siz orada boynunuzu burub oturmusunuz. Tutaq ki, siz atəşsiniz. Axı tək-tənha əlinizdən nə gələr?». Mən cavabında dedim: «Siz nə bilirsiniz ki, mən burada tək-tənhayam. Bəlkə mənim bu tərəfimdə iyirmi adam oturmuşdur!». Mən bu sözləri cəsarətlə onlara dedim. Onlar gülüşərək [dedilər]: «Vallahi sən talışlısan!». Mən də onların Talışdan olduqlarını bildim. Onlara dedim: «Siz də Talışdansınız!». (90,a) Onlar yaxınlaşanda səfidəştli olduqlarını gördüm. Soruşdum ki, «hara gedirsiniz?». Onlar dedilər «Şəkiyə gedirik. Çodara mal satmışıq, lakin pulunu hələ

almamışıq. Öz haqqımızı almaq üçün gedirik!». Onların adlarını soruşduqda dedilər: «Birimiz alarlı Hacı Abdindir!». Məndən sual edib dedilər: «Ədəbsizlik olmasın, bəs sən kimsən?». Ehtiyat etdiyimdən adımı dəyişib dedim: «Mən Qızxanım oğlu şiləvarlı Əhmədəm!». O zaman Qızxanım oğlu şiləvarlı Əhməd rəisin yasavul başçısı kimi məşhur idi. Elə bil ki, o rəis idi. Onlar bir-birinə baxıb gülüşərək dedilər: «Biz sənin adını soruşuruq sən demirsən. Indi sən dayan biz sənin adını deyək: «Sən Mirzə Xudaverdi oğlu Mirzə Əhməd deyilmisən?». Mən gördüm ki, onlar mənim adımı yaxşı bilirlər. Dedim: «Bəli!». Onlardan biri gəlib qolunu boynuma salıb dedi: «Sən mənim dayım oğlusan. Mən də inəllu[340] Molla Bağırın oğluyam. Sənin atan Səfidəşt mahalında Hacı Mir Abbas bəyin mirzəsi olduğu zaman mənim bibimlə qardaş olmuşdu. Bibimin adı Hüsni-Cahan xanımdır. Mənim adım Kazımdır!». Fikirləşəndə yadıma düşdü ki, doğru deyir. Onlardan biri dedi: «Mənim adım Kərbəlayı Nurməmməddir. Sizin evdə çox qalmışam. Yağ satırdım!». Yadıma düşdü ki, bu da doğru deyir.

Müxtəsər, atlarımıza minib birlikdə yola düşdük. Onlardan su istədim. Hacı Abdin nökərinə dedi: «Bardaqda qalan suyun hamısını filankəsə ver!».

Onun verdiyi sudan bir az içdim. Su ağzımda zəhərə döndü, az qaldı ki, atdan yerə yıxılım. Bu vəziyyətlə gümüşlü çaparxanasına çatdıq. Onlar mənə dedilər: «Siz poçta yolu ilə gedin, biz isə çöl yolu ilə gedəcəyik!». Onlar məndən ayrılıb getdilər.

Bir qədər getdikdən sonra gördüm ki, susuzluq məni öldürəcəkdir. Atımı poçta yolundan qiblə tərəfə döndərdim. Elə bil ki, dağ başından aşağı endim. Bir neçə söyüd ağacı vardı. Burada bir bulaq da axırdı. Yaxşı otlaq vardı. Atımın başını buraxdım. Sudan doyunca içdim. Su sərin və dadlı idi. Tüfəngimi qoltuğuma alıb atım tərəfə baxaraq uzandım. Məni yuxu aparmışdı. Oyanıb gördüm ki, bir nəfər başım üstə oturub məni oyatmaq üçün deyir: «Bacı oğlu qalx, bir qədər xörək ye!». Gözümü açanda gördüm ki, tüfəngim onun dizi üstündədir. Bir az qorxuya düşdüm. Baxıb gördüm ki, yanıma içində çörək, qatıq, kərə və pendir olan bir məcməyi qoyulmuşdur. O, mənə təklif etdi: «Qardaş, yeyin!». Onunla birlikdə xörəyi yedik. Sonra məndən soruşdu: «Siz haradan gəlir və hara təşrif aparırsınız?». Ona görə mən bütün əhvalatı ətraflı surətdə ona danışdım. O dedi: «Mən Məmmədxan Kovxayam. Alaçığım bu yaxındadır. Siz bu gün getməyib gecəni mənə (90,b) qonaq olun!». Sonra gülərək əlavə etdi: «Qorxma mən də qızılbaşam, sünni deyiləm!». Mən cavab verib dedim: «Mənim üçün fərqi yoxdur. Salamat qalın, mən getməliyəm!». Onunla xudahafizləşib ata mindim. Çildaş yolu ilə gedirdim. Yandan ondörd yaşında bir oğlanın gəldiyini gördüm. Mən ondan soruşdum: «Haradan gəlirsən?». Dedi: «Bacımın evinə getmişdim. Indi isə evimizə qayıdıram. Bəs siz bu yoldan hara gedirsiniz?». Mən dedim:

«Tesiçay yolundan[341] Şamaxıya gedirəm!». O mənə dedi: «Iki-üç gün bundan əvvəl Çildaşda[342] oğrular iki taciri öldürmüşlər. Ona görə oğruların qorxusundan bu yolda gəliş-gediş yoxdur. Əlbəttə siz də yenə poçta yolu ilə gedin, ora salamatlıqdır!». Mən özümə güvənib o uşağın sözünə əhəmiyyət vermədim. Bir az getdikdən sonra öz-özümə fikirləşdim: «Axı mən Rüstəm pəhləvan deyiləm!». Atımı poçta yoluna tərəf çevirdim. Yol çox başyuxarı idi. Bir az piyada, bir az at üstə özümü poçta yoluna yetirdim. Çildaş çaparxanasına çatdım. Gecəni orada qalıb səhəri yola düşmək fikrində idim. Çünki məni qızdırma tutmuşdu. Günəşə baxdım, təxminən [axşama] üç saat qalmışdı. Çaparxana karvansarasına getdim. [Orada] iki-üç nəfər carlı erməni vardı. [Onlarla bir yerdə] qalmaq istəmədim. Onlardan soruşdum: «Yaxında oba varmı?». Dedilər: «On səkkiz verstlikdə Ərəb Oşar elatının alaçıqları vardır!».

Atımı məhmizləyib yola düşdüm. Günbatana yarım saat qalmış özümü obalara yetirdim. Lakin canıma bərk qızdırma-titrətmə düşmüş, az qala həlak olmuşdum. Hər obaya gedib yer istədimsə, dedilər ki, yer yoxdur, qonağımız vardır. Axırda sonuncu obanın yanına getdim. Çadırın yanında bir qoca kişi vardı. Ona salam verib, gecələməyə yer xahiş etdim. Dedi: «Gəl!». O, qabaqda, mən də onun arxasınca getdik. Çadırdan bir məlun qadın çıxıb kişinin üstünə çığırdı: «Ay köpək, niyə o kişini dalına salıb gətirmisən!». Arvad üstümə çığırdı: «Sən hara gəlirsən? Bu köpək özü də qonaqdır, ev sahibi deyildir. Sən niyə mənim evimə gəlirsən?». Buna görə mən atımın cilovunu çəkdim. Kişi mənə baxıb dedi: «Gəl!». Mən dedim: «Bəs bu qadın belə deyir!». (91,a) O dedi: «Gəl içəri, çadır mənimdir. Evimə gələn qonaqların atları oğurlanmış, onların cəriməsini isə məndən almışlar. Arvadın gözü qorxduğu üçün belə deyirdi. Siz bu axşam özünüz atınızı qoruyarsınız!». Mən həmin sözləri eşidəndə öz təklifimi bildim. Təsadüfən atımın buxovu da yox idi. Çünki mən rəisin qorxusundan «Lənkərandan tələsik qaçmışdım. Müxtəsər, onun çadırı qarşısında atdan yerə endim. Mənim altıma bir camış çulu saldı. O kişi məndən soruşdu: «Siz bizdənsiniz, ya qızılbaş?». Mən bunların sünni olduğunu anladım. Ona cavab verdim: «Qızılbaşlar nə itdirlər! Mən onlardan çox uzağam!». O soruşdu: «Adınız nədir?» Mən dedim: «Molla Məmməd!». O dedi: «Molla Məmməd mənim də üç oğlum vardır. Birincisinin [adı] Ömər, ikincisinin – Osman, üçüncüsünün – Əbubəkrdir!». Mən öz-özümə dedim: «Gecə-gündüz sünnilər arasında dolana-dolana indiyə qədər onların namaz qaydasını öyrənsəydin, indi sənə lazım olardı. Hazırda onlar namaz qılır, bəs mən nə edim? Öz-özümə təsəlli verib dedim: «Əllərimi sinəmə qoyaram!». Onların qonşularından iki-üç nəfər də gəlib oturdu. Üzlərindən kafirlik tökülürdü. Özləri də kosa və yöndəmsiz idilər. Məndən soruşdular: «Sizin başqa yoldaşınız da vardırmı?». Mən dedim: «Təxminən otuz altı yoldaşım vardı. Hamısı obalarda mənzil

tutdular. Mənim də orada mənzilim vardır!». Onlar xeyli fikirləşdikdən sonra mənə dedilər: «Bəlkə sizin atınızı oğurladılar? Onda əlacsız qalıb sabah piyada getmək sizə çətin olar!». Mən gülərək dedim: «Bəs nə üçün bu tüfəng dizim üstə qoymuşam. Mən səhərə kimi yatmayıb atımı qoruyacağam. Oğru gözümə sataşan kimi sinəsindən güllə ilə vuracağam!».

Onlar bir qədər oturduqdan sonra durub getdilər. Ev sahibi mənə dedi: «Sabah Şamaxıya çatacaqsan. Gərək öz çəkmələrini mənim birinci oğlum Ömər bəyə bağışlayasan!». Mən dedim: «Gözüm üstə, allah qoysa sabah səhər gedəndə çəkmələrimi ona verərəm!». Bilmirəm nə səbəbə isə [atımın] yəhərini götürüb çadırın içinə qoydular. Mən çadırın qarşısında atımın yanında qaldım. Gecə yarıdan keçmişdi. Mənə şam yeməyi üçün bir dənə çörək, bir az da şor gətirdilər. Mən dedim: «Gecələr şam yemək adətim deyil. Xahiş edirəm ki, bir az sərin su gətirin, içim!». Kişi arvadını çağırıb dedi: «Bir az su gətir!». O dedi: (91,b) «Suyumuz heç qalmayıb!». Kişi dedi: «Bəs susuz necə dəstəmaz alacağam?». Arvad dedi: «Kül sənin başına, bir damcı da su qalmamışdır. Küçüklər hamısını içmişlər!». Mən ürəyimdə allaha şükür etdim. Onlar gedib çadırda yatdılar. Atımı gecə ikən oğurlamasınlar deyə gözümə heç yuxu getmirdi. Digər tərəfdən də düşünürdüm ki, səhər bu kişi mənim çəkmələrimi alacaqdır.

Buna görə səhərə iki saat qalmış gedib çadırdan yəhəri gətirdim. Onlar bundan xəbər tutmadılar. Atımı yəhərləyib Şamaxıya tərəf getdim. Gecə o kişi söhbət zamanı yolda bir çaparxana, onun yanında sərin sulu bir bulaq və otlaq olduğunu bildirmişdi.

Mən fikirləşirdim ki, inşallah həmin bulağa çatan kimi atdan düşüb, namazımı qıldıqdan sonra xurcunumdan bir az çörək çıxarıb yeyərəm, atım da bir qədər otlar. Sonra yoluma davam edərəm. Sübh çağı həmin bulağa çatdım. Atdan düşdüm. Atın başını buraxıb namazımı qıldım. Allaha şükür etdim. Istədim ki, xurcundan bir az çörək çıxarıb yeyəm. Gecə də çörək yemədiyim üçün aclıq mənə bir az güc eləmişdi. Xurcunda bir tikə də çörək yox idi. Halbuki, mən Salyanda özümə on iki dənə çörək götürmüşdüm. Mən məyus olub bir qədər dayandım, sonra isə atı minib yola düşdüm. Yolun aşağısında çoxlu bostan yeri olduğunu gördüm. Atımı o tərəfə sürdüm, heç olmazsa bir-iki qarpız yemək fikrində idim ki, ürəyim bir qədər sərinlənsin. Yaxınlaşıb gördüm ki, orada bir keçəl bağban oturmuşdur. Onu, səsləyib dedim: «Bağban, qarpız satırsan?». Dedi: «Əlbəttə sataram!».

Cibimdən dörd qəpik çıxarıb dedim: «Iki dənə qarpız ver!». O dedi: «Bu qiymətə verməzəm. Hər biri bir qranadır!». Dedim: «Niyə belə bahadır!». O dedi: «Bura elə yerdir ki, əlin heç nəyə çatmaz. Neçəyə desəm ixtiyarım var!».

Müxtəsər, mən çox yalvardım bir fayda vermədi. Ümidsiz yola düşdüm. Yol bostanın qırağından idi. Bağ ilə yol arasından böyük bir çay

axırdı. Atımı sürüb bir az bağbandan uzaqlaşdım. Atı (92,a) bağın içinə saldım. Tez atdan düşüb üç-dörd dənə böyük-kiçik qarpız dərib xurcunuma qoydum. Bağban məni görüb bir qamış götürüb, çığıra-çığıra mənə tərəf gəldi. Mən tez öz atımı minib qılıncımı qınından çəkib bağbanı qovdum. O, fəryad edib dedi: «Məgər sən müsəlman deyilsən?». Dedim: «Niyə, mən müsəlmanam. Sən dediyin kimi, burada əliniz heç nəyə çatmaz. Ürəyim nə istəsə edə bilərəm. İndi mən də sizin kimi olmuşam. Əlinizdən nə gələrsə əsirgəməyin!».

Atımı çapıb bir qədər yol getdim. Bir çeşməyə rast gəldim. Atdan düşüb qarpızları ləzzətlə yedim. Sonra yenə ata minib Şamaxıya yola düşdüm. Mənzilə çatmağa bir o qədər məsafə qalmamışdı. Təxminən dörd verst yol getdikdən sonra Şamaxı şəhərinə çatdım. Mənim burada bir dostum və ya aşnam yox idi ki, onun evinə gedə biləydim. Bir də o qədər pulum da yox idi ki, karvansaralarda mənzil tutaydım. Birdən yadıma duşdü ki, Lənkəranda naçalnikin dilmacı deyirdi ki, o, şamaxılıdır. Bəlkə onun bu şəhərdə evi və ya qohumları vardır. Bu fikirlə bazarda gəzirdim. Bir nəfər məndən soruşdu: «Oğlum, siz haradan gəlirsiniz?». Mən dedim: «Lənkərandan gəlirəm. Burada bir dostum var, lakin evini tanımıram!». Dedi: «Dostun kimdir?». Mən cavabında: «Mirzə Cəfərqulu!». Hacı dedi: «Çox yaxşı tanıyıram, onun əmisi Mirzə Nəsrulla bəydir. Gəl onun dükanını sənə nişan verim!».

Allah onun ata-anasının günahlarını bağışlasın. O, atımın qabağına düşüb bir ağac yolu piyada gedərək məni Mirzə Nəsrulla bəyin dükanına apardı. Dükana yaxınlaşanda Hacı uzaqdan səsləndi: «Mirzə Nəsrulla sənə bir qonaq gətirmişəm. O, Mirzə Cəfərqulu bəyin yanından gəlir!». Mirzə Nəsrulla bəy dedi: «Çox yaxşı!».

Mən yetişib salam verdim. O dedi: «Qardaş atdan düş!». Atdan düşdüm. Mənə göstərilən yerdə oturdum. O, qoca bir kişi idi. Bir neçə nəfər uşağa dərs verirdi. Lakin uşaqların hamısı mənsəb sahiblərinin övladı idi. Qoca kişinin məğrur adam olduğu üz-gözündən bəlli idi. Onun qarşısında ədəblə çoxlu adam oturmuşdu. O da onlar üçün ərizə yazırdı. Mən gözucu baxıb gördüm ki, o türkcə, özü də yaxşı yazır. Yazıda kamil ustadır. O məndən (92,b) soruşdu: «Mirzə Cəfərqulunun kefi necədir?». Dedim: «Allaha şükür salamatdır!». O soruşdu: «Ondan məktub gətirmisən?». Mən dedim: «Ağa, məsələ başqadır. O mənə məktub vermədi». O fikrə gedib dedi: «Nə üçün?». Mən cavabında: «O Lənkəran naçalnikinin dilmacı və mənim yaxın dostumdur. Mən həmin rəisdən general Vasilyevə şikayət etməyə gəlmişəm. Dostum mənə məktub vermədi, qorxdu ki, yolda məni tutarlar, məktub rəisin əlinə keçər və nəticəsi onun üçün pis olar. Ona görə də mənə dedi: «Kağız lazım deyil. Sən əmimin yanına get, sənin işini yerbəyer edər». O dedi: «Eybi yoxdur. Siz özünüz elə danışan məktubsunuz!».

Sonra o, əhvalatı məndən öyrəndi. Atamı soruşdu. Mən nişan verdim. O mənim atamı tanıyıb dedi: «Mən Fitdağı[343] qalasında Mustafa xanın yanında Mirzə olan zaman talışlı Mir Mustafa xan sizin atanızı onun yanına göndərmişdi». Bir saat onun dükanında oturdum. Sonra o şirin dillə mənə dedi: «Siz mənim qonağımsınız. Lakin mənim evdə altı nəfər yetişmiş qızım vardır. Səni qızlarımın yanına aparsam yaxşı düşməz. Lakin mənim bir qardaşım arvadı var, onun evi bizim evə bitişikdir. Özü də yaşlıdır. Səni onun evinə qonaq köndərə bilərəm». Mən dedim: «Ixtiyar sizindir!». O, şakirdlərindən birinə tapşırdı: «Əli-Əşrəf, qalx, filankəsi Zəhra xanımın evinə apar. Bir də de ki, Mirzə Cəfərqulunun yanından mənə qonaq gəlib, qoy ona lazımi hörmət göstərsin!».

O, çox sevimli, hələ üzünə tük çıxmamış bir uşaq idi. [O,] mənə dedi: «Siz atınızı minin, mən də sizin tərkinizdə oturub gedərəm!». Mən ona dedim: «Mən qabaqda otursam yolu tapa bilmərəm. Yaxşısı budur sən qabaqda otur, məni də tərkinə al!».

Uşaq ata mindi, məni də öz tərkində oturtdu. Xeyli yol getdik. Bir evin qapısına çatdıq. Uşaq Zəhraxanım xalanı çağırdı. Qapıdan bir arvad bayıra çıxdı. Uşaq ona xitab edib dedi: «Mirzə Cəfərqulunun yanından gəlmişdir. Əmi dedi ki, onu qonaq saxlayıb, lazımi (93,a) hörmət göstərəsən!». Həmin arvad dedi: «Cəfərqulu bəyə və onun qonağına qurban olum!». Tez bizi atdan düşürdü, atımı tövləyə aparıb, qabağına ağ saman tökdü. Sonra mənə dedi: «Gəl gedək!». O irəlidə, mən də onun arxasınca həyətə daxil olduq. Çox təmiz bir həyət idi. Qırmızı kərpicdən iki ev vardı. Otağın qapısını açdı. Çəkmələrimi ayağımdan çıxartdı, mənə evdə yer göstərdi. Aftafa-ləyən hazırladı. Üzümü yudum. Tez mənim üçün çörək, qatıq, bal və pendir gətirdi. Özü [isə] yanımda oturmayıb, ayaq üstə durdu. Nə qədər təklif etdimsə oturmadı.

Mən yoldan gəldiyim üçün çox yorğun idim. Bir az çörək yedim. Məcməyini apardı. Tez bir dəst yorğan-döşək gətirib mənə yer salıb dedi: «Siz bir az yatıb dincəlin, sonra bazara gedərsiniz!». Özü də otaqdan çıxıb getdi. Yolda mənim arxalığım toz-torpağa batıb çox çirk olduğundan, mən kəlağayı yorğanın və məxmər döşəyin üstünə uzanmayıb, başımı mütəkkənin üstünə qoyub yatdım. həmin qadın otağa daxil olub dedi: «Siz niyə yorğanı üstünüzə salmırsınız. Sizə soyuq olar, Yoldan gəlmisiniz!». Mən arxalığımın tozlu olduğunu [bildirib] ondan üzr istədim. O dedi: «Bu üzr istəməyi bir kənara qoy!». Yorğanı üstümə salıb getdi. Mən öz-özumə deyirdim: «Bu arvad mənə bu qədər mehribanlıq edir, bəs gedəndə xəcalətindən çıxmaq üçün ona nə verəcəyəm!». Bir qədər dincəldikdən sonra yerimdən qalxıb fikirləşdim: «Mən bura rahatlanmağa gəlmişəm, yoxsa dərdimə əlac etməyə?».

Paltarımı geyinib bazara Mirzə Nəsrullanın dükanına getdim. Ona salam verdim. O mənim halımı soruşduqdan sonra dedi: «Üç gündür ki, Böyük padşah Şamilin tutulması [münasibətilə] bayram edir.[344] Bu günlər bayramdır. Sabah yox, birisi gün bəlkə general Vasilyevin hüzuruna gedə bildin. Mütləq, rus dilində bir ərizə yazdırın!».

(93,b) Mən farsca bir ərizə yazıb cibimdə saxlayırdım. O mənə dedi: «Get filan mirzənin yanına, o, yaxşı ərizə yazır». Mən soraqla gedib onun evini tapdım. Bu evdə təxtəpiş[345] dalında bir adam oturmuşdu. Salam verdim. O, məndən əhvalatı soruşdu. Başıma gələnləri əvvəldən axıra kimi müfəssəl ona danışdım. O dedi: «Sizdən çox istəmirəm. On manat alıb, sizin üçün bir ərizə yazaram ki, daşdan keçər!». Mən dedim: «Əvvəla qaralama edib mənə oxuyun, sonra yazın!». O dedi: «Kağızım yoxdur». Mənim cibimdə iki vərəq kağız vardı. Bir vərəqini ona verdim. Iki sətir yazdıqdan sonra dedi: «Səhv etdim. Get bazardan bir vərəq kağız gətir». Mən o biri vərəqi də ona verdim. Iki saata cəmi dörd sətir rusca söz yazıb mənə oxudu. Mən ayağa qalxdım. O dedi:«Hara gedirsən?». Mən dedim: «Sizdən mənə bir fayda olmayacaq!». Haman Mirzə Nəsrulla bəyin yanına gəlib əhvalatı ona danışdım. O mənə dedi: «Oğlum, siz deyirsiniz ki, Mirzə Xudaverdinin oğluyam. Mən sizin atanızı Fitdağda şirvanlı Mustafa xanın hüzurunda görmüşəm. O, yaxşı bir mirzə idi. Bəs siz niyə oxumadınız?». Mən dedim: «Ata, mən də oxumuşam, müsəlmanca yazıram. Budur mən özüm bir ərizə yazmışam!». Cibimdəki ərizəni çıxarıb ona verdim. Mirzə Nəsrulla bəy mənim ərizəmi oxuyub dedi: «Ay oğul, ay evi yıxılmış, Qafqaz vilayətində sizin kimi mirzə olmamışdır. Siz qapıları gəzirsiz!». Sonra mənim ərizəmi məclisdə olan bir neçə adama oxudu. Hamı: «Əhsən, əhsən!» söylədi. O mənə dedi: «Sabah bu ərizəni generalın hüzuruna [aparıb] verin, çox yaxşı ərizədir!». Mən dedim: «Axı o yalnız rus dilində ərizə qəbul edir!». O dedi: «Bu [boş] sözdür!». Mən çox sevinib mənzilimə gəldim. Gecəni yatıb, səhəri onun divanxanasına getdim. Orada min nəfərə qədər ərizəçilərin toplandığını gördüm. Lakin generalın özü hələ divanxanaya gəlməmişdi. Təsadüfən mənim titrəmə-qızdırmamın vaxtı gəlmişdi. Elə oradaca məni titrətmə tutdu. Məni ölümcül bir hala saldı. Oradakı adamların mənə ürəyi yandı. Dedilər: «Generalın mirzəsi gəlib, əvvəlcə ərizəçiləri yanına çağırır. Şifahi ərizə ilə gələnləri dinləyir, yazılı ərizələri isə alıb oxuyur!».

Mən də çox əziyyətdən sonra onun xidmətinə getdim. Bir saat bundan əvvəl mənim ağır vəziyyətimi görüb əhvalımı soruşan adamların hamısı dilmaca [mənim üçün] vasitəçi oldular. [Dilmac] bir uzun saqqal alman idi. Mən özlüyümdə düşünürdüm. O, mənim ərizəmi oxuya bilməyəcək, işim çox pis olacaq!». Lakin o, ərizəmi alan kimi onu bülbül kimi oxudu. Mən heyran qaldım. Məni çox arxayın etdi. Iki-üç dəqiqədən sonra general gəldi. Əvvəlcə məni hüzuruna çağırdı. Mən şifahi olaraq

xahişimi söyləyib (94,a) ərizəmi verdim. Doğrudan da dilmac ərizəni ona yalvarıcı bir tərzdə oxudu. Az qaldı ki, general özü ağlasın. Sonra mənə buyurdu: «Heç qəm çəkmə, sənə bir əmr [yazıb] verərəm, qarət olunmuş mallarını Hacı Mir Abbas bəydən alıb sənə qaytararlar. Mən özüm də tezliklə Talış vilayətinə gedəcəyəm. Işlər sənin xeyrinə düzələcəkdir!».

Mən üç gün Şamaxıda qaldım. Lənkəran naçalnikinin ünvanına yazılmış kəskin bir əmr aldım. Bazardan bir qarpız alıb mənzilimə qayıtdım. Həyətə daxil olduqda Zəhra xanım mənim qoltuğumdakı qarpızı görüb mənə tərəf gələrək dedi: «Bu nə xəbərdir?». Dedim: «Qarpızdır!». Mən elə zənn etdim ki, [mənim bu hərəkətim] onun xoşuna gəlmişdir. [Lakin] o dedi: «Elə oradan qayıt geri, bir də mənim evimə gəlmə!». Mən soruşdum: «Təqsirim nədir?». Cavab verdi: «Məgər bura xarabalıqdır!». Ürəyiniz nə istəyirsə mənə bildirin, sizin üçün alım!». Mən üzr istəyib dedim: «Bacı, gərək günahlarımdan keçəsən». O dedi: «Bu üzrlər kara gəlməz, əlbəttə qarpızı aparıb sahibinə geri qaytarın və pulunu ondan geri alın!». O [sözünə davam edib] dedi: «Qarpıza nə qədər pul vermisiniz?». Dedim: «Dörd qəpik!». O tez cibindən dörd qəpik çıxarıb, mənə tərəf atıb dedi: «Götür, qəbul etməsəniz, bir də sizi bu həyətə qoymaram!». Mən pulu götürdüm. Yeddi gün onun evində qaldım. O məni qoymadı ki, bir qəpik cibimdən xərcləyim. Gündə iki dəfə mənə çay verir, çox mehribanlıq göstərirdi. Mən ondan soruşdum ki, sizin gəliriniz haradandır?». O dedi: «Bu [yaxın] kəndlərdə mülklərim vardır. O mülklərimi [əkmək üçün] icarəyə verirəm. Mənim hissəmə düşən buğdanı onlar yükləyib gətirir və mənə verirlər. Bundan başqa iki oğlum var. Biri çaparxanada kazakdır. Kiçiyi isə cəmdək daşıyır. Doğrudan da bir qədər təəccüb etdim. Demək oğlan ölüləri qəbiristana aparır. Arvad [mənim fikrimi] anladı, gülümsəyərək dedi: «Biçarə talış, sizin fikriniz başqa yerə getməsin. Mən cəmdək daşıyan deyirəm. Yəni o, şəhər kənarında qəssabların kəsdiyi qoyunları çiyninə alıb bazara daşıyır!». Mən dedim: «Bu işdən o nə qazanır?». O dedi: «Gündə beş-altı qran gəliri olur!». Mən onun evində yeddi-səkkiz gün qaldım. Bir dəfə də olsun onun oğlanlarını görmədim. Nə gecə, nə gündüz evə gəlirdilər.

Xülasə, mən əmri götürüb onunla vidalaşdım. Istədim ki, ona üç-dörd qran pul verim. O bunu başa düşdü. Az qaldı ki, məni söyüb döysün. Mən ondan xahiş edib dedim: «Indi sizin qulluğunuzdan gedirəm. Lənkəranda mənə aid nə qulluğunuz varsa, buyurun, mən sizə göndərim!». O çox güldü və dedi: «Ölü talış, sizin nə qüvvəniz var ki, Talışdan mənə hədiyyə göndərəsiniz? Eybi yoxdur, mənə bir cüt duzlu balıq göndərin!». Mən ona heç bir cüt quru balıq da göndərə bilmədim.

Sahərə üç saat qalırdı, atımı (94,b) minib sevinclə tez Lənkəran tərəfə hərəkət etdim. Günorta çağı özümü Ağcaqabula çatdırdım. Günəş parlayır, ürəyim də bərk yanırdı. Paltarımı soyunub kənarları gilli olan suya

girdim. Nə qədər suyun ortasına getdimsə də, hər yeri bulanıq idi. Həmin suda bədənimi yaxşıca yudum. Bu yer çox təhlükəli olub, əhali yaşayan obalardan xeyli uzaq idi. Mən suya girdikdə tüfəngimi silib günəşin altında qoymuşdum. Uzaqdan bir atlı gəldiyini gördüm. Tez sudan çıxıb, paltarımı geydim. Tələsik şalvarımı geyib, tez silahlanıb hazır oldum. Atlı yaxınlaşıb gördü ki, mənim tüfəngim var, atını döndərib başqa tərəfə getdi. Mən də atımı minib oradakı çaparxanaya yetişdim. Bir nəfər mollaya oxşayan adamın çaparxanadan çıxıb ata minərək, Salyan şəhərinə tərəf getdiyini gördüm. Mən atımı sürüb tez ona çatdım və salam verdim. O, məni görüncə rəngi dəyişdi. Mən soruşdum: «Haradam gəlib, haraya gedirsən?». Mən öz əhvalatımı ona söylədim. O bir az rahat oldu. Ondan soruşdum: «Siz çaparxanadan çıxdınız, orada nə işiniz vardı?». O dedi: «Beş-altı gün bundan əvvəl oğrular burada altı nəfər taciri öldürmüşdü. Biz dörd-beş molla da digərlərilə birgə onları burada yuyub, dəfn etməyə gəlmişik. Heyf ki, kəsilən başların hansı bədənə aid olduğu məlum olmadı. Zalımlar hamısının başını kəsib, bədənlərindən ayırmışdılar. Sözün qısası biz [ölüləri] dəfn etdik. Onlar bu ətraf kəndlərdə olan dostlarının evlərinə getdilər. Mən də gecəni çaparxanada keçirdim. Indi Salyana tərəf gedirəm!».

Mən ona dedim: «Qardaş, sizin dediyiniz vaxtlarda mən gecələr buralarda tənha [yol] getmişəm. Mənə heç kim rast gəlmədi!». O dedi: «Allah sizə rəhm etmişdir. Buralar elə yerlərdir ki, qaş qaralandan sonra iki nəfər atlı cürət edib yola çıxmaz!».

O bir qədər mənimlə yol yoldaşı oldu. [Sonra] dedi: «Bu tərəflərdə bir dostum var, onun evinə getmək istəyirəm!». Mən dedim: «Ixtiyar sizindir!». O, mənə dedi: «Bu gün özünüzü Mir Bağırxan çaparxanasına çatdıra bilərsiniz. Çaparxanaya çatdıqda mütləq gecəni orada qalın. Gecə vaxtı Salyan tərəfə hərəkət etməyin. Bu çox qorxuludur. (95,a) Mən sizi xəbərdar edirəm!».

Dörd ağac yol getdim. Gün batmaq üzrə idi. Mir Bağır xan çaparxanasına çatdım. Oradan biri Badkubəyə, o biri isə Salyana tərəf iki yol ayrılırdı. Uzaqdan çaparxana görünurdü. Bir azdan sonra oraya yetişdim. Gecəni orada qalmaq istəyirdim. Bir erməni köçünün orada oturduğunu gördüm. [Ona görə də] məcazım qəbul etmədi. Atımı Salyana tərəf sürdüm. Gecə düşdü. Çox yol getdim. Qaranlıqdan atımın qulaqlarını görə bilmirdim. Atım qorxu ilə hərəkət edirdi. Qabaqda bir şey olduğunu hiss etdim. Ehtiyat üçün tüfəngimi çiynimdən çıxarıb əlimə aldım. Irəli nəzər salaraq, atımı sürdüm. Qarşıdan bir şey keçdiyini gördüm. O, nə ata, nə camışa, nə də dəvəyə oxşadırdı. Heyrətə düşdüm. Bunun Salyan arabası olacağı ağlıma gəlmirdi. Çünki araba Salyana tərəf gedirdi. Araba sahibi məni görən kimi qorxdu. Arabanı yolda qoyub, özü yoldan kənara qaçdı. Mən onu səsləyib dedim: «Qorxmayın, mən də yolçuyam oğru deyiləm!». O, qayıdıb arabanı

yola saldı. Ondan soruşdum: «Haradan gəlirsiniz?». O dedi: «Kiçik Nəvahıdan[346]. Orada buğdam vardı. Indi evimə gedirəm!». Həmin çayın yaxınlığında Torpaqqalası[347] deyilən bərəyə qədər onunla yol yoldaşı oldum. O dedi: «Gecə vaxtı bərəçi heç kimi o biri tərəfə keçirməz. Gecəni orada qalıb sabah səhər Salyana getmək məsləhətdir!». Gecəni orada qaldıq. Səhər atımı yedəyimdə tutub bərəyə tərəf getdim. Mənim həqiqi dostum məni görərək, arxalıqsız yüyürərək qarşıma gəlib dedi: «Bərəçidən xahiş edərəm ki, əvvəlcə filankəsi bərədən keçirsin!». Bərəçi də onun xahişini yerinə yetirib, əvvəlcə məni bərədən keçirdi. O, mənim həqiqi dostum salyanlı Qulu idi. [Şamaxıya] gedəndə Salyanda, özü evdə olmadığı halda, onun evində mənzil etmişdim. Atımın cilovundan yapışıb məni evinə apardı. Mənə çox hörmət edib (95,b) yalvardı ki, bu gün burada qalım, sabah gedim. Mən dedim: «Qala bilmərəm, siz mənim [başıma gələn] işləri Lənkərandan [öyrənib] bilmisiniz. Allah sizdən razı olsun!». Sözün qısası atımı minib Lənkərana tərəf yola düşdüm. Günortaya bir saat qalmış özümü Hacı Xəlilli kəndinə yetirdim. Allahyar bəy öz mənzilində idi O, mənə çox hörmət etdi. Atımı minib oradan qamış yol ilə getdim. Allahyar bəy məni qorxudub dedi: «O yolda həmişə oğru-əyri olur!». Mən allaha pənah edib yola düşdüm. Qamış yolda daldan mükəmməl yaraqlanmış dörd atlı gəldiyini gördüm. Bir qədər qorxuya duşdüm. Onlar gəlib mənə çatdılar. [Kim olduqlarını] soruşdum. Dedilər: «Qazaxlıyıq, Alvadı[348] kəndinə gedirik».

Mən onlara yoldaş olub Xırmandalı[349] və Mahmudlu[350] kəndlərinə çatdım. Bir nəfərin evinə düşdük. Onlar öz işlərinin dalınca getdilər. Mən [də] atıma yarım batman arpa verdim. [Sonra] atımı minib Lənkərana tərəf getdim. O gün Qızılağac kəndində bazar günü idi. Camaatın bir-bir bazardan qayıdıb öz evlərinə getdiklərini gördüm. Qumbaşı ətrafına çatınca məni yuxu tutdu. Çox yol gəldiyindən atımın ayağını buxovlayıb başını buraxdım. Orada yaxşı otlaq vardı. Tüfəngimi qoltuğuma vurub otun üstündə uzandım. Daha nə qədər yatdığımı bilmədim. Bir nəfərin məni çağırdığını eşitdim. Oyandım. Bu salyanlı Məşədi Baba idi. [O] mənə dedi: «Əgər Qızılağac tərəfə gedirsənsə, gəl gedək. Lənkəran tərəfə getməli olsan qalx get!». Ata minib Lənkərana tərəf yola düşdüm. Xeyli yol getdim. Birdən ardımca iki atlının gəldiyini gördüm. Mən onların qohumlarımdan olduğunu zənn edirdim. Onlardan birinin Paşa, digərinin isə Məşədi Şahsuvar olduğu fikrində idim. Atımın cilovunu bir az çəkdim. Onlar mənə yetişdilər. Biri Çaqqalgöz Kərbəlayı Rəhimin oğlu, o biri isə onun əmisi oğlu idi. Onlar məni görən kimi tanıdılar. Onlardan soruşdum: «Haradan gəlirsiniz?». Dedilər: «Boradigah kəndinə getmişdik!». Onlar mənimlə xeyli yol getdilər. Öz atlarını tərifləməyə başladılar. Biri dedi: «Mən atımı otuz tümənə almışam!». Digəri dedi: «Yarışda mənim atıma bərabər (96,a) [at] olmaz!». Mən qeyrətə gəlib dedim: «Salyandan Lənkərana otuz ağaca kimi yoldur. Mən bu gün

Salyandan çıxmışam. Indi günün batmasına bir saat və ya bir az artıq qalmışdır. Gamışavan kəndinə çatmışam. Atım çox yorğundur. Yoxsa atımı sizin atınızla yarışdırardım. Onlar dedilər: «Bu boş sözdür. Atınızı sürün, [onda] məlum olacaqdır!». Onların bu sözləri mənə ağır gəldi. Dedim: «Buyurun, əvvəlcə siz atınızı sürün, mən də ardınızca çapacağam!». Onlar atlarını haylayıb sürdülər. Mən də onların ardınca çapdım. Mənim atım yorğun olduğundan bir qədər tənbəllik etdi. Mən ona bir-iki qamçı vurdum. At coşdu. Az bir vaxt ərzində yarım verst onlardan irəli keçdi. Onlar isə atlarını nə qədər qamçıladılarsa da, bir fayda vermədi. Bir azdan sonra mən atımı saxladım. Onlar [mənə] çatdılar. «Mərhaba! Afərin!» dedilər. Giləgə məhəlləyə[351] çatdıq. Onlara dedim: «Siz təşrif aparın, mən bir az burada dayanıb namaz qılacağam!». Çünki mən özlüyümdə [belə] fikirləşirdim: «Mən rəisdən şikayətə gedib, ona əmr gətirmişəm. Hava qaralmamış bu məhəllə bazarına çıxsam, yasavul və başqaları məni görüb, rəisə məlumat verəcəklər. [Digər tərəfdən] mən özüm də Lənkərandakı vəziyyətdən xəbərsizəm. Gün batandan sonra özümü qardaşım Molla Cəfərqulunun mənzilinə yetirim ki, mən gedəndən sonra Lənkəranda nə baş verdiyini öyrənim!».

Gün batana kimi orada qaldım. Gün batdı. Atıma minib Lənkəran şəhərinə Mirzə Ələkbər ağanın evinə gəldim. Çünki Molla Cəfərqulunun mənzili orada idi. Onu çağırdım. Molla Cəfərqulu gəldi. Lənkəranın vəziyyətini ondan soruşdum. Mən gedəndən sonra orada bir dəyişiklik olmadığını öyrəndim. Qardaşım Molla Cəfərqulu mənə təkidlə dedi: «Mən sənin yanına gəlməyincə sabah Gərmətükdən [Lənkərana] gəlmə!». Atımı qaynım Paşanın evinə sürdüm. Arvadım da orada idi. Paşanın oğlu Mir Məmmədlə bərabər axşam yeməyinə başladığiıı gördüm. Mən onları səsləyib dedim: «Yeməyib, gözləyin mən də gəlim!». (96,b). Onlar mənim gəlişimə sevindilər.

Qardaşım Molla Cəfərqulunun tapşırığına görə mən səhəri gün gətirdiyim əmri rəisin yaiına aparmadım. Qardaşım da Gərmətükə mənim yanıma gəldi. Əhvalatı təfsilatı ilə ona söylədim. Sabahı üçümüz - mən, Molla Cəfərqulu və kiçik qardaşım Ibrahim rəisin yanına getdik. Rəis bizim gəldiyimizi bilən kimi evindən bayıra çıxıb dedi: «Şamaxı şəhərində general Vasilyevə məndən şikayətə gedən hansınızdır?». Mən ərz etdim: «Cənab rəis o mənəm. Lakin mən sizdən deyil, sizin köməkçiniz Tulayevdən şikayətə getmişdim. Onun barəsində qulluğunuza bir əmr də gətirmişəm». Əmri rəis Məcidovun xidmətinə təqdim etdim. O əmri oxuyan kimi buyurdu: «Köməkçi Tulayevi bu saat tapıb hüzura kətirin!». Çünki mən öz ərizəmdə [yazmışdım]: «Tulayev mənə zülm edib, mənə möhlət vermədi ki, bicarımı toplayım. Məhsulum sahibsiz qaldı. O məni nə üçün [haqsız olaraq] mülkümdən qovdu?». Əmrdə belə bir göstəriş vardı: «Filankəsin iki yüz

manat miqdarındakı zərəri Tulayevdən alınıb [ödənilsin]». Buna görə [də] rəis Tulayevə əmr etdi: «Sən Mir Abbas bəylə [birgə] filankəsin bu zərərini ödəməlisən. Çünki mən filankəs haqqında sizə belə göstəriş verməmişdim. Mütləq filankəs ilə [birlikdə], bu əmri Mir Abbas bəylə oxuyun!». Öz dilmacı Mirzə Abdulla oğlu Mirzə Babanı da bizə qoşub, ucarütbəli Mir Abbas bəyin hüzuruna göndərdi. Mir Abbas bəy bizi görən kimi, ərizənin məzmunu ilə tanış olmadan doyunca məni söydü. Rəisin dilmacı və Tulayev qorxudan bir söz deməyə cəsarət etmirdilər. Bir az durduqdan sonra baş əyib qayıtdılar. Mən də bir qədər [orada] qaldım. Nə qədər pis söyüş və söz vardı mənə dedi. Mən də qayıdıb rəisin yanına gəldim. Əhvalatı olduğu kimi rəisə bildirdim. O dedi: «Bir-iki gün mənə möhlət verin. Mən özüm sizin işinizə sərəncam (97,a) verərəm!». O, məni xoş dillə xatircəm və sakit edib dedi: «Siz hər gün mənim yanıma gəlin!». Aradan bir neçə gün keçdi. Rəis general Vasilyevin hüzuruna gizlicə yazıb bildirmişdi ki, Lənkəranda sahə müvəkkili köməkçisi Tulayevdən başqa, filankəsin ərizəsində göstərilən Tulayev familiyalı köməkçi yoxdur.

Buna görə general cavabında yazmışdı: «Bir az gözləyin, mən özüm tezliklə Lənkərana gəlirəm!». Bir neçə gündən sonra general Vasilyev Lənkərana gəldi. Lakin taleyimin bədliyindən o günlərdə mən xəstələndim. Molla Cəfərqulu gedib ona şikayət etdi. [Lakin] onun şikayətindən bir nəticə hasil olmadı. Bu gün-sabah generalın geri qayıdacağını eşitdiyimdən əlacsız qalıb özümü bir təhərlə onun hüzuruna yetirib, [şikayətimi] ərz etdim. O buyurdu: «Bir həftədir Lənkərandayam, bəs nə üçün gəlib [şikayətinizi] ərz etməyibsiniz?».

Mən ərz etdim: «Xəstə idim!». O buyurdu: «Sabah səhər mən geri qayıdıram, lakin bir həftəyə [buraya] bir rəis gəlib işləri yoxlayaçaqdır!». Bir azdan sonra Lənkərana bir rəis gəldi. O, yoxsulların ərizəsini yoxlayır və [deyildiyinə görə] Heç tərəfgirlik etmirdi. Mən Molla Cəfərqulu və Ibrahim adlı qardaşlarımı öz yanıma, Məşədi Dərvişəli oğlu Bağırbəyin evinə çağırdım. Onlar hamısı gəlib toplandıqdan sonra öz təklifimi bildirdim: «Deyirlər, bu təzə rəis [ədalətlə] işə baxır. Gəlin [onun yanına gedib], bir ərizə ilə şikayətlərimizi bildirək!». Bəyin hüzuruna gedib ondan xahiş edək. Mən şeyx Bağırbəyi də görmüşəm. O da gəlib bizim üçün xahiş edəcəyini vəd etmişdir!».

Mən Molla Cəfərquluya dedim: «Rəisin hüzuruna [gedib] şikayət etməkdə səninlə şərikəm. Lakin sizinlə Mir Abbas bəyin hüzuruna getmərəm. Çünki mən öz gücümü sınamışam!». O gün səbr edib [gözlədik]. Molla Cəfərqulu şeyx Bağırla Mir Abbas bəyin hüzuruna gedib, nə qədər xahiş etdilərsə də, bir nəticə vermədi. O, demişdi: «Boynunuzun ardını gördükdə Butəsəri də görəcəksiniz. Bir də bura gəlməyin (97,b). Bir də mənim evimə gəlsəniz sizi it kimi qovacağam!».

Mən öz barəmizdə yazdığım ərizəni götürüb rəisin divanxanasına getdim. Orada bir neçə nəfərin oturduğunu gördüm [Onlar] hamısı Mir Abbas bəyin xəbərçiləri idi. Mən onların yanında şikayət etsəydim, rəis mənim şikayətimi qəbul etməzdi. Çünki o hələ yenicə işə başladığı üçün işdən bir o qədər məlumatı yox idi. Özü də tündxasiyyət adama oxşayırdı. Mən rüsvay olmamaq üçün gözlədim. [Oradakı] adamların işini qurtardı, sonra mənzilinə doğru yönəldi. Mən də onun ardınca getdim. O öz mənzilinə daxil olmaq istədikdə mən ərizəmi qoltuq [cibimdən] çıxarıb ona verdim. Dilmac şirvanlı Mirzə Cəfərqulu bəy də onun yanında idi. Ərizəmi məndən alıb dedi: «Bu nə ərizədir?». Mən ərz elədim: «Verin, dilmac oxusun!». O buyurdu: «Məgər bu ərizə sizin deyildir?». Mən ərz etdim: «Bəli!». O dedi: «Sən şifahi olaraq ərizənin məzmununu söylə!». Mən öz ərizəmin məzmununu olduğu kimi [ona] şifahi ərz edib bildirdim. O dedi: «Dünyada belə bir iş ola bilməz. Heç bir qanun buna yol verməz! Bir adam altı ay bir yerdə sakin olsa, heç bir padşah onu [o yerdən] xaric edə bilməz. Indi orada sizin bir adamınız qalıbmı?». Ərz etdim: «Qurbanın olum, bir qardaşım orada olurdu, indi on gündür ki, onu da oradan çıxarmışlar!».

O dedi: «Heyf, əgər orada sizlərdən bir nəfər olsaydı bu saat sizin öz evinizə getməyiniz haqqında əmr verərdim. Ona görə bir neçə gün mənə möhlət verin. Mən bu işə tezliklə əncam çəkərəm!».

O zamanlar Astara mahalı camaatı da hacı Mir Abbas bəydən incimişdi. Hamı rəisin hüzuruna şikayətə gəlir, ərizə ilə [ondan] çox narazılıq edirdilər. Rəis onların ərizəsini Bakı qubernatorunun hüzuruna göndərdi. O zaman qubernator Kolyubakin[352] idi. O, camaatın şikayətini yoxlamaq üçün Lənkərana gəlib, işi təhqiq etməyə başladı. Rəislə birlikdə Astara gömrükxanasına getdi. Rəisin əmrinə görə mən öz ərizəmi cənab qubernatorun hüzuruna təqdim etdim.

Butəsər kədxudası Baba kədxuda ilə [iş haqqında] danışıq apardı. O da mənim dediklərimi təsdiq etdi. O saat rəisə göstəriş verib dedi: «Onlara əmr verin ki, danışıqsız öz evlərinə qayıtsınlar. Onların [çəkdiyi] zərəri də Hacı Mir Abbas bəydən alıb qaytarın!».

Rəis bizə [yazılı] bir əmr verib azad etdi. Ailə və uşaqlarımızı götürüb [Butəsərə] gəlib öz evimizdə sakin olduq. (98,a) Hacı Mir Abbas bəyin işləri pozuldu. Sərdardan belə bir əmr gəldi: «Hacı Mir Abbas bəyi uşaqları ilə Badkubə şəhərinə köçürsünlər. Astara mahalına isə bir qəyyum təyin[353] etsinlər ki, o [mahalın] gəlirini toplayıb hər il Hacı Mir Abbas bəyə göndərsin, özü isə Badkubədə yaşasın». Lakin Hacı Mir Abbas bəy o zaman xəstələndi. Onun əvəzinə ucarütbəli Mir Tağını məhbus kimi Badkubə şəhərinə göndərdilər. Bir azdan sonra həmin Şangird[354] adlı rəis öldü. Mənim işim pozuldu.

Ucarütbəli Nəsrulla bəy Kələntərovu və Mirzə Əsədulla Feyzullayevi Astara mahalına qəyyum təyin etdilər. Alişan Nəsrulla bəy Astaraya, yəni Butəsər kəndinə məşhur Hacı Cahanbəxşin evinə gəldi. O, kələntərovlardan idi. Onlardan heç yamanlıq görünməmişdi. O Hacı [Cahanbəxşin] evinə gələn gecə yanıma gizli bir adam göndərmiş və [bildirmişdi]: «Hacı Mir Abbas bəyin birinci əmri mənə gəlmişdir. Onun məzmunu budur: «Mirzə Xudaverdinin oğlanlarını Butəsərdən çıxarın!». Lakin mən bilirəm ki, Hacı Mir Abbas bəyin hökmü qanuna[355] uyğun deyildir. Mən filankəsin [Mirzə Əhmədin] Hacı Mir Abbas bəyin hüzuruna getməsini məsləhət bilirəm!». Buna görə mən geca oturub fikirləşib [özözümə] dedim: «Nəsrulla bəy pis deməməşdir!». Hacı Mir Abbas bəyin şərindən qurtarmaq üçün yenə gedib rəislə əlaqəyə girib-girməmək niyyəti ilə «Kəlilə və Dimnə» faliaməsinə istixarə[355] etdim. Fal belə gəldi: «Başından böyük qələt eləmə!». Arvadıma dedim: «Falım bəd gəldi!». Ikinci dəfə allaha pənah, [deyib] Hacı Mir Abbas bəyin xidmətinə getmək fikrilə fal açdım. Belə gəldi: «Bir qələt elə [ki], ata-baban etmiş ola!». Arvadım dedi: «Bu da bəd gəldi!». Dedim: «Xeyr, bu çox yaxşı gəlmişdir. Çünki atam bu dövlətə qulluq edib ad-san qazanmışdır. Allah qoysa, sabah səhər Hacı Mir Abbas bəyin hüzuruna gedərəm!». Sabah oldu. Lənkərana tərəf yola düşdüm. Sadıqbəyin hasarının [yanından] keçirdim.[357] O öz həyatində gəzinirdi. Məni görən kimi çağırıb dedi: (98,b) «Mirzə Əhməd hara gedirsən?». Dedim: «Lənkərana!». Dedi: «Gəl içəri, mən hələ nahar etməmişəm. Bir yerdə nahar edərik. Çoxdandır bir yerdə nahar yeməmişik!». Mən [onun evinə] getdim. Nahar gətirdilər, yedik. [O] mənim kefimi xəbər aldı. Mən başıma gələni ona bildirdim. O [mənə] dedi: «Çox yaxşı fikirləşmisən mütləq get. Onun kağız yazanı yoxdur. Ona yaxşı bir mirzə çox lazımdır!».

O, mənə xeyli ürək verdi. Mən Lənkərana getdim. Qardaşım Molla Cəfərqulu Lənkəran məscidi mədrəsəsində tələbələrə dərs deyirdi. Onun yanına gedib əhvalatı ona söylədim. Onu çox məzəmmət edib dedim: «Siz Lənkəranda ola-ola bir dəfə də olsun onun yanına getməmisiniz!». Qardaşım dedi: «Mən necə onun yanına gedim? Bir dəfə getdim, məni hörmətsiz etdi.» Mən dedim: «Onun hörmətsizlik etməsi eyibdirmi? O, ata-babadan bizim ağamız olmuşdur. Bundan əlavə o qoca kişidir. Onun bizə hörmətsizliyi heç də eyb deyil!».

Qardaşım dedi: «Mən gedə bilmərəm. Əgər hünərin varsa, özün get!». Mən dedim: «Gedərəm. Məni öldürməyəcək ki!». Ayaqqabılarımı geyib Hacı Mir Abbas bəyin evinə tərəf yola düşdüm. Onun darvazasına çatdıqda ona qarşı etdiyim xəyanətlərin hamısı xatirimə gəldi, ürəyimə qorxu düşdü.

Memarbaşı usta Rzani əlində aftafa bayıra çıxdığını gördüm. O mənimlə çox şirin danışdı. Öz məqsədimi ona söylədikdə dedi: «Qorxma, get!». Hacı Mir Abbas bəy bu talarda oturmuşdur. Mütləq [get], qorxma!».

Mən içəri girdim, onun pəncərə qarşısında oturduğunu gördüm. Lənkəran kəndi sakinlərindən, Kərbəlayi Gülünun qızını almış türk Məşədi Abbasxan onun qulluğunda durmuşdu. Mustafa xanın oğlanlarından Cavad və Ağa xanların vəziyyətini [ona] söyləyirdi. Mən Hacı Mir Abbas bəyin hüzuruna çatıb ona təzim etdikdə o, üzünu turşutdu. Bir dəfə də olsun mənə və o kişiyə tərəf nəzər salmadı. Heç bir söz demədi. Mən bir saat onun gözü qabağında durdum, gedib pilləkən başında oturdum. Nökərlərdən, yəni [bəyə] xidmət edənlərdən və ev xidmətçilərindən bəziləri də orada oturmuşdu. Aradan bir saat keçdi. Tənkərudlu Ibrahim və Fərəc bəylər (99,a) Hacı Mir Abbas bəyin hüzuruna varid olub ərz etdilər ki: «Tənkərud camaatı bizdən tövcü pulu istəyir.[358] Astara mahalına gələn Çerinski adlı bir uçastkovı camaatın sözünə çox qulaq asır. Biz onun yanına gedib şikayət etdik ki, biz iki nəfər tövcü verən deyilik, Hacı Mir Abbas bəyin nökəriyik». O isə bizə buyurdu: «Gedib Hacı Mir Abbas bəydən bir kağız gətirin ki, mən sizdən əl çəkim!». Sərkarbəy keçə altından bir vərəq ağ kağız çıxarıb yavaşcadan Ibrahim bəyə dedi: «Mirzə Əhməd gəlib orada oturubdur. Bu kağızı aparıb ona verin, mənim dilimdən o uçastkovıya yazsın!». Ibrahim bəy kağızı gətirdi. Mən də belə bir günü allahdan istəyirdim. Tez kağızı alıb, çox səliqə ilə yazdım. Kağızı sərkarbəyin hüzuruna özüm aparmağa çürət etmədim. Qələmdanı və kağızı Ibrahim bəyə verdim ki, onun hüzuruna aparsın. O kağızı oxuyub möhürlədi və ona verdi.

Bir azdan sonra nahar gətirdilər. Mənim üçün də əvvəldə olduğu kimi bir məcməyi [nahar] gətirdilər. Xörəkdən yedim, bir saatdan sonra sərkarbəy hərəmxanasına getdi. Mən də baş əyib [xidmətdən] azad oldum. Qardaşım Molla Cəfərqulunun mənzilinə getdim. Qardaşım küçənin başında durub [belə] fikirləşirdi: «Bəlkə də sərkarbəy qardaşımı döymüş və ya həbs etmişdir». O məni görən kimi sevinclə soruşdu: «Necə oldu?». Dedim: «Necə olacaq, onun üçün məktub yazdım, naharı da orada yedim. Sonra o, hərəmxanaya getdi, mən də mürəxxəs olub gəldim!».

O dedi: «Qardaşım, nə utanmaz üzün və böyük cürətin varmış!». Sözün qısası, onunla birlikdə mədrəsəyə getdik. Bir qədər yatıb yorğunluğumu aldım. (99,b) Oyandıqda dəstəmaz alıb, namazımı qıldım. Bir az gəzmək üçün bazara getdim. Bazarda bir nəfərin məni axtardığını gördüm. O mənim yanıma gəlib dedi: «Sərkar Hacı Mir Abbas bəy səni çağırır, gəl gedək!». Onunla sərkarbəyin divanxanasına getdik. Sərkar özü hərəmxanasında idi. Lakin Kərbəlayı Səlimin oğlu Kərbəlayi Cavad [divanxanada oturmuşdu]. O mənə iki vərəq kağız verib dedi: «Sərkarın əmrinə görə bunları Tiflisə yazın!». Lazım olan məsələləri mənə söylədi.

Mən də tam diqqətlə yazdım. O, həmin kağızları alıb, sərkarbəyin hüzuruna apardı və mənə dedi: «Mən kağızları gətirənə kimi burada otur ki, zərflərin[359] üstünü yazacaqsan!».

O getdi. Bir azdan qayıdıb dedi: «Sərkarbəy soruşur filankəs nə üçün gəlib?». Mən dedim: «Bu dərgaha pənah gətirib gəlmişəm. Mən müqəssir olsam da sərkarbəydən məni öz mübarək başına çevirib bağışlamasını acizliklə xahiş edirəm!».

Kərbəlayı Cavad [içəri] gedib qayıtdı və dedi: «Sərkar buyurdu ki, mən onun təqsirlərini bağışladım. [Hüzurumda] qalsın!». Mən cavabında dedim: «Mən gecələri Gərmətük kəndində qalaram, gündüzləri sərkarın hüzuruna gələrəm. Çünki əvvəllər də mən orada qalırdım!».

Mənə bir məcməyi [yemək] və yorğan-döşək gətirdilər. Mən indi [də] özümü müqəssir hesab edirəm. Qorxuram ki, mənə əvvəlki hörmət (100,a) göstərilməsin. Mən bir qədər qəlbi kövrək [olduğum üçün] qorxdum ki, yenə də ürəyim sınsın. Kərbəlayı Cavad yenə də [içəri] gedib qayıtdı və dedi: «Sərkarbəy buyurdu ki, nəğmə oxumasın. Gedib divanxanada otağında sakit otursun!». Mən divanxana otağına gedib sakit oldum. Keçmişdə olduğu kimi, bəlkə də əvvəlkindən də bir az yaxşı yemək gətirdilər. Yatmaq vaxtı fərraş bir dəst məxmər və qələmkar[360] yorğan-döşək gətirdi. Müxtəsər, tam rahatlıqla yatdım. Allahın şükrünü yerinə yetirdim. Səhər açıldı. Sərkarbəyin hərəmxanadan gəldiyini gördüm. Mən bir neçə böyük və kiçik fərraşlarla onun qarşısına çıxdım. Baş əyib təzim etdik. Sərkarbəy uzaqdan nəzərlərini mənə çevirib baxırdı. Bu məni doğrudan da çox qorxutdu. Öz-özlüyümdə belə fikirləşdim: «Bəlkə bu gecə bu kişinin fikri dəyişibdir!». O bir az da mənə yaxınlaşdı. Öz nökər və fərraşlarına tərəf nəzər saldı. Onlar [ayaq saxlayıb], yerlərində durdular. Sonra o, mənə yaxınlaşdı. Qoltuq cibindən iki vərəq kağız çıxarıb mənə verdi. Əlini çiynimə qoydu. Yazılacaq mətləbi mənə söyləməyə başladı. Ata öz oğluna etibar etməzdi. Mən ürəyimdə deyirdim: «Mənə lənət olsun. Bu kişi nə sadə adamdır. Mən ona xəyanət etmişəm. Bu gün o məndən belə məsələləri gizlətmir!». Müxtəsər, yazılacaq məsələləri mənə başa salıb buyurdu: «Gedin mənim otağıma, bunları tez yazın. Mən indi divanxanadan gedəcəyəm!». (100,b) Mən [bəyin] otağına gedib o iki vərəq kağızı yazdım.[361] Kağızları keçənin altına qoyub Sərkarbəyin hüzuruna getdim. Məni görüb buyurdu: «Bəs kağızları yazmadın?». Ərz elədim: «Kağızları yazıb otaqda qoymuşam!». Buyurdu: «Gedək!». Gəldi. Kağızları oxuyub çox bəyəndi. Iltifat ilə üzünü mənə çevirib, dedi: «Heç eybiniz yoxdur heyf ki, ağa zülmünə səbrin yoxdur. Müxtəsər, mən sizin bütün xəyanətlərinizdən keçirəm!».

Mən də ərz etdim: «Qurbanın olum, bundan sonra məndən nalayiq bir iş görsəniz, boynumu vurun!».

Günü-gündən mənim hörmətim artdı. O, mənim üçün bir mahud çuxa aldı, əlavə bir xələt də bağışladı. Iş o yerə çatdı ki, gecələr yatanda allaha yalvarırdım: «Səhər tez açılsın ki, Sərkarbəyin hüzuruna gedim».

O günlərdə padşahın təlimatına müvafiq [sərkar bəyə] xidmət etmək üçün bir nökər gətirmişdilər. Bu çox haramzada və ərizəbaz bir adam idi. O, gizlicə Sərkarbəydən naçalnikə şikayət etmişdi. Sərkarbəy bu işdən xəbər tutdu. Onu [hüzura] çağırıb möhkəm döydürdü, ölümcül bir hala saldı, öz evindən qaçırtdı. O, Rudəkənar kəndində idi. Astara camaatı belə işə həmişə həvəskar idi. Onu tabuta qoyub, Lənkəran rəisinin yanına aparıb [bəydən] çox şikayət etdilər. Rəisin sərkarbəyə münasibəti pis idi. O, bu məsələni tez Badkubə qubernatorunun hüzuruna yazdı. Hacı Mir Abbas bəyin Badkubə şəhərinə göndərilməsi haqqında qubernator tərəfindən əmr verildi. Buna görə neçə dəfə qələbəyi[362] [Hacı Mir Abbas]bəyin hüzuruna gəlib qubernatorun əmrini oxudu. Sərkarbəy qələbəyinin əmrinə qulaq asmadı. Qələbəyi [geri] döndü. Xülasə, böyük mübahisə oldu. Axırda Sərkarbəyin qohum-əqrabası [onun yanına] gəlib yol göstərərək dedilər: «Heç olmazsa, siz Lənkəran qalasına gedib orada sakin olun. Rəis qubernatora yaza bilsin ki, Hacı Mir Abbas bəyi qalaya gətirmişlər. Lakin o xəstə olduğundan Badkubə şəhərinə gələ bilmir!». Çox səydən sonra sərkar [Lənkəran] qalasına getdi. Məşhur general Miribəyin evində mənzil salıb dedi: (101,a) «Buradan başqa yerə getməyəcəyəm!».

Birinci gecəni o qalada [həbsdə] qaldı. Mən onun evində [qalıb] özlüyümdə [belə] fikirləşirdim: «Bu xidmət deyildir! Ağa həbsxanada yatsın, mən [isə] onun talarında yatım!». Sabahısı gün hacı Mir Abbas bəyin hüzuruna gedib ərz etdim: «Qurbanın olum, mənim haqqımda nə fikriniz var?». Buyurdu: «Sənin üçün nə fikir ola bilər! Xörəyimi ye, gecələr isə talarımda yatıb sinəni yelə ver!». Mən ərz elədim: «Qurbanın olum, bu işi qəbul etmərəm. Iltifat edib icazə verin mən də gəlib burada sizin qulluğunuzda qalım!». O buyurdu: «Mən burada həbsdəyəm. Sizə necə deyim ki, gəlib həbsxanada oturun!». Mən ərz elədim: «Qurbanın olum, ürəyim belə istəyir!». Sonra fərraşa buyurdu: «Gedin filankəsin yorğan-döşəyini gətirin!». Fərraş gedib mənim yatağımı gətirdi. Beləliklə, otuz beş gün Lənkəran qalasında sərkarın hüzurunda qaldım. Sonra sərkar [həbsxanadan] azad olub öz evinə getdi. Mənə lazımi [hörmət və] iltifat göstərdi. Allah onun [günahlarını] bağışlasın.

Bilin və agah olun ki, bütün təqsirlər kiçikdə olur. Böyüklərin heç təqsiri olmaz! O cümlədən bütün təqsirlər məndədir. Çünki, ağa dediyin nədir, ona etina etməmək nədir! Bütün bunlar ancaq özümü öyməkdən irəli gəlirdi. Mən bunu boynuma alıram.

Bir neçə aydan sonra o allah rəhmətinə getdi. Onun vəsiyyətinə görə Astara mahalı onun ucarütbəli oğlu Mir Tağı xana verildi.

Bəzi fitnəçilərin təhrikilə o, bir neçə dəfə mənimlə pis rəftar etdisə də, mən onların bu «Əxbarnamə»də yazılmasını məsləhət bilmirəm. Mənim canım, arvadım, uşağım hamısı Mir Tağı xana qurban olsun.

(101,b) Nə qədər fikirləşirəm, bu dünyada baş verən işlər qurtarmır. Ömrüm də bir o qədər vəfa etmir ki, bütün [hadisələri] qələmə alıb yazım. Belə qərara gəldim ki, bundan sonra dünya işlərindən [daha heç bir şey] yazmayım...[*]

## MƏTNƏ AİD İZAHLAR

---

[*] Ясярин сонунда мцяллифин бир сыра шерляри вардыр ки, мятнля ялагядар олмадыьындан онлары мятня дахил етмядик.

1. Ucarud Talış xanlığının şimal-qərb hissəsində Balharrud (=Bolqarçay) un cənub-şəqində, hazırkı Buravar silsilə dağlarının şimalında yerləşən tarixi bir mahal olmuşdur.

Bu mahalın bir hissəsi Azərbaycanının Cəlilabad rayonunu, digər hissəsi isə Iran ərazisində Ərdəbil şəhristanının Germi rayonuna daxil olan beş nahiyədən birini təşkil edir.

2. Moran. Hazırda Cəlilabad rayonunun Qara Kazımlı və Əli Bayramlı rayonunun Moranlı kənd sovetlərində Moranlı adlı iki kənd vardır. ox ehtimal ki, «Əxbarnamə»də qeyd edilən Moran mahalı indiki Cəlilabad rayonu ərazisində olmuşdur.

3. Limar. 1887-ci ildə Zuvand qəzasının Səbidəж ( = Səbidəşt) sahəsində Limar adlı bir kənd qeyd olunmuşdur.

4. Dəştvənd. Mirzə Əhməd Ərkivan, xanlığın Dəştvənd mahalında olduğunu qeyd edir. «Çavahirnameyi-Lənkəran»da Dəştvənd mahalı ilə Ərkivan mahalının eyni mahal olduğu bildirilir.

Talış xanlığındakı mahallardan ən böyüyü olan Ərkivan, xanlığın şimalında yerləşib, qərb hissəsi dağlıq, şərq hissəsn isə düzənlik olan bir mahal olmuşdur. Şimaldan və şimal-şərqdən Şirvan vilayəti, şərqdən Xəzər dənizi, cənubdan Lənkəran və Drığ mahalları, qərbdən Səfidəşt mahalı və Iran ilə sərhəd olmuşdur.

Bu tarixi mahalın ərazisi hazırda qismən Cəlilabad, qismən də Masallı və Salyan rayonları tərkibindədir.

5. Ərkivan. Hazırda həmin adda Masallı rayonunda Ərkivan kəndi vardır.

6. Qızılabad. Hazırda bu kənd Gızılavar adıyla Masallı rayonunda mövcuddur.

7. Lisan. Ehtimal ki, bu Lisar tayfasının təhrif olunmuş adıdır. Lisar İranda Ənzəli – Astara şose yolu ilə Xəzər dənizi arasında olan bir kənddir .

8. Qacar. Türk xalqlarının oğuz qrupundan olan qacarlar monqol istilaları dövründə Iran, Azərbaycan və Kiçik Asiyaya gəlmişlər. Həmin dövrdə bir sıra mühüm mövqelərə, vəzifələrə təyin olunmuş Qacar əmirləri sonralar Səfəvilər hakimiyyəti dövründə (1502-1736) də Astarabad, Mazandaran və Xorasan vilayətlərində böyük siyasi nüfuza malik olmuşlar. Gəncə, Qarabağ və Yerevana köçürülən bir çox Qacar tayfa başçıları yüksək rütbəli vəzifələrə təyin olunmuşdular.

«Qacar sülaləsi». Iran və Azərbaycanda təxminən 145 il hakimiyyət başında olan qacar sülaləsi (1779-1925) Qacar sülaləsindən yeddi şah hakimiyyət sürmüşdür. Bunlardan birincisi Ağa Məhəmməd şah Qacar (1779-1797), sonuncusu isə 1925-ci ildə hakimiyyətdən salınmış Əhməd şah olmuşdur.

9. Mir Mustafa xan (1787-1814) Talış xanlarının üçüncüsü, Qaraxanın oğlu və axırıncı Talış hakimi Mir Həsən xanın atasıdır .

10. Kürab. Hazırda şimali Iranda bir neçə Kürab kəndi vardır. Lakin Mirzə Əhmədin göstərdiyinə görə, Astara Kurabı bir neçə -Gorganrud, Asalim, Vilgic, Drığ və Zuvand mahallarından ibarət olmuşdur. Bu göstərilən mahallardan Asalim ilə Gorganrud hazırda Iran ərazisində Talış şəhristanına daxildir. Qalan üç tarixi mahal isə hazırda Azərbaycanda keçmiş Talış xanlığı ərazisində yeni yaranmış rayonların tərkibindədir.

11. Butəsər. Talış xanlığında tarixi bir mahal olmuşdur. 1829-cu ildə tərtib edilmiş bir xəritədə Putasar şəklində Lənkəran ilə Astara arasında olan Xəzər sahilindəki ovalıqlarda göstərilir. Şahağac, Kəkalos, Siyaku, Şıxakəran kimi bir sıra kəndlər bu mahala daxil imiş . 1825-ci ildə Lənkəranın cənub ovalıqlarında Tənkərud və Ərcivan kənd icmaları sırasında Putasar da qeyd olunur. Bu tarixi mahalın ərazisi hazırda Astara rayonuna daxildir. Guman ki «Əxbarnamə»də adı çəkilən Butəsər kəndi hal hazırda Astara rayonunun Pensər kəndidir.

12. Vilgic. Talış xanlığında Iran ilə sərhəd olan dağlıq ərazidə tarixi bir mahal olmuşdur. Vilgic mahalı. 1827-ci ildə tərtib edilmiş bir sərhəd xəritəsində, Talış dağları silsiləsinin cənubunda, təxminən hazırkı Qızyurdu dağı ətrafında qeyd olunmuşdur. Ərdəbil vilayəti ilə sərhəddir. Vilgic mahalı ərazisinin bir hissəsi Iran, bir qismi də Azərbaycan ərazisi tərkibindədir.

13. Qızlar. Rusiyanın Qroznı şəhərindən şimal-şərqdə Terek çayı deltasında olan bir şəhərdir. XVIII əsrdə Rusiyanın Qafqaz istehkamı xəttində sərhəd olmuşdur. 1785-ci ildə qəza mərkəzinə çevrilmişdir.

14. Cavad hazırda Sabirabad rayonunun Cavad kənd sovetinə daxildir.

15. Ağa Məhəmməd şah Qacar Cavadda deyil, Şuşa qalasında 1797-ci ildə may ayının 17-də şahın xidmətçilərindən gürcü Sadiq, isfahanlı Xudadad və mazandaranlı Abbas tərəfindən öldürülmuşdür.

16. Nəmin. Hazırda Iran ərazisində, Ərdəbil şəhərinin 25 km şimal-şərqində bir qəsəbədir.

17. Kədxuda. Kəndin inzibati işlərini idarə edən şəxs.

18. Qələbəyi-çəməni. 1829-cu ildə tərtib edilmiş xəritədə Qələbəyi-çəməni Astara mahalının qərbində, Talış dağları silsiləsinin Iran istiqamətində, Yuxarı Nəmin yolunun cənubunda qeyd olunmuşdur.

19. Dürşəhuni. «Əxbarnamə»dəki rəvayətlərdən anlaşıldığına görə bu yol Nəmindən hazırda Astara rayonundakı Tənkərud kəndinə gələn yolun bir hissəsini təşkil etmişdir. Qələbəyi-çəməni (bax: 18 №li qeyd) ilə Tənkərud kəndi (bax: 21 №li qeyd) arasında olmuşdur.

20. Ələşkər. Ələşkəran Qələbəyi-çəməni (bax: 18 №-li qeyd) ilə Tənkərud dərəsi (bax: 21 №-li qeyd) arasında göstərildiyi nəzərə alındıqda

qəti demək olar ki, bu kənd Astara rayonu ərazisində olmuşdur.

21. Tənkərud. Hazırda Astara rayonunda Tənkərud adlı bir kənd vardır. Tənkərud dərəsi də bu kənd yaxınlığından axan Təndəru çayının dərəsi olmalıdır.

22. Xolmli. Hazırda Lənkəran rayonunda Xolmili adlı kənddir.

23. Apur. Ehtimal ki, hazırda Lənkəran rayonunun Şürük kənd sovetində Aşağı Apu və Yuxarı Apu adlı iki kənddən biridir .

24. Şahağacı. Hazırda Astara rayonunda Şahağac adlı bir kənd vardır.

25. Köhnə Xanəgah. «Əxbarnamə»də Köhnə Xanəgah kəndinin Nəmin qalası yaxınlığında olduğunu nəzərə alsaq, onun Iran ərazisində yerləşdiyi aydın olur. Müəllifin haqqında danışdığı bu kənd Ərdəbilin 26 km şimal-şərqində olub Ərdəbil-Astara şose yolundan 2 km kənardadır.

26. «Iranı xaraba qoyan». Bu, Mir Mustafa xanın tüfənginin adıdır.

27. Ağac. Fərsəx və fərsəng də deyilir. Bir ağac təxminən 6 kilometrdir.

28. Turna döydü. Keçmişdə Azərbaycanda geniş yayılmış bir oyundur. Oyunda şah, vəzir, fərraş bir də müqəssir olur. Oyunda iştirak edənlər aşıq atır. Aşıq alçı dursa onu atan adam şah olur. Əgər toxan dursa onu atan şəxs vəzir olur. Aşıq bik durduqda onu atan adam fərraş, cik durduqda isə günahkar hesab edilir. Şahın əmri, vəzirin göstərişi ilə fərraş günahkarın əlinə müəyyən miqdarda turna vurur. Turna kətan parçadan eşilmiş dəyənəkdir.

29. Ənbəran. Ərdəbilin 30 kilometr şimalında böyük bir kənddir. Yuxarı və Aşağı Ənbəran adı ilə iki hissədən ibarətdir. Aşağı Ənbəran ilə Yuxarı Ənbəran arasında iki kilometr məsafə vardır. Ərdəbil-Nəmin dağ şose yolu üstündədir. Lənkəran rayonunun Şaqləsər kənd sovetində olan Separadi kəndinin cənubunda keçmişdə Amburanı adlı bir kənd də olmuşdur.

30. Riyal. Iranda gümüş puldur. 10 riyal 1 tüməndir. Bu hesab ilə Mirzə Əhmədin bəhs etdiyi dövrdə bir riyal 30 qəpik rus pulu dəyərində imiş.

31. Təliqə. Divanxana və ya digər idarə tərəfindən verilən rəsmi kağızdır.

32. Pənabadi. Qarabağda Pənahabad adlanan Şuşa qalasında Pənahxan tərəfindən kəsilmiş gümüş puldur. Xalq arasında panabad deyilir. XIX əsrin ikinci yarısında 1 pənabadi 16 qəpik rus pulu, yarım riyal Iran puluna bərabər olmuşdur.

33. Tərəssül. Keçmişdə Iran və Azərbaycan məktəblərində müxtəlif ünvanlara məktub yazmaq qaydalarını öyrədən dərslik – kitab olmuşdur.

34. «Came-i Abbasi» («Abbasın məcmuəsi») şiə məzhəbi prinsipləri əsasında yazılmış fiqh kitabıdır. Əsərin müəllifi Şeyx Bəhaüddin Amili səfəvilərdən II Şah Abbas zamanında (1642-1667) yaşamış alimlərindəndir.

35. Gilan. İranın şimalında Xəzər dənizi sahilində tarixi vılayət.

36. Rəşt. Gilan vilayətinin mərkəz şəhəri.

37. Kəskər. Şimali Iranda Fumən şəhristanına daxil olan bir kənddir.

38. Batman. Ağırlıq ölçüsüdür. Müxtəlif vaxtlarda ayrı-ayrı ölkə və vilayətlərdə müxtəlif vəzndə olmuşdur. XIX əsrin birinci yarısında Talışda bir batman 10 girvəngəyə və yaxud 4 kiloqrama bərabər olmuşdur.

39. Tümən. Iranda pul vahididir. XIX əsrin birinci yarısında Mirzə Əhmədin rəvayət etdiyi hadisələr zamanı bir tümən 3 manat rus pulu dəyərində olmuşdur.

40. Xarvar (= Xalvar). Ağırlıq ölçüsüdür. Xərbar farsca eşşəkyükü deməkdir. Müxtəlif dövrlərdə, ayrı-ayrı vilayətlərdə öz ağırlığına görə fərqli olmuşdur. Talışda XIX əsrin birinci yarısında 400 kq (25 pud) bərabər idi.

41. Aba. Keçmişdə Ərəb ölkələrində, Iran və Azərbaycanda paltarın üstündən geyilən xüsusi şəkildə tikilmiş qolsuz, geniş bir geyim idi.

42. Denyaçal. Hazırda Iran ərazisində Talış şəhristanının Rizvandeh rayonunda, Pəhləvi-Astara şose yolu üstündə yerləşən bir kənddir.

43. Əşrəfi müsəlman şərqində qızıl pul vahidi olmuşdur. Müxtəlif ölkələrdə və zamanlarda bir-birindən fərqli olubdur. XIX əsrdə Iranda bir Əşrəfi təxminən 3,45 qram ağırlığında imiş.

44. Fətəln şah Qacar (1797—1834) Ağa Məhəmməd şah Qacarın qardaşı oğlu, Qacar sülaləsinin ikinci şahıdır.

45. Isfahan. Iranın ən qədim və gözəl şəhərlərindən biri, Zayəndərud çayı üzərindədir.

46. «La Ilahə illəllah». Ərəb dilində «Allahdan başqa tanrı yoxdur» deməkdir.

47. Müctəhid. Islam dini və hüququnu dərindən bilən din alimınə müçtəhid deyilir. Müsəlman şiə ruhaniləri öz etiqadlarına görə bu və ya digər müctəhidə etiqad etməli, onun rəhbərliyini qəbul etməli dir.

48. Fərraş. Ərəb dilinin lüğət mənasında otaq döşəyən deməkdir. . Keçmişdə hökmdarların çadır və otaqlarını döşəmək və bəzəmək ilə məşğul olan xidmətçiyə deyilirdi. Sonradan səfəvilər və qacarlar dövründə Iran saraylarında «qəzəb fərraşı» və «xəlvət fərraşı» olaraq iki növ fərraş vardı. Qəzəb fərraşı hökmdarın əmrilə müqəssirləri cəzalandırır, xəlvət fərraşı ilə sarayın döşənib bəzənməsi və sair daxili işlərin icrası ilə məşğul olurdu. «Əxbarnamə»də xanın xidmətçisi mənasında işlədilir.

49. Divanxana. Hökumət idarəsinin olduğu yer.

50. Gərmətük. Hazırda Lənkəran rayonunda kənddir.

51. Gorganrud. Keçmiş Gorganrud mahalı hazırda Iranda Talış şəhristanına daxil nahiyələrdən biridir. Xəzər dənizi sahilində Pəhləvi ilə Astara arasında bu adda bir çay da var. Mahal adını bu çaydan almışdır.

52. Asalim. Talışda tarixi bir mahal olmuşdur. Türkmənçay

sülhündən sonra Iran ərazisnndə qalmışdır. Xəzər dənizn sahilindədir. Qərb hissəsi dağlıq olan Asalim hazırda Talış şəhristanındakı kənd rayonlarından biridir.

53. Drığ. Talış xanlığı - Lənkəran, Astara, Xanbili, Çayiçi, Ərkivan, Zuvand, Drığ, Səbideж (= Səfidəşt), Alar və Adınabazardan ibarət – 10 mahala bölünürdü. Hazırda keçmiş Drığ mahalınin çox hissəsi Lerik rayonu ərazisinə daxildir .

54. Zuvand Talış xanlığında dağlıq bir mahal olmuşdur. Hazırda keçmiş Zuvand mahalı Lerik rayonu ərazisinə daxildır .

55. Arşaq. Iranda Talış silsilə dağları ətəyində Xiyav şəhristanında olan Arşaq qəsəbəsi yerli əhali arasında Rəzi adlanır.

56. Qonçin. Keçmişdə Rus-Iran sərhədində Astara çayının sol tərəfində şose yolu üstündə Qonçi məhəllə adlı bir kənd, Astara rayonunun Artupa (Ardupa) kəndinin cənubunda olmuşdur. Ehtimal ki, Qonçin meşəsi də bu arada olmuşdur.

57. Şiləvar. Lənkəran rayonunda kənd. «Şilavar» şəklində tələffüz olunur. Hal hazırda Lənkəran şəhəri ərazisinə daxil edilib.

58. Vələdi. Hazırda Vələdi Lənkəran rayonu kəndlərindəndir.

59. Mordab. Talış dilində ölü su – bataqləq deməkdir. XIX əsrin Lənkəran şəhərinin şimal-qərbində olan böyük bataqlıq.

60. Denyaçal çayı. Eyni adlı kəndin (bax: 42 №li qeyd) ətrafında olmalıdır.

61. Uluf. Talış xanlığındakı tarixi mahallardan biri olan Uluf 12 hissədən ibarət olmuşdur. Bu mahal Lənkəran şəhərinin qədim sərhəddi olan Lekar körpusündən başlayaraq Bədəlan kəndinə qədər uzanır. «Əxbarnamə» muəllifi yazır. «Miyankuhdan başlayaraq Boradıgah, Bədəlan, Lənkəran və bir sıra başqa xırda kəndlər də Uluf mahalına» daxil olmuşdur. Bu toponimlərin hazırda Lerik, Masallı, Lənkəran rayonlarında olduğuna əsaslanaraq keçmiş Uluf mahalının hazırda bu üç rayon ərazisində olduğunu göstərir.

62. Miyankuh. Hazırda biri Masallı rayonunda, digəri isə Iran ərazisində Gorganrud nahiyəsində Miyankuh adlı iki kənd vardır. «Əxbarnamə»də qeyd olunan Masallı rayonundakı Miyanku olmalıdır.

63. Boradıgah. Hazırda Masallı rayonunun Boradıgah kəndidir.

64. Bədəlan. Hazırda Masallı rayonunun Bədəlan kəndidir.

65. Separadi. Hazırda Lənkəran rayonunda Separadi kənddir.

66. Girdəni. Lənkəran rayonunda Girdəni kəndidir.

67. Göytəpə çayı. Hazırda Cəlilabad rayonunda şəhər tipli Göytəpə qəsəbəsindən axan çaydır.

68. Daştvənd. Mənbələrdə Ərkivan mahalı bəzən Dəştvənd adlandırılır (dax: 4N-li qeyd).

69. Kələntər. Fars dilində böyük mənasını ifadə edən «Kalan» sözu və müqayisə dərəcəsini bildirən «tər» şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. Şəhərlərdə məhəllə rəislərinə kələntər deyilirdi. Iran və Azərbaycanda səfəvilərdən başlamış qacarlar hakimiyyətinə qədər hüquq və nüfüz dairəsinə görə az-çox fərqlənmiş olan «kələntər» sözü əsas etibarilə eyni mənada işlənmişdir. Bu vəzifə bəzən irsi olaraq keçirdi.

70. Qaradağ. Qaradağ mahalı şərqdən Muğan və Talış, cənubdan Ərdəbil, qərbdən Təbriz, şimal-qərbdən Araz çayı ilə sərhədlənirdi.

71. Şirvanat. Ərəbcə Şirvanın cəm şəklidir. Orta əsr mənbələrində Şirvan və ona tabe ölkələrə deyilirdi.

72. Xərxətan. bu kənd Lənkəran rayonununda mövcuddur.

73. Xalxal. Bu gün Hirovabad adlanan Xalxal şəhristanı şimaldan Ərdəbil, cənubdan Zəncan, şərqdən Talış dağları, qərbdən Sarab və Miyanə şəhristanları ilə sərhəddir. Mərkəzi şəhəri Hirovabad (=Xalxal)dır.

74. Hir. Ərdəbil şəhristanına daxil olan dəhistan (kənd rayon)lardan birinin mərkəzndir. Hir şimaldan Nəmin, cənubdan Kivi, şərqdən Talış, qərbdən Gorayim dəhistanları ilə sərhəddir.

75. Malcəhət. Torpaqdan istifadə üçün kəndlilər tərəfindən torpaq sahibinə verilən vergidir. Talışda XIX əsrin ortalarında rəncbərlər taxıl (arpa və buğda) əkinindən məhsulun 1/10 hissəsini, düyü bicarından isə məhsulun 1/5 hissəsini mülkədarlara malcəhət verirdi.

76. Rüstəmi Zal. Zal oğlu Rüstəm qədim Iran əfsanəsinə görə məşhur bir pəhləvan olmuşdur. Firdovsinin «Şahnamə»sindəki əsas qəhrəmanlardan biri olan Rüstəm qəhrəmanlıq rəmzidir.

77. Qaratikanlı. «Əxbarnamə»də verilən məlumatdan anlaşılır ki, Qaratikanlı Ərkivan kəndi ətrafında olmuşdur.

78. Səfidəşt (=Sabidəж). Mirzə Əhməd Ucarud ilə Səfidəştin eyni olduğunu qeyd edir. Lakin 1828-ci ildə tərtib edilmiş Talış xəritəsində Ucarud və Səfidəşt iki müstəqil mahal göstərilir. Keçmiş Ucarud mahalının bir hissəsi hazırda Cəlilabad rayonuna daxildir. Səfidəşt mahalı ərazisi isə bu gün Yardımlı rayonunun tərkibindədir.

79. Qarabəy. Sonradan Qaraxan adı altında tanınmış Qarabəy Talış hakimi Mir Mustafa xanın (1787-1814) atasıdır. Qaraxanın əsil adı Cəmaləddin Mirzəbəy olmuşdur. O, 1787ci ildə vəfat etmişdir.

80. Xıl. Hazırda Masallı rayonunun Xıl kəndidir.

81. Hidayət xan. Fumənli hacı Camal xanın oğlu Gilan hakimi Hidayətullah xandır. Təxminən 1786-cı ildə Ağa Məhəmməd şah ilə vuruşmada məğlub olub, Ənzəlidən Bakıya qaçarkən öldürülmüşdür.

82. Mazandaran. Iranın şimalında, Xəzər dənizinin cənubunda sahil boyu uzanmış dağlıq bir vilayətdir. Elburs dağları Mazandaran vilayətinə daxildir.

83. Şiraz. Iranın cənubunda olan Fars vilayətinin mərkəzi şəhəridir. Sədi və Hafiz kimi böyük şairlərin vətəni olmuşdur.

84. Lömir. Iran ərazisindəki Talışda biri Asalim nahiyəsində, digəri şimali Gorganrudda iki Lömir kəndi vardır. Bu kəndlər Ənzəli-Astara şose yolu üstündədir.

85. Rudəkənar. Astara rayonunun kəndidir.

86. Sipehkəran. Ehtimal ki, Lənkəran rayonunun Səpnəkəran kəndidir.

87. Ceyd. Ərdəbil şəhristanının Nəmin rayonunda, Ərdəbildən 30 km şimal-şərqdə bir dağ kəndidir.

88. Lələ. Saraylarda şahzadələrin fiziki və mənəvi tərbiyəsi ilə məşğul olan şəxsə deyilirdi. Ümumiyyətlə, tərbiyəçiyə lələ deyilirdi. Osmanlılarda soltan, vəzir və paşalara müraciət edərkən adətən onların adlarının əvvəlinə «lələ» sözünü də əlavə edirdilər.

89. Xombelani. 1926-cı ildə Lənkəran qəzasınında Xombelani adlı bir kənd qeyd olunmuşdur. Hazırda isə Xunbulanı kəndi vardır.

90. Vaqoy. Hazırda Astara rayonunun Vaqo kəndi olmalıdır.

91. Lisar. Iran ərazisində Talış şəhristanının mərkəzi rayonunda Lisarhərədəşt nahiyəsində bir kənddir. Lisar kəndi Ənzəli-Astara şose yolu ilə Xəzər dənizi arasındadır.

92. Talar. 1.Ağac və ya daşdan olan dörd sütun üzərində tikilmiş ev; 2. Qəbul salonu.

93. Şindan. Astara mahalının cənub-şərqində, Talış silsilə dağlarının Ərdəbil ilə Astara arasındakı hissəsində olan qala. Şindan qalası Astara hakimlərinin istehkamı olmuşdur. Ağqoyunlu Uzun Həsən (1466-1478) Astara hakimi Əmirə Sultanı cəzalandırmaq üçün qoşun göndərdiyi zaman o Şindan qalasına sığınmışdı. Bu qala Səfəvilər dövründə də strateжi əhəmiyyəqə malik bir istehkam olmuşdur. Astara hakimi Əmir Həmzə xan I Şah Abbasa (1587-1628) müxalifətdə olduğu zaman Şindan qalasına sığınmışdı. Əmir Həmzəni cəzalandırmaq üçün göndərilən Ərdəbil hakimi qaramanlu Zülqədər xan bu qalanı 9 ay mühasirədə saxladığına baxmayaraq onu ala bilməmişdi. Qalanı Biyəpəs hakimi Hüseyn xan Şamluya təslim edən Əmir Həmzə xan Şirvana getdikdən sonra şah Şindan qalasını Astara və Lənkəran ilə birlikdə Zülfüqar xana vermişdi.

94. Gilək. Xəzər dənizinin cənubunda Iranın Şimal vilayətlərindən olan Gilanda yaşayan yerli əhalidir. Gilək tayfaları dil etibarilə qərbi Iran dilləri qrupuna daxildir.

95. Şeyxülislam. Azərbaycanda müsəlman şiə ruhanilərinin başçısı.

96. Ənzəli. Xəzərin cənubunda Iran liman şəhərlərindən biridir.

97. Üç Xəlifə. Xəlifə ərəbcə nayib, əvəz edən deməkdir. Məhəmməd Peyqəmbər ölümündən sonra yaranmış xilafəti idarə edən dörd

xəlifə (632-661) Əbubəkr (632-634), Ömər (634-644), Osman (644-656) və Əli (656-662) nəzərdə tutulur. Şiələr Məhəmməddən sonra xəlifəliyin irsi olaraq Əliyə keçməsini tələb edirdilər. Ona görə də Əlidən əvvəlki üç xəlifəni qanunsuz hesab edirlər.

98. «Dəmir mıx daşa getməz!». Sədinin «Gülüstan»ında ikinci babın 19-cu hekayəsindəndir.

99. Gilanlı Hidayət xan (bax: 81 N li qeydə). Rəşt dənizi deyildikdə Xəzər dənizinin cənubu nəzərdə tutulur.

100. Fətəli xan Qacar Ağa Məhəmməd şahın bacısı oğlu deyil qardaşı Hüseynqulu xan Qacarın oğludur. Ağa Məhəmməd şah onu öz sağlığında nayibüssəltənə təyin etmişdi

101. Rzaqulu xan Qacar Fətəli şahın deyil, Ağa Məhəmməd şahın qardaşıdır. O da qardaşı Murtuzaqulu xan kimi Ağa Məhəmməd şahla mübarizə aparmışdır.

102. Murtuzaqulu xan Qacar qardaşı Ağa Məhəmməd xanla hakimiyyət uğrunda mübarizə aparırdı.

103. Ərcivan. Hazırda Astara rayonunun Ərcivan kəndidir.

104. Beluc. Pakistanda Sind vilayətinin qərbində və Pəncab vilayətinin cənub-qərbində yerləşən Belucistanın əsas xalqıdır.

105. Iraq. Dünyanın ən qədim mədəniyyət ocaqlarından olan Iraq Iran ilə Ərəbistan yarımadası arasında yerləşən bir ölkədir. Bu qədim ölkə Ərəb Iraqi və Əcəm Iraqi adı altında ikiyə bölünürdü. Mərkəzi Bağdad şəhəri olan Ərəb Iraqi ərazisində bu gün gənc Iraq respublikası yaranmışdır.

Əcəm Iraqi isə Iranın geniş vilayətlərindən biri olmuşdur. Əcəm Iraqin mərkəzi şəhəri Isfahan olmuşdur. «Əxbarnamə»» də müəllif Əcəm Iraqindən bəhs edir.

106. Nadirin tarixi. Nadir şahın (1736-1747) münşisi astarabadlı Mirzə Mehdi xan tərəfindən yazılmış və Nadirin müharibələrindən bəhs edən «Cəhanqoşaye Nadiri» əsəri nəzərdə tutulur.

107. Qızılbaş. «Əxbarnamə»də qızılbaşlardan danışılarkən Qacar dövləti nəzərdə tutulmuşdur. Əslində isə qızılbaşlıq səfəvilərin meydana gəlməsi ilə əlaqədardır. Səfəvi dövlətinin yaranmasında fəal iştirak edən Ərdəbil şeyxləri və onların müridləri başlarına 12 dilimli qırmızı çalma sarıdıqlarından onlara qızılbaş deyilirdi.

108. Rzaqulu Hidayət Ağa Məhəmməd şah ilə qardaşı Murtuzaqulu xan arasındakı müharibələrdən danışarkən Şahpələngin cəsarətli bir sərkərdə olduğunu xüsusi qeyd edir. Şahpələng Iran qoşununa qəflətən gecə basqını edərək onları məğlub etmişdi.

109. Mirzə Əhməd əsərdə Ağa Məhəmməd şah əvəzinə yanlış olaraq Fətəli şahdan bəhs edir. Şahpələngin iştirakı ilə Murtuzaqulu xanın

Gilanda qacar qoşununu məğlub etməsi təxminən 1787-ci ilə təsadüf edir. Bu dövrdə Ağa Məhəmməd şah  (1779-1797) hələ sağ idi.

110. Mir Mustafa xan Talışda 1787-ci ildən 1814-cü ilə qədər yəni 27 il hakimiyyət sürmüşdür.

111. Mirzə Əbülqasim Qayimməqam Fərahani. Qacar dövrünün məşhur diplomatlarından Mirzə Büzürk adı ilə tanınmış olan Qayimməqam Mirzə Isa Fərahaninin oğludur. Məhəmməd şah tərəfindən öldürülmüşdür.

112. Mir Mustafa xanın Qəmər Ağa, Böyük xanım, Səkinə xanım və Bəyim xanım adlı dörd qızı olmuşdur.

113. Məhəmməd Əli Mirzə (1789-1821) Fətəli şahın böyük oğludur.

114. Babalı xan. Lənkəran qalasındakı Iran sərbazlarının sərkərdəsi idi. 1812-ci ilin dekabr ayında rus ordusu Kotyarevskinin komandası altında qalaya yürüş edərkən məğlub olan Iran qoşunu Babalı xan və Əsgər xanın sərkərdəliyi altında şəhərdən çəkilib getmişdi.

115. Şandermen. Iran ərazisində Talış şəhristanının  Masal-Şandermen rayonlarından biridir. Şandermen rayonu şimaldan Xoşaber, cənubdan Masal, şərqdən Kəsgər, qərbdən Talış və Xalxal ( = Herovabad) arasındakı dağlarla sərhədlənir. Mərkəzi Cüməbazar qəsobəsidir.

116. Masal Iranda Talış şəhristanının Masal-Şandermen rayonlarından biridir. Masal rayonu şimaldan Şandermen, cənubdan Fumənin Taniyan bölüyü, şərqdən Kəsgər, qərbdən Xalxal ilə Talış arasındakı silsilə dağlarla hüdudlanır. Bu rayonun şərqi çöllük, qərb hissəsi isə dağlıqdır.

117. Şift.  Iranın şimalında Fumən şəhristanının mərkəzində olan dörd nahiyədən biridir. Mərkəzn Şift qəsəbəspdnr.

118. Dolab Talışı. Iran ərazisində Talış şəhristanındakı beş bölükdən biri Dolab Talışıdır. Şimaldan Asalim, cənubdan Şandermen, şərqdən Dolab Gili, qərbdən Xalxal və Xəzər dəinizi arasındakı dağlar ilə sərhəddir.

119. Kərbəlayi Əsədulla. Mir Mustafa xan  1795-ci ilin oktyabr ayında, rusiyadan yardım almaq üçün Kərbəlayi Əsədulla bəyi ora elçi göndərmişdi.

120. Fenaşinpurx. Mirzə Əhmədin bəhs etdiyi bu dövrdə Rusiyada II Yekaterina (1762 - 1796) çarlıq edirdi.

121. Yeqor balası. Şəxsiyyətini müəyyən edə bilmədik. Ehtimal ki, rus hərbi məmurlarından biridir.

122. Bəlləbur. Hazırda Lənkəran rayonunda Ballabur kəndi var. Onun yanında  yüksələn dağin üstündə  Bəllabur qalası qalıqları mövcuddur.

123. Çayiçi Talış xanlığındakı 10 mahaldan biridir. Çayiçi bu gün Lənkəran rayonuna daxildir.

124. Nökər. Bu gün adi ev xidmətçisi mənasını ifadə edən nökər istilahı monqolca dost məfhumunu bildirən «nökər» sözündəndir. Xanlıqlar dövründə Azərbaycan xanlarının xidmətində olan nökərlər də xana sədaqətlə

qulluq edən silahlı adamlardan ibarət idi. Xan adətən onlara müəyyən vəzifələr verir və torpaq sahələri ilə təmin edirdi. Mirzə Əhməd və onun atası Mirzə Xudaverdi də Mir Mustafa xanın belə nökərlərindək idi.

125. Daruğa. Mənşəyi etibarilə monqol feodal cəmiyyətində meydana gəlmişdir. Daruğa hərbi və mülki işlərin idarəsi ilə məşğul olurdu. Vergilərin vaxtında toplanmasına da daruğa nəzarət edirdi. Sonralar Iran və Azərbaycanda daruğaların hüququ getdikcə məhdudlanır, onlar artıq hərbi işlərə qarışmırlar. Səfəvilər dövründə daruğanın vəzifəsi bütöv şəhərin və ya bir məhəllənin daxili inzibati işlərinə nəzarət etmək və orada əmin-amanlığı təmin etməkdən ibarət idi . Azərbaycan xanlıqlarıpda da daruğa əsasən bu son vəzifəni icra etdirdi. Bu istilah Azərbaycanda darğa şəklində tələffüz edilir.

126. Kosalar. Hazırda Lənkəran rayonunun Kosalar kəndidir.

127. Suxtamurdab. Lənkəran rayonunda Sutamurdov adlı bir kənd var. Ehtimal ki, Suxtamurdov çayı vaxtilə bu kəndin yaxınlığından axırdı.

128. Gamışavan. Gamışavan adası Lənkəran rayonunda hazırda Liman qəsəbəsində olmuşdur. Buradakı Olxovka kəndi də keçmişdə Gamışavan adlanırdı.

129. Şahsevən. «Şahi sevən gəlsin» cümləsinin qısaldılmış şəklidir. Şahsevənlik I Şah Abbas dövründə meydana gəlmişdir. Şaha tabe olmayıb müxalifət göstərən üsyançı qızılbaş əmirləri ilə mübarizədə şah tərəfdarları olan və müəyyən imtiyazlar alan qəbilələr «Şahsevən» adlanırdı. Müxtəlif qəbilələrdən ibarət olan şahsevənlər Muğanda, Iran Azərbaycanında, Əcəm Iraqda və Farsda yaşayırlar.

130. Mir Hüseyn xan. Mir Mustafa xanın ikinci oğludur. Mir Mustafa xanın 10 oğlu vardı: Mir Həsən xan, Mir Hüseyn xan, Mir Məmmədxan. Mir Abbas bəy, Mir Ismayıl bəy, Mir Əsgər xan, Mir Heydər xan, Mir Kərim bəy, Mir Talıb bəy və Mir Həmid xan.

131. Şürük. Hazırda Lənkəran rayonunda Şürük kəndidir.

132. Viyan. Hazırda Viyan kəndi Lənkəran rayonunun kənddir. Lakin Mirzə Əhmədin bəhs etdiyi Viyan Kərmətük kəndinin bir hissəsi olmuşdur. Kərmətük kəndi də hazırda həmin Lənkaran rayonunun kəndidir.

133. Dizdəmeşə. 1926-cı ilin siyahısına görə Lənkəran qəzasının Siyaku kənd sovetinə daxil idi.

134.Sərdabəyi Xil. Çox ehtimal ki, müəllifin qeyd etdiyi bu yol üzərində qəbiristan olmuşdur. Mirzə Əhməd yazır: «Mir Mustafa xan istəyirdi ki, Lənkəran çayını keçib Sərdabəyi Xil yolu, yəni Şiləvar və Digah kənd yolu ilə özünü Gamışavan səngərinə çatdırsın». Digah və Şiləvar kəndləri hazırda Lənkəran rayonunun ərazisində olduqların nəzərə alsaq, Sərdabəyi Xil yolunun da Lənkəran rayonununda həmin kəndlər tərəfdə olduğunun ehtimalı çoxalır.

135. Digah. Hazırda Lənkəran rayonununda Digah adlı kənd var.

136. Şabəkünci. Mirzə Əhmədin yazdığına görə bu kənd Şiləvar və Digah yolu üstündə olmuşdur. Bu yol hazırda Lənkəran rayonunda Olxovka adını daşıyan keçmiş Gamışavan kəndi ətrafındakı səngərə gedirmiş. Hazırda Lənkəran rayonunda Şaqləküçə adlı bir kəndi var.

137. Uğurlu saat seçmək. Qədim və orta əsrlərdə mövcud olan etiqada görə guya insanların taleyi səyyarələrlə bağlıdır. Ona görə də münəccimlər üstürlab (horoskop) vasitəsilə ulduzların hərəkətini müşahidə edir.

138.Veravul. Lənkəran rayonunun Vilvan kəndidir.

139. Kulas. «Kulas» və yaxud «Kulaz» Azərbaycanda bütöv ağacdan qazılmış alt hissəsi yastı, çayda və dayaz sularda üzə bilən qayığa deyilirdi.

140. Sarı mayor. Azərbaycanda yerli əhali arasında general mayor Kotlyarevskiyə verilən ad.

141. Qumbaşı. Hazırda Lənkəran ərazisində kənddir.

142. General Rtişşev 1812-ci il dekabrın birində general mayor Kotlyarevskiyə Lənkəranı Qacar qoşunlarından təmizləmək üçün göstəriş verir. Dekabrın axırlarında üç batalyon soldat ilə Lənkərana gələn Kotlyarevski 1813-cü ilin yanvarın 1-də qalanı alır.

143. Mir Mustafa xan 1814-cü il iyul ayının 26-da vəfat etmişdir.

144. Mir Mustafa xandan sonra yerinə onun böyük oğlu Mir Həsən xanın keçməsini Rusiya dövləti də təsdiq etmişdi.

145. Bulqakov. Podpolkovnik Bulqakov Talış xanlığında yerləşdirilən rus qoşunlarının rəisi idi.

146. Fəxrənnisa xanım Mir Mustafa xanın arvadı idi.

147. Yuxarı Dingəvin. Hazırda Lerik rayonunda Şivlə şəklində qeyd olunmuş sabiq Şavlik kəndinin cənubunda Yuxarı Dingəvin və Aşağı Dingəvin adlı iki dağ kəndi olmuşdur. Yuxarı Dingəvin Aşağı Dingəvinin cənubunda yerləşirdi.

148. Ilinski. Mayor Ilinski Talışın komendatı idi.

149. Perembel. Hazırda Yardımlı rayonunun kəndidir.

150. Seybətin. Hazırda Seybətin Masallı rayonunun kəndidir.

151. Rum. Islamiyyətin ilk dövrlərində müsəlmanlar mərkəzi şəhəri Konstantinopol olan Şərqi Roma vilayətinə Rum deyirdilər. Səlcuq türklərinin istilası nəticəsində islam dinini qəbul etmiş olan Anadolu ərazisi də ərəb müəllifləri tərəfindən Rum adlandırılırdı. Sonralar Anadoluda yaranmış Osmanlı dövlətinə də Rum dövləti deyilirdi. «Əxbarnamə»də Rum keçmiş Osmanlı dövləti deməkdir.

152. Boladı. Hazırda Lənkəran rayonunun Boladı adlı kəndidir.

153.Rva. Hazırda Lənkəran rayonunun Rvo adlə kəndidir.

154.Miyankuh. Miyanku kəndi hazırda Masallı rayonunun kəndidir.

155.Ləkər. Hazırda Lerik rayonunda Ləkar adlı kənd və çay vardur.

156. Veri. Hazırda Lerik rayonunda həmin adda kənd vardır.

157. Rozqah. Hazırda Lerik rayonunun kəndidir.

158. Monidigah. Hazırda bu kənd Lerik rayonunu ərazisindədir.

159. Beytin mətni belədir:

Şəbpəre baziqəre-meydan şəvəd
Mehre-derəxşənde çu ponhan şəvəd

160. Siqdəşt. Hazırda Masallı rayonunun Sığdaş (Siğdəşt-in tərif olunmuş forması) adlı bir kənd vardır. Guman ki Siqdəşt dağı da bu kəndin yaxınlığında olmalıdır.

161. Muzekin. Çar məmurlarından olmuşdur. Muzekin şübhəsiz təhrif edilmiş rus familiyasıdır. Biz onu düz oxuya bilmədiyimiz üçün şəxsiyyətini də müəyyən etmək mümkün olmadı.

162. Şıxlar. «Əxbarnamə»dəki hadisələrin cərəyan etdiyi ərazidə hazırda üç Şıxlar kəndi qeyd olunur. Bunlardan biri Cəlilabad, ikisi isə Masallı rayonlarının ərazilərindədir.

163. Yeddioymaq. Hazırda Masallı rayonu ərazisində Xəzər dənizi sahilində bir-birinə yaxın iki, Bolgarşay ilə Araz arasında İran sərhədinə yaxın bir Yeddioymaq kəndi qeyd olmuşdur.

165. Kolatan. Hazırda Masallı rayonunun kəndidir.

164. Haşımxanlı. Hazırda Sabirabad rayonunda bir Haşımxanlı kəndi vardır. 1920-ci ilin siyahısında Salyan qəzasında iki Haşımxanlı kəndi qeyd olunmuşdur. Bunlardan biri Hacıqabul, digəri Petropavlovka inzibati sahəsində idi.

166. Həmidxanlı. Yerini müəyyən edə bilmədik.

167. Suxtaçay. Yerini müəyyən edə bilmədik.

168 .Viləşçay Talış dağlarından axıb Yardımlı və Masallı ərazisindən keçən Viləşçay Boradıgahın şimalından Xəzərə tökülür.

169 . Mahmudabad. Hazırda Masallı rayonunda Mahmudavar adlı bir kəndi vardır. Keçən əsrin axırlarında Salyanın yaxınlığında Kür ilə Akuşanın birləşdiyi yerdə Mahmudabad adlı bir kənd olmuşdur.

170 Yabuqıran. Müəllifin verdiyi məlumata görə Xəzər dənizində kiçik bir ada olmuşdur. Sonralar dənizin suyu çəkildikdə quruda qalmışdır. Bu sahədə vaxtilə Göytəpə malakanlarının qışlağı olmuşdur. Göytəpənin bugünkü Göytəpə şəhəri olduğunu nəzərə alsaq, Yabuqıranın bu şəhərin yaxınlığında yerləşdiyini güman edə bilərik.

170. Sinəbaşı. Lənkəranın şimalında Xəzər dənizindəki Sarı adasında bir yer olmuşdur. Sinəbaşı Sarı adasının cənub-qərb sahilində Boladi kəndinin qarşısında idi . Mirzə Əhməd də bu yerin dəniz sahilində Lənkəran şəhərinin şimalında şəhərdən bir saatlıq məsafədə olduğunu qeyd

edir.

171.Bərbərlər. Bərbərlər Şimali Afrikada yaşayan qədim tayfalardır ki, ərəb istilasından sonra islam dinini qəbul etmişlər. Iranda Urmiya mahalında Baranduzçay kənd bölüyündə Bərbəran (yəni bərbərlər) adlı bir kənd də var (Fərhənqe coğrafiya, IV c.). Çox ehtimal ki, «Əxbarnamə»də haqqında danışılan dərviş bərbər məhz Bərbəran kəndindəndir.

173.Maruşlu. Hazırda Salyan rayonunda Marışlı adlı bir kənd vardır. Lakin Mirzə Əhmədin bəhs etdiyi Maruşlu meşəsi Lənkəran yaxınlığında olmalıdır. Fəyyaz Axundov. Keçən əsrin ikinci yarısında tərtib edilmiş xəritədə Maruşlu kəndi Girdəni kəndinin cənubunda Lənkəran şəhərinin şimalında qeyd olunmuşdur. Yəqin ki, Maruşlu meşəsi də sabiq Maruşlu kəndi ətrafında idi.

174. Xüşgəpüştə. Mirzə Əhmədin verdiyi məlumata görə Lənkəran şəhəri ətrafında olmalıdır.

175. Giləklər məhəlləsi. Lənkəran şəhərindəki Kiçik Bazar adıilə tanınan hissəsidir.

176. Sarı. Lənkərandan şimalda Xəzərdə sahilə yaxın bir ada olmuşdur. Hazırda yarımadaya çevrilən Sarı adası xəritələrində Sara şəklində qeyd olunur.

177. Minabad. Ərdəbildən 30 km şimal-şərqdə, Ərdəbil-Astara şose yoluna yaxın bir dağ kəndidir.

178. Siyahkuh. Hazırda Astara rayonunda Siyaku adlı kənd vardır.

179. Sünni. Sünnə – sünnət ərəb sözü olub bir neçə mənası vardır. Sünni məzhəbinin adı sünnə sözünün mənalarından biri, yəni Məhəmmədin qoyduğu qanun və qaydalara riayət etmək ilə bağlıdır.

180. Hərəmxana. Keçmişdə hökmdar, xan, bəy və s. əyan silkinə mənsub şəxslərin evləri iki hissədən ibarət olurdu. Qadın və uşaqların yaşadığı hissəyə hərəmxana deyilirdi.

181. Beytin farsca mətni:

Əgər şire-yezdan dəhəd raunəqəm.
Be Qestəntiniyyə zənəm berəqəm.
(qeyd: Qestəntiniyyə bugünkü Istambuldur).

182. Siyahlələ. 1917-ci ildə Lənkəran qəzasının Astara polis sahəsindəki Tənkərud kənd bölüyündə Siyahlivə adlı bir kənd qeyd olunur . Ehtimal ki, əsərdə bu kənd nəzərdə tutulur.

183. Lüvəsər. Hazırda Lənkəran rayonunda kənddir. 1509-cu ildə bu kəndin bir qala olduğu və Ləvasər adlandığı haqda tarixi məlumat vardır.

184. Qızılağac. Hazırda Masallı rayonunda Qızılağac adlı kənd vardır.

185. Hüseynhacılı. Hazırda Masallı rayonunun kənddir.

186. Şahsevən. Şahsevən kəndi Qızılağaca yaxın olmuşdur.

187. Aşura günü. Hicrətin 61-ci ili Məhərrəm ayının 10-cu ( = 680-cı il. 10. X) günüdür.

188. Abbas Mirzə (1789—1833). Fətəli şah Qacarın oğlu və vəliəhdi, şahın Azərbaycan nayibi olmuşdur. Nayibüssəltənə Abbas Mirzə Iranın dövlət işlərində, xüsusilə xarici siyasətində böyuk rol oynamışdır. O, birinci (1804-1813) və ikinci (1826-1828) Rusiya-Iran müharibələrində və həmçinin Iran-Türkiyə (1821-1823) müharibəsində Iran ordusuna rəhbərlik etmişdir.

189. Meşkin. XVIII əsrin ortalarında ərazi etibarilə kiçik, iqtisadi cəhətdən zəif bir mahal mərkəzi olan Meşkin şəhəri Ərdəbilə tabe idi. Lakin sonradan şahsevən Nəzərəli xanın oğlu Nəsir xanın idarəsində, qarabağlı Ibrahim xan Cavanşirə tabe, ayrıca mahala çevrilmişdir. Hazırda yeni adı Xiyavdır. Xiyav şəhristanı şimaldan Ərdəbilin Gərmi rayonu, cənubdan Savalan dağları silsiləsi, şərqdən Ərdəbilin Vilgic mahalı, qərbdən isə Əhər şəhristanı ilə sərhəddir.

190. Həmşərə. «Cavahirnameyi Lənkəran» əsərində Həməşərə mülki Yeddioymaq sahəsində Şəhriyar kəndi yaxınlığında göstərilir.
Talış xanlığına həsr edilmiş, əsərdə «Muğan boyu 35 verstlik bir sahədə axan, Xəzər dənizinə çatmamış bataqlıq təşkil edib qamışlıqda itən» Həməşərə adlı çaydan bəhs edir və burada böyük torpaq bir istehkamın da mövcud olduğunu əlavə edir. Deyilənlər və «Əxbərnamə»nin mətnindən tam ayddın olur ki, əsərdə adı çəkilən Həmşərə Biləsuvar rayonunun qərbində, Şəhriyar şəhəri xarabalıqları yanında olan ərazidir. Bu ərazidə Ərdəbildən və Lənkarandan Səlyan istiqamətində qələn yollar birləşir, hələ sasani şahları dövründə salınan böyük istehkamlar mövcuddur. Güman ki, bataqlıqlara tökülən Həmşərə çajıda Biləsuvar çayıdır.

191. Axtarma. Müharibə vaxtı düşməndən alınan qənimət .

192. I.F. Paskeviç (1782—1856). Çar ordusu general feldmarşalı. 1826-cı ildən Rusiya Qafqaz ordusu komandanı. 1827-ci ildə Qafqaz canişini A.P. Yermolovu (1817-1827) əvəz edib, 1832-ci ilə kimi bu vəzifədə qalmışdır. I.F.Paskeviç Təbriz şəhərini almış və Türkmənçay sülh müqaviləsinin imzalanmasına zəmin yaratmışdır.

193. 1827-ci il oktyabr ayınıi 13-də ruslar Təbriz şəhərini döyüşsüz almışdı. Şəhəri idarə üçün yerli əhalidən və rus komandanlığı nümayəndələrindən ibarət müvəqqəti idarə heyəti təşkil edilmişdi, Şəhər komandanlığına polkovnik Bursev təyin edilmişdi.

194. Mir Fəttah Ağa. Təbrizin məşhur ruhanilərindən olmuşdur. Ikinci Rusiya-Iran müharibəsi dövründə ruslar Təbrizə yaxınlaşdığı zaman ruslar tərəfinə keçmiş, şəhərin müharibəsiz ruslara təslim olunmasına yardım etmişdi. Türkmənçay sülhündən sonra Rusiya himayəsinə keçib Tiflisə köçmüş və burada yerli əhali arasında Rusiya lehinə təbliğat aparmağa

başlamışdı. Bu xidmətinə qarşı çar hökuməti ona şimali Azərbaycanda bir sıra kəndlər və mülklər vermişdi. Müsəlman əhalisi arasında böyük nüfuza malik olan Mir Fəttah Ağa xalqı Rusiya dövlətinə sədaqətlə xidmət etməyə, onun ictimai-siyasi tədbirlərinə tabe olmağa çağırırdı. Lakin bəzi səbəblərə görə təxminən 11 il Rusiya dövlətinə xidmət edən Mir Fəttah Ağa, 1839-cu ildə Rusiyadan üz çevirərək yenə də Irana qayıtmışdı.

195. Xoy. Hazırda Iranda bir şəhristan mərkəzi olan Xoy şəhəri vaxtilə Xoy xanlığının mərkəzi olmuşdur. Bu xanlıq XVIII əsrin sonlarında şimaldan İrəvan və Naxçıvan, şərqdən Təbriz, cənubdan Urmiya xanlıqları, qərbdən isə Türkiyə ilə sərhəd olmuşdur.

196. Miyanə. Iran şəhərlərindəndir. Təbrizdən 175 km cənub-şərqdə Səfidrud çayının şərqində qədim bir şəhərdir. Zəncan, Tehran və Xalxal yolları ortasında olduğundan Miyanə (yəni orta) adlandırılmışdır.

197. Səlmas. Iranda Urmiya gölünün şimal-qərbindəki Şahpur şəhərinin keçmiş adı Səlmas olmuşdur.

198. Kürur. Bir kürur 500 minə bərabərdir. Yeddi kürur isə 3 milyon yarımdır.

199. Xalisə. Ərəbcə saf, təmiz deməkdir. Ictimai-iqtisadi termin olaraq müxtəlif yerlərdə bir-birindən fərqli olaraq torpaq mülkiyyəti mənasında işlənmişdir. Keçmişdə Azərbaycanda tam mülkiyyət hüququna malik olan yerlər belə adlanırdı.

200. Mir Həmid xan. Mir Mustafa xanın oğlu, Mir Həsən xanın qardaşıdır.

201. Karsov. Mayor Kartsevin şəxsiyyətini müəyyən edə bilmədik.

202. Mir Kazım bəy. Mir Mustafa xanın nəvəsi, Mir Həsən xanın oğludur.

203. Camışavan. Gamışavan kəndi (bax: №128-li qeyd).

204. Ismayıl bəy. Mir Həsən xanın qardaşı Mir Ismayıl bəydir.

205. Darğakəndi. Hazırda Lənkəran rayonunda Darquba adlı bir kənd vardır. Bu gün Darquba şəklində tələffüz edilən bu kəndin keçmişdə Darqaoba olduğuna da şübhə ola bilməz. Aşağıda qeyd etdiyimiz iki əsas bizi «Əxbarnamə»dəki Darğakəndinin hazırkı Darğuba olduğunu ehtimal etməyə imkan verir.

a. Kənd - bir yerdə sabit olaraq həyat keçirən kəndlilərdən, oba isə yarım oturaq köçəri elatdan ibarət olmuşdur. Hər iki söz – «kənd» və «oba» az-çox fərqlərinə baxmayaraq əsas etibarilə eyni məfhumu bildirir.

b. «Əxbarnamə»də qeyd olunmuş Darğakənd Lənkəran şəhərindən çox da uzaq deyildir. Lənkəran şəhərini tərk edən Mir Həsən xan bu kəndə çəkilmiş, sonra buradan şəhəri mühasirəyə almışdı. Darquba kəndi də Lənkəran yaxınlığındadır.

206. Qərəyçi oba. Keçmişdə Lənkəran şəhərinin cənub-qərbində, Qaraçılar adlı bir kənd olmuşdur. Lənkəran şəhərinin cənub-qərbində Qərəyçioba və yaxud Qərəyçi məhəllə adlı bir yer ədəbiyyatda da qeyd edilmişdir.

207. Köhnərud. Yerini müəyyən edə bilmədik.

208. Viləpüştə. Yerini təyin edə bilmədik.

209. Piləkələ və yaxud piləkəllə yekəbaş deməkdir.

210. Bibiyanı. Hazırda Lerik rayonunda bu adda kənd var.

211. Fətəli xan Nuri. Fətəli şah Qacar (1797-1834) dövrünün rütbəli və saraya yaxın adamlarındandır.

212. Ciləvənd. Iran ərazisində Astara çayının cənubunda Xəzər sahilində bir kənddir .

213. Kanrud. Bu kənd Iran ərazisində Xəzər dənizi sahilində Astara çayının cənubundadır.

214. Levendevil. Iran ərazisində Astara çayının cənubunda Xəzərin sahilində Kanrud ilə Ciləvənd kəndləri arasında bir kənddir.

215. «Iskəndər səddi». Möhkəm keçilməz divar deməkdir.

216. Mirzə Əhməd A. S. Qriboyedovu (1795-1829) nəzərdə tutur.

217. Mütribbaşı. Mütrib – müğənni, çalğıçı və rəqqasə deməkdir. Mütribbaşı şahların, xanların və sair əyanların saray və imarətlərindəki rəqqasə və çalğıçılar dəstəsinin başçısına deyilirdi.

218. Hacı Mir Abbas bəy. Mir Mustafa xanın oğlu və Mir Həsən xanın qardaşıdır.

219. Xələc. «Əxbarnamə»dəki hadisələrin cərəyan etdiyi yerdə hazırda iki Xələc kəndi vardır - Azərbaycanda Şirvan rayonunda və Iranda Məşkin (=Xiyav) şəhəristanında.

220. Səfidrud. Mirzə Əhməd Səfidrud mahalının Rəştdə olduğunu qeyd edir. Iranda yeni inzibati bölgüyə görə 1-ci ostanda olan yeddi şəhristandan biri də Rəştdir. Şimaldan Ənzəli və Xəzər dənizi, qərbdən Fumən, şərqdən Lahican, cənubdan Zəncanvə Qəzvin şəhristanları ilə sərhədlənən Rəşt şəhristanında Səfidrud adlı bir çay vardır. Ehtimal ki, keçmişdə Səfidrud çayı ətrafındakı ərazi bu çayın adını daşıyan bir mahal olmuşdur.

221. Abıbəyli. Ərdəbil şəhərindən 22 km şərqdə kəndidir.

222. Şıxlar. «Əxbarnamə»də rəvayət olunan hadisələrin cərəyan etdiyi sahədə hazırda iki Şıxlar kəndi vardır. Hər ikisi Iran ərazisində olub. Biri Xiyav şəhristanının mərkəzi rayonunda qərbi Məşkin nahiyəsində, digəri isə Herovabad (=Xalxal) şəhristanında.

223. Zabit. Ərəbcə bir şeyi salamat saxlayan deməkdir. Talış xanlığında zabit vergi toplayan vəzifəni icra edirdi.

224. Bax: 98№-li qeyd.

225. Yegəkənd. Hazırda Masallı rayonunun bu adda bir kənd vardır.

226. Qüsl. Ərəbcə yuyunmaq, bədən üzvlərini təmiz yumaq mənasını verir.

227. Kəniz. 1. Qulluqçu qadın və ya qız. 2. Qul qadın və ya qız. Azərbaycanda buna qarabaş da deyilir.

228. Qalaqayın. Hazırda Sabirabad rayonunun kənddir..

229. Səmənd. Açıq sarı rəngli ata deyilir.

230. Birinci beytin farsca mətni:

Şərhe in hecran o in xune-cigər
Ni zəman bə qozar ta vəqti-digər

Cəlaləddin Ruminin «Məsnəvi»sindədir.

Ikinci beytin əsli:

Hale-xan bər qu təmam
Zin ke payani nə darəd in kəlam.

Ehtimal ki, bu beytin birinci misrasını Mirzə Əhməd Cəlaləddin Rumiyə nəzirə olaraq demişdir.

231. Çəkin. Qızıllı və gümüşlü saplarla toxulu parçadan tikilmiş don.

232. Bax: 159№-li qeyd.

233. Ikinci Rusiya-Iran müharibəsi (1826-1828) nəticəsində bağlanmış Türkmənçay sülh müqaviləsinin 4-cü maddəsinə əsasən Talış Rusiyaya verilməli idi. Mir Həsən xan talışı Rusiyaya təslin etməkdən imtina etdiyi üçün Abbas Mirzə tərəfindən təqib olunurdu. Mir Həsən xanı silah gücü ilə özünə tabe etmək istəyən Nayibüssəltənə tərəfindən Balaxanın rəhbərliyi altında Talışa göndərilən qoşun dəstələri Mir Həsən xanın evini qarət edir. Mir Həsən xan isə qaçaraq Astarada Talış xanlığı komendantı podpolkovnik Korniyenkonun yanına gəlib günahının bağışlanmasını xahiş edir və Rusiya dövləti himayəsinə keçmək istədiyini bildirir. Lakin Rusiya dövləti onun xahişini rədd edərək onu Abbas Mirzəyə təsli edir. Bu hadisə 1830-cu ilin dekabrında olmuşdur (Əlavə olaraq 238-ci qeydə bax).

234. Şəddad. Tarixi əfsanəyə görə  zülm və istibdad rəmzidir.

235. Sülirə. Mirzə Əhməd bu yerin Levendevilin bir hissəsi olduğunu qeyd edir. Levendevil Iran ərazisindədir (bax: 214№-li qeyd).

236. Alaşa. Bu kənd hazırda İran sərhədinə yaxın Azərbaycanın Astara rayonunua daxildir.

237. Giləkəran. Bu kənd hazırda Lənkəran rayonunun  daxildir.

238. Mirzə Əhmədin qeyd etdiyi Lənkəran komendantı podpolkovnik Korniyenkodur. Mir Həsən xan Korniyenkodan xahiş etmişdi ki, Rusiya dövləti onu öz himayəsinə götürmək istəmədiyi təqdirdə Abbas Mirzəyə təslim etməsin, onu azad buraxsın və bunun əvəzində o, öz adamlarını başına toplayıb sərhəddəki Iran kəndlilərini soyub qarət etməyə

hazırdır. Lakin Mir Həsən xan hər iki dövlət nəzərində xain bir ünsür kimi bütün etimadını itirmişdi. Məhz bu səbəbə Rus dövləti onu Irana təslim etmişdi.

239. Hovari. «Əxbarnamə»də bu kənd Rusiya-Iran sərhəddində keçmiş Vilgic mahalında göstərilir. Keçmiş Vilgic mahalı hazırda Lerik rayonu hesab edilir. Hazırda həmin rayonda Hovari adlı bir kənd vardır.

240. Ağqala. Müəllif Ağqalanın Xalxal mahalında olduğunu qeyd edir. Hazırda Ərdəbildən 33 km şimalda Ağqala adında kənd vardır.

241. Mir Həsən xanın yeddi övladı olmuşdur. Bunlardan dördü oğlan, üçü isə qız idi: Mir Abdulla bəy, Cavad bəy, Xanlar boy, Kazım bəy, Nisaxanım, Zəhraxanım, Saraxanım.

242. Müəllif Xalxal qalası dedikdə Ağqalanı nəzərdə tutur.

243. Dilağarda. XIX əsrin əvvəllərində Talışın Səfidəж (=Səpidəşt) mahalında Diləğarda adlı tayfa olduğu bizə məlumdur. Onlaar qış və payız fəsillərini Talış dağlarının şimal döşündə Incə, Qarayaru və Həsansu çayları kənarında keçirərmiş. XX-ci əsrin başlanğıcında, Lənkəran və Şuşa qəzalarında Dilağarda adlı iki kənd olmuşdur.

244. Mirzə Əhmədin verdiyi məlumata görə Mir Həsən xan Ağqalada üç ay qaldıqdan sonra baharda oradan qaçır. Bu məlumat olduqca dəqiqdir. Mir Həsən xan 1830-cu ilin dekabr ayında həbs edilir . O, 1832-ci il mart ayının əvvəllərində isə həbsdən qaçmağa və Rusiyaya keçərək iğtişaş yaratmağa müvəffəq olmuşdur.

245. Xələc. Türk xalqlarının oquz qrupuna mənsub tayfadır. Qədim bir tarixə malik olub Orta Asiya, Iran və Azərbaycanda geniş yayılmışdır. Azərbaycanın muxtəlif bölgələrində Xələc adlı kəndlər vardır.

246. Səfidar. Hazırda Lənkəran rayonunda Səfidor şəklində qeyd olunur.

247. Bizisal (?). Düzgün oxuya bilmədik.

248. Saxlov. Qarnizon deməkdir. Azərbaycanca «mühafizə etmək» mənasını ifadə edən «saxlamaq» sözündəndir. «Əxbarnamə»də bu söz fars dilində işlənən «saxlovkari» şəklində yazılmışdır.

249. Ardupa. Hazırda Astara rayonunun kəndidır.

250. Siyistan. Xorasanın cənubunda qədim tarixi bir ölkə olmuşdur. Siyistan ərazisinin qərb hissəsi Iran, şərq hissəsi isə Əfqanıstanın tərkibinə daxildir.

251. «Lüləyin aftafa işin (i) görər, amma (onu) girov qoyanda fərqi məlum olur». Müəllif bu məsəl ilə Kəlbəli bəyin Mir Nağı bəydən üstün və dəyərli olduğunu qeyd edir.

252. Təkəsəng bəndi. Yerini təyin edə bilmədik.

253. Mir Abbas bəy. Hacı Mir Abbas bəy Mir Mustafa xanın oğlu, Mir Həsən xanın kiçik qardaşı idi.

254. Beytin farsca əsli:

In nəfəs can damənəm bir tafte əst
Buye pirahane Yusmf yafte əst.

255. Misranıi farca əsli:

Və gər nə mən haman xakəm ke həstəm.

256. Şərti olaraq Rəşt dənizi tərcümə etdiyimiz bu söz birləşməsi ərəb hərflərilə şəklində yazılmışdır. Birinci sözü dərya oxuduq Ikinci sözü oxuya bilmədik. Üçüncü sözü də Rəşt oxuduq. Çox ehtimal ki, bu «dəryaye Rəşt» – Rəşt dənizidnr. Keçmişdə bəzən Xəzər dənizinin Gilan sahillərinə Rəşt dənizi də deyilirdi.

257. Ayubərə. Yerini təyin edə bilmədik.

258. Kəlmeyi-şəhadət. Müsəlman olduğunu sübut etmək istəyən hər bir şəxsin təkrar etməsi zəruri olan, allahın birliyinə və Məhəmmədin peyğəmbərliyinə şahidlik formuludur.

259. Məhəmmədəli Mirzə. Fətəli şahın Qajarın böyük oğludur.

260. Lahican. Iranın şimalında Xəzər dənizi sahilinə yaxın, Səfidrud çayı ilə Lənkərud arasında tarixı vilayət.

261. Duvarə. Yerini müəyyən edə bilmədik.

262. Rvarud. Lerik rayonunun ərazisindədir.

263. Ажuyokbil (yol). Yerini təyin edə bilmədik.

264. Pilərud. Ərdəbildən 27 km şimalda bir dağ kəndidir.

265. Nirnəvənd «Əxbarnamə»də bu kənd Ərdəbil vilayətində göstərilir. Lakin biz onun yerini müəyyən edə bilmədik.

266. Kürsü. Təxminən 60 santimetr hündürlüyündə, dördkünc, dördayaqlı xususi bir masadır. Kömür yanıb gözərdikdən sonra manqala töküb kürsünün altındakı xüsusi çuxur yerə qoyurlar. Kürsünün dörd tərəfində yerə döşək salır, üstünə isə iri bir kürsüyorğanı örtürlər. Ətrafı bağlı olan kürsünün altındakı manqal kürsünü qızdırır. Keçmişdə Azərbaycanda geniş yayılmış kürsünun üzərinə süfrə salınır, yemək də yeyilirdi.

267. Ağbulaq. Iran ərazisində Ağbulaq adlı kənd çoxdur. Lakin bunlardan ikisi «Əxbarnamə»də rəvayət edilən hadisələrin cərəyan etdiyi yerə yaxındır. Onlardan biri Ərdəbildən 30 km şimalda, dağda yerləşən kənddir, ikincisi Məşkinşəhrdən 48 km şimalında bir çöl kəndidir. Çox ehtimal ki, «Əxbarnamə»də ikinci kənddən bəhs olunur.

268. Qoyluğa. Yerini təyin edə bilmədik.

269. Mehran. Yerini təyin edə bilmədik.

270. Kəlbi Hüseyn xan tərəfindən göndərilən ərzaqın əhalidən toplandığını Mirzə Xudaverdi yaxşı bilirdi. Ona görə də o, «camaat bizdən inciməsin» deyə göndərilən yeməyi rədd etmişdi.

271. Amil. Vergi toplayan məmur.

272. Alvəri. Dağ ətəyində və Ərdəbilə yaxın olan kəndlər içində

Alvəri kəndi yoxdur. Ərdəbildən 30 km qərbdə Alvarsi kəndi var. Biz mətndə Alvəri əvəzinə Alvarsı vermişik.

273. Darbulağı yolu. Yerini müəyyən edə bilmədik.

274. Törədi. Hazırda Astara rayonunda şimal-qərbində Toradi adlı bir kənd var.

275. Kalış. Şimali Iranın Gilan vilayətində yaşayan qədim tayfalardan biridir. Etnik cəhətdən Gilək və Talış xalqları qrupuna daxildir.

276. Aşağı Nüvədi. Hazırda Lənkəran rayonu kəndlərindəndir.

277. Xonbeli. Hazırda Talış ərazisində bu kənd qeyd olunmur. Lakin xanlıq dövründə Talışdakı 10 mahaldan birinin Xanbili adlandığını və Rusiya ilə birləşdirildikdən sonra çar hökuməti tərəfindən aparılmış yeni inzibati bölgü nəticəsində keçmiş Astara, Xanbili və Çayiçi mahallarının birləşdirilib Lənkəran sahəsinə daxil edildiyini nəzərə aldıqda Xanbili kəndinin Lənkəran rayonunda olmasına şübhə qalmır. Ehtimal ki, bu, Xanbulanı kəndidir (bax: 89 №-li qeyd).

278. Dulab Talışı. Hazırda Iran ərazisində Talış şəhristanındakı beş bölgədən biri də Dulab Talışıdır. Bu bölgə şimaldan Asalim, cənubdan Şandermen, şərqdən Gil dulabı, qərbdən Xəzər dənizi ilə Xalxal arasındakı dağlarla sərhədlənir.

279. Ərdərud. Hazırda Iranda Dulab Gili nahiyəsində Ərdərudkənar adlı bir kənd vardır.

280. Dulab Gili. Hazırda Iran ərazisində nahiyələrdən biridir. Ənzəli-Astara şose yolu Dulab Gilinin ortasından keçir.

281. Pirəbazar. Iranda Rəşt şəhərindən 7 km şimalda bir kənddir. Ənzəli-Rəşt şose yolu salınmadan əvvəl Pirəbazar Rəşt şəhərinin limanı olmuşdur.

282. Ətabəti-aliyyə. «Ətəbə» ərəbcə kandar mənasını verir. Sözün cəm halı «Ətəbat»dır. «Aliyyə» isə ərəbcə yüksək demədir. Ətabati-aliyyə – yüksək, şərəfli kandarlar deməkdir. Hazırda Iraqda olan Kərbəla, Nəcəf və Kazimeyi şəhərlərinə «Ətəbati-aliyyə» deyilir.

283. Beytin mətni:

Kereşme nazok, ləb nazok, bədən nazok,
Ze sər ta beqədəm həmço təbe-mən nazok.

284. Beytlər mətni:

Qər bequyəm əqlha ra bərkənəm,
Vər nəvisəm pəs qələmha beşkənəd.
Vər bequyəm şərhhaye-mötəbər,
Ta qiyamət başəd an bəs moxtəsər. .

285. Sərməşq. Köhnə məktəblərdə hüsnxət (kalliqrafiya) dərsində müəllim tərəfindən səhifənin başında yazılan nümunəvi sətir. Tələbələr həmin nümunə əsasında hüsnxətdən məşq edirdilər.

286. Xəlifə. Ərəb sözüdür. Burada köməkçi, müavin mənasını ifadə edir. Köhnə məktəblərdə mollanın köməkçisinə də «xəlifə» deyilirdi. Şagirdlərin üstündə göz olan xəlifələr yaxşı oxuyan, nümunəvi tələbələrdən təyin edilirdi.

287. Dirhəm (=dirəm). Keçmişdə Iranda qəbul olunmuş gümüş pul vahididir. Qədim Yunanıstanda işlənən draxmanın ərəbləşmiş şəklidir. Ərəb xilafətinin pul sistemində gümüş pul vahidi olmuşdur.

288 Həvir. Bizcə Həviq olmalıdır. Xəzər dənizi sahilində Çubər kəndinin cənubundadır . «Əxbarnamə»dəki rəvayətə görə Balaxan Mirzə Xudaverdiyə Talışa getməyib Gorganrud mahalında qalmağı təklif edir, «Həvir və Çubər kəndlərinnn ixtiyarını sənə verərəm» – deyir. Çubər kəndinin yanında Həvir yox, Həviq kəndi vardır.

289. Çubər. Iranda Talış şəhristanının şimali Gorganrud nahiyəsində, Xəzər dənizi sahilində Həviq kəndinin şimalında bir kənddir

290. Bəhmən Mirzə Qacar (1808-1884). Nayibüssəltənə Abbas Mirzənin oğludur. Cənubi Azərbaycan hakimi olmuşdur (1841-1848) .

291. Səyaq. Yaxın şərq, xüsusilə, Iran və Türkiyə maliyyə divanxanalarında işlənən xüsusi hesab və yazı qaydasıdır .

292. Noğan. Iran ərazisindədir. Yerini müəyyən edə bilmədik.

293. Maşıxan. Hazırda Astara rayonunun Maşxan kəndidir.

294. Həmləvar. «Əxbarnamə»də Həmləvar şəklində qeyd edilmiş bu kəndin Həmlabad olduğu şübhəsizdir. Həmlabad Ərdəbildən 7 km şimaldadır.

295. Qəndur. Biz bu adamın şəxsiyyətini müəyyən edə bilmədiyimiz üçün adını da düzgün qeyd etmək mümkün olmadı.

296. Bəylərbəyi. Burada Mirzə Əhməd komendant vəzifəsini nəzərdə tutur.

297. Mirab. Ərəb və fars sözlərinin birləşməsindən əmələ gəlmiş sözdür. Su bölgüsünə və suvarma işlərinə nəzarət edən şəxsə deyilirdi.

298. Seyid Cəmaləddin. Məşhur sufi Nəcməddin Kübranın şagirdlərindən Eynuzzaman Cəmaləddindir. O, 1253cü ildə ölmüşdür. Bu şəxs gilanlı Şeyx Zahidin murşudu olmuşdur (Zəbihullah). Astara rayonundakı Pensər kəndində Seyid Cəmaləddin piri adı ilə tanınan bir məqbərə vardırr. Hazırda xarabası qalmış bu qədim məqbərənin ətrafında müxtəlif dövrlərə aid mərmər abidələr, qəbir daşları izlərinə təsadüf olunur.

299. Pəranəkəş. Pensər kəndinin şimalında, Sardovaniş çayının üstündə, Borzovna dağından Xəzər dənizinə axan Pəranəkəş çayı olmalıdır.

300. Culfa. «Toxucu», bez toxuyan.

301. Mirzə Əhməd «rəis» əvəzinə rusca «naçalnik» sözünü işlətmişdir.

302. «Katib» sözünü Mirzə Əhməd ruscadan təhrif edilmiş şəkildə

«sekłədar» – yəni «sekretar» şəklində yazmışdır.

303. Şamaxı quberniyası 1846-cı il dekabr ayının 14-də təsis edilmişdir.

304. Badkubə. Bakı deməkdir. 1859-cu il dekabr ayının 6-dan etibarən Şamaxı quberniyası Bakı quberniyasına çevrilmiş, Bakı isə quberniya mərkəzi olmuşdur.

305. Petrovski. Çar məmurudur. Şəxsiyyətinə dair məlumat əldə etmək mümkün olmadı.

306. Yasavul. Azərbaycanda XIX əsrin ikinci yarısında divanxana və dəftərxanalarda kağız aparan şəxsə yasavul deyilirdi.

307. «Əxbarnamə»dəki rusca («çest»)dan təhrif edilmiş «ças» sözünü biz rəsmi «salam vermək» kimi tərcümə etdik.

308. Qoşasular. Yerini müəyyən edə bilmədik.

309. «Qırmızı tuman» dedikdə Mir Mustafa xanın oğlu Hacı Mir Abbas bəy nəzərdə tutulur. Çox ehtimal ki. Nayibüssəltənə Abbas Mirzə kimi Azərbaycan xanları da qırmızı rəngli parçadan paltar geyirdilər.

310. Mir Tağı bəy Mir Abbas bəyin oğludur.

311. «Padşah adamı» yəni xan, bəy və mülkədar asılılığında olmayan şəxs. Azərbaycanın Rusiya ilə birləşdirilməsi zamanı müsadirə olunmuş xan və bəy torpaqlarında yaşayan asılı kəndlilər də çar xəzinəsi ixtiyarına keçmişdi. Bu kəndlərə dövlət kəndi, burada yaşayan kəndlilərə isə (padşah) dövlət və xəzinə kəndlisi deyilirdi.

312. Maaf. Ərəbcə «maaf»ın mənası «bağışlanmış» deməkdir. Maliyyə istilahi olaraq hökumət vergilərindən azad olunanlar maaf hesab edilirdi. Azərbaycan xanlıqlarında hərbi mükəlləfiyyət daşıdıqları üçün rəsmi vergilərdən azad edilmiş elata (ellərə) maaf deyilirdi.

313. Bəylər. Yerini müəyyən edə bilmədik.

314. Kərgəlan. Hazırda Lənkəran rayonu Kərgəlan kənddir.

315. Seləkəran. Hazırda Astara rayonu kəndidir.

316. Bu adı oxuya bilmədiyimiz üçün şəxsiyyətini dürüst müəyyən edə bilmədik. Mirzə Əhmədin yazdığına görə o, sahə rəisi (uçastkovı) olmuşdur.

317. Akinov (və yaxud Akinsov?). Bu adı da düzgün oxuya bilmədik.

318. Ibadi isti suyu. Lənkəran şəhəri yaxınlığındadır.

319. Xiftən namazı. Buna yatsu namazı da deyilir. Müsəlmanlara gündə beş dəfə namaz qılmaq vacibdir: sübh namazı, günorta namazı, ikindi (yəni gün batan) namazı, şam namazı və nəhayət yatsu namazı.

320 Xanım Ağa. Mir Abbas bəynn arvadı idi.

321. Darülxilafə. Ərəb sözü olub «xilafət evi», «xilafət mərkəzi» mənasını verir. Ümumiyyətlə, paytaxt mənasında işlənir.

322. «Qaralama» sözünü müəllif ruscadan təhrif edib «çornə» şəklində yazmışdır.

323. «Sadıq bəy xələcləri çağırdı». Burada ehtimal ki, çağırılan adamlar Xələc tayfasından olduğu üçün müəllif onları «tayfa» kimi qeyd edir (245 №-li qeydə bax).

324. «Əxbarnamə»də qayıq əvəzinə ruscadan (lodka) sözünün təhrif edilmiş şəkli «lotkə» yazılmışdır.

325. Kərəci. Dayaz su və çaylarda üzə bilən alt ıyastıolan kişik qayığa deyilir.

326. Seyfülmülk. Ağa Məhəmməd şah Qacar tərəfindən Mir Həsən xanın oğlu Mir Kazım xana verilmiş ləqəbdir.

327. «Əxbarnamə»də fars dilində:

Sali ke nekust əz bəharəş peydast.

328. Talış vilayətində ipək ölçüsü olan «dartu» 1,2 kq vəznə malik idi.

329. Kəkəlas. Ehtimal ki, hazırda Astara rayonunun Kakalos kənddir.

330. Tulayev. Çar məmurudur. Şəxsiyyətinə dair heç bir məlumat əldə edə bilmədik.

331. Vasilyev. Çar məmurudur. Haqqında məlumatımız yoxdur.

332. Axtalama. Müəllif bu kəndin Salyan tərəfdə olduğunu göstərir. Çar dövründə sabiq Cavad qəzasının Muğan polis sahəsində Axtalı kəndi olmuşdur. Sonralar bu kənd Axtacı şəklində qeyd olunur. Çox ehtimal ki, əsərdə həmin kənd nəzərdə tutulur.

333. Qran. Keçmişdə Iranda pul vahidi olmuşdur. XIX əsrin ortalarında bir qran təxminən 30 qəpik rus puluna bərabər idi.

334. Hacı Xəlilli. Müəllif bu kəndin Salyan nahiyəsində olduğunu qeyd edir. Lakin əldə olan siyahı və xəritələrdə onun adını tapa bilmədik.

335. Miqrov. Bizcə bu «murov» deməkdir. Ərəbcə «müərrif» sözünün xalq arasında təhrif olunmuş şəklidir. Bir müddət qəza rəislərinin köməkçisinə «murov» deyilirdi.

336. Seydan. Mirzə Əhməd isə öz əsərində Seydan kəndinin Lənkəranın cənubundakı Kənarameşə kəndi yanında dənizə yaxın yerdə olduğunu göstərir.Hazırda Lənkəran rayonunda Seydan adlı kənd yoxdur. Seydan adlı kənd Salyan rayonunda vardır.

337. Ağcaqabul. Hazırkı Haciqabul şəhəridir.

338. Müxənnət. Ərəbcə bacarıqsız, namərd, hiyləgər mənasını ifadə edən «müxənnəs» sözünün Azərbaycan xalq dilində təhrif edilmiş şəklidir.

339. Xiyabad. Düzgün adı Xiyavabaddır. Məşkinşəhr adlanan Xiyavabad bu gün kənd deyil, şəhristan mərkəzidnr. Keçmişdə isə tarixi bir qəsəbə olmuşdur. Xiyavabad şəhristanı şimaldan Ərdəbilin Gərmi rayonu,

cənubdan Savalan dağları, şərqdən Ərdəbilin Vilgic rayonu, qərbdən Əhər şəhristanı ilə sərhəddir.

340. Inəllu. Bu kənd hazırda Cəlilabad rayonunda Inilli adı ilə qeyd olunur. Bu adda tayfa da vardır. I Şah Abbas dövründə şahsevənlər (129 №li qeydə bax), sırasına daxil olduqlarından şahsevənlər adı ilə tapınmışlar.

341. Tesiçay. Hazırda Şamaxı rayonunda Tesi adlı bir kənd vardır. Tesiçayında bu kəndlə əlaqədar olduğu şübhəsizdir.

342. Çildaş. Yerini müəyyənləşdirə bilmədik.

343. Fitdağ. Şamaxı şəhərinin 32 kilometrliyində Lahıc silsilə dağlarındadır. Bu dağın yamacında yerləşən Fitqalası adlı şəhərin bu gün yalnız izləri qalmışdır. Fitdağ bir müddət Şamaxı xanlarının istehkamı olmuşdur. 1810-cu ildə şamaxıkı Mustafa xan onu təmir edib qalın və hündür divarlarla möhkəmləndirmişdi

344. Mirzə Əhməd Şamaxıda 1859-cu ildə olmuşdur. Dağıstan xalqının azadlıq müharibəsinə rəhbərlik edən Şeyx Şamil general-feldmarşal knyaz A. I. Baryatinski tərəfindən həmin ildə əsir alınmışdı.

345. Təxtəpiş. Düzgün tələffüzü «piştəxtədir». Farsca «qarşıya qoyulan miz» mənasını verir. Bu sözün bir neçə mənası olmuşdur. Əsərdə dörd ayağı olan, təxminən 30 sm hündürlüyündə xüsusi yazı taxtası mənasında işlənmişdir.

346. Kiçik Nəvahı. Hazırda Şirvan rayonunun həmin adda dəmir yolu duraçağı yanında bir qəsəbə və bir də kənd mövcuddur.

347. Torpaqqala. Vaxtilə Kür çayının sol sahilində, «Aşağı Salyan» adlı yerlə üzbəüz sahil boyu uzanan torpaqdan bir istehkam olmuşdur. Mirzə Əhmədin rəvayətinə görə o, Torpaqqaladan bərə ilə Kür çayını keçib Salyana gəlmişdi.

348. Alvadı. Hazırda Masallı rayonunda Təzə Alvadı və Köhnə Alvadı adlı iki kənd vardır. Çox ehtimal ki, «Əxbarnamə»də haqqında danışılan Köhnə Alvadıdır.

349. Xırmandalı. Hazırda biri Biləsuvar biri də Masallı rayonlarında Xırmandalı adlı iki kənd vardır. Bizcə «Əxbarnamə»də Masallı rayonundakı Xırmandalı nəzərdə tutulur.

350. Mahmudlu. Hadisələrin inkişaf etdiyi ərazidə, yəni Salyan ilə Lənkəran arasında hazırda bu adda kənd yoxdur. Mirzə Əhməd bu kəndin Xırmandalı (349 №-li qeydə bax) yaxınlığında olduğunu qeyd edir. Deməli, Mahmudlu kəndi indiki Masallı rayonunda olmuşdur. Hazırda Masallı rayonunun Kürdəbazlı kəndində 1921-ci ildə Mahmudlu tayfası yaşamışdır. Ehtimal ki, vaxtı ilə bu rayonda mövcud olan Mahmudlu kəndi əhalisinin buradan köçməsi ilə əlaqədar olaraq kənd dağılmış və onun adı da xəritədən silinmişdir.

351. Giləkə məhəllə. Giləklər məhəlləsi Lənkəran şəhərində Kişik Bazar adıyla tanınan hissəsində olan keçmiş məhəllələrdən birinin adıdır.

352. M. N. Kolyubakin. 1863-cü ildən 1872-ci ilə qədər Bakı quberniyasının general qubernatoru olmuşdur.

353. Qəyyum sözü mətndə «opekun» yazılmışdır.

354. Şankird. Şəxsiyyətini müəyyən edə bilmədik.

355. Mətndə qanun əvəzinə «zakon» yazılmışdır.

356. «Kəlilə və Dimnə» falnamə deyildir. Öz mənşəyinə görə qədim hind mədəniyyətinə mənsub olan və bu gün bir çox dillərə tərcümə olunmuş «Kəlilə və Dimnə» heyvanların dilindən yazılmış ibrətli təmsillərdən ibarət alleqorik nəsihət kitabıdır. «Istixarə» ərəbcə – «fal açmaq» deməkdir. Bir işə başlamadan əvvəl Qurana istixarə etmək, Şirazlı hafizin divanına və ya «Kəlilə və Dimnə» kitabına müraciət edib fal açmaq vaxtilə Azərbaycanda geniş yayılmış adətlərdən biri olmuşdur.

357. «Piləd» =«Pilət». Bu söz Talışda «çəpər», «hasar» mənasında işlənir. Biz bu sözü bir yerdə malqara saxlanan yer mənasında –« pəyə» kimi tərcümə etdik.

358. Tövcü. Termin ərəbcə istiqamət vermək, bir tərəfə yönəltmək, göndərmək mənasını ifadə edən «tövcih» sözündəndir. Tövcü ayrı-ayrı vergi obyektlərindən alınacaq ümumi vergi məbləğini, orada yaşayan əhali arasında, hər kəsin payını göstərmək şərtilə bölüşdürmə nəticəsində təyin edilirdi .

359. Mətndə zərf əvəzinə «paket» yazılmışdır.

360. Qələmkar. Naxışlı parça (çox hallarda süfrə) deməkdir.

361. Bizim vərəqə şəklində tərcümə etdiyimiz söz mətndə tuğra yazılmışdır.

362. Qələbəyi. Qala bəyi, şəhər rəisi.

Mən, Axundov (Axund-zadə) İshaq Səbi oğlu 1910-cu ilin yanvar ayının 21-də Lənkəran şəhərində anadan olmuşam. Uşaqlığım Lənkəranda keçib. 20-ci illərin siyasi durumunun ailəmə etdiyi təzyiqlər nəticəsində 1928-ci ildə Bakıya köçmək məcburiyyətində qalmışam. Bakıda müxtəlif yerlərdə işləyib, müxtəlif sənətlərə yiyələnməklə yanaşı təhsilimi davam edirdim. 1935-ci ildə ailə qurdum,1937-ci ildə mühəndis-geoloq ixtisası üzrə Azərbaycan sənaye institutunu (Azərbaycan Dövlət Neft Akademiyası) bitirdim və həmin ixtisas üzrə aspiranturaya daxıl oldum.

Xoş günlər çox çəkmədi. Bu dəfə 30-cu illərin soyuq küləkləri ailəmizin başının üstünü aldı. Atam 1937-ci il repressiyalarının qurbanı oldu, mən isə "xalq düşməninin övladı". Üstəlik həyat yoldaşım Tahirə xanım da atası Kələntərli Heybət bəy "əks inqilabçı xalq düşməni" adı ilə 1926-cı ildə həbs olunduğundan "xalq düşməninin övladı idi. Çox keçmədi ki, aspiranturadan xaric edildim. Bir neçə il yoldaşımla Azərbaycanın müxtəlif rayonlarında bizim kim olduğumuz bilinənə qədər gah beş, gah da altı ay müəllimlik etdik. Bu ağır dövrdə bəzən özlərini təhlükəyə qoyaraq bizə kömək edən insanlar az deyildi. Həyat davam edirdi.

1941-ci ildə muharibə başladı, ölkənin neft və nefti çıxaran mühəndislərə ehtiyacı oldu. Həmin dövrdən təqaüdə çıxana qədər mühəndis-geoloq işləmişəm, Azərbaycanın müxtəlif bölgələrində neft, filiz, su mənbələrinin kəşfi ilə məşğul olmuşam, Azərbaycanın gözəlliklərini qarış-qarış gəzmişəm, görmədiyim dağı, meşəsi, bulağı qalmayıb. Lakin hər zaman mənim üçün ən gözəl yer Lənkəran, ən gözəl Lənkəranın çayı, dağı, meşəsi olub. Kiçik imkan olarkən özümü Lənkərana çatdırmışam.

Təqaüdə çıxandan sonra Lənkəranda birinci dünyavi "Üsuli-cədid" məktəbi açmış, "Fövcül-füsəha" adlı şeir məclisini yaratmış şair babam Mirzə İsmayıl Qasirin şeirlər kitabını çap etdirmişəm, "Xatirəmdə yaşayan Lənkəran" kitabını yazıb nəşr etdirmişəm, "Azərbaycan incisi" kitabını yazıb nəşrə təhfil vermişəm. 80 yaşı keçmişəm. Qısmət nə qədərdir, bilmirəm. Son arzum, vaxtilə əlyazmalar fonduna

verilməsinin səbəbkarı olduğum Mirzə Əhməd Xudaverdi oğlunun "Əxbarnamə" əsərini kitab şəklində çap etdirmək, məndən Lənkərana yadigar qoymaqdır.

Son illərimi yenə də uşaqlıqda olduğu kimi Lənkəranda keçirirəm, Lənkəran torpağının hər çimdiyi mənim üçün tutiyədir. Mən həmişəlik Lənkəranda qalacağam. Sağ olun, salamat qalın.

İshaq Axundov

İshaq Axundov kitabı çapa hazırlasa da, 1992-ci ilin 15 oktyabrında rəhmətə getdiyindən son arzusunu yerinə yetirə bilməmişdir. Gecikmiş də olsa, atamın son arzusunu yerinə yetirməyi özümə borc bilirəm.

Tufan Axundov